# UŞAQLARIN HÜQUQLARI VƏ JURNALİSTİKA PRAKTİKASI - HÜQUQLARA ƏSASLANAN PERSPEKTİV

BMT Uşaq Fondunun Mərkəzi və Şərqi Avropa və Müstəqil Dövlətlər Birliyi üzrə Regional Ofisi tərəfindən təyin olunmuş Proqram

© BMT Uşaq Fondu - Dublin Texnologiya İnstitutu 2007

# MÜNDƏRİCAT

UŞAQLARIN HÜQUQLARI VƏ JURNALISTIKA PRAKTIKASI -

HÜQUQLARA ƏSASLANAN PERSPEKTIV ........ 5

Müqəddimə ........ 5

BÖLMƏ 1: UŞAQLARIN HÜQUQLARININ TƏQDIMATI ........ 6

1. İNSAN HAQLARI KONSEPSIYASININ TƏQDIM EDILMƏSI ........ 6

İNSAN HAQLARI VƏ TƏBII HÜQUQLAR ........ 6

İnsan Haqlarına dair Ümumbəşəri Bəyannamə ........ 6

Hüquqların müdafiə edilməsi ........ 7

2. UŞAQLARIN HÜQUQLARI ........ 9

Uşaq Hüquqları haqqında Konvensiya ........ 10

Uşaq Hüquqları Komitəsi ........ 11

3. UŞAQLARIN HÜQUQLARI VƏ MEDİA ........ 12

Oslo Çağırışı ........ 12

Uşaqların mediada işıqlandırılması ........ 13

Mediada uşaqların istismarı ........ 14

Mediada uşaqların iştirakı ........ 14

4. UŞAQLARIN HÜQUQLARININ REALLAŞDIRILMASINA QARŞI MANEƏLƏR ........ 16

İnsan haqlarının qorunması ........ 16

Uşaqların hüquqlarının dəstəklənməsi ........ 17

Uşaqların hüquqları sahəsindəki çətinliklərə qarşı reaksiya ........ 18

5. MEDİADA TƏMSİL OLUNMA, UŞAQLARIN HÜQUQLARI VƏ PEŞƏ MƏSULİYYƏTİ ........ 20

Uşaqların mediada təmsil olunması ........ 20

Mediada stereotipləmə ........ 21

Uşaqların hüquqlarının pozulması ........ 22

Uşaqların müdafiəsi ........ 22

Yeni nəsil üçün media ........ 23

Peşə məsuliyyəti ........ 23

Özünütənzimləmə ........ 23

6. UŞAQLARIN PERSPEKTİVLƏRİ BAXIMINDAN MƏLUMATIN TƏQDİM OLUNMASINDA MÜKƏMMƏL PRAKTİKA ........ 26
Uşaqlar üçün Əlverişli Mühit ........ 26
Uşaqlar üçün milli fəaliyyət planları ........ 26
Uşaqların iştirakı ........ 27
İştirak faydaları ........ 28
Mükəmməl praktika prinsipləri ........ 28
Uşaqların perspektivlərinin əldə olunması: nümunələr ........ 29
Uşaq parlamentlər ........ 30
İştiraka doğru maneələr ........ 31
BÖLMƏ 2: UŞAQLARIN HÜQUQLARI VƏ PEŞƏKAR JURNALİSTİKA PRAKTİKASI ........ 33
1. PEŞƏ KODEKSLƏRI VƏ REDAKSİYA TƏLİMATLARI ........ 33
Jurnalistika normalarının yayılması ........ 33
Mətbuat azadlığı ........ 34
Kodeks nəyi ehtiva etməlidir? ........ 35
Media uçot sistemləri ........ 36
Beynəlxalq kodekslər ........ 36
Uşaqlara nəzərən davranış kodeksləri ........ 37
BJF-nin Uşaqlara dair Xəbər Verilməsi üzrə Praktiki Təlimatları ........ 37
Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi (UHİŞ):
Uşaqlar barədə xəbərlərin verilməsi üzrə etik təlimatlar ........ 39
ƏLAVƏLƏR ........ 41
BBC-nin uşaqlara dair redaksiya prinsipləri ........ 41
Jurnalistlərin statusu və jurnalistika etikası: BJF-nin prinsipləri ........ 45
BJF-nin Jurnalistlərin Davranışına dair Prinsiplər Bəyannaməsi ........ 45
2. UŞAĞIN MÜDAFİƏSİ STRATEGİYALARI ........ 46
Uşaqların qorunması ........ 46
Təşkilatlarda uşağın müdafiəsi ........ 48

Mediada uşaq müdafiəsi strategiyaları ---- 48

3. QANUNA ZİDD OLAN UŞAQLAR ---- 49

Fərdi tədqiqat: Özbaşına Həbs üzrə İşçi Qrupu ---- 50

Cinayət məsuliyyətinə görə yaş həddi ---- 53

Media və qanuna zidd olan uşaqlar: şəxsiyyətin qorunması ---- 55

Fərdi tədqiqat 1: Birləşmiş Krallıq: Meri Bel ---- 55

Fərdi tədqiqat 2: Birləşmiş Krallıq: Ceymz Bulqerin qatilləri ---- 56

4.ƏHVALATLARIN VƏ MƏNBƏLƏRIN ÖYRƏNILMƏSI ---- 57

Jurnalistin rolu ---- 57

Uşaqların hüquqları barədə xəbərlərin verilməsi üçün lazım olan bacarıqlar ---- 58

BMT Uşaq Fondunun Uşaqlar barədə Xəbərlərin Verilməsi üzrə Təlimatları ---- 59

BMT Konvensiyasının öyrənilməsinə çalışmaq ---- 59

Əhvalatların mənbələri ---- 59

Mənbələrin nəzərdən keçirilməsində əsas terminlər ---- 62

5. UŞAQLARLA MÜSAHİBƏ APARILMASI ---- 63

Təsvirlər ilə uşaqlardan istifadə edilməsi ---- 64

BMT Uşaq Fondunun Uşaqlarla Müsahibə Aparılmasına dair Təlimatları ---- 65

Müsahibədən sonra ---- 65

Uşaqların Xilası - Uşaqlarla Müsahibə Aparılması üzrə Təlimatlar ---- 65

6. UŞAQLAR SİLAHLI MÜNAQİŞƏDƏ ---- 67

Media və silahlı münaqişədə olan uşaqlar ---- 69

7. UŞAQLARIN ÖZ FİKİRLƏRİNİ İFADƏ ETMƏLƏRİ VƏ UŞAQLARA YÖNƏLƏN MEDİA ---- 73

Uşaqların cəlb olunması ---- 74

Uşaqlar ilə və onlar üçün hazırlanmış media proqramlarının faydaları ---- 74

Qlobal kontekst ---- 75

Uşaqların mediada mühüm iştirakına qarşı çətinliklər və maneələr ---- 76

8. UŞAQLARA DAİR JURNALİSTİKADA QABAQCIL PRAKTİKA ---- 78

Qabaqcıl praktikanın nümunələri ---- 79

# Uşaqların Hüquqları və Jurnalistika Praktikası – Hüquqlara əsaslanan perspektiv

## Müqəddimə

Jurnalistlər üçün uşaqların hüquqlarına dair bu proqramda sizi salamlamaqdan məmnunuq.

Bu proqramın məqsədi sizi, yəni stajçı jurnalisti konsepsiyalar və məlumatlar ilə təmin etməkdir ki, bu da uşaqların hüquqlarını əhatə edən və onlara aid olan məsul xəbərlərin verilməsində sizə kömək edəcəkdir.

Bu proqramı başa çatdırdıqdan sonra siz xüsusən BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası kontekstində uşaqların hüquqlarını dərk edə biləcəksiniz. Həmçinin siz huquqlara əsaslanma baxımından uşaqlara təsir göstərən məsələlər barədə xəbərlərin verilməsini tənqidi surətdə qiymətləndirə biləcəksiniz. Bununla siz uşaqlarla əlaqədar məsələlərə dair xəbərlərin verilməsi üçün təlimatlar və praktiki qaydalar haqqında məlumatlı olacaqsınız və hüquqlara əsaslanma baxımından öz təcrübəniz barədə peşəkar fikir yürüdə biləcəksiniz. Siz daha çox jurnalist və xəbər müxbiri kimi öyrəndiklərinizi gələcək karyeranızda tətbiq etməyə və qərəzsiz, dəqiq və uşaqların hüquqlarına dair prinsiplərə uyğun şəkildə xəbər verməyə qadir olmalısınız.

**Proqram iki əsas bölmədə sistemləşdirilmişdir.**

**Bölmə 1,** *Uşaqların Hüquqlarının Təqdimatı* hüquqların dərk edilməsinin nə üçün əhəmiyyətli olduğu haqda sizə ilkin məlumatı çatdırır və daha sonra mükəmməl praktikaya, habelə uşaqlarla əlaqədar xəbərlərin verilməsində yaranan problemlərə və çətinliklərə nəzər salacaqdır.

**Bölmə 2** uşaqların hüquqları nöqteyi nəzərindən peşəkar jurnalistika praktikasından bəhs edir və jurnalist kimi bizim işimizin necə təkmilləşdirilməsi barədə düşünməyimiz üçün lazımi strategiyalara və kontekstlərə nəzər salır.

Burada əks olunan material sonradan şərh edilməsi üçün bir çox əlavə istinadlar və tövsiyələr ilə birlikdə oxunmalıdır. Ümid edirik ki, sizin proqramda öyrəndikləriniz xüsusən uşaqların epizodda əsas diqqət mərkəzində olduğu təqdirdə xəbərlərin bütün formaları üçün zəmin və istinad nöqtəsini yaradacaqdır.

# Bölmə 1: Uşaqların Hüquqlarının Təqdimatı

## 1.İNSAN HAQLARI KONSEPSİYASININ TƏQDİM EDİLMƏSİ

### ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- İnsan haqları nədən ibarətdir?
- İnsan Haqlarına dair Ümumbəşəri Bəyannamə
- İnsan haqlarının müdafiə edilməsi

## İnsan haqları və təbii hüquqlar

İnsan haqları yerləşmə mövqeyindən və ya digər amillərdən, o cümlədən etnik mənsubiyyətindən, milliyyətindən və cinsindən asılı olmayaraq insan varlıqlarının ayrılmaz, bəşəri hüquqlarına aiddir.

İnsan haqları insanların onsuz şərəf və ləyaqətlə yaşaya bilməyəcəyi ilkin standartlardır.
İnsan haqları bütün şəxslərin bərabər, ümumbəşəri və daimi şəkildə ona malik olmasıdır.

İnsan haqları ***ayrılmazdır:*** siz insan varlığı kimi mövcud ola bilənə qədər bu hüquqları itirə bilməzsiniz.

İnsan haqları ***bölünməzdir:*** «az əhəmiyyətli» və ya «qeyri-mühüm» olduğuna görə siz hüququnuzdan məhrum edilə bilməzsiniz.

İnsan haqları qarşılıqlı surətdə **bir-birindən asılıdır:** bütün insan haqları tamamlayıcı strukturun tərkib hissəsidir. Məsələn, sizin öz hökumətinizdə təmsil olunmaq qabiliyyətiniz fikir ifadə etmək, təhsil almaq və hətta ilkin zəruri predmetləri əldə etmək hüququnuzun birbaşa təsirinə məruz qalır.

İnsan hüquqları ideyası təbii hüquqlara dair fəlsəfi düşüncədən irəli gəlmişdir.

Bəzi insanlar iki hüquq arasında heç bir fərq görmürlər və onların hər ikisini eyni məram göstəricisi kimi nəzərdən keçirirlər, halbuki digərləri təbii hüquqlarla ənənəvi bağlı olan bəzi hüquqların insan hüquqları ilə əlaqədar olmaması üçün terminləri ayrıca istifadə edirlər.
İnsan haqlarının mövcudluğu, etibarlılığı və tərkibi fəlsəfədə və siyasi elmdə müzakirə mövzusu olmaqda davam edir. Qanuni surətdə insan haqları beynəlxal hüquqda və paktlarda və çoxsaylı dövlətlərin daxili qanunvericiliyində müəyyən edilir. Hər halda bir çox insanlar üçün insan haqları doktrinası qanundan kənara çıxır və müasir ictimai asayişin tənzimlənməsi üzrə köklü mənəvi əsası formalaşdırır. Onların fikrincə, insan haqları demokratik ideallardır.

Bizim hamımızın hüquqlara ehtiyacı vardır. Onlar bizim yaşamağımıza və inkişaf etməyimizə təminat verir və bizi müdafiə edir. Həmçinin hüquqlar bizə təsir edən faktlarda əhatə olunan imkanlara malikdir. Hüquqlar hər kəsin bərabər və ədalətli şəkildə davranılmasına təminat verir. İnsan haqlarının müdafiə edilməsi *bütün* insanların bəşəri ləyaqətinə hörmət göstərilməsini tələb etməkdən ibarətdir. Lakin hüquqlarla yanaşı öhdəliklər də mövcuddur və bizim hamımız digərlərinin insan haqlarına hörmət etməliyik və yalnız onların bizə hörmət göstərmələrini tələb etməməliyik.

## İnsan Haqlarına dair Ümumbəşəri Bəyannamə

10 dekabr 1948-ci il tarixində Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası İnsan Haqlarına dair Ümumbəşəri Bəyannaməni (İHÜB) qəbul etdi və elan etdi. Bununla «insan ailəsinin bütün üzvlərinin məxsusi ləyaqəti, bərabər və ayrılmaz hüquqları» tanınmışdır. Bu, təsdiq etmişdir ki, «insan haqlarına hörmət göstərilməməsi və onların pozulması vəhşi hərəkətlərlə nəticələnmişdir» və elan etmişdir ki, «söz və din azadlığı, eləcə də qorxu və istəkdən azad olmaqdan istifadə edən insan varlıqlarının mövcud olduğu dünya sadə insanların ən yüksək məqsədi kimi elan edilmişdir».

## İNSAN HAQLARI NƏDƏN İBARƏTDİR?

Təbii hüquqlar insanın xarakterində ayrılmaz olaraq və insan fəaliyyətində və ya dini etiqadında qeyri-təsadüfi kimi nəzərdən keçirilən ümumbəşəri hüquqlardır. Fərd müəyyən ilkin hüquqlarla cəmiyyətə daxil olur və heç bir hökumət bu hüquqları inkar edə bilməz.

Təbii hüquqlara dair bir nəzəriyyə kralların ilahi hüquqlarına zidd olaraq Maarifləndirmə dövründə təbii qanun nəzəriyyəsi üzrə işlənib hazırlanmışdır və liberalizmin mənəvi cəhətdən əsaslandırılmasını təmin etmişdir.

Xüsusən 17-ci əsrdə fərdiyyətçilik ideyasının artması ilə təbii varlıq olmasına görə fərdlərin heç kəs və ya heç bir cəmiyyət tərəfindən pozulmamalı olan hüquqlara malik olması barədə faktı vurğulamaq üçün təbii qanun doktrinaları dəyişdirilmişdir.

Bəlkə də bu doktrinanın ən məşhur formulası Con Lokenin yazılarında aşkar edilmişdir (1632-1704). O, fərz edirdi ki, insanlar təbiətən ağıllı və mehribandırlar və onlar cəmiyyətin ilkin mərhələlərində malik olduqları eyni hüquqları siyasi cəmiyyətə doğru daşıyırlar. Bunların arasında ən başlıcası dini etiqad azadlığı, öz hökumətində səsvermə hüququ və mülkiyyət hüququdur.

Təbii hüquq konsepsiyası qanuni hüquq konsepsiyası ilə ziddiyyət təşkil edə bilər: təbii hüquq hətta hökumət və ya cəmiyyət tərəfindən tətbiq edilmədikdə onun mövcud olmasına lüzum yaranır, halbuki qanuni hüquq öz üzvlərinin faydası naminə hökumət və ya cəmiyyət tərəfindən spesifik olaraq yaradılan bir hüquqdar.

Təklif olunan sonrakı şərh

Peter Cons: Hüquqlar, Oksford: Palqreyv Makmillan, 1994.

Ceremi Valdron, redaktor: Hüquqlara dair Nəzəriyyələr, (Fəlsəfədə Oksford Məlumatları), Oksford: Oksford Universitetinin Mətbuatı, 1984.

Bəyannamə 30 maddədən ibarətdir ki, bu da bütün şəxslərə zəmanət verilən insan hüquqlarına dair BMT-nin mövqeyini təsvir edir. Bəyannamənin ilkin layihə variantını hazırlayan İnsan Haqları Komissiyasının üzvü Eleanor Ruzvelt demişdir: «Bu, bir saziş deyildir.....[gələcəkdə o,] beynəlxalq Böyük Azadlıq Xartiyasına çevrilə bilər...». 5 oktyabr 1995-ci il tarixində öz çıxışında II Con Paul İHÜB-ni «zəmanəmizin insan düşüncəsinin ən yüksək ifadələrindən biri» adlandırmışdır.

Hər halda, ABŞ-nın Birləşmiş Millətlər Təşkilatındakı səfiri Jan Kirkpatrik bəyannaməni «Santa Klausa məktub» kimi adlandıraraq demişdir: «Nə xarakter, təcrübə, nə də ehtimal öz müəlliflərinin təfəkkürü və zövqü istisna olmaqla heç bir məhdudiyyət qoyulmayan imtiyazların siyahısını bildirir» (Konfrans sənədi: «İnsan Haqlarına dair Həyat Əhəmiyyətli Siyasətin Yaradılması», 1981)

**Ən mühüm maddələr bunlardır:**

- Maddə 1: «Bütün insan varlıqları öz ləyaqəti və hüquqları ilə doğulurlar»
- Maddə 3: Şəxsin həyat, azadlıq və təhlükəsizlik hüququ.
- Maddə 5: İşgəncədən və ya qəddar, qeyri-insani rəftar və ya cəzalandırmadan azad olma.
- Maddə 18: Fikir, vicdan və din azadlığı.
- Maddə 19: Söz və əqidə azadlığı.
- Maddə 26: Təhsil hüququ.

İHÜB-nin qəbul edilməsindən sonra BMT Baş Assambleyası bütün üzv ölkələri bəyannamənin mətnini ictimai şəkildə açıqlamağa və «ölkələrin və ərazilərin siyasi vəziyyəti əsasında fərq qoyulmadan məktəblərdə və digər təhsil müəssisələrdə prinsipal surətdə onu yaymağa, nümayiş etdirməyə, oxutdurmağa və müfəssəl təfsir etməyə sövq etmişdir».

Qinnesin Rekordlar Kitabı İHÜB-ni dünyada «Ən Çox Tərcümə Edilmiş Sənəd» kimi təsvir edir. Bu, 321 dilə və dialektə tərcümə olunmuşdur (2004-cü ildən etibarən).

## Hüquqların müdafiə edilməsi

Bir çox qruplar və cərəyanlar insan hüquqları adı altında 20-ci əsr ərzində köklü sosial dəyişiklikləri əldə edə bilmişlər. Qərbi Avropada və Şimali Amerikada həmkarlar ittifaqları fəhlələrə tətil keçirmək hüququ verən, minimum iş şəraitini yaradan və uşaq əməyini qadağan edən və ya tənzimləyən qanunları həyata keçirmişlər. Qadın hüquqları hərəkatı bir çox qadınlar üçün səsvermə hüququnu əldə etmişdir. Milli azadlıq hərəkatları çoxsaylı ölkələrdə müstəmləmə hakimiyyətini süquta uğratmışdır. Bunların ən nüfuzlularından biri doğma Hindistanını Britaniya rejimindən azad etmək üçün Mahatma Qandi hərəkatı olmuşdur.

Uzun müddət zülmə məruz qalmış irqi və dini azlıqlardan ibarət hərəkatlar dünyanın əksər hissələrində uğur qazanmışdır. Bunların arasında Birləşmiş Ştatlarda qadınların və azlıqların hüquqları uğrunda mübarizə aparan vətəndaş hüquqları hərəkatı və daha yaxın fərdi siyasətçilərindən ibarət hərəkatlar olmuşdur. İHÜB-nə uyğun olaraq, əsas insan haqları aşağıdakılar baş verdikdə pozulur:

- irq, etiqad və qrupun «şəxs» kimi tanınması inkar edildikdə (Maddə 2 və 6)
- kişilər və qadınlar ilə bərabər surətdə davranılmadıqda (Maddə 2)
- müxtəlif irqi və ya dini qruplar ilə bərabər surətdə davranılmadıqda (Maddə 2)
- şəxsin həyatı, azadlığı və təhlükəsizliyi təhdid olunduqda (Maddə 3)
- şəxs qul kimi satıldıqda və ya işlədildikdə (Maddə 4)
- zorakılıq qurbanları effektiv məhkəmə müdafiəsi vasitəsindən məhrum edildikdə (Maddə 8)
- müvafiq və ədalətli məhkəmə proseduru olmadan cəzalar əsassız və birtərəfli qaydada təyin edildikdə (Maddə 11)
- dövlətin nümayəndələri tərəfindən şəxsi və ya özəl həyata özbaşına müdaxilə edildikdə (Maddə 12)
- vətəndaşların öz ölkəsini tərk etməsini və ya qayıtması qadağan edildikdə (Maddə 13)
- söz və ya din azadlığı məhrum edildikdə (Maddə 18 və 19)
- həmkarlar ittifaqına qoşulmaq hüququndan məhrum edildikdə (Maddə 23)
- təhsildən məhrum edildikdə (Maddə 26)

İnsan Haqları Bəyannaməsi və onun təsvir etdiyi dünya görünüşü Beynəlxalq Amnistiya və Human Rights Watch kimi təşkilatlar üçün zəmin yaradır ki, bu da zorakılıq hallarına qarşı bütün insan hüquqlarını və kampaniyanı artırır. Onlar hər ölkənin insan hüquqları sahəsində vəziyyətə dair illik hesabatlar hazırlayırlar.

Çox az qism ölkələr Beynəlxalq Amnistiya təşkilatının hesabatına əsasən, mühüm hüquq pozuntusuna yol vermirlər. İnsan haqlarına dair 2004-cü il hesabatında Niderland, Norveç, Danimarka, İslandiya və Kosta Rika ən azı bəzi insan hüquqlarını pozmayan ölkələr hesab olunur.

Bəzi insanlar dövlətin təşkil etdiyi zorakılığı aşkarlamağa yönələn söz və mətbuat azadlığı səbəbindən demokratiyaya nisbətən diktatura ölkələrində insan hüquqlarının pozulmasının daha adi hal olduğunu hesab edirlər. Hər halda zorakılıqlara demokratik ölkələrində rast gəlinir. Məsələn, Makperson hesabatı aşkar etmişdir ki, Britaniya polisi qara dərili gənc Stefen Laurensin ölüm işinin araşdırılmasında tamamilə irqçiliyə yol vermişdir. Həmçinin, Beynəlxalq Amnistiya təşkilatı silsiləli hesabatlar ilə Birləşmiş Ştatlar tərəfindən Qvantanamo Körfəzində həbsxana düşərgəsinin saxlanılmasını «insan haqlarına dair skandal» adlandırmışdır.

90 ölkədə milli insan hüquqları institutları həmin ölkədə insan haqlarının müdafiə edilməsi, gücləndirilməsi və ya monitorinq edilməsi üçün yaradılmışdır.

## Qiymətləndirmə təlimatı

İnsan hüquqları konsepsiyasını seçilmiş, məqsədəuyğun müasir mövzu kontekstində müzakirə edin.

## Sonrakı şərh və resurslar

İnsan Hüquqları üzrə Resurs Mərkəzi : http://www1.umn.edu/humanrts/edumat/background.shtm

Milli İnsan Hüquqları İnstitutlarının Forumu
http://www.nhri.net/
Beynəlxalq Amnistiya
http://www.amnesty.org/
Beynəlxalq Amnistiya təşkilatının
Ölkə Hesabatı 2006
http://web.amnesty.org/report2006/index-eng
Human Rights Watch
http://www.hrw.org/

# 2. UŞAQLARIN HÜQUQLARI

## ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Uşaqların hüquqları nəyə xidmət edir?
- BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası
- Uşaq Hüquqları Komitəsi

«UŞAQLARIN HÜQUQLARI» dedikdə 18 yaşından aşağı uşaqların və yeniyetmələr üzrə insan hüquqları başa düşülür. Uşaqlığın bizim həyatımızda xüsusi dövr olduğu barədə faktın qəbul edilməsi ilə uşaqlar və gənclər üçün ayrıca hüquqlar toplusu yaradılmışdır. Bu, bizim ən çox böyüdüyümüz və öyrəndimiz; qayğımıza qalması və təhlükəsizliyimiz üçün digərlərinin köməyinə daha çox ehtiyac duyduğumuz; şənlənməyimiz üçün bir dövrdür.

1989-cu ildə Birləşmiş Millətlər Təşkilatı uşaqların məxsusi konvensiyaya ehtiyacı olduğu razılığa gəldi. Uşaqlar və gənclər üçün bu hüquqlar toplusu Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları haqqında Konvensiyası adlanır. Bu, onu göstərir ki, 18 yaşından aşağı uşaqlar hər hansı irqi, dini və bacarıqları, hər hansı düşündükləri və ya dedikləri və hər hansı təmsil etdikləri ailə növünü əhatə etdiyi kimi bütün hüquqlara malikdirlər.

## UŞAQLARIN HÜQUQLARI AYRICA İNSAN HÜQUQLARI KONVENSİYASINDA NƏ ÜÇÜN MÜƏYYƏN EDİLMƏLİDİR?

**Uşaqlar fərddirlər:** Onlar nə valideynlərin, nə də dövlətin mülkiyyətidirlər, nə də ki, sadəcə yaranan canlı varlıqdırlar; onlar insan ailəsinin üzvləri kimi bərabər statusa malikdirlər.

**Uşaqlar bütünlükdə asılı varlıq kimi həyata başlayırlar:** Onlar sərbəstliyə doğru böyümələri üçün tərbiyə və nəsihət baxımından yaşlılara arxalanmalıdırlır. Bu cür tərbiyə uşaqların ailələrindəki yaşlılarda ideal tərzdə özünü göstərir, lakin əsas qayğıkeşlər uşaqların ehtiyaclarını yerinə yetirə bilməyəndə boşluğun doldurulması cəmiyyətdən asılı olur.

Hökumətin fəaliyyəti və ya fəaliyyətsizliyi cəmiyyətdəki hər hansı digər təbəqəyə nisbətən uşaqlara daha güclü təsir edir: Demək olar ki, hökumət siyasətinin hər bir sahəsi (məsələn, təhsil və ya səhiyyə) uşaqlara müəyyən dərəcədə təsir göstərir. Uşaqları nəzərə almayan qeyri-uzaqgörən siyasət cəmiyyətin bütün üzvlərinin gələcəyinə xələl gətirir.

Uşaqların fikirləri nadir hallarda dinlənilir və siyasi prosesdə nəzərdən keçirilir: Ümumiyyətlə uşaqlar siyasi proseslərdə səs vermirlər və ya iştirak etmirlər. Onların fikirlərinə xüsusi diqqət yetirmədən - evdə və məktəblərdə, yerli icmalarda və hətta hökumətlərdə ifadə olunduğu kimi – bir çox mühüm məsələlərə dair uşaqların fikirləri dinlənilmədikcə hazırda onlara təsir edir və gələcəkdə də təsir edəcəkdir.

Cəmiyyətdəki bir çox dəyişikliklər uşaqlara qeyri-mütənasib və tez-tez mənfi təsir göstərir: Ailə tərkibinin dəyişməsi, qloballaşma, məşğulluq növlərində yerdəyişmələr və çoxsaylı ölkələrdə sosial rifah həcminin azalması uşaqlara güclü təsir edir. Bu dəyişikliklərin təsiri xüsusən silahlı toqquşma və digər fövqəladə hallarda dağıdıcı ola bilər.

Uşaqların sağlam inkişafı hər hansı cəmiyyətin gələcək rifahı üçün həlledici amildir: Hələ

də inkişaf etməkdə olduqlarına görə - yaşlılara nisbətən daha çox - uşaqlar yoxsulluq, qeyri-adekvat səhiyyə, qeyri-qənaətbəxş qidalanma, içməli su çatışmamazlığı, pis mənzil şəraiti və ətraf mühitin çirklənməsi kimi yoxsul yaşayış şəraitinə xüsusən həssasdırlar. Xəstəliyin, zəif qidalanmanın və yoxsulluğun təsirləri uşaqların gələcəyini və bununla onların yaşadıqları cəmiyyətin gələcəyini təhlükə altında qoyur.

Öz uşaqlarını itirən cəmiyyətin xərcləri çox böyükdür: Sosial-iqtisadi nəticələr göstərir ki, uşaqların ilkin təcrübələri onların gələcək inkişafına xeyli təsir göstərir. Onların inkişaf kursu həyat boyunca onların cəmiyyətə töhfəsini və ya zərərini müəyyən edir.

## Uşaq Hüquqları haqqında Konvensiya

20 noyabr 1989-cu il tarixində Birləşmiş Millətlər Təşkilatı Uşaq Hüquqları haqqında Konvensiyanı təsdiq etdi. Bu, hazırda ölkələr tərəfindən imzalanmaqla və ratifikasiya edilməklə qanuni surətdə riayət olunması tələb edilən bir sazişdir. Sözü gedən sənəd insan haqlarının tam əhatəsinin birləşdirilməsi üçün ilk qanuni icbari beynəlxalq vasitədir. Dünya ölkələrinin hamısı Somali və Amerika Birləşmiş Ştatları istisna olmaqla bu sənədi ratifikasiya etmişdir. Somalinin hökuməti tanınmadığına görə ratifikasiya prosedurunu davam etdirə bilməmişdir.

Konvensiyanı imzalamaqla Amerika Birləşmiş Ştatları onu ratifikasiya etmək niyyətini bildirmişdir – lakin onun icrasını hələ də təmin etməmişdir.

Konvensiya əsasında uşaqlar öz ilkin ehtiyaclarının yerinə yetirilməsi hüququna malik olacaqlar: yaşama, müdafiə, səhiyyə, qida və su. Həmçinin onlar özlərinin tam potensialının əldə olunmasına kömək edən imkanlardan istifadə hüququna malikdirlər: təhsil, oyun, idman növləri, fikir azadlığı və onlara təsir edən qərarlara cəlb olunma. Konvensiya vurğulayır ki, bütün uşaqlar eyni hüquqlara malikdirlər və həmin hüquqlar qarşılıqlı əlaqədədir və bərabər əhəmiyyət daşıyır. Həmçinin bu, uşaqların digərlərinin, xüsusən öz valideynlərinin hüquqlarına hörmət etmək məsuliyyətinə aiddir.

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası 54 maddədən ibarətdir; hər biri müxtəlif hüququ təsvir edir. Bu hüquqlar dörd qrupa bölünür; yaşamaq, müdafiə olunmaq, inkişaf etmək və iştirak etmək. **Yaşamaq hüquqları** uşağın həyatda qalmaq hüququnu və mövcud olmaq üçün ilkin ehtiyaclarını qəbul edir. Bunlara qidalanma, sığınacaq, münasib yaşayış norması və səhiyyədən istifadə daxildir. **İnkişaf hüquqları** uşaqların özlərinin tam potensialını əldə etmək üçün nəyə ehtiyac duyduqlarını təsvir edir; məsələn, təhsil, istirahət, mədəni fəaliyyət növləri, məlumat almaq və fikir, vicdan və din azadlığı. Müdafiə hüquqları uşaqların zorakılığın, laqeydliyin və istismarın bütün formalarından qorunmasını tələb edir. Onlar qaçqın uşaqlar üçün xüsusi müdafiəni, işləyən uşaqlar üçün müdafiə vasitələri və zorakılıq və ya istismarın hər hansı formasından əziyyət çəkən uşaqların qorunması və bərpası kimi məsələləri əhatə edir. **İştirak hüquqları** bütün uşaqlara öz icmalarında və cəmiyyətlərində

fəal rol oynamaq üçün imkan verilməli olduğunu qəbul edir. Bu hüquqlara uşaqların özlərinin həyatına toxunan məsələlərdə fikir və söz azadlığı daxildir. Onların bacarıqları inkişaf etdikcə, uşaqlar həmçinin məsuliyyətli yeniyetməlik dövrünə hazırlıq üzrə öz cəmiyyətlərində iştirak etmək imkanlarına malik olmalıdırlar.

Konvensiyanın 41 mühüm maddəsindən dördünə xüsusi diqqət yetirilmişdir, çünki onlar əhatə olunan bütün hüquqların icrası üçün ilkin hesab edilir. Konvensiyanın «ümumi prinsipləri» kimi tanınmaqla, bu maddələr aşağıdakılardan ibarətdir:

- Maddə 2: Konvensiya ilə zəmanət verilən bütün hüquqlar hər hansı növə ayrı-seçkilik qoyulmadan bütün uşaqlara verilməlidir.
- Maddə 3: Uşağın ən yaxşı maraqları uşaqlarla bağlı bütün tədbirlərdə başlıca olaraq nəzərdən keçirilməlidir.
- Maddə 6: Hər uşaq həyatda qalmaq, yaşamaq və inkişaf etmək hüququna malikdir.
- Maddə 12: Uşağın fikri ona təsir edən bütün məsələlərdə nəzərdən keçirilməli və nəzərə alınmalıdır.

Uşaq Hüquqları haqqında Konvensiyanın iki Fakültətiv Protokolu yaxın illərdə yaradılmışdır:

- Uşaqların satışı, uşaq fahişəliyi və uşaq pornoqrafiyasına dair Fakültətiv Protokol, 18 yanvar 2002-ci il tarixli (A/RES/54/263, 25 may 2000-ci il tarixli)
- Silahlı toqquşmaya uşaqların cəlb olunmasına dair Fakültətiv Protokol. Qəbul edilmişdir (A/RES/54/263, 25 may 2000-ci il tarixli)

Konvensiya uşağın və uşaqlığın yeni görünüşünü əks etdirir. Uşaqlar nə öz valideynlərinin mülkiyyəti, nə də ki köməksiz mərhəmət obyektləri hesab olunurlar. Onlar insan varlıqlarıdır və öz məxsusi hüquqlarının predmetidirlər. Konvensiya uşağın yaşına və inkişaf mərhələsinə uyğun hüquqlar və öhdəliklər ilə güclü, səriştəli fərd kimi *və* ailənin və icmanın üzvü kimi uşaq təsəvvürünü canlandırır. Bu yolla uşaqların hüquqlarının tanınması ilə konvensiya qəti surətdə bütövlükdə uşaq üzərində cəmləşir.

## Uşaq Hüquqları Komitəsi

Konvensiyanı ratifikasiya edən hökumətlər dövlətlərin konvensiyanı necə həyata keçirdiyinin monitorinq edilməsinə məsul olan ekspertlərdən ibarət bir quruma, Uşaq Hüquqları Komitəsinə (UHK) müntəzəm surətdə hesabat verməlidirlər. Bu hesabatlar ölkədə uşaqların vəziyyətini təsvir edir və uşaqların hüquqlarının reallaşdırılması sahəsində dövlətin yerinə yetirdiyi tədbirləri izah edir. Dövlətlərin hesabatlarının təhlilində UHK siyasi kursun müəyyən olunmasında və icrasında bir təlimat kimi hökumətin bütün səviyyəli orqanlarını konvensiyadan istifadə etməyə sövq edir. İnsan haqlarının qorunması xarakterinə görə sonsuz bir proses olduğundan, təkmilləşdirmə üçün həmişə imkan vardır.

Uşaqlar üzrə hüquqlara cavabdeh qurumun yaradılması və uşaqların hüquqlarının real olaraq nəyi kəsb etdiyi və necə reallaşa biləcəyinə dair məsələ mübahisə doğurmaqda davam edir. Uşaqların hüquqlarının təmin olunması qismən belə bir faktın qəbul edilməsinə əsaslanır ki, uşaqların həssaslığı barədə məlumatlılıq və bununla xüsusi müdafiəyə olan tələbat onların ətrafındakı yaşlı nəsil tərəfindən qəbul edilən qərarlar nəticəsində əziyyət çəkməsinin qarşısını almamışdır. Uşaqların çətin vəziyyətində dərdinə şərik olma öz gücü və köməyi, öz tələbatları və hüquqları ilə fərdi şəxslərə nisbətən onların tez-tez kollektiv şəkildə nəzərdən keçirilməsinə və mərhəmət obyektləri kimi davranılmasına gətirib çıxarmışdır.

Nəticə etibarilə, uşaqları əhatə edən məsələlər çox vaxt qeyri-siyasi olaraq hesab edilmiş və həll olunmamışdır. Uşaq hüquqlarının əsas prinsipi ondan ibarətdir ki, cəmiyyət uşaqların köklü ehtiyaclarının yerinə yetirilməsini və uşaqların fərdi xüsusiyyətlərinin, istedadlarının və bacarıqlarının inkişaf etdirilməsinə dəstək verilməsini öz üzərinə götürmüşdür. Uşaq Hüquqları haqqında Konvensiyanın yaradılması hüquqlar barədə məlumatlılıq ilə müqayisədə daha geniş tərzdə ümumi qəbul olunmuş qaydanı və uşaqların qorunması üçün daha çox şansın olduğunu əks etdirir. Uşaq Hüquqları haqqında Konvensiya vasitəsilə uşağın insan hüquqları aydın, ardıcıl və müfəssəl şəkildə səciyyələndirilir. Onlara hörmət göstərilməsi və dəstək verilməsi üçün ilkin şərait vardır.

## Qiymətləndirmə təlimatı

BMT-nin Uşaq Hüquqları Komitəsinə və onun hesabatlara dair icmalına nəzərən ölkənizin milli hesabatlarını hazırlayın və BMTUHK və onun yerli səviyyədə təsiri üzrə monitorinq mexanizmini müzakirə edin.

## Sonrakı şərh və resurslar

BMT Uşaq Fondu: Uşaq Hüquqları haqqında Konvensiya:
http://www.unicef.org/crc/index_index.html
Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi (UHİŞ):
http://www.crin.com/resources/treaties/CRC.asp?catName=International+Treaties&flag=legal&ID=6
Uşaqların Hüquqları Birliyi
http://www.childrensrights.ie/convention.php

## 3. UŞAQLARIN HÜQUQLARI VƏ MEDİA

### ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Medianın gənclərə təsirləri
- Uşaqların mediada işıqlandırılması
- Uşaqların mediada iştirakı

### Oslo Çağırışı

1999-cu ilin noyabr ayında media layihələrinə cəlb olunan gənclər, media peşəkarları və uşaq hüquqları sahəsində çalışan mütəxəssislər beş sərlövhə altında bütün dünyadakı uşaqların hüquqlarının inkişaf etdirilməsində medianın oynaya biləcək rolunu müzakirə etmək məqsədilə Norveçin paytaxtı Osloda toplaşdılar:

- uşaqların mediadan, o cümlədən yeni mediadan istifadə etmək hüququ
- uşaqların media maarifləndirməsinə və savadına malik olmaq hüququ
- uşaqların mediada iştirak etmək hüququ
- mediada uşaqların zərərdən müdafiə olunmaq hüququ və zorakılığın ekranda göstərilməsi
- uşaqların hüquqlarının qorunmasında və gücləndirilməsində medianın rolu.

Onların müzakirələrindən «Oslo Çağırışı» meydana gəldi. Bununla qəbul edilmişdir ki, «uşaq/media bağlılığı uşaqların geniş və çoxsahəli aləminə doğru giriş mərhələsidir və onların hüquqlarının – təhsil, fikir azadlığı, oynamaq, şəxsiyyət kimi formalaşmaq, səhiyyə, ləyaqət və özünə hörmət, müdafiə – və uşaq hüquqlarının hər bir aspektində, uşaq həyatının hər bir elementində uşaqlar ilə media arasındakı əlaqə özünəməxsus rol oynayır».

Oslo Çağırışı tədbirə doğru bir səda olmuşdur. Bu, uşaqlar ilə media arasındakı kompleks əlaqənin öyrənilməsi, inkişaf etdirilməsi, monitorinq edilməsi və həmin əlaqədə iştirak edilməsi ilə məşğul olan hər kəsə qarşı yönəlmişdir. Buna hökumətlər və təşkilatlar və uşaqlarla işləyən fərdi şəxslər, kütləvi informasiya vasitələrinin bütün səviyyələrində və bütövlükdə media peşəkarları və özəl sektor, o cümlədən media sahibləri, uşaqlar və gənclər, valideynlər, müəllimlər və tədqiqatçılar daxildir. (BMT Uşaq Fondunun Sehrli vebsaytı bu çağırışa bir cavabdır və digər kanallar və məlumatlar ilə yanaşı bütün dünyadakı uşaqlar tərəfindən, ilə və üçün media layihələrini nümayiş etdirir.)

UHK-nın ayrı-ayrı əsas maddələri media və uşaqlardan bəhs edir. Uşaq Hüquqları Komitəsi nəzərdən keçirilməsi üçün üç başlıca sahəni müəyyənləşdirmişdir:

- media reportajı vasitəsilə uşaq obrazının təkmilləşdirilməsi yolları
- mediada uşaqların fəal iştirakının stimullaşdırılması
- mediada uşaqların zərərli təsirlərdən qorunması

Maddə 17 məlumatın yayılmasında medianın mühüm rolunu müfəssəl izah edir ki, bu da üzv dövlətlərə spesifik tapşırışlar verməklə daha geniş mənada uşağın rifahını yüksəldir. Bu, onu şərtləndirir ki, dövlət «kütləvi media tərəfindən yerinə yetirilən vacib funksiyanı qəbul etməli» və «xüsusən uşağın sosial, ruhi və mənəvi rifahı və fiziki və əqli sağlamlığının gücləndirilməsinə yönəlmiş müxtəlif milli və beynəlxalq mənbələrdən məlumat və material əldə etdiyinə təminat verməlidir».

Uşaq Hüquqları haqqında Konvensiyanın 12-ci Maddəsi uşaqlara toxunan məsələlərdə öz fikirlərini ifadə etmək üçün uşaqların hüququnu tanıyır. Maddə 13 fikir azadlığı hüququnu qoruyur: «Bu hüquq incəsənət formasında və ya uşağın seçiminə dair hər hansı vasitə ilə şifahi, yazılı və çap olunmuş səviyyələrdən asılı olmayaraq, bütün növ məlumatları və ideyaları axtarmaq, əldə etmək və vermək sərbəstliyini ehtiva edir»

Bu maddələr nəinki yaxşı məlumatlandırılmış vətəndaşların inkişaf etdirilməsinə, kütləvi informasiya vasitəsilə gənclərin fikirlərinin daha yaxşı dinlənilməsinə töhfə verməlidir. Bu, uşaqların məlumat dövriyyəsinin iştirakçılarından və benefisiarlarından ibarət olması barədə açıq bir mesajdır.

Son iki onillikdə xüsusən yeni medianın artımı və internetin yaranması ilə uşaqlar və gənclər üçün media qlobal gündəlikdə getdikcə inkişaf etmişdir. Bəzi vasitəçilər media ilə uşaqların hüquqlarını reallaşdırmağa başlamışlar – məsələn, gənc audito-

riyanın yüksək keyfiyyətli media tərkibindən istifadə etdiyinə təminat verməklə, gənclərin fikirlərinin dinlənilməsinə imkanlar yaratmaqla və uşaqlara nəzərən etik davranışların işıqlandırılmasını tələb etməklə.

## Medianın gənclərə təsirləri

Medianın təsirləri – xüsusən uşaqlarla bağlı mediada zorakılıq barədə çoxsaylı tədqiqatlar yerinə yetirilmişdir. Miçiqan Universitetinin professoru L. Rauvel Hyusman (2000) kimi bəzi ekspertlərin mühakiməsinə görə, əlli illik dəlil onu göstərir ki, «media zorakılığına qarşı müdafiə olunmama uşaqların daha aqressiv rəftar etməsinə və sonrakı illərlə yaşlılar kimi onlara təsir göstərməsinə səbəb olur». Hər halda, Toronto Universitetinin professoru Conatan Fridman kimi digərlərinin qənaətinə görə, «elmi dəlil zorakılığın müşahidə edilməsinin insanlarda zorakılıq doğurduğunu və ya ona qarşı həssaslığı azaltdığını sadəcə göstərmir».

Medianın yayılması və qloballaşması hazırda müasir gənclik mədəniyyətinin xüsusiyyətlərini müəyyən edən amillər arasında yer tutur. Bir çox ölkələrdə gənclər əvvəlki ənənəvi, peyk və kabel televiziyası kanalları, radiostansiyalar, qəzetlər və jurnallar internet, kompüter və video oyunlara nisbətən çoxsaylı multimedia seçimlərindən istifadə edirlər. Hazırda dünyanın əksər bölgələrində xarici proqramlaşdırma və media üçün geniş imkanlar, eləcə də daha az senzura və nəzarət mövcuddur. Məlumatlar, e-mail və kadrlar əvvəlkilərlə müqayisədə dünyada daha tez və daha sərbəst yayılır. Müdafiə, habelə iştirak məsələləri nəzərdən keçirilməlidir.

## Uşaqların mediada işıqlandırılması

Uşaqların mediada işıqlandırılması uşaqlara və uşaqlığa olan münasibətlərə dərin təsir edir və yaşlıların uşaqlara qarşı davranışına mühüm nüfuz edir. Media təsvirləri gənclərin münasibətlərinə və ümidlərinə təsir göstərərək onlar üçün təqlidi modelləri təmin edir. Medianın təcəssüm etdirdiyi və ya hətta diqqət göstərmədiyi üsulla uşaqlar onların adından qəbul edilən qərarlara və cəmiyyətin qalan təbəqəsinin onlarla necə hesablaşdığına təsir edə bilərlər. Media tez-tez uşaqları sakit «qurbanlar» kimi təsvir edir.

Uşaqları və gəncləri özləri üçün danışmaq imkanları ilə təmin etməklə – öz ümidləri və qorxuları, nailiyyətləri və yaşlıların davranışının onların həyatına təsiri barədə – media peşəkarları uşaqların fərdi insan varlıqları kimi hörmət göstərilməsinə layiq olduğunu ictimaiyyətə xatırlatmalıdır.

Beynəlxalq Jurnalistlər Federasiyasına əsasən, uşaqların mediada işıqlandırılması əfsanələr toplusunu daimiləşdirir:

- İnkişaf etməkdə olan ailələr, yoxsulluq şəraitində yaşayan uşaqlar və müharibə və fəlakət qurbanları öz fərdiyyətini və insanlığını itirirlər. Onlar çox vaxt hərəkət etmək, düşünmək və ya özləri üçün danışmaq qabiliyyətində olmayan köməksiz zərərçəkmişlər kimi təsvir edilir.
- Uşaq Hüquqları haqqında Konvensiyada təsvir olunduğu kimi, uşaqlarla toqquşan məsələlərin geniş kütləsini nəzərə almayaraq uşaqlara dair məsələlərin işıqlandırılması sensasiya üzərində cəmləşir.
- Uşaqlar haqqında media hesabatları çox vaxt kiçik təhlil və ya heç bir təhlil və ya müşahidə olmadan birdəfəlik əhvalatlaran ibarətdir.
- Uşaqların məxfiliyinə həmişə hörmət göstərilmir.

- Uşaqlar xəbərlərdə aktual mövzuya çevrildikdə, onlar tez-tez «Afrikada aclıq çəkən uşaqlar» və «məsuliyyətsiz yeniyetmələr» olaraq stereotiplər kimi canlandırılır.

Uşaqların hüquqları, o cümlədən oynamaq, əyləncə/istirahət və idman hüququna dair geniş məsələlərin çox vaxt xəbər üçün maraqlı olaraq hesab edilmədiyinə baxmayaraq, uşaq zorakılığı, cinayətə cəlb olunan uşaqlar və küçə uşaqları haqqında əhvalatlar üstünlük təşkil etməyə meyl göstərir. Nəticə isə «uşaqların qurbanlar kimi» tarazlaşdırılmamış təəssüratına gətirib çıxarır.

Media istehsalında uşaqları və gəncləri əhatə edən Uşaqların Fikri adlı Britaniya təşkilatı onların özləri üçün qəzet materiallarının yazılması və redaktə edilməsi ilə 1998-ci ildə bir həftə üzrə milli qəzet buraxılışını monitorinq etdi. Tədqiqatçılar «yeddi ölümcül stereotipi» aşkar etmişlər. Dövrilik qaydasında onlar belə olmuşdur:

- ‘Körpələr qurbanlar kimi’: 31,5%
- ‘Ağıllı körpələr’ (sərbəst obrazlar): 26,7%
- ‘Balaca şeytanlar’ (‘şeytanlaşan’ uşaqlar): 10,8%
- ‘Körpələr parlaqdırlar’ (qeyri-adi uşaqlar): 9,7%
- ‘Körpələr ləvazimatlar kimi’ (yəni, valideynlərin mülkiyyəti): 8,4%
- ‘Körpələr hazırkı günlərdir!’ (yaşlıların keçmiş həsrəti): 7,5%
- ‘Balaca mələklər’ (səhv edə bilməyənlər): 5,4%

Stereotipin sübutu 2004-cü ildə Britaniyanın *Müasir Gənclər* jurnalı üçün Beynəlxalq Bazar və Rəy Tədqiqatı (BBRT) tərəfindən aparılan araşdırmada göstərilir. Araşdırmada qeyd edil-

mişdir: «Bu qruplar [gənclər] mətbuatdakı mənfi stereotipləri qavrayırlar və hiss edirlər ki, onlar öz dostları ilə ictimai yerlərdə olduqda yaşlıların onlara necə münasibət bəsləməsi baxımından bu, gündəlik həyat tərzinə təsir edir. Həmçinin onlar inanırlar ki, jurnalistlər gənclərin davranışlarının qiymətləndirilməsi baxımından yüksək mənəvi əsaslanmaya malik olmaqda çevikdirlər.» Onlar buna riyakar mövqe kimi baxmışlar, nəzərə alaraq ki, onların inandıqları jurnalistlər qəzetləri satmaq və pul qazanmaq üçün məlumatı həddindən artıq şişirtməyə meyl etmişlər: «Əgər onların yazmağa bir mövzusu olmasa, təqdim edilməsi üçün nəsə tapacaqlar. Bunun kimsənin nüfuzuna xələl gətirdiyinin onlar üçün heç bir fərqi yoxdur.» Sözü gedən araşdırma əvvəlki BBRT tədqiqatına (2003) uyğundur ki, bu da 11-18 yaşlı 914 nəfərin üçdə ikisinin (64%) həqiqəti onlara söyləmək üçün heç bir jurnalistə inanmayacaqlarını bildirdiyini aşkar etmişdir.

Beləliklə, uşaqların hüquqları barədə ictimai məlumatlılığın artırılmasında medianın mühüm rol oynamasına baxmayaraq, onlar qeyri-müəyyən tərəfdaş ola bilərlər.

## Mediada uşaqların istismarı

Başqa bir həlledici məsələ xüsusən pop musiqisinin və modanın işıqlandırılması vasitəsilə medianın uşaqları vaxtından əvvəl cinsi fəal olmağa və ya cinsi fəal kimi görünməyə stimullaşdırıb-stimullaşdırmamasından ibarətdir.

Bir tərəfdən, kütləvi informasiya vasitələri qəzet məlumatları, fotoşəkillər, sənədli filmlər və dram əsərləri ilə zorlanan və zorlayanın əhvalatlarını açıqlayır. Digər tərəfdən, onlar xəbərlər və reklam ilə uşaqların cinsi təhrikedici obrazlarının yaradılması ilə özləri istismarçıya çevrilə bilərlər.

Media peşəkarları uşaqların hüquqlarının müdafiəsinə yönələn səyləri diqqətlə nəzərdən keçirərək və uşaqların qarşısında öz öhdəliklərini yerinə yetirməyənləri tənqid edərək, bu hüquqların xəbərlərin gündəliyində saxlanılmasına hazır olduqlarını bildirmişlər. Lakin kommersiya təzyiqləri bu məsuliyyətdən yayınmaq üçün mediaya təsir edə bilər. Etika kodeksi kommersiya öhdəliklərinə qurban verildikdə, maraqların qeyri-münasib tarazlığı üstünlük təşkil edir.

## Mediada uşaqların iştirakı

Xüsusən gənclərin onlara toxunan məsələlər barədə tam mənada öz fikirlərini ifadə etmək imkanı olduqda, gənclərin mediada iştirakının nümunələri onların ətraf mühitindəki maraqlarına dəlalət edir. Maraq qruplarının və media təşkilatlarının artan sayı gənclərə mediada iştirak etmək üçün geniş imkanlar yaradır.

### MEDİA LAYİHƏSİNİN NÜMUNƏLƏRİ

*Uşaqlar və gənclər üçün uğurlu media layihələrinin və proqramlarının artan sayda nümunələri:*

**ANDİ –** Braziliyanın Uşaq Hüquqları üzrə Xəbər Agentliyi uşaqların və gənclərin mediada işıqlandırılmasını monitorinq edir, uşaqlar və gənclərlə əlaqədar məsələlər barədə öz xəbərlərində jurnalistlərə təlim keçir və onlarla sıx işləyir. ANDI təşkilatının səyləri Braziliya mediasında uşaqlar və gənclərə dair məsələlərin işıqlandırılmasının geniş şəkildə artmasına və təkmilləşdirilməsinə gətirib çıxarmışdır. Hazırkı model Latın Amerikasının digər səkkiz ölkəsində tətbiq olunmaqdadır.

**TROK** – Albaniya Gənc Müxbirləri. Ölkənin hər yerindən təmsil olunan 13-18 yaşlı onlarla gənc bu həftəlik ictimai-siyasi televiziya proqramında təlim keçir. Tələbələr video xəbər istehsalının bütün aspektlərini öyrənirlər və yaşlıların məhdud təlimatı ilə proqramın planlaşdırılmasına və işlənib hazırlanmasına məsuliyyət daşıyırlar. Ölkənin hər yerindən görüntülər verən TROK proqramını birinci sosial çevik televiziya verilişi kimi dəyərləndirməklə Albaniyada və qonşu ölkələrdəki gənc tamaşaçılar arasında çox məşhurdur.

**Mukto Xobor** (Müstəqil Xəbərlər) **–** Banqladeşdə geniş tamaşaçı kütləsinə malik olan, həftəlik yayımlanmaqla xəbərləri və cari işləri əhatə edən 25 dəqiqəlik proqram 11-17 yaşlı yeniyetmələr tərəfindən hazırlanır. Bu, uşaqlara və onların hüquqlarına dair məsələlərin üzərində cəmləşir. Proqram gənclərə öz fikirlərini ifadə etmək üçün forumu təmin edir, gənc jurnalistləri peşə ixtisaslarına yiyələndirir, öz həmyaşıdlarının mediadakı fəaliyyətinin uğurlarını seyr edən gənc tamaşaçıları ruhlandırır və gənclərin cari problemlərin həllinə dəyərli töhfə verə biləcəyini nümayiş etdirir.

**Afrika Uşaqları və Radioyayım Fondu (AURF). Bu,** Afrika Uşaqları və Radioyayım Xartiyasının icrasına təminat vermək, eləcə də radio aparıcılarının və quruluşçu rejissorların yüksək səviyyəli uşaq televiziyası tələbatına qarşı həssaslığını artırmaq məqsədilə 1995-ci ildə yaradılmışdır. AURF 9-16 yaşlı gəncləri, media peşəkarlarını və radio jurnalistlərini diqqət mərkəzində saxlayır. Bu, Afrika uşaqlarının ehtiyacları və hüquqları üzərində cəmləşməklə simpoziumlar, bədii yaradıcılıq seminarları, ekranlaşdırma tədbirlərini və görüşlərini keçirir.

**Misir Video və İcma Arzuları** layihəsi «Yeni Üfüqlər» proqramı üzrə İnkişaf və Əhali Fəaliyyəti Mərkəzinin məlumatlılığını və təcrübəsini genişləndirir və Misir cəmiyyətində gənc qadınların və qızların fikirlərini gücləndirir. Misirin dörd icmasından ibarət qadın komandaları problemli və ya həssas mövzuların nəzərdən keçirilməsi üçün özlərinin video istehsalı bacarıqlarında və qabiliyyətində etimad qazanmışlar. Komanda üzvləri natiqlər və aparıcılar zahiri görünüşə malik olurlar və stereotiplərin təsnif olunmasına köməklik göstərmişlər. Müzakirələrin stimullaşdırılması və hər icmada yerli həll vasitələri üzrə tədqiqatın artırılması üçün komandaların video görüntülərindən istifadə olunmuşdur.

Mediada iştirak UNESKO-nun Məlumat Mübadiləsi Mərkəzinin 2001-ci il üzrə İllik Məcmuəsinin *Uşaqlar və Mediaya dair Baxışlar* bölməsində yekunlaşdırıldığı kimi, gənclər üçün parlaq nəticələrə gətirib çıxarır:

- Onların fikirlərinin dinlənildiyini, öz icmalarının tərkib hissəsi olduqlarını, digərlərinin və özlərinin məxsusi mədəniyyətini dərk etdiklərini hiss etmələri nəticəsində qürur, qüvvət və özünə hörmət hissinin möhkəmləndirilməsi.
- Mediada işıqlandırılmaqla özlərinin gündəlik arzularının, eləcə də məxsusi yerli, sosial və etnik mədəniyyətinin və reallığının seyr edilməsi.
- Media qabiliyyətinin, marağının və səriştəsinin gücləndirilməsi və artırılması (yəni, medianın tənqidi surətdə qavranılması).
- Audio-vizual media istehsalında iştirak etmək üçün ənənəvi, nəşriyyat əsaslı məktəbləri mükəmməl idarə edə bilməyən gənclərə imkan yaratmaqla sosial ədalətin yüksəldilməsi.
- Öz şərtləri üzrə cəmiyyətdəki marağının və əhatəsinin genişləndirilməsi, bu da öz növbəsində mediada və öz icmalarında gənclik məsələlərinin işıqlandırılmasının artırılmasına yönələn tədbirləri stimullaşdırır.

## Qiymətləndirmə təlimatı

Uşaqları əhatə edən cari media mövzusunu seçin və uşaqların hüquqları kontekstində onu əks etdirin.

## Sonrakı şərh və resurslar

**Dünyadakı Uşaqlar, Gənclər və Media:** BMT Uşaq Fondunun MediaArası Tədqiqat İnstitutunun nümayəndəsi Suzan Qiqli tərəfindən hazırlanmaqla, *Tendensiyaların və Məsələlərin Xülasəsi*, aprel 2004
**Uşaqların, Gənclərin və Medianın Araşdırılması Mərkəzi:**
http://www.childrenyouthandmediacentre.co.uk/
Uşaqların Hüquqları və Media – Jurnalistlər üçün Mənbə:
http://www.unicef.org/southafrica/SAF_publications_soulbuddiez.pdf
BMT Uşaq Fondunun Sehrli vebsaytı :
http://www.unicef.org/magic/briefing/about.html
BMT Uşaq Fondu – Gəncliyin Səsi:
Gəncliyin Səsi gənclərin məxsusi sözlərlə öz ölkələrindəki media haqqında fikirlərini səciyyələndirir.
http://www.unicef.org/voy
UNESKO-nun Uşaqlar, Gənclər və Media üzrə Məlumat Mübadiləsi Mərkəzi:
http://www.nordicom.gu.se/clearinghouse.php.

Dünyadakı uşaqları, gəncləri və medianı əhatə edən spesifik layihələr və məsələlərə dair məlumat üzrə səhih mənbə. Məlumat Mübadiləsi Mərkəzi müvafiq siyasi kursun müəyyən edilməsinin əsasını təmin edərək, konstruktiv ictimai debata töhfə verərək, uşaqların və gənclərin media savadını və media səriştəsini genişləndirərək uşaqlar, gənclər və media haqqında məlumatlılığın və biliklərin artırılmasına yönəlmişdir.

Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi
http://www.crin.com/themes/ViewTheme.asp?id=12
«Media Zorakılığının Gənclərə Təsiri» (Psixoloji Elm, mart 2004)
http://www.psychologicalscience.org/pdf/pspi/pspi43.pdf
«Media Zorakılığı Dairəsinin Təsiri üzrə Tədqiqat Nəticələrinə dair İctimai Səhiyyə Metodu»: Lanset nəşriyyatı, Cild 356, Nömrə 9460 (fevral 2005, səhifə 702-710)
L. Rauvel Hyusman (2000) «Kolumbiya Dairəsinin Əhalisinin Uzununa Araşdırılması» Miçiqan Universiteti. http://www.rcgd.isr.umich.edu/aggr/Projects/CCLS/description.html

## 4. UŞAQLARIN HÜQUQLARININ REALLAŞDIRILMASINA QARŞI MANEƏLƏR

### ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- İnsan haqlarının qorunması
- Uşaqların hüquqlarının dəstəklənməsi
- Uşaqların hüquqlarının reallaşdırılmasında mövcud olan problemlər

### İnsan haqlarının qorunması

İnsan haqlarının beynəlxalq, regional və milli səviyyədə təmin olunması üçün mexanizmlər MÖVCUDDUR. Milli səviyyədə siyasətçilər və strateqlər öz konstitusiya aktları vasitəsilə uşaqların hüquqlarını dəstəkləyə bilərlər. Ümumiyyətlə, konstitusiya aktları «müxtəlif hökumət qurumlarının vəzifələrini, səlahiyyətlərini və funksiyalarını müəyyənləşdirən» qaydaları göstərir. Bu qaydalar insan hüquqlarını konkret müddəalarla müəyyən etdikdə və hökumət daxilində səlahiyyət bölgüsünə zəmin yarandıqda, onlar insan haqlarının dəstəklənməsi üçün ən effektiv vasitə hesab olunur.

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının ümumbəşəri surətdə ratifikasiyası uşaqların hüquqlarının prinsiplərinə doğru qlobal öhdəliyi əks etdirir. Konvensiyanı ratifikasiya etməklə hökumətlər bu öhdəliyin praktikada tətbiq olunması üçün öz niyyətlərini bildirirlər. İştirakçı dövlətlər konvensiyanın tam icrası üçün qanunlara və strategiyalara icbari surətdə düzəliş etməli və onları formalaşdırmalıdırlar; onlar uşağın ən yaxşı maraqları baxımından yerinə yetirilən bütün tədbirləri nəzərdən keçirməlidirlər.

Konvensiyanın 4-cü Maddəsi dövlətlərdən «bu Konvensiyada tanınan hüquqların yerinə yetirilməsi üzrə bütün müvafiq qanunvericilik, inzibati və digər tədbirlərin öz üzərinə götürülməsini» tələb edir. 42-ci Maddəyə əsasən, dövlətlər «müvafiq və fəal vasitələrlə Konvensiyanın prinsiplərini və müddəalarını yaşlılara və eynilə uşaqlara geniş şəkildə çatdırmalıdırlar». Ölkə konstitusiyası uşaqların hüquqlarının pozulmasına qarşı mütləq müdafiəni həmişə təmin etmir. Bu cür hallarda vətəndaşlar kollektiv surətdə hökuməti öz hərəkətlərini açıqlamağa və buna məsuliyyət daşımağa sövq edə bilərlər. Vətəndaşlar hökumət qarşısında vəzifələrin qoyulmasını təşkil etdikdə, vətəndaş cəmiyyəti meydana gəlir.

Buna qeyri-hökumət təşkilatları (QHT-lər), qeyri-kommersiya təşkilatları (QKT-lər), xeyriyyə fondları və icma qurumları daxildir.

Əksər ölkələrdə bu təşkilatlar uşaqlar və ya uşaqların ayrıca qrupları üzrə müstəqil hüquq müdafiəçiləri kimi başlıca rol oynayırlar. Onların rolu Uşaq Hüquqları haqqında Konvensiyada və Uşaq Hüquqları Komitəsi tərəfindən tanınır. Konvensiyanın ratifikasiya edilməsi və dəstəklənməsi uşaqların hüquqlarını təmin edən QHT-lərin sayında və təsir dairəsində sürətli artıma səbəb olmuşdur; bir çox Avropa ölkələrində uşaqların hüquqları naminə çalışan QHT-lərdən ibarət koalisiyalar formalaşmışdır.

Birləşmiş Millətlər Təşkilatı vətəndaş cəmiyyətini dünyada sülhün qorunub saxlanılmasında və hüquqların dəstəklənməsində mühüm element kimi nəzərdən keçirir. BMT-nin sabiq Baş Katibi Kofi Annan bəyan etmişdir:

*«Birləşmiş Millətlər Təşkilatı yalnız bir dəfə hökumətlərlə qarşı qarşıya gəlmişdir. Hazırda biz bilirik ki, hökumətlər, beynəlxalq təşkilatlar, işgüzar dairə və vətəndaş cəmiyyətindən ibarət tərəfdaşlıqlar olmadan sülh və firavanlıq əldə edilə bilməz. Müasir dünyada biz bir-birimizdən asılıyıq.»*

İnsan haqdarının dəstəklənməsi üçün təsisatların inkişafı BMT-nin geniş miqyaslı məqsədinə uyğundur: insan haqlarının ümumən dəstəklənməsi və qorunması üçün milli institutların yaradılmasını stimullaşdırmaq. Bəzi dövlətlərdə uşaqlar üzrə müstəqil mərkəzlər milli insan haqları institutlarının tərkib hissəsi kimi fəaliyyət göstərir. Digərlərində uşaqların insan hüquqlarının dəstəklənməsi və müdafiə edilməsi üçün ayrıca institutlar yaradılmışdır.

İnsan haqları mədəniyyətinin bütövlükdə inkişaf etdirilməsinə səy göstərən ölkələrdə uşaqların insan hüquqları üzərində təmərküzləşən idarənin yaradılması gələcəyə doğru mədəniyyətin formalaşması istiqamətində uşaqların və uşaqların inkişaf etməkdə olan münasibətlərinin başlıca əhəmiyyətini nəzərə alaraq həssas başlanğıc nöqtəsi ola bilər.

Uşaqlar üzrə bu müstəqil idarələr qanunvericilikdə müəyyən edilmiş səlahiyyətlərə və vəzifələrə malik olması ilə qeyri-hökumət təşkilatlarından (QHT-lər) fərqlənir. QHT-lər ümumən yüksək dərəcəli müstəqilliyi ilə insan haqlarının dəstəklənməsində həlledici rol oynayır. Lakin adətən onlar hökumət prioritetlərində real surətdə yerdəyişmə edilməsi baxımından ayrıca və ya birlikdə fəaliyyət göstərməklə səlahiyyətlərə malik deyildir.

## Uşaqların hüquqlarının dəstəklənməsi

Dövlət Uşaq Hüquqları haqqında Konvensiya kimi insan haqları mexanizmini ratifikasiya etdikdə, Konvensiyanın müddəalarının birbaşa milli qanunvericiliyə daxil edir və ya digər üsullarla insan haqlarına hörmət edilməsi ilə bağlı öhdəlikləri yerinə yetirməyi öz üzərinə götürür. «Hər halda çox vaxt fakt göstərir ki, müəyyən hüquqların müdafiəsi sahəsində mövcud olan qanun həmçinin həmin hüquqların effektiv reallaşdırılmasına təminat verilməsi üçün bütün lazımi hüquqi səlahiyyətləri və institutları şərtləndirmirsə, sözü gedən qanun qənaətbəxş hesab edilmir...» (İnsan Haqları Mərkəzinin təlimat kitabçası)

Uşaq Hüquqları haqqında Konvensiyaya riayət edilməsinə BMT-nin Uşaq Hüquqları Komitəsi tərəfindən nəzarət olunur. Bu quruma hökumətlər tərəfindən milli hesabatlar və QHT-lər tərəfindən alternativ hesabatlar təqdim edilir.

Komitə aşağıdakıları yerinə yetirmək məqsədilə siyasi kursun müəyyənləşdirilməsində və icrasında bir təlimat kimi hökumətin bütün səviyyəli orqanlarını konvensiyadan istifadə etməyə sövq edir:

- uşaqlar üçün müfəssəl milli gündəliyin işlənib hazırlanması
- hökumətin bütün sektorları vasitəsilə fəaliyyət növlərinin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsini yüksəltmək üçün daimi qurumların və ya mexanizmlərin inkişaf etdirilməsi
- bütün qanunvericiliyin konvensiyaya tam uyğun olduğuna təminat verilməsi
- uşağa olan təsirin qiymətləndirilməsini təmin etməklə bütün hökumətdəki siyasi inkişaf proseslərində uşaqların mövcudluğunun nəzərə alınması
- uşaqlara sərf olunan dövlət vəsaitlərinin həcmini müəyyənləşdirmək və bu resursların səmərəli surətdə istifadə olunduğuna təminat vermək üçün müvafiq büdcə təhlilinin yerinə yetirilməsi
- hər bir yurisdiksiyada bütün uşaqların vəziyyətini yaxşılaşdırmaq üçün lazımi məlumatların toplanıldığına təminat verilməsi
- hökumətin siyasi kursunun müəyyənləşdirilməsində iştirak edən və uşaqlarla və ya onlar üçün çalışan bütün şəxslərə təlim keçməklə konvensiya barədə məlumatlılığın artırılması və informasiyanın yayılması
- uşaqların hüquqlarının yerinə yetirilməsi və bu barədə məlumatlılığın artırılması prosesində vətəndaş cəmiyyətinin – o cümlədən, uşaqların özlərinin – cəlb olunması
- uşaqların hüquqlarını dəstəkləmək üçün müstəqil əsasnaməli idarələrin – ombudsmanların, komissiyaların və digər institutların - təsis edilməsi

Hər halda bütün dünyada uşaqlara hörmət edilməsinə təminat verilməsi üçün asan yol mövcud deyildir. Uşaqların hüquqlarının pozulmasının qarşısının alınmasında Birləşmiş Millətlər Təşkilatının, milli konstitusiya aktlarının və vətəndaş cəmiyyətinin rol oynamasına baxmayaraq, zorakılıqlar hələ də baş verir.

Bununla yanaşı, ölkənin iqtisadi rifahı uşaqların hüquqlarının müdafiə olunacağına heç bir zəmanət vermir. Qərb ölkələrində xidmət sahəsində artım və irəliləyişlər bütün uşaqlar üçün həmişə optimal uşaqlıq təcrübəsinə gətirib çıxarmamışdır. Bir çoxları yoxsulluq vəziyyətində və ya əhalinin həddindən artıq sıx olduğu şəraitdə və yaxud yararsız mənzillərdə yaşayır. Əksəriyyəti zorakılığa və laqeydliyə məruz qalır və infrastruktur xidmətləri onların ehtiyaclarının yerinə yetirilməsini ləngidir. Xeyli uşaq təhsil çatışmamazlığına, oyun və istirahət yerlərinin zəifliyinə görə inkişafdan qalır.

## Uşaqların hüquqlarının reallaşdırılmasında mövcud olan problemlər

Hər bir cəmiyyətdə uşaqların hüquqlarının müdafiəsinə zidd olan ənənələr və təbəqələr mövcuddur. Bəzən, cəmiyyətdəki geniş miqyaslı dəyişikliklər onların hüquqlarını təhlükə altında qoyur. Hökumətlər uşaqları necə itirir və ya Uşaq Hüquqları haqqında Konvensiyanın səmərəli icrasında müvəffəqiyyətsizliyə necə uğrayır? Bu nöqsan çox vaxt uşaqlara böyük üstünlüyin verilməməsi nəticəsində yaranır. Siyasi liderlər, siyasətçilər və hökumət rəsmiləri uşaqların həyat tərzinin vəziyyətini dərk etməyə və uşaqların hüquqlarının reallaşdırılmasında öz öhdəliklərini büruzə verməyə bilərlər. Məsələn, uşaqlar hökumətin siyasi kursunun müəyyənləşdirilməsində çox vaxt nəzərdən keçirilmir.

Uşaqların cəmiyyətdə məsuliyyətli iştirakının gücləndirilməsi mühüm bir sahədir. Hökumətlər siyasətdə uşaqların fikirlərini öyrənməlidirlər və bunu ciddi olaraq qəbul etməlidirlər. Lakin uşaq-

larla məsləhətləşmək üçün həmişə formal kanallar mövcud olmur. Uşaqların öz fikirlərini ifadə etmək hüququna malik olduğu və onlara toxunan bütün məsələlərdə həmin fikirlərə lazımi diqqət yetirildiyi barədə konvensiyanın tələbi qanunvericilikdə əks etdirilməlidir.

Uşaqlara aid strategiyalarla əlaqədar hökumət idarələri arasında tez-tez qeyri-adekvat əlaqələndirməyə rast gəlinir. Uşaqlar üzrə optimal strategiyalar yerli səviyyədə səmərəli şəkildə həyata keçirilməlidir və onun konvensiyaya uyğun olduğuna və uşaqların hüquqlarını dəstəklədiyinə təminat verilməsi üçün bütün qanunvericilik aktları davamlı olaraq nəzərdən keçirilməlidir.

Bəzən nöqsan uşaqların hüquqlarını dəstəkləyən fəaliyyət növlərinə ayrılan məhdud resursların səmərəli şəkildə istifadə edilməməsi səbəbindən yarana bilər. Uşaqlara xidmət göstərilməsinə yönələn büdcə vəsaitlərinə nəzərən mükəmməl idarəetməyə yerli və milli səviyyədə ehtiyac vardır. Həmçinin hökumət daxilində uşaqlara olan təsirin qiymətləndirilməsi və hesablanması yerinə yetirilməlidir.

Uşaqların insan hüquqlarına dair məlumatın yayılmasında problemlər meydana gələ bilər. Hər bir ölkə uşaqların hüquqlarına dair məlumatın uşaqlar və yaşlılar arasında yayılması üçün müfəssəl plana malik olmalıdır. Uşaqlar, onlarla birlikdə çalışanlar və ümumiyyətlə geniş ictimaiyyət arasında konvensiya haqqında bilgilərin dərəcəsini müəyyən edilməsi üçün tədqiqat aparılmalıdır. Hər halda, uşaqların hüquqlarının qorunması tapşırığı ilə yalnız hökumətlər deyil, cəmiyyətin bütün üzvləri məşğul olmalıdırlar. Konvensiyada ifadə olunan normalara və prinsiplərə hər kəs tərəfindən – ailə daxilində, məktəblərdə və uşaqlara xidmət göstərən digər müəssisələrdə, icmalarda və inzibati idarəetmənin bütün səviyyələrində hörmət edildikdə, yalnız bu halda onlar reallığa çevrilə bilər.

Hazırda uşaqlar sadəcə inkişaf etməkdə olan varlıqlar kimi deyil, insan olaraq qəbul edilməlidirlər. Onlar doğulduğu andan tam canlı varlıq hesab olunurlar və öz məxsusi hüquqlarına malikdirlər. Onlar illər keçdikcə dəyişəcək və inkişaf edəcəkdir, lakin cəmiyyət uşaqlığı məhz yetkinlik dövrünə doğru bir mərhələ kimi deyil, öz hüququ ilə dəyərləndirməlidir. Bu prinsip sosial proqramlar və xidmətlər üzrə nəzərdə tutulur; bu, uşaqların təcrübəsinin indiki anında onlarla birgə işləməyi vurğulayır.

Hər halda uşaqlara dair məsələlərə qarşı siyasi reaksiyalar uşaqlıq dövrünün necə qısa və həlledici təsirə malik olduğu barədə tez-tez cüzi aktuallıq və məlumatlılıq mənasını kəsb edir. Digər strategiyanın işlənib hazırlanmasına baxmayaraq, uşaqlıq dövrü durğun vəziyyətdə deyildir. BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının təsdiq olunmasından etibarən yaxın iki onillik ərzində uşaqların ən azı bir nəsli öz uşaqlığını yaşamışdır.

## Uşaqların hüquqları sahəsindəki çətinliklərə qarşı reaksiya

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının ratifikasiya edilməsindən sonra bütün qanunvericilik aktlarının, siyasi kursun və praktikanın onun prinsiplərinə və normalarına uyğun olduğuna təminat verilməsi dövlətlərdən tələb edilir. Lazım gəldikdə, hüquqi islahatlar aparılmalıdır; məsələn, evdə və təhsil müəssisələrində uşaqların zorakılıqdan müdafiə edilməsi üçün. Həmçinin Uşaq Hüquqları Komitəsi tövsiyə edir k, hökumətlər uşaqların hüquqları üzrə müvəkkillərin və ya ombudsman aparatlarının təsis edilməsi vasitəsilə konvensiyaya nəzarət olunduğuna və onun nəzərdən keçirildiyinə təminat vermək üçün müstəqil mexanizmləri işləyib hazırlayırlar.

Ölkələr konvensiyanı icra etdikcə, artan sayda müstəqil idarələr yaradılır. Bütün hallarda bu idarələrin hökumət və ya parlament tərəfindən yaradılmasına baxmayaraq, onların müstəqilliyi – uşaqlar üçün sərbəst surətdə hüquq müdafiə etmək qabiliyyəti mühüm xüsusiyyət kimi səciyyələnir. Bu institutların yaradılması uşaqlara qarşı xoş məramın təcəssümüdür ki, bununla onlar konvensiya əsasında öz öhdəliklərini ciddi surətdə yerinə yetirir və uşaqlarla rəftarına görə müstəqil idarə qarşısında məsuliyyət daşımağa hazırdırlar.

Gənc vətəndaşlara qoyulan investisiyaların onların sayına və tələbatına mütənasib olduğuna təminat vermək məqsədilə uşaqlara ayrılan büdcə vəsaitlərinin proporsiyasının təhlil edilməsi hökumətlərdən tələb olunur. Çox vaxt hökumətlər uşaqların rifahının və insan haqlarının gücləndirilməsinə vəsaitlərin nisbətən az ayrılmasını ört-basdır etməklə, sosial xərcləri birləşdirirlər.

İctimaiyyətin bütün üzvləri, o cümlədən uşaqlar arasında konvensiyanın prinsiplərinin və normalarının dəstəklənməsi ölkələrdən tələb olunur. Hökumətlər hüquq sahibləri kimi uşaqların sosial məlumatlılığını icbari surətdə artırmalıdırlar. Onlar həmçinin təminat verməlidirlər ki, səhiyyə və penitensiar müəssisələrdə çalışanlar daxil olmaqla uşaqlarla birgə işləyən bütün peşəkarlara konvensiyanın gündəlik praktikada necə tətbiq olunması haqda təlim keçirilməlidir.

Konvensiyanın ratifikasiya edilməsi və dəstəklənməsi uşaqların hüquqlarını təmin edən QHT-lərin sayında və təsir dairəsində sürətli artıma səbəb olmuşdur; bir çox Avropa ölkələrində uşaqların hüquqları naminə çalışan QHT-lərdən ibarət koalisiyalar, o cümlədən Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi formalaşmışdır (UHİŞ). Onlar uşaqlar üçün müstəqil hüquq müdafiəçiləri kimi başlıca rol oynayır.

İnsan Haqları Mərkəzi bəyan etmişdir ki, «insan haqlarının ümumbəşəri mədəniyyətinin inkişafında xüsusi rola malik olan aidiyyəti icma və qeyri-

hökumət təşkilatları beynəlxalq insan hüquqları normalarının yerinə yetirilməsinə əlavə dəstək verir». Bununla əlavə edilmişdir: «Öz xarakterinə görə qeyri-hökumət təşkilatları fikir azadlığına, fəaliyyət çevikliyinə və hərəkət azadlığına malikdir ki, bu da müəyyən vəziyyətlərdə onlara hökumətlərin və hökumətlərarası təşkilatların yerinə yetirə bilmədiyi və ya hətta yerinə yetirmək istəmədiyi tapşırıqları icra etməyə imkan yaradır.»

Vətəndaş cəmiyyətinin bir hissəsi kimi media peşəkarları da məsuliyyət daşıyırlar. Jurnalistlərin uşaqların hüquqları ilə bağlı zorakılıq hallarının aşkar edə və məlumatlılığı artıra biləcəyinə baxmayaraq, onlar uşaqların necə nəzərdən keçirilməsinə və təsvir edilməsinə geniş təsir göstərə bilərlər. Jurnalistlər öz fəaliyyətinin nəticələri barədə məlumatlı olmalıdırlar; media peşəkarları ictimai rəyi formalaşdırır və davranışa təsir edirlər.

Medianın bu nüfuzlu mövqeyi onu göstərir ki, bu, xüsusən uşaqların hüquqlarını düzgün şəkildə əks etdirdiyinə və onlara hörmət etdiyinə təminat verilməsi üçün daxili qaydada tənzimlənməlidir.

## Qiymətləndirmə təlimatı

Öz ölkənizdə uşaqların adından hüquq müdafiə edən qrupları müəyyənləşdirin. Onlara hüquqlara əsaslanırmı? Onlar öz işlərində uşağın fikrinə dəstək göstərirlərmi?

## Sonrakı şərh və resurslar

*Avropa Uşaqları üzrə Ombudsmanlar Şəbəkəsinin (AUOŞ) Təlim Paketi:* Uşaqların insan hüquqlarının dəstəklənməsi üzrə müstəqil əsasnaməli idarələrin formalaşdırılması sahəsində çalışanlar – uşaqlar üzrə ombudsmanlar və uşaqların hüquqları üzrə müvəkkillər üçün Avropa Uşaqları üzrə Ombudsmanlar Şəbəkəsinin işləyib hazırladığı məlumat və təlim paketi:

http://www.ombudsnet.org/docs/informationand-trainingpack.pdf

*Sosial Fəaliyyət və Uşağın Hüquqları*: BMT Konvensiyasına dair Peşəkar Təlim Vəsaiti, Beynəlxalq Sosial İşçilər Federasiyası, 2002.

*Ümumdünya Uşaqlarının Vəziyyəti 2006*, BMT Uşaq Fondu.

*Milli İnsan Haqları İnstitutları*, İnsan Haqları Mərkəzi, Peşəkar Təlim Silsiləsi № 4, İnsan Haqları Mərkəzi, Cenevrə, 1995, paraqraf 15

*Uşaqların Doğru Yola İstiqamətləndirilməsi,* Beynəlxalq Jurnalistlər Federasiyası, 2002.

*Ritorikadan Hüquqlara Doğru*: BMT-nin Uşaq Hüquqları Komitəsinin İkinci Alternativ Hesabatı, Uşaqların Hüquqları Birliyi, 2006.

# 5. MEDİADA TƏMSİL OLUNMA, UŞAQLARIN HÜQUQLARI VƏ PEŞƏ MƏSULİYYƏTİ

## ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Uşaqların mediada təmsil olunması
- Mediada stereotipləmə
- Uşaqların hüquqlarının pozulması
- Uşaqların müdafiəsi

MEDİA peşəkarları uşaqların hüquqları ətrafındakı sosial mobilizasiyanın aparılmasında mühüm rola malik kimi qəbul edilirlər. Onlar əsasən digərlərinin cinayətləri və səhlənkarları barədə müxbir kimi fəaliyyət göstərməyə cəlb oluna bilərlər, lakin buna baxmayaraq onlar bu prosesdə katalizator funksiyasını yerinə yetirirlər. İctimai marağın nəzarətçisi və demokratik mübadilənin təşkilatçısı kimi onlar həmçinin uşaqların obrazının, hüquqlarının və perspektivlərinin təkmilləşdirilməsi prosesində mühüm rol oynayırlar.

## Uşaqların mediada təmsil olunması

Medianın nüfuzlu mövqeyə malik olmasına baxmayaraq, onlar həmişə uşaqların hüquqları üzrə müttəfiq olaraq fəaliyyət göstərmirlər. Biz gənclərin mediada təsvir edildiyi üsulla necə bədbəxt olduqlarını artıq müzakirə etmişik və tədqiqat layihələri uşaqların dünya miqyasında mediada necə təcəssüm etdirilməsi ilə oxşarlıqları göstərmişik.

2003-cü ilin noyabr ayında MediaVays təşkilatı geniş formatlı üç Britaniya afişasının və Bazar günü çıxan kiçik formatlı qəzetlərin ani şəklini çəkmişdir. Nəticələr uşaqların təsvirini qəmgin surətdə təqdim etmişdir. Uşaqlara dair 32 məqalədən yalnız ikisi uşaqların hüquqlarına nəzərən müsbət şəkildə verilmişdir. Üç məqalədə isə valideynlərin hüquqları uşaqların hüquqlarından daha çox müdafiə edilmişdir.

Stereotipləmə Birləşmiş Krallıqda aparılan bir sıra tədqiqatlarla müəyyən edilmişdir. 2004-cü ildə *Müasir Gənclər* jurnalı üçün Beynəlxalq Bazar və Rəy Tədqiqatı (BBRT) tərəfindən aparılan araşdırma göstərmişdir ki, gənclər artan dərəcədə «problemlər» kimi qələmə verilmişdir. 2004-cü ildə bir həftə ərzində Birləşmiş Krallığın milli və yerli qəzetlərində onlar barədə dərc olunan əhvalatların 71%-i mənfi, 14%-i müsbət xarakterli və yalnız 15%-i bitərəf olmuşdur. Cinayət və zorakılıq haqqında əhvalatların 48%-ində gənclər cinayətkarlar kimi təsvir edilmişdir. Ümumilikdə onların 70%-i oğlanları təqsirkar kimi və yalnız 32%-i oğlanlar zərərçəkmiş kimi təcəssüm etdirilmişdir. Əhvalatların 10%-ində qızlar təqsirkar kimi və 91%-ində zərərçəkmiş kimi göstərilmişdir. Mediada canlandırılan təəssürata zidd olaraq, rəsmi cinayət statistikası onu göstərir ki, qızlara nisbətən oğlanlar zorakılıq cinayətlərinin daha çox qurbanı kimi ehtimal olunur.

Digər tədqiqat layihələri müəyyən etmişdir ki, uşaqların bu stereotipi beynəlxalq fenomen hesab olunur. Medianı gənclərin mülki fəaliyyətini diqqət mərkəzində saxlamamaqda ittiham edən Qlokal Gəncləri təşkilatı tərəfindən aparılan tədqiqat Avropada geniş yayılmış kütləvi informasiya vasitələri arasında oxşar tendensiyaları aşkar etmişdir: *«Xüsusən biz gənc immiqrantlar haqqında danışırıqsa, gənclər adətən problemlərin, cinayətlərin, zorakılıq əyalətləri, narkotik maddələrin və eyş-işrət məclislərinin sinonimləri kimi nəzərdən keçirilir. Bu obrazlar xüsusən bəzi sənədli filmlərdə və jurnallarda (nəşr olunmuş və audio-vizual şəkildə) özünü büruzə verir ki, bu da şəhər mədəniyyətini təcəssüm etdirir.»*

2003-cü ildə Media Monitorinq Layihəsi Cənubi Afrikanın xəbər mediasında uşaqların və uşaqların hüquqlarının təmsil olunmasını araşdırmışdır. Uşaqlara və Mediaya Etibar Edilməsi layihəsi müxtəlif mərhələlərdən, o cümlədən uşaqların iştirakı ilə praktiki seminarlardan, üç aylıq monitorinq müddətindən, jurnalistlər və media praktikantları ilə ixtisaslaşdırılmış təlimdən ibarət olmuşdur. Yaşlılar və uşaqlar kütləvi informasiya vasitələrini müşahidə etmişlər. Uşaqlara istinad edən hər bir məqalə qeyd olunmuş və uşaqların hüquqları ilə bağlı mövzu, mənbələr, təmsilçilik və digər məsələlər barədə müvafiq məlumatlar yazılmışdır. Uşaqlar iki həftə müddətində öz seçimləri haqda informasiyanın ya-

yılma vasitəsini müşahidə etdikləri paralel layihəyə cəlb olunmuşlar. Tədqiqatın əsas nəticələri aşağıdakı kimidir:

*1. Uşaqlar kütləvi informasiya vasitələrində kifayət qədər təmsil edilmirlər.* Yaşlıların müşahidəsinə görə, uşaqlar informasiya videosüjetlərinin yalnız 6%-ində səciyyələndirilir, halbuki uşaqların müşahidəsi əhvalatların yalnız 26%-ində onların əhatə olunduğunu aşkar etmişdir.

*2. Uşaqlar əsasən qurbanlar kimi təcəssüm etdirilirlər.* Yaşlıların müşahidəsinə uyğun olaraq, xəbər süjetlərinin 25%-indən çoxu uşaqları zərərçəkmişlər kimi təsvir etmişdir. Bütövlükdə, uşaqlar ən çox mənfi şərtlərlə və məhdud rollarla təsvir olunurlar. Uşaqların monitorinqi bu tendensiyaları təsbit etmişdir. Uşaqlar iradlarına görə, media uşaqların daha müsbət rollarda canlandırılmasına səy göstərməlidir.

*3. Uşaqlar daha çox mənfi əhvalatlarda təmsil edilirlər.* Yaşlıların və uşaqların monitorinqi aşkar etmişdir ki, uşaqların ekranlaşdırıldığı informasiya materialları əsasən mənfi xarakterli olmuşdur. Yaşlıların müşahidəsinə görə, uşaqlardan bəhs edən iki əhvalatdan biri mənfi mövzularla, o cümlədən cinayət, zorakılıq, təhqiramiz davranış və ya qəzalarla əlaqədar olmuşdur.

*4. Oğlan və qız uşaqları qərəzsiz şəkildə təmsi olunurlar, lakin hələ də stereotipləşdirilirlər.* Bu əyani bərabərliyə baxmayaraq, sonrakı təhlil uşaqların necə təmsil olunduğu barədə cins stereotiplərinin saxlanıldığını nümayiş etdirmişdir. Oğlanların ən çox idmanla bağlı əhvalatlarda göstərildiyi halda, qızlar daha çox uşaq zorakılığına dair əhvalatlarda göstərilmişdir. Bu, mediada qadınların qurbanlar kimi, kişilərin isə qüdrətli kimi stereotip şəklində canlandırılmasını möhkəmləndirir.

Aşağıdakı cədvəl uşaqların medianı müşahidə etmələri zamanı ən mühüm məsələlər uşaqlar tərəfindən müəyyənləşdirilən məsələləri yekunlaşdırmışdır.

Uşaqlara və Mediaya Etibar Edilməsi layihəsinin nəticələri uşaqların mətbuatda və radio və televiziya yayımında təmsil olunmasına olan münasibətlərini əhatə etməklə, 1998-ci ildə Uşaqların Xilası təşkilatı tərəfindən aparılan tədqiqatı əks etdirir. Bu, müəyyən etmişdir ki, uşaqlar ən çox onların media tərəfindən davranılması barədə xoşlamadıqları xəbərlərə nəzərən tam səmimi olmuşlar:

- yaşlıların güldürülməsi üçün uşaqların ciddi iradlarının istifadə olunması
- məftunluğu artırmaq üçün hazırcavab uşaqlardan istifadə edilməsi
- emosiya doğurmaq üçün ağır vəziyyətdə olan uşaqların şəkillərindən və təsvirlərindən istifadə edilməsi, hətta bu, uşaqların özünəhörmət hissi və auditoriyanın onlara hörmət etməsi üçün heç bir əhəmiyyət daşımasa belə.
- uşaqların himayə olunması və onlarla söhbət aparılması
- uşaqlar mövzu haqqında daha çox bilgiyə malik olduqda yaşlıların uşaqlar üçün fikir ifadə etmələri
- uşaqların heyvan sirklərindəki kimi hərəkət etdirilməsi
- yaşlıların tərəfindən uşaqların etinasızlığının nümayiş etdirilməsi
- yaşlıların uşaqların danışmasına imkan verməməsi və ya onların sözünü kəsməsi
- uşaqlar passiv olmayanda onların passiv kimi görünməsi
- «gənclik» adlanan problem qrupu kimi gənclərin birləşdirilməsi

## Mediada stereotipləmə

Konvensiyanın şərtlərinə əsasən uşaqlar cəmiyyətin müdafiə ediləcək altqrupu kimi hesab olunur. Uşaqlara qarşı təhlükələr oxucuların və auditoriyanın fikirlərinin qavranılması üçün istifadə oluna bilən güclü emosional reaksiyalar doğurur. Bunun-

| Uşaqların Başlıca On Məsələsi | % |
|---|---|
| Uşaqların xəbəpdarlığı/onlar ölümü və qətli xoşlamırlar | 15 |
| Üşaqlar xəbərlərə daxil edilməməlidirlər | 13 |
| Uşaqlar qurbanlar kimi hesab edilirlər | 12 |
| Uşaqlar mediada təmsil olunmurlar. | 10 |
| Uşaqlar müdafiə olunmaq, təhsil, təminat və sağlamlıq hüququna malikdirlər | 9 |
| Uşaqlar idman növlərindən və əyləncədən istifadə edirlər | 9 |
| Uşaq zorakılığı dəhşətlidir | 4 |
| Uşaqların xəbərdarlığı ilə cinayətkarlıq | 3 |
| Ehtiyacı olan uşaqlar/gənclərə kömək etmək yaxşı hal hesab olunur | 2 |
| Cinayətkarlar cəzasız qalmamalıdırlar | 2 |

la uşaqların əhvalatları və obrazları onlar üçün sosial əhəmiyyətlilik dərəcəsində özlərinin marketinq potensialı üzrə dəyərləndirilə bilər. Nəticədə, uşaqlar tez-tez mediada qurbanlar və yaxud yaşlıların «hazırcavab» törəmələri kimi təcəssüm etdirilir.

Uşaqların bu görünüşü məsumluq dövrü kimi uşaqlığın ümumbəşəri qavranılmasını əks etdirə bilər. Onların məftunluğu yaşlılarda müdafiəçilik, həsrət və üstünlük hissini aşılayır. Əgər onlar uğursuzluqdan zərər və ya əziyyət çəkirsə, yaşlılar rəğbət və mənəvi pozğunluğun ifadə edilməsi zərurətini hiss edirlər. Hər halda nəticədə uşaqlara vətəndaşlıqdan aşağı səviyyədə status verilir.

Uşaqların qurbanlar kimi və ya yaşlıların «hazırcavab» törəmələri kimi canlandırılması onlar haqqında məhdud və saxta təəssürat yaradır. Media bu meylin müəyyən olunduğu kimi xəbərlərin qeyri-adi hallar üzərində cəmləşməsi faktına söykəndiyini iddia edə bilər.  Lakin həmin fakt insanların onların ətrafında nə baş verdiyini daha yaxşı anlaya bilməsi üçün cəmiyyətin əks etdirilməsində medianın bərabər əhəmiyyətli rolunu nəzərə almır. Media praktikantları qavrayışların çox vaxt faktlardan daha güclü olduğu barədə əksər insanlardan daha çox məlumatlıdır.

Gənclərin qavrayışlarını təhrif etməklə kütləvi informasiya vasitələri həm uşaqlara, həm də geniş ictimaiyyətə xələl gətirir. Həmçinin onlar uşaqların hüquqlarını poza bilər.

## Uşaqların hüquqlarının pozulması

Uşaqların hüquqlarının qeyri-münasib nümayiş və media stereotipləməsi ilə pozula biləcəyi bir sıra üsullar mövcuddur. İnsan Haqları və Əsas Azadlıqlara dair Avropa Konvensiyasının (İHƏAAK) səkkizinci maddəsi ailəyə və şəxsi həyata hörmət hüququnu dəstəkləyir; 14-cü Maddə ayrı-seçkiliyin qadağan olunmasına dəstək verir.

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına əsasən uşaqların hüquqlarına daxildir:

- Maddə 12: uşaqların onlara toxunan bütün məsələlərdə öz fikirlərini sərbəst ifadə etmək hüququ
- Maddə 13: uşaqların fikir azadlığı hüququ «milli təhlükəsizliyin və ya ictimai asayişin... və ya ictimai səhiyyənin və ya mənəviyyatın» qorunması üçün lazım gəldikdə qanunla məhdudlaşdırıla bilər.
- Maddə 16: «şəxsi həyat, ailə, ev və ya analoji olaraq... şərəf və nüfuza» müdaxilə edilməsinə və ya zərbə vurulmasına qarşı müdafiə.
- Maddə 17: medianın əhəmiyyətinin qəbul edilməsi və «uşağın onun rifahına xələl gətirən məlumat və materialdan qorunması üçün uşağa sosial və mədəni fayda verən materialın yayılması və müvafiq təlimatların işlənib hazırlanmasının stimullaşdırılması»

Bu maddələr məsuliyyətsiz media praktikaları ilə uşaqların pozula bilən hüquqlarını aydın şəkildə müəyyən edir. Xüsusən UHK-nın 17-ci Maddəsi uşağın rifahının yüksəldilməsinə medianın məsuliyyət daşıdığını təsbit edir.

Uşaqların hüquqlarının pozulmasına qeyri-həssas xəbər verilməsi və ya yanlış təmsilçilik və ya uşaqların müxtəlif məsələlər barədə fikirlərini ifadə etmələri üçün yer ayrılmasından imtina edilməsi daxildir.

## Uşaqların müdafiəsi

Az qism insanların dövlətin müstəqil mediaya müdaxiləsini qəbul edəcəyinə baxmayaraq, uşaqların müdafiə olunmaq zərurəti bəzi ərazilərdə müdaxiləyə səbəb olmuşdur. Məsələn, 1933-cü ilin Uşaqlara və Gənclərə dair Aktının 39-cu bölməsinə əsasən, Birləşmiş Krallığın qanunvericiliyi məhkəmə işlərinə cəlb olunan gənclərin müəyyənləşdirilməsinin qarşısını alır. Bu qanun təsdiq edir ki, gənc cinayətkarlar media şöləsi və ictimai məzəmmət olmadan özlərini islah etmək imkanına layiqdirlər. Lakin bəzi hallarda hətta bu qabaqlayıcı tədbirlər qənaətbəxş olmamışdır; media uşaqların birbaşa eyniləşdirilməsini cinayətkarların stereotip formasında müəyyən olunması ilə əvəz etmişdir.

Uşaqların mediada məsuliyyətli şəkildə işıqlandırılmasını stimullaşdırmaq üçün 1998-ci ildə özünəməxsus təşəbbüs göstərən Beynəlxalq Jurnalistlər Federasiyası kimi təşkilatların səylərinə baxmayaraq, uşaqların stereotiplənməsinin bu növü hər bir qitədə əyani şəkildə mövcuddur.

Lakin uşaqların mediada işıqlandırılması nadir hallarda jurnalistika təlimi ilə səciyyələnir, çünki ümumiyyətlə jurnalistlər böyük auditoriya üzrə yaşlı mühitində yaşlılara aid mövzulardan bəhs edirlər. Yeni sosial və maliyyə strategiyalarının uşaqlara necə təsir göstərə biləcəyi barədə əhvalatların məsələn, uşaq imtiyazlarına və ya tədris kursuna şamil edilməsinə qədər onların nəzərdən keçirilməsi qeyri-adi hesab olunur. Gənclərin özlərinin hadisə anında baş verən məsələlər haqqında iradlarını bildirən qəzetlərə hələ də nadir hallarda rast gəlinir. Bunlardan əlavə, onlar əksər jurnallar və qəzetlər üçün başlıca bazar predmeti hesab olunmurlar.

Bu baxımdan uşaqlar media peşəkarları tərəfindən ciddi olaraq qəbul edilməyə bilər, çünki onların əsas hədəfi yaşlı bazarından ibarətdir. Uşaqlar spesifik şəkildə onlar üçün hazırlanmayan əsas media məhsullarının istehlakçısı olduqda, çətinlik yaranır. Xəbərlər başlıca surətdə yaşlılar üçün və haqqında hansısa bir məlumat kimi hesab edilir.

Başqa bir təhlükə odur ki, bu yaşlı bazarında uşaqlar potensial zərərli materiallardan, o cümlədən

zorakılıq, seks və uşaqların «seksuallaşdırılmış» obrazlarının təsvirindən istifadə edirlər. Kommunikasiyanın internet kimi yeni formalarının inkişafı xüsusən internetdə material üzərində cüzi nəzarətin olması və yaxud heç olmaması səbəbindən ictimai narahatlığı artırmışdır.

Bu cür narahatlığın uşaqların davranışına birbaşa təsir göstərdiyi əhatə dairəsi haqqında müzakirələrin aparılmasına baxmayaraq, uşaqların müəyyən materialdan, o cümlədən zorakılığa və yersiz seksual fəaliyyətə imkan verən və yaxud onu stimullaşdıran obrazlı təsvirlərdən asanlıqla istifadə etməsi ilə onların vəhşiləşmədiyinə və ya risk altında olmadığına təminat verilməsi üçün media istehsalçıları arasında prioritet olaraq qalmalıdır.

Uşaqlar arasında media savadlılığı məsələsinə diqqət yetirilməlidir. Vacib sayılan odur ki, uşaqlar medianın vətəndaş cəmiyyətindəki rolunu qiymətləndirməli və jurnalistlərin uşaqların ehtiyacları, narahatlıqları və hüquqları məlumatlı olması üçün onlar bu amili tənqidi surətdə nəzərdən keçirməyə qadir olmalıdırlar.

BMT Uşaq Fondunun rəyinə əsasən, müasir media tənqidinin öyrədilməməsi «təhsildə buraxılmış ən böyük imkan» hesab edilir. Britaniya Parlamentinin üzvü Tessa Cauvel fərz etmişdir ki, səmərəli media tənzimlənməsi ilə birlikdə media savadlılığı media tərəfindən təmsil olunan dünya aləmi ilə münasibətlərində uşaqlara etibar edilməsi üçün ən mükəmməl vasitədir.

## Yeni nəsil üçün media

Son illərdə medianın geniş vüsət almasına baxmayaraq, yeni minilliyin başlanğıcında BMT Uşaq Fondunun icraçı direktoru 17 ölkədən olan 70 gənc media fəalı ilə internet vasitəsilə dialoq qurarkən onun aldığı yekdil mesaj medianın gənclərin tələbatlarına uyğun gəlməməsi ilə səciyyələnmişdir.

Stereotipləməyə yol verməməklə bütün nəticələri ilə birlikdə media uşaqların və gənclərin işıqlandırılmasına doğru öz yanaşma metodunu yenidən nəzərdən keçirməli və media savadlılığını artırmalıdır. Depressiyalı xəbərlər və onların yanlış təmsil olunması ilə məyusluğa düçar olan uşaqların yeni nəsli artır; öz əllərindəki yeni texnologiya ilə onlar özünəməxsus onlayn rejimində media vasitəsini yaradırlar və media istehsalının ənənəvi metodlarından yan keçirlər.

Biz artıq Bebo, Yutube və Mayspeys adlı onlayn rejimli icmaların və yayım kanallarının yaradılmasını nəzərdən keçirmişik. 2007-ci il ərzində ABŞ-ın vitse prezidenti Al Qor bədii tərtibatı bütövlükdə gənc tamaşaçılar tərəfindən hazırlanmaqla gənclər üçün yeni kabel kanalının, Cari Televiziyanın əsasını qoydu. Cənab Qorun sözlərinə görə, bu, «dinləyicilərə demokratiya dialoqunda iştirak etməyə» və auditoriyaya öz televiziya paketlərini hazırlamağa imkan verəcək. O, bildirmişdir ki, tamaşaçılar üçün öz fikirlərinin dinlənilməsini asanlaşdırmaqla konsepsiya «televiziyanı mediaya çevirə» bilər.

Kütləvi informasiya vasitələrinin gənclər üçün hazırladıqları ilə kifayətlənməyərək, onlar ənənəvi mediasız keçinirlər və özlərinin gündəliyini yaradırlar. Bunun gələcək kütləvi informasiya vasitələrinə və ənənəvi (kommersiya) populyar mədəniyyətə mühüm təsiri ola bilər.

## Peşə məsuliyyəti

Jurnalistlər onların fəaliyyət göstərdiyi şəraitə kiminsə diktə etməsinə imkan verməkk üçün ixtiyari surətdə meyl göstərmirlər. Onlar kənar təzyiqlərdən pərt olurlar və qüdrətli elitanın niyyətlərinə şübhə ilə yanaşırlar. Jurnalistlər etinasızlığın nümayiş etdirilməsinə yönələn həyat tərzlərini və şəxsi azadlıqlarını itirmişlər ki, bu da digər şəkildə mətbuat azadlığı üzərindəki məhdudiyyətlər səbəbindən gizli qalmışdır.

Media peşəkarları öz vəzifələrini vətəndaş cəmiyyəti üzərində hökmranlıq edənlərin məsuliyyətə cəlb edilməsi kimi nəzərdən keçirirlər. Jurnalistlər onların müstəqilliyini qoruyurlar. Vətəndaş cəmiyyətində onların ən mühüm rolu ictimai marağın müdafiəçisi kimi fəaliyyət göstərmək və demokratiyanın və insan hüquqlarına hörmətin reallaşdırılması üçün vacib olan məsələlər barədə müzakirələri, məlumatlılığı və ictimai məqbulluğu yüksəltməkdən ibarətdir. Jurnalistlərin bu rolu yerinə yetirmək bacarığı onların inhisarçı dairələrin qulluqçusuna çevrildiyi dərəcədə zəifləyir.

## Özünütənzimləmə

Jurnalistlər media ittifaqı, peşə assosiasiyası və ya işəgötürən tərəfindən nəşr edilmiş davranış kodeksinə tərəfdardırlar. Lakin praktikada əksər jurnalistlər məcəllələrdə dəqiqləşdirmələr aparmaq barədə qeyri-müəyyən ideyaya malikdirlər və öz prinsiplərinin ümumi anlaşılmasına əsaslanırlar. Digər tərəfdən, uşaqlar onların insan hüquqları qorunmalı olduqda, dəqiq protokollar tələb edirlər.

Uşaqların yaşayış tərzi və rifahına toxunan jurnalistika fəaliyyəti uşaqların perspektivinin qiymətləndirilməsi ilə daim həyata keçirilməlidir. Jurnalistlər və media təşkilatları uşaqların hüquqları haqda xəbər hazırlayarkən etik davranışın ən yüksək normalarına riayət etməlidirlər.

BBC və Ofkom təlimatları Mətbuat Şikayətləri Komissiyasının nəzarət etdiyi peşə kodeksinin Britaniya media sahəsi tərəfindən yerinə yetirildiyi kimi uşaqların hüquqlarının qorunmasını xüsusi vurğulayır. Onlar qəbul edirlər ki, media praktikasının uşaqların hüquqları ilə toqquşmadığına təminat verilməsi üçün media peşəkarları diqqət yetirmək öhdəliyinə malikdirlər.

## BJF-NİN TƏLİMATLARI

Beynəlxalq Jurnalistlər Federasiyası (BJF) uşaq hüquqlarını peşə əxlaqı normalarına daxil etmişdir və məlumatlılığın artırılmasında proqramlar həyata keçirir. Bu, «sensasiyalı xəbərlər» üzrə jurnalistlər və media üzərindəki kommersiya təzyiqlərinə qarşı müqavimət göstərərək və uşaqların ekranda görünməsinə və fikirlərinin dinlənilməsinə imkan verərək ittifaqlar arasında ən optimal praktikaya dair beynəlxalq mübadiləni dəstəkləyir.

BJF təlimatları, *Media və Uşaqların Hüquqları: Uşaqları Əhatə Edən Məsələlər barədə Xəbər Verilməsi üzrə Təlimatlar və Prinsiplər* sənədi 02 may 1998-ci ildə Braziliyanın Resife şəhərində keçirilməklə jurnalistika və uşaq hüquqlarına dair birinci ümumdünya beynəlxalq məsləhətləşmə konfransında 70 ölkədən olan jurnalist təşkilatları tərəfindən qəbul edilmişdir. Bu təlimatlar uşaqlara jurnalistlərin onların məsələlərinə və fikirlərinə ciddi yanaşdığını nəzərdən keçirməyə kömək edəcəkdir: Onlar deyirlər ki:

«Bütün jurnalistlər və media peşəkarları yüksək əxlaqi və peşə normalarını qoruyub saxlamalı və öz fəaliyyəti daxilində müstəqil jurnalistikanın həyata keçirilməsi üzrə Uşaq Hüquqlarına dair Beynəlxalq Konvensiya haqqında məlumatların mümkün dərəcədə geniş yayılmasına dəstək göstərməlidirlər.»

BJF təlimatları vurğulayır ki:

Media təşkilatları uşaqların hüquqlarının pozulması və uşaqların texniki təhlükəsizliyi, şəxsi həyatının toxunulmazlığı, fiziki təhlükəsizliyi, təhsili, sağlamlığı və sosial rifahı və istismarın bütün formaları ilə əlaqədar məsələləri araşdırmalar və ictimai müzakirə üzrə mühüm məsələlər kimi nəzərdən keçirməlidir.

Bu təlimatlarda aydın şəkildə müəyyənləşdirildiyi kimi yeganə istisna kimi uşaqlar şəxsi həyatının toxunulmazlığı üzrə mütləq hüquqa malikdirlər. Uşaqların yaşayış tərzinə və rifahına toxunan jurnalistika fəaliyyəti uşaqların ağır vəziyyətinin qiymətləndirilməsi ilə daim yerinə yetirilməlidir. Jurnalistlər və media təşkilatları uşaqların məsələləri haqda xəbərlərin verilməsində etik davranışın ən yüksək normalarına riayət olunmasına səy göstərməlidirlər.

Xüsusən, onlar:

1. uşaqları əhatə edən məsələlər barədə xəbər hazırlayarkən dəqiqlik və həssaslıq baxımından mükəmməl normalara nail olmalıdırlar;

2. uşaqlara xələl gətirən məlumatlar ilə onlara media məkanında müdaxilə edən proqramlara və rəsmlərin nəşrinə yol verməməlidirlər;

3. uşaqları əhatə edən jurnalistika fəaliyyətinin gücləndirilməsi üçün stereotiplərin və sensasiyalı təqdimatların istifadəsinə yol verməməlidirlər;

4. uşaqlarla əlaqədar hər hansı materialın nəşrinin nəticələrini diqqətlə nəzərdən keçirməli və uşaqlara olan zərəri minimuma endirməlidirlər;

5. ictimai maraqda nümayiş edilənə qədər təsirə məruz qalan uşaqları müəyyən edərək onları əyani və ya digər şəkildə qorumalıdırlar;

6. hər hansı növ motiv olmadan özünəməxsus fikirlərini ifadə etmək üçün uşaqların mümkün dərəcədə mediadan istifadə hüququnu təmin etməlidirlər;

7. uşaqlar tərəfindən verilən məlumatların sərbəst yoxlanılmasını təmin etməli və uşaq xəbərçilərini risk altında qoymadan məlumatın yoxlanıldığına təminat vermək üçün xüsusi diqqət yetirməlidirlər;

8. uşaqların seksuallaşdırılmış obrazlarının istifadəsinə yol verməməlidirlər;

9. uşaqların rəsmlərinin əldə olunması üçün qərəzsiz, açıq və birbaşa metodlardan istifadə etməli və mümkün olduqda, uşağın və ya məsul yaşlının, himayəçinin və yaxud qəyyumun məlumatı və razılığı ilə onları əldə etməlidirlər;

10. uşaqlar üçün danışmaq və ya uşaqların maraqlarının təmsil etmək niyyətini bildirən hər hansı təşkilatın etimadnamə/mandat sənədlərini yoxlamalıdırlar;

11. uşağın marağında əyani surətdə əks edilməyənə qədər uşaqların rifahına toxunan material üzrə uşaqlar və ya valideynlərə və yaxud uşaqların himayəçilərinə vəsait ödəməməlidirlər.

Həmçinin jurnalistlər BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının icrası barədə təqdim olunan hesabatları və öz hökumətlərinin irəli sürdükləri iddiaları tənqidi surətdə yoxlamalıdırlar. Media uşaqların nəinki vəziyyətini yalnız hadisə kimi nəzərdən keçirməli və bu baxımdan xəbər hazırlamalı, eləcə də «həmin hadisələrin baş verməsinə səbəb ola bilən və ya səbəb olan proses haqda davamlı surətdə xəbər verməlidirlər».

*Jurnalistlər üçün təlimat kitabçası*

MediaVays və BMT Uşaq Fondu bu yaxınlarda mediada uşaqları təmsil edən jurnalistlər üçün *Media və Uşaqların Hüquqları (2005)* adlı təlimat kitabçasını nəşr etdirmişdir. Bu kitabça BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının uşaqların mediada və media tərəfindən təmsil olunduğu metoda necə təsir göstərə biləcəyinin nəzərdən keçirilməsi üçün media peşəkarlarına və digərlərinə köməklik edilməsi üçün tərtib olunmuşdur. Fəaliyyət göstərən jurnalistlərin praktiki təcrübəsinə əsaslanaraq, yaşlıların davranışlarının təsirini və uşaqların yaşayış tərzi barədə onların davranışlarının mediada məsul səviyyədə işıqlandırılmasına, habelə media peşəkarlarını uşaqların hüquqlarının optimal şəkildə necə qorunmasını nəzərdən keçirmək üçün stimullaşdırmağa və kütləvi informasiya vasitələrində səciyyəvi rol oynamaqda kömək etməyə yönəlmişdir. Uşaq-

lar və gənclər haqda xəbər verilməsinin məxsusi çətinlikləri vardır. Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi *Uşaqlarla müsahibə aparılması üzrə etika kodeksi* adlı sənədi çap etdirmişdir, halbuki BMT Uşaq Fondu özünün *Uşaqlar barədə Xəbərlərin Verilməsi üzrə Etik Prinsiplərini* işləyib hazırlamışdır.

Lakin media yalnız uşaqlıq təcrübəsi haqda ədalətli, vicdanlı və dəqiq şəkildə xəbər verməməlidir; onlar həmçinin uşaqların özlərinin cürbəcür, rəngarəng və yaradıcı fikirləri üçün mediada yer ayırmalıdırlar. Xəbərlərdə və cari işlərdə və ya yaradıcı və ifaçılıq sənətinin kompleks dairəsində olub-olmamasına baxmayaraq, bütün media peşəkarları və onların işlədikləri təşkilatlar uşaqların hüquqlarının tanınması və onların öz işlərində əks etdirilməsi üzrə məsuliyyət daşıyırlar.

Bu, media peşəkarları üçün təlimin xarakteri barədə mühüm məsələni ortaya çıxarır. Hazırda çevikliyin başlıca amil olduğu daimi dəyişən iş şəraitində stajçıların davam gətirə bilməsi üçün onların münasib bacarıqlara yiyələnməsinə diqqət yetirilir.

Uşaqların fotoşəkillərinin çəkilməsi və ekranlaşdırılması xüsusən problem doğuracağına görə texniki səriştə kimi təlimdə daha çox diqqət cəlb etməlidir – əyani obrazların əldə olunması üçün istifadə edilən metodlarda, obrazların formalaşdırılmasında və obrazların nümayiş etdirilməsi üçün istifadə olunan formalarda.

Əgər media peşəkarları uşaqların insan hüquqlarının qorunmasında daha fəal iştirak etməlidirlərsə, uşaqlıq və uşaq hüquqlarına toxunan məsələlərə lazımi diqqət və qayğı göstərildiyinə təminat verilməsi üçün media sahəsi daxilində təlim, informasiya materialları və beynəlxalq əməkdaşlıq barədə təlimat göstərişinin işlənib hazırlanması zərurət yaradır.

Uşaqların ehtiyacları və hüquqları haqqında «ən yüksək» anlayışın inkişaf etdirilməsi jurnalistlərin və proqram tərtibatçılarının uşaqlarla birgə çalışan digər peşəkarlar (müəllimlər, sosial işçilər və s.) ilə etibarlı münasibətləri inkişaf etdirdiyinə təminat verilməsi qədər əhəmiyyət kəsb edir.

## QİYMƏTLƏNDİRMƏ TƏLİMATI

UHİŞ-nin etika kodeksini nəzərdən keçirin və öz praktikanız üçün bəzi əsas nəticələri müəyyənləşdirin. Ümumiyyətlə, bu prinsiplər hazırkı praktikadan xəbər verir?

## SONRAKI ŞƏRH VƏ RESURSLAR

*Böhtan, sentimentalizm və ya sükut? Gənclər nəyi media ilə uyğunlaşdırmalıdırlar?,* Mayk Cempson, MediaVays Fondu, 2003.

*Uşaqlar və Media: Qlobal narahatlıq,* Mayk Cempson, MediaVays Fondu, 2003.

*Bərabərsizlik və Gənclərin Stereotipləşməsi*, Dr Mauris Devlin, NUI Meynuz, 2006.

*Uşaqların Doğru Yola İstiqamətləndirilməsi*, BJF-nin Jurnalistlər üçün Təlimatları, 2002.

*Uşaqların Hüquqları və Media: Uşaqları Əhatə Edən Məsələlər barədə Xəbərlərin Verilməsi üzrə Təlimatlar və Prinsiplər,* Beynəlxalq Jurnalistlər Federasiyası, 1998:

http://www.ifj.org/

*Uşaqlarla müsahibə aparılması üzrə təlimatların hazırlanması,* UHİŞ, 2005:

http://www.crin.org/resources/infoDetail.asp?ID=5572

Qlokal Gəncləri:

www.glocalyouth.net

Uşaqların Xilası:

http://www.savethechildren.org.uk/scuk/jsp/newhome.jsp?flash=true

Cari Televiziya:

http://uk.current.com/

Media Monitorinq Layihəsi:

http://www.mediamonitoring.org.az

BMT Uşaq Fondu: Uşaqlar barədə Xəbərlərin Verilməsi üzrə Etik Prinsiplər:

http://www.unicef.org/media/media_tools_guidelines.html

*Uşaqlarla Müsahibə Aparılması: Jurnalistlər və digərləri üçün təlimat*, Uşaqların Xilası, 1998.

Media və Uşaqların Hüquqları, MediaVays, 2005:

http://www.mediawise.org.uk/files/uploaded/The%20Media%20and%20Children%20Rights%202005.pdf

Uşaqlarla müsahibə aparılması üzrə etika kodeksi, Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi (UHİŞ): http://www.crin.com/resources/infoDetail.asp?ID=5572&flag=report

## 6. UŞAQLARIN PERSPEKTİVLƏRİ BAXIMINDAN MƏLUMATIN TƏQDİM OLUNMASINDA MÜKƏMMƏL PRAKTİKA

### ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- «Uşaqlar Üçün Əlverişli Mühit»
- Uşaqlar üçün milli fəaliyyət planları
- Uşaqların iştirakı
- Mükəmməl praktika prinsipləri
- Uşaqların perspektivlərinin əldə olunması: nümunələr

2002-ci ilin may ayında Birləşmiş Millətlər Təşkilatının Uşaqlara dair Xüsusi Sessiyası uşaqlar və bəşəriyyətin inkişafı üçün dönüş nöqtəsi oldu. Bu, BMT Baş Assambleyasının müstəsna şəkildə uşaqlara həsr edilən və ilk dəfə olaraq uşaqları rəsmi nümayəndə kimi ehtiva edən birinci xüsusi sessiyası olmuşdur. Sessiya dünyanın 69 liderini, 190 milli nümayəndəsini, 1700-dən çox QHT nümayəndəsini, beş Nobel Sülhü Mükafatı laureatını, çoxsaylı biznes, din, incəsənət, akademiya və vətəndaş cəmiyyəti rəhbərlərini və BMT iclasları tarixində ilk dəfə olaraq nümayəndə və fəal iştirakçı kimi 600-dən çox uşağı bir araya gətirmişdir.

### Uşaqlar üçün Əlverişli Mühit

2002-ci ildə keçirilən xüsusi sessiyada ilk dəfə olaraq, gənclər ideyalar və yaradıcı həll vasitələrini irəli sürərək özlərinin adından Baş Assambleyaya müraciət etmişlər. Onların iştirakı həyəcan, qətiyyət və məsuliyyət hissini doğurmuşdur. Dünya liderlərinə ilk mənbədən məlum olmuşdur ki, uşaqlar *üçün* dünyanı dəyişmək nöqteyi-nəzərindən onlar dünyanı uşaqlar *ilə* dəyişməlidirlər.

Bu gənclərin həyəcanından və dünyabaxışından ruhlanaraq, Baş Assambleya sağlam həyat tərzinin yüksəldilməsi, ilkin optimal təhsilin təmin olunması, İİV/QİÇS ilə mübarizə aparılması, uşaqların təhqir, istismar və zorakılıqdan müdafiə edilməsi üzrə «Uşaqlar üçün Əlverişli Mühit» adlı dəqiq plan barədə razılığa gəlmişdir.

*BMT Uşaq Fondunun icraçı direktoru Karol Bellami şərh etmişdir: «Rəsmi nümayəndə kimi iştirak etməsi üçün BMT-nin belə çox uşağın və gəncin dəvət edildiyi geniş iclası heç vaxt olmamışdır... onların iştirakı Xüsusi Sessiyanın özünəməxsusluğu ilə səciyyələnir.»*

«Uşaqlar üçün Əlverişli Mühit» silsiləsi 2015-ci ilədək Minilliyin İnkişaf Məqsədlərinin əldə olunmasına doğru uğurların hesablanması üçün hədəfləri müəyyən etmişdir. Bu, həmçinin uşaqlar üçün spesifik olaraq aşağıdakı hədəfləri müəyyənləşdirmişdir:

«Uşaqlara, o cümlədən yeniyetmələrə özlərinin inkişaf edən qabiliyyətinə uyğun olaraq öz fikirlərini sərbəst surətdə ifadə etmək hüququnu həyata keçirməyə və həyatın çətinliklərini dəf etmək üçün özünəhörmət hissini formalaşdırmağa, münaqişənin həlli, qərarvermə və ünsiyyətə doğru bilik və bacarıqlar əldə etməyə imkan yaradılmalıdır. Uşaqların, o cümlədən yeniyetmələrin öz fikirlərini sərbəst surətdə ifadə etmək hüququna hörmət edilməli və dəstək verilməlidir, eləcə də uşaqlara toxunan bütün məsələlərdə onların fikirləri nəzərə alınmalıdır və uşağın yaşına və yetkinliyinə görə uşağın fikirlərinə lazımi əhəmiyyət verilməlidir. Uşaqların və gənclərin enerjisi və yaradıcılığı elə istiqamətləndirilməlidir ki, onlar öz mühitinin, cəmiyyətlərinin və aləminin formalaşmasında fəal iştirak edə bilsin.»

Bu sözlər və uşaqların Baş Assambleyaya fəal cəlb olunması Uşaq Hüquqları haqqında Konvensiyanın 12-ci maddəsində yazılmış idealların – uşağın öz fikrini ifadə etmək hüququnu əks etdirir. Öz fikirlərini formalaşdırmağa qadir olan hər bir uşaq ona toxunan bütün məsələlərdə həmin fikirləri ifadə etmək hüququna malikdir.

### Uşaqlar üçün milli fəaliyyət planları

BMT-nin Uşaqlara dair Xüsusi Sessiyasının əlavə tədbirində milli strategiyalarda uşaqların cəlb olunması məsələsi müzakirə edilmişdir.

Uşaqların qarşılaşdığı dörd əsas məsələ prioritet fəaliyyət üzrə müəyyən edilmişdir: sağlamlıq, təhsil, zorakılıqdan, təhqirdən və istismardan müdafiə və İİV/QİÇS. Qlobal fəaliyyət planının əldə olunmasına kömək etmək məqsədilə dünyanın bir sıra hökumətləri 2003-cü ilin sonunadək uşaqlar üçün milli fəaliyyət planlarını hazırlamağa razılıq vermişlər. Bu fəaliyyət planları ölkə daxilində qlobal fəaliyyət planlarının məqsədləri və hədəflərinə doğru hər bir hökumətin necə işləyəcəyini izah edir.

Xüsusi Sessiya uşaqların və gənclərin onlara toxunan qərarlara mühüm töhfə verə biləcəyini və uşaqlarla məsləhətləşmək və onların fikirlərini dinləmək baxımından bunun qərar verici şəxslər üçün necə əhəmiyyətli olduğunu nümayiş etdirmişdir. Sonrakı prosedurlara cəlb olunmaq ilə bağlı bütün dünyadakı uşaqlar arasında xeyli həyəcan yaranmışdır. Uşaqların və gənclərin özlərinin ölkəsinin milli fəaliyyət planlarının işlənib hazırlanmasına, icrasına və monitorinq edilməsinə əhəmiyyətli dərəcədə cəlb olunmaq istəyi məlum olmuşdur.

Uşaqların Xilası təşkilatı 14 ölkədən olan 4500 gənc arasında bu prosesə nə üçün cəlb olunmaq istədiyi barədə sorğu keçirmişdir. Onların göstərdiyi əsas səbəblər bunlardır:

- Onlar planlar və ən mühüm vasitəçilər tərəfindən birbaşa hədəfə alınan insanlardır.
- Onlar uşaqların vəziyyəti ilə bağlı ən birbaşa təcrübədə olan insanlardır və onlar öz problemlərinin daha yaxşı dərk olunmasında hökumətlərə kömək edə bilərlər.
- Uşaqların hamısı eyni xarakterə malik deyildir və hökumətlər müxtəlif qrup uşaqların fikirlərini dinləməlidirlər.
- Uşaqların onlara toxunan bütün qərarlar üzrə məsləhətləşmək hüququ (BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 12-ci maddəsində əhatə olunmaqla) vardır.
- Uşaqlar və gənclər planın icrasına dəstək verilməsində rol oynaya bilərlər və rol oynamaq istəyirlər.
- Onlar planı daha da uğurlu etməklə onun səmərəliliyini və təsirini yüksəldəcəklər.
- Plan uşaqların həyat tərzi, icmalar və cəmiyyətlər üzrə onların arasında demokratiyanın formalaşmasına və məsuliyyətin stimullaşdırılmasına kömək edir.
- Uşaqlar və gənclər onların proseslərə töhfə verdiyi dəyərli resurslara – yeni ideyalara və gələcəkyönlü perspektivə malik olduqlarını hiss edirlər.

Qlobal fəaliyyət planında hökumətlər razılıq vermişdir ki: «Biz onların [uşaqların və gənclərin] öz fikirlərini ifadə etmək, eləcə də yaşına və yetkinliyinə görə onlara toxunan bütün məsələlərdə iştirak etmək hüququna hörmət etməliyik.» Uşaqların həyat tərzinin yaxşılaşdırılması və onların hüquqlarının reallaşdırılması üçün milli fəaliyyət planlarının işlənib hazırlanması səbəbindən uşaqların və gənclərin özlərinin bu planların layihələndirilməsinə və işlənib hazırlanmasına töhfə verməyə qadir olması həyati əhamiyyət kəsb edir. Uşaqlar seçilməsi üçün düzgün məqsədlər barədə fikirləri dinlənilməli olan vasitəçilər və bu məqsədlərə nail olunmasında ən optimal üsullar hesab edilir.

## Uşaqların iştirakı

2002-ci ildə BMT Baş Assambleyası milli fəaliyyət planlarının milli səviyyədə işlənib hazırlanması prosesi şövqlü uşaqların onlara aid məsələlərə necə cəlb olunduğunu nümayiş etdirmişdir. Uşaqların iştirakı strategiyaları onların həyat tərzinə təsir göstərdiyi təşkilatlara  özlərinin mənsub olmasının və qiymətləndirilməsinin əhəmiyyətini artırır. Uşaqların və gənclərin qərarvermə prosesinə qoşulması «strategiyaların və xidmətlərin müvafiqliyini və keyfiyyətini yüksəldir, gənclərə vətəndaş məsuliyyəti hissini aşılayır, onları milli və yerli siyasi kurslarda daha çox maraqlandırır və onların seçkilərdə səs vermək ehtimalını artırır.» (Uşaqlar və Gənclər Bölməsi, 2002)

Prosesdə iştirak sadəcə baş vermir: bu, milli,yerli və təşkilati səviyyələrdə çempionlar tələb edir. Xüsusən, uşaqların və gənclərin real və fəal iştirakı üçün təşkilatlar daxilində imkanların yaradılması və genişləndirilməsi üzrə güclü liderliyə ehtiyac duyulur.

Uşaqlar və gənclər ilə əhəmiyyətli dərəcədə ünsiyyətdə olmaq üçün təşkilatların hazırlığı və razılığına bir çox amillər, o cümlədən mədəni dəyərlər, resurs məsələləri, uşaqların fikirlərinin dəyəri haqqında yaşlıların qavrayışları, təşkilat daxilində bacarıqlar, eləcə də uşaqların və gənclərin özlərinin ünsiyyətdə olmağa hazırlığı öz təsirini göstərəcəkdir.

Uşaqlar və gənclər optimal surətdə iştirak etməlidirlərsə, məlumat, anlayış, bacarıqlar və inam onlar üçün vacibdir. İştirak üçün bu qabiliyyətin inkişafı ailədən başlayır. Ailələr uşaqlara seçim təklif edərək, öz qərarlarının və tədbirlərinin nəticələrinin dərk olunmasında onlara kömək edərək və öz fikirləri üzrə hörmət etmək mədəniyyətinin inkişafına imkan yaradaraq gündəlik həyat tərzi ərzində uşaqlara etibar edilməsinə dəstək göstərə bilərlər.

Ailə ilə yanaşı, məktəb kurrikulumu və məktəb mədəniyyəti ən mühüm vasitələri təmin edir ki, bununla uşaqlar bacarıqlara, qabiliyyətlərə və fəal iştirak və vətəndaşlıq məsuliyyətinə yiyələnə bilərlər. Əksər uşaqlar təhsil müəssisələrində səmərəli vaxt keçirdiyinə görə, bu strukturlara və sistemlərə uşaqlarla tərəfdaşlıq şəraitində yanaşılmalıdır.

Məktəblərdə məktəb şuralarına və uşaqların iştirakına köməklik göstərilməsi və dəstək verilməsi baxımından müəllimlərə və pedaqoji heyətə təlim keçirilə bilər. Xüsusən məktəblər uşaqların fəal iştirakçıya çevrildiyi iki-istiqamətli ünsiyyət prosesinə doğru təhsilin inkişaf etdirilməsi üzrə mühüm məsuliyyət daşıyırlar.

İcmada yerli qurumlar uşaq və gənclərlə məsləhətləşmə tədbirlərini təşkil edə bilərlər ki, bunların nəticəsində uşaqlar sonradan yerli yaşlı qurumlara daxil edilə və onlarla birlikdə iştirak edə biləcəyi yerli gənclər şuralarını seçə bilərlər.

Texnologiyanın cəmiyyətdə oynadığı rolunun artması ilə internet və mobil telefonların istifadəsi daxil olmaqla mexanizmlərin işlənib hazırlanması daha əhəmiyyətli iştirakın formalaşmasına dəstək göstərə bilər. ÜmumDünya Veb saytı yeni beynəlxalq forum yaranmaqdadır ki, bunun daxilində uşaqların və gənclərin öz fikirlərini və təcrübələrini ifadə edə və milli və yerli səviyyədə dövlət siyasətinin işlənib hazırlanmasına töhfə verə biləcəklər.

«Vətəndaşlıq praktikası mənsub olmaq və iştirak etmək, dinləmək və danışmaq, dəyərləndirilmək və daxil edilmək təcrübəsinin sınaqdan keçirilməsi ilə öyrənilir.» (Comhairle nanUg İcra Qrupunun 2007-ci il üzrə Hesabatında)

## İştirak faydaları

Qərarvermədə iştirak uşaqların və gənclərin özlərinə birbaşa fayda gətirir. Onlar kollektiv əmək, danışıq aparmaq, problem həll etmək və təsir göstərmək kimi bacarıqları öyrənməklə əldə edirlər. Onlar siyasi kursun necə işlənib hazırlandığı və təşkilatların necə işlədiyi barədə bilik əldə edirlər. Onlar tərəfdaşlar kimi yaşlılarla işləməyi öyrənirlər və onların inamı və özünəhörmət hissi iştirak vasitəsilə arta bilər.

İştirak imkanlarına malik olmaq öz icmalarının sosial, mədəni, iqtisadi və siyasi həyat tərzindən ayrılan və ya təcrid olunan uşaqlara və gənclərə xüsusi faydalar gətirir.

Uşaqlar və gənclər onların həyat tərzinə toxunan məsələlər barədə təklif verilməsi üçün nadir perspektivlərə və təcrübələrə malikdir. Siyasi kursların və xidmətlərin necə işlənib hazırlandığı, təmin olunduğu, qiymətləndirildiyi, nəzarət edildiyi və təkmilləşdirildiyi barədə uşaqlara söz verilməsi həmin siyasi kursların və xidmətlərin onların ehtiyaclarının yerinə yetirildiyinə və yerinə yetirilməyən ehtiyacların tanındığına təminat verəcəkdir.

Uşaqlar və gənclər dövlətin siyasi kursunun işlənib hazırlanmasına cəlb olunarkən, onlar yaşlıların qərarlarının passiv qəbuledicilərindən öz həyat tərzinin və cəmiyyətinin formalaşmasına kömək etməyə qadir olan «hüquq sahiblərinə» çevrilirlər. «Əldə olunan məlumat və istifadə edilən tipik rəylər ilə yanaşı faktiki proses özlüyündə üzvlərə müzakirə etməyə və hazırlamağa, eləcə də dəyişiklik hallarında özlərinin iştirakını nəzərdə tutmağa və vətəndaşlar kimi öz dəyərlərini müəyyən etməyə və təsdiqləməyə imkan verir.» (Gənclərin Fikirlərinin Dinlənilməsi, MakAuley və Bratman, Uşaqların Hüquqları Birliyi, 2002)

## Mükəmməl praktika prinsipləri

Uşaqlara toxunan bütün məsələlərdə onların cəlb olunması üçün milli gənclər şuraları və uşaqlar üzrə idarələr tərəfindən prinsiplər tərtib olunmuşdur.

2005-ci ildə İrlandiya Uşaqları üzrə Ombudsman İrlandiya Milli Gənclər Şurası və Uşaqların Hüquqları Birliyi *Gənclərin Fikirləri* adlı sənəd hazırlamışdır: *Uşaqların və gənclərin işinizə necə cəlb olunması üzrə təlimatlar*. Tövsiyələr:

**Əyanilik**

Uşaqların və gənclərin cəlb olunması prinsipi və praktikasına doğru ən yüksək təşkilati səviyyədə əyani öhdəlik mövcud olmalıdır. Bu öhdəlik başlıca əhəmiyyət kəsb edir və müfəssəl planlaşdırma, resursların təminatı və potensialın yaradılması ilə uyğunlaşdırılmalıdır.

## İŞTİRAKIN ÖYRƏNİLMƏSİ

Birləşmiş Krallıqda Milli Gənclər Agentliyi və Britaniya Gənclər Şurası 2002-ci ildə dövlətin qərarvermə prosesində uşaqların və gənclərin cəlb olunduğu səviyyələrin və üsulların sistematik təsvirinin yaradılması üçün İngiltərədəki hökumət və könüllü sektor təşkilatlarında sorğu keçirdilər. İştirak üzrə strukturlara malik həmin təşkilatlar arasında hökumət və könüllü sektor respondentlərinin təxminən 80 faizi qərar vermə prosesinə uşaqların və gənclərin cəlb olunması nəticəsində öz xidmətlərinin təkmilləşdirilməsinə razılıq vermişdir.

Oldfled, Klare Fovler ilə Karolin (2004). *İngiltərədə Uşaqların və Gənclərin İştirakının Xəritələşdirilməsi.* London: Təhsil və Bacarıqlar Şöbəsi

**Müxtəlifliyin qəbul edilməsi**

Uşaqlar və gənclər həmcins qrup hesab edilmirlər. Uşaqların vəziyyəti, etnik mənsubiyyəti, ilkin hazırlığı, maraqları, bacarıqları və ehtiyaclarının müxtəlifliyi qəbul olunduqda və hörmət edildikdə, onların qərarvermə prosesinə cəlb edilməsinin uğur qazanacağı daha çox ehtimal edilir.

**Bərabərlik**

Bütün uşaqlar və gənclər siyasi kursun işlənib hazırlanmasına və planlaşdırılmasına cəlb edilmək imkanına malik olmalıdır. Özlərinin şəxsi vəziyyəti və ya ictimai məsləhətləşmədən asanlıqla istifadə olunmaması səbəbindən onların bəzilərinin əldə edilməsi çətin ola bilər. Ehtivaedici yanaşma metodu kənarda qalmaq riski altında ola bilən uşaqların və gənclərin iştirakına təminat verilməsinə xüsusi diqqət yetirir – məsələn, öyrənmə qabiliyyəti olmayan uşaqlar və ya azyaşlı körpələr.

**Səmimilik, şəffaflıq, cavabdehlik**

Uşaqlar və gənclərlə səmimi şəkildə davranılmalıdır. Onlar işinin məqsədi və özlərinin nə üçün cəlb edildiyi barədə məlumatlı olmalıdırlar. Onlar özlərinin yaşına və inkişaf mərhələsinə uyğun olan üsullarla iştirak etməlidirlər.

Onlar özlərinin hansı səviyyəli təsir dairəsinə malik olacaqlarını bilməlidirlər. Planlaşdırılanlara təsir göstərilməsi üçün real imkanlar olmalıdır. Onların töhfələri ciddi şəkildə nəzərə alınmalıdır. Onlar öz fikirlərinin təsirini öyrənməyə imkan verən cavab reaksiyasını nümayiş etdirməlidirlər.

**Potensialın yaradılması**

İştirak öhdəliyi potensialın yaradılmasına sərmayə qoyuluşunun hazırlanması və uşaqların və yaşlıların birgə çalışmağa hazırlığı mənasını kəsb edir. İştirak üçün resursların təmin edilməsi və onun reallaşdırılmasının dəstəklənməsi vacibdir.

**Etibar edilmə**

Uşaqların və gənclərin cəlb olunduğu üsullara etibar edilməlidir və onlar uşaqların özünəhörmət və inam hissini artırmalıdır. İştirak metodları qərar vermək, problemi həll etmək və danışıqlar aparmaq kimi bacarıqları gücləndirməlidir.

**Seçim**

Uşaqlar və gənclər iştirak etməyə üstünlük verməlidirlər və onlar özlərinin nə vaxt, necə və iştirak edib-etməməsini seçmək hüququna olduqlarını bilməlidirlər.

**Təhlükəsiz praktika**

Uşaqların və gənclərin təhlükəsizliyi və rifahı əsas proritetdir. Uşaqların təhlkəsizliyinin və rifahının qorunması və uşağın mühafizəsi tələblərinin yerinə yetirildiyinə təminat verilməsi üçün aydın peşə kodeksinin olması vacibdir.

**Yüksək keyfiyyət**

Uşaqların və gənclərin cəlb olunması üçün tədbirlər yüksək səviyyəyə malik olmalıdır, əks təqdirdə onlar ən yaxşı halda formal xarakter daşıya və ya ən pis halda yaşlılar və uşaqlar/gənclər üçün kafi təcrübə mənbəyi ola bilərlər.

**Hörmət və tərəfdaşlıq**

İştirak işində uşaqlar/gənclər və yaşlılar hər iki tərəf üçün hörmətli sayılan tərzdə bir-birləri ilə tərəfdaşlıq şəraitində birgə çalışmalıdırlar.

(*Gənclərin Fikirləri* sənədindən götürülmüşdür: *Uşaqların və gənclərin işinizə necə cəlb olunması üzrə prinsiplər*, İrlandiya Milli Gənclər Şurası, 2005)

## Uşaqların perspektivlərinin əldə olunması: nümunələr

**Uşaqlar üzrə Ombudsman**

Bir sıra Avropa ölkələri, o cümlədən Avstriya, Belçika, Danimarka, Finlandiya, İslandiya, İrlandiya, Norveç, İsveç və İspaniya uşaqlar üzrə ombudsman aparatlarını təsis etmişlər.

**Fərdi tədqiqat: İrlandiya**

İrlandiyada Milli Uşaqlar İdarəsi Uşaqlar üzrə Ombudsman (UO) aparatı üçün təyinat prosesində uşaqların və gənclərin iştirakının idarə edilməsini öz üzərinə götürmüşdür. Oxşar təyinatlara istiqamətlənən digər yurisdiksiyalarda dərslər keçirilmiş və tövsiyələr hazırlanmışdır. Bu tövsiyələr İrlandiya prosesində qəbul edilmişdir. 9-17 yaşlı 64 nəfər gənc seçmə prosesinə və ombudsman ilə müsahibə aparılmasına cəlb olunmuşdur. Həmçinin onlar hazırda İrlandiyada gənclərə toxunan məsələlər barədə UO-ya məsləhət vermək fəaliyyəti ilə məşğul olan Gənclərin Məşvərət Qrupunun yaradılmasında iştirak etmişlər. Müvəkkil aparatı ilə keçirilən mütəmadi görüşlərində onlar hansı məsələlərin vacib olduğunu və həmin məsələlərin necə həll olunmasına üstünlük verdiklərini ombudsmana bildirirlər.

Ombudsman Aparatı uşaqlar və gənclərin iştirakına imkan yaratmaq məqsədilə Dáil na nÓg və Comhairle na nÓg kimi strukturların inkişaf etdirildiyi və təkmilləşdirildiyinə təminat verilməsi ilə məşğuldur. Həmçinin qurum qanuni hökumət orqanları, dövlət idarələri və QHT-lər ilə tərəfdaşlıq şəraitində iştirak layihələrini öz üzərinə götürür.

Son üç il ərzində həyata keçirilən iştirak layihələri tamamilə geniş vüsət almışdır və bir sıra vasitəçilər ilə əməkdaşlığı əhatə etmişdir. Fəaliyyət nümunələrinə daxildir:

- cinsi aktivlik yaşı yoxlanılarkən nəzərdən keçirilməli olan məsələlər barədə gənclərlə məsləhətləşmələrin aparılması;

- uşaqların reklam məcəlləsinə dair ictimai məsləhətləşmə prosesində uşaqların və gənclərin daxil edilməsi sahəsində İrlandiya Yayım Komissiyası ilə birgə iş;

- *Gənclərin Fikirləri* adlı sənədin hazırlanması: *Uşaqların və gənclərin işinizə necə cəlb olunması üzrə prinsiplər*, İrlandiya Milli Gənclər Şurası və Uşaq Hüquqları Birliyi ilə əməkdaşlıq şəraitində.

- səhiyyə planlaşdırması prosesində uşaqların və gənclərin cəlb olunması.

## Uşaq parlamentləri

Gənclərin gələcəyin formalaşdırılmasında öz fikirlərini bildirməsinə təminat vasitəsi kimi dünyanın bir çox ərazilərində gənclər parlamentləri mövcuddur.

**Oksfam Beynəlxalq Gənclər Parlamenti (Oksfam BGP)** Beynəlxalq Oksfam təşkilatının bir təşəbbüsüdür. BGP müsbət və davamlı dəyişiklikləri həyata keçirmək üçün gənc liderlərin və fəalların qlobal şəbəkəsini səfərbər edir. Qurum gənclərin və onların icmalarının hüquqları və azadlıqlarının müdafiə edilməsi üçün gənclərin təşəbbüsünə dəstək göstərilməsi, bacarıqların yaradılması proqramlarının irəli sürülməsi və gənclərin dəstəklənməsi vasitəsilə bu fəaliyyəti yerinə yetirir. Oksfam BGP dəyişiklikləri həyata keçirmək müsbət, davamlı, innovativ və icmayönlü təşəbbüslərin inkişaf etdirilməsində liderlər kimi gəncləri stimullaşdırır və dəstəkləyir.

**Avropa Gənclər Forumu** bütün Avropadan olan gənclərin maraqlarını təcəssüm etdirmək üçün milli gənclər şuraları və gənclərin beynəlxalq qeyri-hökumət təşkilatları tərəfindən yaradılan beynəlxalq təşkilatdır. Forum gənclərə Avropanın formalaşdırılmasında və onların yaşadığı cəmiyyətlərdə iştirak etmək məqsədilə gənclərə etibar edilməsi üçün fəaliyyət göstərir. O, beynəlxalq institutlarda – əsasən Avropa Birliyində, Avropa Şurasında və Birləşmiş Millətlər Təşkilatında gənclər təşkilatlarını təmsil edir. Bu, gənclər və qərarverici şəxslər arasında məlumat və rəy mübadiləsini istiqamətləndirməyə xidmət edir.

Forum milli gənclər şuralarından və gənclərin beynəlxalq qeyri-hökumət təşkilatlarından ibarət 93 nəfər üzvə malikdir. O, bütün Avropa ölkələrindən olan on mlyonlarla gənci öz ətrafında birləşdirir.

**Gənclər Parlamenti (GP)** gənclərin onlara toxunan məsələlər üzərində fikir ifadə etməsinə kömək edilməsi üçün yaradılmaqla Britaniyada formalaşan təşəbbüsdür. Təşkilat şəhərciyin gənclər üçün daha yaxşı yerə çevrilməsi üzrə məsələlər barədə söhbət etmək və strategiyaları işləyib hazırlamaq məqsədilə gənclərin görüşə biləcəyi forum kimi Birminqemdə öz işinə başlamışdır. Hazırda GP bütün regiondakı gənclər üzrə əsas yaradır və gəncləri bir araya gətirməklə milli və beynəlxalq tədbirləri də təşkil edəcəkdir.

### FƏRDİ TƏDQİQAT: GƏNCLƏR ŞURALARI, FRANSA

Gənclər şuraları 1970-ci ildən etibarən Fransada fəaliyyət göstərmişdir və hazırda bir neçə yüzə bərabərdir. Onların rolu öz yerli icmaları haqqında uşaqların və gənclərin narahatlıqlarını ifadə etməkdən ibarətdir. 1991-ci ildə Milli Uşaqlar və Gənclər Şəhərciyi Şuraları Assosiasiyasının əsası qoyuldu. Onun birinci illik iclasında 700-dən çox gənc və 400-dən çox yaşlı iştirak etmişdir; sonrakı iclaslarda hökumət rəsmiləri və nazirlər iştirak etmişdir.

Gənclər şuralarının nailiyyətləri, o cümlədən skeytbord yamaclarının yaradılması, əlil uşaqlar üçün yerlər, rəsm kitabxanası, təkmilləşdirilmiş nəqliyyat vasitələri, sosial tədbirlər, Brailledə şəhərcik xəritələrinin tərtib olunması və öz şəhərcikləri haqqında uşaqların və gənclərin narahatlıqlarını təsvir edən videofilmlər əhəmiyyətli olmuşdur.

Gənclər şuralarının sayı və onların davamlılığı Fransada nəzərdən keçirilən bu cür qurumların ciddiliyinə istiqamətlənir. Onların meylliliyində və effektivliyində mühüm element milli və yerli səviyyədə onlara doğru siyasi öhdəliyə zəmin yaratmışdır. Onlar gənclərin öz icmalarında rol oynadığına təminat verilməsində səmərəli vasitələr kimi geniş surətdə nəzərdən keçirilir.

## FƏRDİ TƏDQİQAT: SLOVENİYADA UŞAQ PARLAMENTİ

1990-cı ildə Sloveniyada parlament demokratiyası irəli sürülərkən, Uşaq Parlamenti də yaradıldı. Hər il məktəblərdəki uşaqlara seçilmiş mövzu verilir və onun dərindən öyrənilməsinə imkan yaradılır. 13-15 yaşlı 100 gəncdən çoxu bu məsələnin müzakirə edilməsi baxımından Sloveniya Parlamentində görüşmək üçün öz məktəbləri vasitəsilə seçilir. Sessiyanın sonunda onlar növbəti il üzrə mövzu seçirlər. Birinci il ərzində mövzu «Təhlükəsiz və Sağlam Mühit» olmuşdur.

İkinci uşaq parlamenti dövrünə qədər mövcud mənzərə dramatik surətdə dəyişmişdir. Müharibə Sloveniyada, Xorvatiyada və Bosniyada baş qaldırmışdır. Gənclər effektiv hökumətin formalaşması üçün siyasətçilərin müvəffəqiyyətsizliyi nöqteyi nəzərindən gələcək və şikayətlər haqqında öz narahatlıqlarını ifadə etmək məqsədilə parlamentdən istifadə etmişlər. Onlar öz qəzəblərini, qorxularını və müharibə üzərində xəyanət – müdafiə olunmamaq hissini və müvafiq təhsili təmin etmək üçün məktəblərin uğursuzluğunu ifadə etmişlər. Siyasətçilər əvvəlki parlamentin tövsiyələrinə dair icra hesabatını dinləməyə və onu parlamentə təqdim etməyə hazır olmuşlar.

Hesabatın yalnız bir qism konkret nailiyyətləri ehtiva etməsinə baxmayaraq, bu, uşaqlara onların narahatlıqlarının ciddi şəkildə nəzərə alındığını nümayiş etdirmişdir. Üçüncü parlament uşaqlara yaxın məktəblər üzərində cəmləşmişdir. Əvvəlki ildən fərqli olaraq, tənqidə nisbətən irəliləyişlər üzrə konkret tövsiyələrə diqqət yetirilmişdir.

Parlamentin sadəcə simvolik əlamət olmadığına təminat verilməsində həlledici amil siyasətçilərin uşaqların irəli sürdükləri təklifləri və məsələləri dinləməyə, nəzərdən keçirməyə və mümkün dərəcədə tədbir görməyə nümayiş etdirdikləri hazırlıq olmuşdur. Bununla yanaşı, proses uşaqların özlərinin demokratik məsuliyyət hissini inkişaf etdirə biləcəklərini göstərmişdir.

## İştiraka doğru maneələr

Bir çox optimal irəliləyişlərə baxmayaraq, gənclərin fikirlərinin dinlənilməsinə nəzərən dərk etmə və praktika özünün ilkin inkişaf mərhələsində qalır. İctimai siyasət məsələsində uşaqlar və gənclər ilə məsləhətləşmə qeyri-adi və mürəkkəb konsepsiya formasında təzahür edir. Əgər uşaqların və gənclərın fikirləri vətəndaş cəmiyyətinin müzakirələrində köklü şəkildə yer tutmalıdırsa, onların əksəriyyəti həyata keçirilməlidir.

Qərar vermədə gənclərin iştirakının asanlaşdırılması yaşlılar üçün mürəkkəb və tələbedici öhdəlik hesab olunur, onların bir qisminə hələ də müvafiq təlim keçirilir. Yaşlıların (o cümlədən, valideynlərin) mənfi münasibətləri gənclərin iştirakına qarşı maneələr kimi özünü büruzə vermişdir.

Gənclər artan dərəcədə iştirak layihələrinə cəlb olunsalar da, bunun təşkilatların kontekstləri və müxtəlif növləri arasında dəyişməsinə baxmayaraq qiymətləndirmələr onların ictimai qərarvermə prosesinə cüzi təsir etdiyinə dəlalət edir (Füsunkarlığın Ölçülməsi? Perpetua Körbi, Karnegie Gənclərinin Təşəbbüsü).

Uşaqların fikirlərinin dinlənilməsi mədəniyyətini formalaşdırmaq müəyyən vaxt tələb edəcəkdir ki, bu da uşaqlara toxunan məsələlərin necə nəzərdən keçirilməsinin və qərarların necə verilməsinin bir hissəsini və bir sahəsini təşkil edir. Uşaqların fikirlərinin dinlənilməsi hüququnu dəstəkləyərkən insanlar uşaqların fikirlərinə ahəngdar şəkildə qulaq asmalıdırlar.

# DÜNYANIN HƏR YERİNDƏ İŞTİRAK SƏVİYYƏSİNİN YENİ NÜMUNƏLƏRİ

## Beynəlxalq səviyyədə

- BMT-nin illik Ümumdünya Gənclər Forumu
- 2000-ci ildə keçirilən Uşaq Fahişəliyinə, Pornoqrafiyasına və Alverinə Son Qoyulması təşkilatı tərəfindən sponsorluq edilən Gənclərin Beynəlxalq İştirak Forumu
- 2000-ci ilin sentyabr ayında Kanadanın Vinnipeq şəhərində keçirilən və Kanada Beynəlxalq İnkişaf Agentliyi tərəfindən təşkil olunan Müharibədən Əziyyət Çəkən Uşaqlara dair Beynəlxalq Konfrans
- 2001-ci ildə İrlandiyanın Limerik şəhərində keçirilən və Barnardos tərəfindən təşkil olunan Beynəlxalq Uşaq Rifahı Forumu
- Gənclərin Minillik Layihəsi

## Avropada

- 1996-cı ilin *Uşaqların Hüquqlarının İstifadəsinə dair Avropa Konvensiyası* 18 yaşından aşağı uşaqlara və gənclərə toxunan məhkəmə proseslərində onların bilavasitə və ya bilvasitə iştirak etmək hüququnu təsdiq edir.
- 1992-ci ilin *Bələdiyyə və Regional Həyatda Uşaqların və Gənclərin İştirakına dair Avropa Xartiyası* Avropada yerli qurumların və regionların hüquqlarını müdafiə etməklə, icma həyatında uşaqların və gənclərin iştirakının asanlaşdırılması üçün strategiyaları həyata keçirməlidir.
- *Avropanın Gənclərə dair Ağ Kitabı* adlı sənədinin hazırlanması haqda gənclər (15-25 yaşlı) ilə aparılan məsləhətləşmə bir təşəbbüs olmuşdur ki, bu da Avropa Komissiyasına və milli hökumətlərə öz rəylərini və tövsiyələrini təqdim etmək üçün Avropa Birliyinin üzv dövlətlərindən olan minlərlə gəncə imkan yaratmışdır.

## Birləşmiş Krallıqda

- Şimali İrlandiyada Uşaqların Xilası təşkilatı və Uşaqlar üzrə Qanun Mərkəzi təklif olunan Şimali İrlandiya Uşaqları üzrə Komissarlığının təklif olunması ilə sözü gedən qurum üçün gələcək funksiyalar barədə uşaqlar və gənclər ilə məsləhətləşmə şəraitində Baş Nazirin və Baş Nazirin Müavininin Ofisinin İnsan Hüquqları Bürosuna köməklik göstərmişdir.
- Uşaqların Xilası təşkilatı və Uşaqlar üzrə Qanun Mərkəzi daxil olmaqla, QHT-lər Şimali İrlandiya üzrə Hüquqlar Billi (Konstitusiyaya edilən ilk on düzəlişə dair qanun layihəsi) haqqında uşaqların və gənclərin fikirlərini üzə çıxarmaq üçün Şimali İrlandiya İnsan Haqları Komissiyasının səylərini dəstəkləmişdir.
- *Çörək Pulsuzdur* adlı yoxsulluğa dair məsləhətləşmə bütün İngiltərədə yoxsulluğun və sosial məhrumiyyətin yüksək səviyyələri ilə icmalarda yaşayan 5-16 yaşında 106 uşaq və gənci əhatə etməklə İngiltərə Uşaq Hüquqları Birliyi və Uşaqların Xilası təşkilatı tərəfindən 2001-ci il ərzində həyata keçirilmişdir.

## Qiymətləndirmə təlimatı

Uşaqlar üzrə Milli Fəaliyyət Planınızın statusunu nəzərdən keçirin və onun inkişafında uşaqların və gənclərin iştirakını müzakirə edin.

## Sonrakı şərh və resurslar

Uşaqlarla Ünsiyyətin Təsviri:
Avropa Uşaqları üzrə Ombudsmanlar Şəbəkəsi 17/11/2003:
http://www.ombudsnet.org/Organisations/vieworg.asp?id=2872&fromEnoc=y
*Birləşmiş Millətlər Təşkilatının Uşaqlar haqqında Xüsusi Sessiyasında Uşaqların İştirakından Əldə Olunan 12 Dərs,* Uşaqların Xilası, 2004
İrlandiya Ombudsman Aparatı, İllik Report 2005-2006:
http://www.oco.ie/whatsNew/annual_reports.aspx
Uşaqların Qlobal Hərəkatı:
http://www.gmfc.org/index.php/gmc6/homepage
QHT Hesabatı: Uşaqlara qarşı Qəddarlığın Qarşısının Alınması üzrə İrlandiya Cəmiyyəti, *Uşağının Fikrinin Dinlənilməsi Hüququ,* 2006.
*Uşaqlar üçün Əlverişli Mühit*, BMT Uşaq Fondu, 2006.
*Fikirlərin Dinlənilməsi: İrlandiyada Dövlət Siyasətinin İşlənib Hazırlanmasına nəzərən Uşaqlar və Gənclər ilə Məsləhətləşmə*; icra xülasəsi, 2002, K MakKauley və M Bratman.
*Gənclərin Fikirləri: Uşaqların və gənclərin işinizə necə cəlb olunması üzrə prinsiplər, İrlandiyada Milli Uşaqlar İdarəsi*, 2005.
«Milli Fəaliyyət Planlarının İşlənib Hazırlanmasında Uşaqların və Gənclərin Cəlb Olunması»: «Hökumətlər üzrə qısa təlimat», 2002, Uşaqların Xilası:
www.crin.org/resources/infoDetail.asp?ID=3145
«Füsunkarlığın Ölçülməsi»: Gənclərin ictimai qərarvermədə iştirakının qiymətləndirilməsi və tədqiq edilməsi, Perpetua Körbi, Karnegie Gənclərinin Təşəbbüsü.
http://cypi.carnegieuktrust.org.uk/files/2643_MeasuretheMagic_001.pdf

# Bölmə 2: uşaqların hüquqları və peşəkar jurnalistika praktikası

## 1. PEŞƏ KODEKSLƏRI VƏ REDAKSİYA TƏLİMATLARI

### ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Davranış kodeksi nə üçündür?
- Normalar müfəssəl və direktiv olmalı və ya geniş prinsipləri əhatə etməlidir?
- Davranış kodeksləri və öhdəlik
- Davranış kodeksləri və mətbuat azadlığı
- Azadlığa qarşı məsuliyyət

Davranış KODEKSLƏRİ davranışı və redaktor qətiyyətini istiqamətləndirən qaydalar toplusundan ibarətdir. Peşəkar jurnalistlərin qarşılaşdığı spesifik problemləri həll etmək üçün dünya ölkələrində jurnalistika üzrə peşə kodeksləri müəyyən edilmişdir. Bu prinsiplər peşəkar *etika kodeksi, davranış kodeksi və ya jurnalistika prinsipləri* kimi jurnalistlərə lap çox məlumdur. İlkin normalar adi şəkildə peşəkar jurnalistika assosiasiyaları və fərdi mətbuat, yayım və onlayn xəbər agentlikləri tərəfindən hazırlanır.

Normaların bəzi müxtəlifliyə malik olmasına baxmayaraq, onların əksəriyyəti ümumi elementləri, o cümlədən: düzgünlük, dəqiqlik, obyektivlik, qərəzsizlik, ədalətlilik və ictimai cavabdehlik prinsiplərini və xəbər üçün dəyərli informasiyanın alınmasında və ictimaiyyətə çatdırılmasında istifadə olunan anonim məlumat mənbələrinin qorunmasını paylaşır.

Bir çox digər etik sistemlər kimi jurnalistika etikasına «zərərin məhdudlaşdırılması» prinsipi daxildir. Bu tez-tez azsaylı uşaqların adları kimi məlumatlarda müəyyən təfərrüatların, zorlanma kimi cinayətlərdə cinayət qurbanlarının adlarının və yaxud səciyyəvi xəbər reportajlarına (məsələn, onların buraxılması kimsənin nüfuzuna xələl gətirə bilər) əhəmiyyətli dərəcədə aid olmayan informasiyanın saxlanılmasını, habelə intihar ilə özünü öldürənlərin istifadə etdikləri metodların aşkarlanmasını əhatə edir.

### Jurnalistika normalarının yayılması

Mükəmməl jurnalistika prinsipləri ictimaiyyətə xəbər verməklə, ictimaiyyətin marağına doğru məlumatın çatdırılması missiyasını yerinə yetirməklə yüksək səviyyəli xəbərlərin verilməsinə yönəlir. «İctimaiyyətin marağın» kəsb etdiyi məna davamlı müzakirə mövzusudur, lakin bu, «adi firavanlıq» və ya «ümumi rifah» anlayışlarına aid ola bilər.

Birləşmiş Krallıq və İrlandiya üzrə Milli Jurnalistlər İttifaqı «ictimaiyyətin marağın» ehtiva etdiyi mənalara dair öz anlayışlarını müəyyən etmişdir:

- cinayətin və ya ciddi qanun pozuntusunun aşkarlanması və ya nümayiş etdirilməsi
- ictimai sağlamlığın və təhlükəsizliyin qorunması
- fərdin və ya təşkilatın bəzi bəyanatları və ya tədbirləri nəticəsində ictimaiyyətin aldadılmasının qarşının alınması
- dövlət vəsaitlərinin sui-istifadəsinin və ya dövlət qurumları tərəfindən korrupsiyanın digər formalarının göstərilməsi
- səlahiyyət və nüfuz dairəsinə malik olan şəxslərin marağının potensial ziddiyyətlərinin aşkar edilməsi
- korporativ oğurluğun nümayiş etdirilməsi
- yüksək vəzifə tutan şəxslərin riyakar davranışının nümayiş etdirilməsi

Jurnalistlərin keçmiş etik xətalarının müşahidə edilməsi və reaksiya verilməsi vasitəsilə jurnalistika normaları geniş şəkildə inkişaf edir. Hazırda bəzi məşğulluq terminləri ştatda olan və ştatdankənar jurnalistlər üçün bu cür normaların riayət edilməsini sanksiyalaşdırır; jurnalistlər etik nöqsanlara işdən azad oluna bilərlər. Lakin çox vaxt jurnalistlər öz işində qalmaq istədikdə öz əxlaqi mühakiməsinə zidd olaraq fəaliyyət göstərməyə məcbur olduqlarını etiraf edirlər.

Dünyanın ilk davranış kodeksi 1936-cı ildə işəgötürən qurum tərəfindən deyil, Birləşmiş Krallıq və İrlandiya üzrə Milli Jurnalistlər İttifaqı tərəfindən hazırlandı. Kodekslərin formulə edilməsi çox vaxt jurnalistlərin media mülkiyyəti və mülkiyyətin təmərküzləşməsi ilə bağlı məsələlərə reaksiyasından ibarət olmuşdur.

Jurnalistikanın etika kodeksi etik dilemmanın qarşısının alınmasında jurnalistlərə kömək etmək məqsədilə saysız-hesabsız çətinliklər, o cümlədən maraq ziddiyyətləri vasitəsilə təlimatlar kimi nəzərdə tutulur.

Normalar jurnalistləri özünənəzarət və özünüislah mexanizmi ilə təmin edir. Həmçinin peşə standartlarının dəstəklənməsi xəbər agentliyinin nüfuzunu və ona olan inamı artırır ki, bu da onun oxucu əhatəsinin və ya auditoriyanın səviyyəsini yüksəldir. Jurnalistika etikasının ümumi normalarını qəbul edən və onu dəstəkləməyə səy göstərən aparıcı xəbər təşkilatları arasında icra və riayətin keyfiyyəti dəyişə bilər. Lakin xəbər qurumunun peşəkarlığı, etibarlılığı və ictimai cavabdehliyi onun ən dəyərli üç aktivi hesab edilir. İctimaiyyətə olan və öz fəaliyyət sahəsi daxilində mövqeyinə təsir edən etika kodeksinə qismən ardıcıl şəkildə riayət etməklə təşkilat güclü nüfuz qazanır və onu qoruyub saxlayır.

Ən çox hörmət edilməklə ingilis dilində çıxan qərbyönümlü nəşrlər və yayım şəbəkələri arasında Britaniya Yayım Korporasiyası (BBC), Kanada Yayım Korporasiyası, *Müdafiəçi* qəzeti (tipik oxucu kütləsinə malikdir); ABŞ-da, *Vaşinqton Post, Nyu York Tayms, Uol Strit Jurnalı,* Xəbərlərin Verilməsinin Kabel Şəbəkəsi (CNN), Milli Dövlət Radiosu və Dövlət Radioyayım Xidməti mühüm yer tutur. Bu təşkilatların əksəriyyəti özünəməxsus redaksiya təlimatlarına malikdir.

## Mətbuat azadlığı

Mətbuat azadlığı olan əksər ölkələrdəki xəbər yayımı agentliklərində kodekslərə rast gəlinə bilər. Bəzi ölkələrdə birdən çox kodekslər vardır. Müxtəlif hüquqi mühiti əks etdirən qəzetlər və yayım üzrə çox vaxt ayrı-ayrı kodekslər mövcud olur. Yayım jurnalistləri daha çox tənzimlənən mühitdə işləməyə meyl edirlər.

İnkişaf etməkdə olan ölkələrdə mətbuat azadlığı nəzərdə tutur ki, bütün insanlar yazılı surətdə və yaxud şəxsi əqidənin və ya yaradıcılığın hər hansı digər ifadəsi ilə öz fikirlərini bildirmək hüququna malikdirlər. İnsan Haqları üzrə Ümumbəşəri Bəyannamədə (İHÜB) deyilir ki:

*«Hər kəsin əqidə və fikir azadlığı hüququ vardır; bu hüquqa imkanlarından asılı olmayaraq hər hansı media vasitəsilə müdaxiləsiz öz əqidəsini ifadə etmək və məlumatlar və ideyalar axtarmaq, almaq və çatdırmaq azadlığı daxildir.»*

Qeyri-hökumət təşkilatları dünyadakı mətbuat azadlığının səviyyələrini qiymətləndirmişlər. Sərhədsiz Reportyorlar təşkilatı İHÜB-dəki maddədən ruhlanaraq Ümumdünya Mətbuat Azadlığı İndeksini yaratmışdır ki, bu da hər hansı bir ölkədə qətlə yetirilən, sürgün edilən və ya təqib olunan jurnalistlərin sayı, televiziyada və radio dövlət inhisarçılığının mövcudluğu və mediada senzura və daxili senzuranın olması barədə məlumat verir. Bu, həmçinin medianın tam müstəqilliyini, habelə xarici müxbirlərin qarşılaşdığı çətinlikləri qiymətləndirir.

Sərhədsiz Reportyorlar təşkilatının rəyinə əsasən, dünya əhalisinin üçdə bir hissəsindən çoxu mətbuat azadlığı olmayan ölkələrdə yaşayır. (Ölkələrin ardıcıllığı aşağıdakı mənbədən əldə oluna bilər: http://www.rsf.org/) Mətbuat azadlığına nəzarət edən digər təşkilatlara Beynəlxalq Jurnalistlər Federasiyası (BJF) daxildir.

Mətbuatın müstəqilliyi konsepsiyası mətbuat azadlığı konsepsiyası ilə sıx şəkildə əlaqədardır. Medianın demokratik şəraitdə fəaliyyət göstərməsi üçün onlar siyasi və iqtisadi vasitələrdən azad olmalıdır.

Jurnalistika normaları və etikası mövzusu barədə ABŞ-da fikir söyləyən aparıcı informasiya bürolarından biri Peşəkar Jurnalistlər Cəmiyyəti olmuşdur. Onun etika kodeksinin preambulasında göstərilir:

*«...ictimai maarifləndirmə ədalət müjdəçisi və demokratiyanın təməlidir. Jurnalistin vəzifəsi həqiqəti axtarmaqla, eləcə də hadisələrə və məsələlərə ədalətli və müfəssəl qiymət verilməsini təmin etməklə bu nəticələri önə çəkməkdən ibarətdir. Bütün medianı və ixtisasları təmsil edən vicdanlı jurnalistlər müfəssəlliyi və səmimiliyi ilə ictimaiyyətə xidmət etməyə səy göstərirlər. Peşəkar düzgünlük jurnalistin nüfuzunun dayaq nöqtəsidir.»*

Bu, Amerika konstitusiyasına – söz azadlığının qanunla qorunduğu sənədə – və «Konqres söz və ya mətbuat azadlığını məhdudlaşdıran heç bir qanunu qəbul etməməlidir...» müddəasını qəti şəkildə göstərən məşhur Birinci Düzəlişə (ABŞ konstitusiyasına) uyğundur.

Yeni Respublika tərəfindən heç bir doktrinanın qəbul olunmaması azad fikrin bəyan edilməsinə nisbətən bütün dünyada daha geniş surətdə dəstəklənmişdir. Lakin dünya dövlətləri jurnalistlərin davranışına məhdudiyyətlər qoyulması niyyəti – əslində, jurnalistlər hökumətin istəklərinə uyğun olduqda yalnız onların fəaliyyətinə lisenziya verilməsi üzrə öz səbəblərini göstərə bilərlər. Bu cür məhdudiyyətin qoyulması hakim elitanın əlaltıları ilə müqayisədə öz müstəqilliyini qiymətləndirən və özünü geniş ictimaiyyətin vasitələri kimi hesab edən jurnalistlərə qarşı qəbul edilməməlidir.

Hökumətlər mətbuat azadlığı üzərində nəzarətin qoyulmasını əsaslandırmaq üçün «media xətası» bəhanəsindən tez-tez istifadə edirlər. Bu, media daxilində şəffaf və ümumi qəbul olunan və dərk edilən sistemə əsasən özünü tənzimləməli olan jurnalistika praktikasının nə üçün həyati əhəmiyyət kəsb etməsinin ən tutarlı səbəblərindən biri kimi ehtimal olunur.

Medianın tənzimlənməsinin hələ də tez-tez yüksək ziddiyyətli kimi nəzərdən keçirilməsinə baxmayaraq bu, artan dərəcədə əhəmiyyət kəsb etmişdir. Bəzi istisnalar ilə bu ziddiyyət demokratiyada medianın yönəlməli olduğu standartlar üzərində deyil, *özünütənzimləmə və qanunverici tənzimləmənin* alternativ dəyərləri üzərində cəmləşməlidir.

Məsələn, Birləşmiş Krallığın Mətbuat Şurasının Peşə kodeksi jurnalistlər və redaktorlar üçün bir sıra standartları, o cümlədən dəqiqliyi, şəxsi həyatın toxunulmazlığı üzrə bəzi hörmət formalarını, uşaqlar və zəif insanlar üçün bəzi müdafiə üsullarını müəyyən etsə də, ədalətliliyi və qərəzsizliyi əhatə etmir. Lakin bu kodeks qanunvericilik ilə nəzərdə tutulmur. Mətbuat Şurası özünütənzimləmə həddini müəyyənləşdirməklə qanunverici tənzimləməni qabaqlamaq səyi ilə bunu formalaşdırmışdır. Peşə kodeksi jurnalistlərin və redaktorların davranışları üzrə reqlament qaydasına deyil, şikayət prosedurlarına əsaslanır. Onun vahid icra tərzi seçmə və retrospektiv xarakter daşıyır: Qəzet redaktorlarından və «ştatdankənar» üzvlərdən ibarət olan Mətbuat Şikayətləri Komissiyası kodeksin pozulması barədə şikayətləri araşdırır və «həll edir».

Jurnalist təşkilatları və həmkarlar ittifaqları və mətbuat şuraları və ya metodiki göstərişləri və təlimatı təmin edən BBC kimi qurumlar tərəfindən formulə edilmiş kodekslər Skandinaviya ölkələrindəki mətbuat şuralarının kodekslər kimi direktiv olan və qaydalar şəklində tətbiq edilənlər ilə ziddiyyət təşkil edə bilər.

Bütün növ normalara mətbuat azadlığının pozulması forması kimi şübhə edənlər və normaları məsul jurnalistikaya yardım kimi hesab edənlər arasında bir gərginlik mövcuddur. Yuxarıda istinad edildiyi kimi, əvvəlki qayə ABŞ Konstitusiyasının Birinci Düzəlişi ilə qorunan ənənəni təmsil edən ABŞ jurnalistləri arasında daha adi xarakter almasına baxmayaraq, sonuncu nöqteyi nəzər Avropa ənənəsinin ümumən bir hissəsidir.

## Kodeks nəyi ehtiva etməlidir?

Tamamilə müfəssəl və ya direktiv şəkildə kodeks fikir azadlığını, habelə jurnalistika araşdırmasını qadağan edə bilər. Lakin həddindən artıq quru və ibrətamiz şəkildə kodeks şərh üzrə elə imkan yarada bilər ki, bu da faktiki surətdə qanuni qüvvəyə malik olmayacaqdır.

Səmərəli olması üçün kodeks ilkin prinsipləri formulə etməlidir ki, bunun da müqabilində jurnalistlər öz davranışlarının və məlumatlarının qiymətləndirilməsinə razıdırlar. Məsələn, jurnalistlərin özünəməxsus əqidə hüququna malik olmasına baxmayaraq, onların razılaşmadığı məlumatları nəzərə almadan jurnalistlərin şəxsi fikirlərinin dəstəklənməsi onların ictimai mövqeyindən sui-istifadə edilməsi kimi hesab olunur.

Xəbərlərin şərhi və təhlili legitim hesab edilir və arzuolunan vasitələrlə fikir müxtəliflikləri ayrılır və stimullaşdırılır, lakin xəbərlər və məlumatlar ilə şərh və ya təhlil arasında fərq qoyulmalıdır.

Hər hansı tənzimləmə forması cavabdehlik sistemini təmin edir. Bu ideyanın əsas qayəsi odur ki, - uyğunluğa zəmanət verməklə və ya qanun pozuntularının dərhal aradan qaldırıldığına təminat verməklə «qaydalar» praktikaya öz təsirini göstərir. Medianın öz-özünü tənzimləməsi qanun pozuntularına yol verildikdə – müvafiq qanuni vasitələrə müraciət etmədən - ictimaiyyətin azad və müstəqil mediadan istifadə etmək hüququnu müdafiə etmək məqsədilə işlərin nizama salınmasında media peşəkarlarına etibar edilməsi barədə ictimaiyyətin inandırılmasına yönəldiyi üçün cavabdehliyin xüsusi forması hesab olunur.

Stajçıların özləri üçün başlanğıc nöqtəsi olmalıdır. Əksər insanlar razılaşarlar ki, kodeks aşağıdakılara istinad etməlidir:

- media azadlığı prinsiplərinin, ictimaiyyətin məlumat əldə etmək hüqunun və jurnalistlərin şəxsi düşüncəsini reallaşdırmaq hüququnun dəstəklənməsi
- dəqiqlik və qeyri-dəqiqliyin aradan qaldırılması
- faktlar ilə şərh arasında fərq qoyulması
- xüsusən xəstə və ağır vəziyyətdə şəxsi toxunulmazlığa hörmət göstərilməsi
- uşaqların, cinayət qurbanlarının və digər zəif qrupların qorunması
- mənbələrin qorunması
- qərəzliliyə və ayrı-seçkiliyə yol verilməməsi
- motivlərə və maraq ziddiyyətlərinə yol verilməməsi

Qaydaya nəzərən istisnalar həmişə olacaq-

dır. Dəqiqliyin bütün media peşəkarları üçün toxunulmaz olaraq qalacağına baxmayaraq, daha optimal (ictimaiyyətin bilmək hüququ) – bəzən «üstün ictimai marağın» kodeksdən kənara çıxan xətaları əsaslandıra biləcəyi hallar barədə metodiki göstərişlərin olması faydalıdır.

Məsələn, Birləşmiş Krallıqda fikir azadlığı özlüyündə «ictimai maraq» hesab olunur. Qəzet sahəsi (Mətbuat Şikayətləri Komissiyası) və Milli Jurnalistlər İttifaqı uşaqların əhatə olunduğu kodeksin pozulmasını əsaslandırmaq üçün «istisna» hallarının olmasına təkid edir, lakin bildirir ki, aşağıdakı motivlərə görə kodeksdən kənara çıxan xətalar (oxşar, lakin fərqli) əsaslandırıla bilər:

- cinayəti və ya ciddi qanun pozuntularını aşkar etmək və ya nümayiş etdirmək
- ictimai sağlamlığı və təhlükəsizliyi qorumaq
- fərdin və ya təşkilatın bəzi bəyanatları və ya tədbirləri nəticəsində ictimaiyyətin aldadılmasının qarşını almaq

Səmərəli olması üçün kodeksin nəzarət edildiyi – medianın və ictimaiyyətin etimadını qazanmış jurnalist təşkilatları və ya qeyri-dövlət qurumu tərəfindən aparılmasına baxmayaraq – və qanun pozuntusu baş verdikdə bir neçə təshihat formasının əldə oluna biləcəyi bəzi vasitələr mövcud olmalıdır.

Jan Klod Bertrand (aşağıdakı istinada bax) tövsiyə edir ki, onun adlandırdığı «media uçot sistemləri» və ya MUS-dən istifadə etməklə ayrıca və ya müxtəlif kombinasiyalarda birlikdə vasitəçilərin, sahibkarların, peşəkarların və istifadəçilərin üç qrupu tərəfindən keyfiyyətə nəzarət həyata keçirilə bilər.

## Media uçot sistemləri

Media uçot sistemi (MUS) medianın sosial cəhətdən məsuliyyət daşıdığına təminat verilməsi üçün istifadə olunan vasitələrin hər hansı növü, medianı və jurnalistləri peşə ilə müəyyən edilən etik qaydalara hörmət göstərməyə stimullaşdıran bir üsuldur. Bütün MUS xəbər mediasının təkmilləşdirilməsinə yönəlir, lakin onlar kəskin şəkildə fərqlənir:

- fərdlər (məsələn, ombudsman aparatları və ya daxili oxucu kütlələri)
- insanlar qrupu (məsələn, lehinə səs verənlərin qiymətləndirilməsi üzrə komissiyalar)
- mütəmadi görüşlər (məsələn, yerli mətbuat şuraları)
- vahid sənədlər (məsələn, etika kodeksi)
- kiçik-miqyaslı media (məsələn, jurnalistika icmalları)
- səciyyəvi əməliyyat (məsələn, etika auditi)
- uzun proses (məsələn, universitet təhsili və ya müfəssəl tədqiqat)

Media uçot sistemləri ayrı-ayrı məqsədlər daşıyır:

- *tənqid,* medianı təkmilləşdirmək üçün ən asan və ən sadə metod
- *monitorinq,* media məhsulları xeyli çox və qısa müddətli olduğuna görə hazırda tələb olunur.
- *mediadan istifadə etmək,* hər kəsin geniş miqyaslı mediadan istifadə etməyə qadir olduğu və əhalinin hər bir təbəqəsinin məlumatı yaymaq qabiliyyətində olduğu mənada
- *təlim,* əksər media problemlərinin uzun müddətli həlli: peşəkarların təhsili və vətəndaşların həssaslığının artırılması

Bəzi MUS media daxilində (təshihat qutusu kimi); digərləri media xaricində (jurnalistika icmalı kimi) formalaşır; halbuki bəziləri media ilə ictimaiyyətin əməkdaşlığını (mətbuat şurası) əhatə edir.

Səhvlərin qəbul edilməsi, xüsusən ictimaiyyətin həyat tərzinə toxunan tədbirlər və məsələlər barədə onları etibarlı məlumatla təmin etmək funksiyası sahəsində həmişə çətindir. Lakin nöqsanın ictimai surətdə açıqlanması, faktın birbaşa olaraq müəyyən edilməsi və bu cür nöqsanların təkrarlanmayacağına təminat verməyə səy göstərilməsi ictimaiyyət ilə media arasında inamın gücləndirilməsinin ən səmərəli üsullarından biridir.

## Beynəlxalq kodekslər

Uşaq Hüquqlarına dair Ümumbəşəri Bəyannamənin ratifikasiyası bütün dünyada dövlətlərin hamısı tərəfindən göstərildikcə, insan hüquqları və uşaqların hüquqları ümumbəşəri və ayrılmaz xarakter daşıyır. Lakin jurnalistin riayət etməli olduğu hərtərəfli standartlar varmı? İndiyədək Jurnalistlər üzrə Ümumbəşəri Davranış Kodeksi hələ də mövcud deyildir. Bir çox regional və milli kodekslər tətbiq olunur və beynəlxalq korporasiyalar öz təlimatlarını və metodiki göstərişlərini yaratmışlar (İnsan Haqları üzrə Avropa Məhkəməsi tərəfindən mətbuat azadlığı naminə qaydalar toplusunun nəşr etdirilməsinə baxmayaraq).

Yazılı kodekslər və praktiki standartlar ölkədən ölkəyə və təşkilatdan təşkilata doğru dəyişir, lakin əsas nəşrlər ilə cəmiyyətlər arasında mühüm uyğunluq vardır. Etika kodeksi əxlaqi həssaslığı və mühakiməni artırır və fərdlərin mənəvi ruhlandırılmasına göstərilən dəstəyi gücləndirir və təşkilatın eyniyyət hissinin aşılanmasına kömək edir.

Beynəlxalq Jurnalistlər Federasiyası (BJF) hesab edir ki, söz azadlığı və məlumat azadlığı jurnalistika işinin əsasıdır. Bu, medianın redaksi-

ya müstəqilliyini və öz-özünü tənzimlənməsini tələb edir və jurnalistikadakı etika kodeksinə dair debatı stimullaşdırır. Həmçinin bu, peşə normalarını, Jurnalistlərin Davranış Prinsiplərinə dair Bəyannaməni dəstəkləyir və uşaqları əhatə edən məsələlər barədə xəbər verilməsi üzrə spesifik təlimatları işləyib hazırlamışdır. Uşaqlarına həyatına və rifahına toxunan jurnalistika fəaliyyəti həmişə uşaqların zəif vəziyyətinin qiymətləndirilməsi ilə həyata keçirilməlidir. BJF-nin kodeksi çoxsaylı milli normaların və qaydaların əsasına çevrildiyinə görə böyük əhəmiyyət kəsb edir.

## Uşaqlara nəzərən davranış kodeksləri

BJF-nin rəyinə əsasən, bütün jurnalistlər və media peşəkarları nəinki yüksək etika və peşə normalarına riayət etməli, eləcə də müstəqil jurnalistikanın həyata keçirilməsi üçün fəaliyyət sahəsi daxilində Uşaq Hüquqları haqqında Konvensiya və onun müddəaları barədə məlumatların mümkün dərəcədə geniş şəkildə yayılmasını dəstəkləməlidirlər.

BJF-nin qənaətinə görə, media təşkilatları uşaqların hüquqlarının pozulmasını və uşaqların texniki təhlükəsizliyi, şəxsi həyatının toxunulmazlığı, fiziki təhlükəsizliyi, təhsili, sağlamlığı və sosial rifahı ilə əlaqədar məsələləri və bütün istismar formalarını araşdırmalar və ictimai müzakirə üzrə mühüm məsələlər kimi hesab etməlidirlər.

Bununla yanaşı, media nəinki uşaqların vəziyyətini yalnız hadisə kimi nəzərdən keçirməli və bu baxımdan xəbər hazırlamalı, eləcə də «həmin hadisələrin baş verməsinə səbəb ola bilən və ya səbəb olan proses haqda davamlı surətdə xəbər verməlidirlər».

Media təşkilatları uşaqlara dair fəaliyyətini əhatə

### BJF-NİN UŞAQLARA DAİR XƏBƏR VERİLMƏSİ ÜZRƏ PRAKTİKİ TƏLİMATLARI

Jurnalistlər və media təşkilatları uşaqların məsələləri haqda xəbərlərin verilməsində etik davranışın ən yüksək normalarına riayət olunmasına səy göstərməlidirlər. Xüsusən, onlar:

1. uşaqları əhatə edən məsələlər barədə xəbər hazırlayarkən dəqiqlik və həssaslıq baxımından mükəmməl normalara nail olmalıdırlar;
2. uşaqlara xələl gətirən məlumatlar ilə onlara media məkanında müdaxilə edən proqramlara və rəsmlərin nəşrinə yol verməməlidirlər;
3. uşaqları əhatə edən jurnalistika fəaliyyətinin gücləndirilməsi üçün stereotiplərin və sensasiyalı təqdimatların istifadəsinə yol verməməlidirlər;
4. uşaqlarla əlaqədar hər hansı materialın nəşrinin nəticələrini diqqətlə nəzərdən keçirməli və uşaqlara olan zərəri minimuma endirməlidirlər;
5. ictimai maraqda nümayiş edilənə qədər təsirə məruz qalan uşaqları müəyyən edərək onları əyani və ya digər şəkildə qorumalıdırlar;
6. hər hansı növ motiv olmadan özünəməxsus fikirlərini ifadə etmək üçün uşaqların mümkün dərəcədə mediadan istifadə hüququnu təmin etməlidirlər;
7. uşaqlar tərəfindən verilən məlumatların sərbəst yoxlanılmasını təmin etməli və uşaq xəbərçilərini risk altında qoymadan məlumatın yoxlanıldığına təminat vermək üçün xüsusi diqqət yetirməlidirlər;
8. uşaqların seksuallaşdırılmış obrazlarının istifadəsinə yol verməməlidirlər;
9. uşaqların rəsmlərinin əldə olunması üçün qərəzsiz, açıq və birbaşa metodlardan istifadə etməli və mümkün olduqda, uşağın və ya məsul yaşlının, himayəçinin və yaxud qəyyumun məlumatı və razılığı ilə onları əldə etməlidirlər;
10. uşaqlar üçün danışmaq və ya uşaqların maraqlarının təmsil etmək niyyətini bildirən hər hansı təşkilatın etimadnamə/mandat sənədlərini yoxlamalıdırlar;
11. uşağın marağında əyani surətdə əks edilməyənə qədər uşaqların rifahına toxunan material üzrə uşaqlar və ya valideynlərə və yaxud uşaqların himayəçilərinə vəsait ödəməməlidirlər.

etmək üçün təlimatlar yaratmışlar. BBC-nin Redaksiya Təlimatları BBC-nin televiziya, radio və onlayn internet rejimi üzrə məlumatlarının əsaslandığı standartları təsvir edir. Bu, mürəkkəb redaksiya qərarlarının nizama salınmasına kömək etmək məqsədilə BBC-də çalışan hər kəs üçün nəzərdə tutulur. Onlar uşaqlara dair spesifik bölmələri ehtiva edir.

BBC-nin təlimatlarında deyilir ki, BBC-nin fəaliyyət göstərdiyi dünya ölkələrində korporasiya öz məlumatlarında ona töhfə verən və başlıca surətdə səciyyələnən uşaqların və gənclərin fikirlərinin dinlənilməsi hüququ daxil olmaqla onların rifahının qorunmasına səy göstərir.

Əvvəllər Prodüser Təlimatları kimi tanınan **BBC-nin Redaksiya Təlimatları** nəinki yüksək səviyyəli xəbərlər və cari məsələlərin təminatçısı kimi BBC-nin ictimai mövqeyinə görə, eləcə də onun bütün dünyadakı jurnalistika təlimində iştirakına görə əhəmiyyət kəsb edir. BBC-nin təlmatları bir sıra dillərə tərcümə olunmuş və yayım jurnalistləri üzrə qeyri-rəsmi etik meyara çevrilmişdir.

BBC-nin Redaksiya Təlimatları nöqteyi nəzərindən gənclərin 15, 16, 17 yaşlı əhali qrupuna daxil edilməsinə baxmayaraq, uşaq 15 yaşından aşağı şəxslər hesab olunur. Lakin bunlar hüquqi anlayışlar sayılmır və uşağı 18 yaşından aşağı olan şəxs kimi göstərməklə BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasından fərqlənir. Bu yaş fərqi uşaq hüququ müdafiəçiləri ilə bəzi jurnalistlər arasında mümkün gərginliyə doğru istiqamətlənə bilər və xəbərlərin işıqlandırılması kontekstində müzakirə edilməli olan bir məsələdir.

BBC-nin təlimatlarında deyilir ki:

*«Uşaqlar və gənclər BBC üçün böyük əhəmiyyət kəsb edir. Bizim məqsədimiz onlara yaşadıqları dünyanın dərk olunmasında kömək etmək üçün mənalı, maarifləndirici, xoş və maraqlı dolğun məlumatları çatdırmaqdan ibarətdir. Həmçinin onlar bir çox müxtəlif üsullarla – iştirakçılar, aktyorlar, təqdimatçılar kimi və onlayn və interaktiv xidmətlərimiz vasitəsilə bizimlə qarşılıqlı əlaqədədirlər.»*

*«Bizim məlumatlarımızda yer tutan uşaqların rəqabətədavamlı maraqları ilə onların valideynlərinin və ya auditoriyamızın fikirləri və ambisiyaları arasında tarazlıq yaratmaq həmişə asan olmur. Lakin fəaliyyət göstərdiyimiz dünya ölkələrində bizim məlumatlara töhfə verən uşaqların və gənclərin öz fikirlərini ifadə etmək və iştirak hüququ daxil olmaqla, onların rifahını daim qorumalıyıq.»*

Fəaliyyəti uşaqların üzərində cəmləşən bəzi qeyri-hökumət təşkilatları media üçün uşaqlarla iş aparılmasına dair təlimatlar hazırlamışlar. Məsələn, BMT Uşaq Fondu təlimatlar irəli sürməklə, yaşa uyğun və həssas şəkildə uşaqların işıqlandırılmasında bunun mediaya kömək edəcəyini hesab edir. Onlar əxlaqlı müxbirlərin ən optimal səylərinə dəstək verilməsi üçün nəzərdə tutulmuşdur: uşaqların hüquqlarının təhlükə altında qoymadan ictimai marağa xidmət etməklə. Onların prinsiplərinə daxildir:

1. Hər bir uşağın ləyaqətinə və hüquqlarına hər bir şəraitdə hörmət edilməlidir.
2. Uşaqlarla müsahibə aparılması və buna dair xəbərin verilməsi ilə hər uşağın şəxsi həyatının toxunulmazlığı və etibarlılığı, öz fikirlərinin dinlənilməsi, uşaqlara toxunan qərarlarda iştirak etmək və zərər və cəzanın mümkünlüyü daxil olmaqla, zərər və cəzadan qorunmaq hüququna xüsusi diqqət yetirilməlidir.
3. Hər uşağın ən yaxşı maraqları istənilən digər mülahizəyə, o cümlədən uşaqlarla bağlı məsələlərin müdafiəsinə və uşaq hüquqlarının dəstəklənməsinə nəzərən qorunmalıdır.
4. Uşağın ən yaxşı maraqlarını müəyyənləşdirməyə səy göstərərkən, uşağın yaşına və yetkinliyinə uyğun olaraq onun öz fikirlərinin nəzərə alınması hüququna lazımi əhəmiyyət verilməlidir.
5. Uşağın vəziyyətinə yaxın olanlar və onu qiymətləndirməyi bacaranlar hər hansı reportajın siyasi, sosial və mədəni nəticələri barədə məsləhətləşmə aparmalıdırlar.
6. Uşağı, bacı-qardaşları və ya həmyaşıdları risk altında qoya bilən əhvalatlar və ya rəsmlər hətta dəyişsə, gizlədilsə və ya istifadə olunmasa belə, onları nəşr etməyin.

Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi (UHİŞ) həmçinin uşaqlarla müsahibə apararkən jurnalistlərin istifadəsi üçün təlimatlar toplusunu tərtib etmşdir.

## UŞAQLARIN HÜQUQLARI ÜZRƏ İNFORMASİYA ŞƏBƏKƏSİ (UHİŞ): UŞAQLAR BARƏDƏ XƏBƏRLƏRİN VERİLMƏSİ ÜZRƏ ETİK TƏLİMATLAR

- Uşağı, bacı-qardaşları və ya həmyaşıdları risk altında qoya bilən əhvalatlar və ya rəsmlər hətta dəyişsə, gizlədilsə və ya istifadə olunmasa belə, onları nəşr etməyin.
- Hər hansı uşağa heç bir zərər vurmayın; uşağı təhlükədə qoymaqla və ya uşağın alçaldılmasını göstərməklə və yaxud travmatik hallar nəticəsində uşağın ağrısını və dərdini təzələməklə mədəni dəyərlərə subyektiv, qeyri-həssas olan suallara, münasibətlərə və ya şərhlərə yol verməyin.
- Müsahibə aparılması üçün uşaqların seçilməsində cinsinə, irqinə, yaşına, dininə, statusuna, təhsil səviyyəsinə və ya fiziki bacarıqlarına görə ayrı-seçkilik etməyin.
- Uşaqları əhatə edən jurnalistika materiallarının gücləndirilməsi üçün stereotiplərin və sensasiyalı təqdimatların istifadəsinə yol verməyin.
- Uydurmaya yol verilməməsi: uşaqların keçmişinin tərkib hissəsi olmayan əhvalatı danışmasını və ya hərəkətə yol verməsini onlardan xahiş etməyin.
- Uşağın və ya qəyyumun müxbirlə danışdığı haqda məlumatlı olmasına təminat verin. Müsahibənin və onun planlaşdırılan istifadəsinin məqsədini izah edin.
- Bütün müsahibələr, videoyazılar və mümkün olduqda sənədli fotoşəkillər üçün uşağın və onun qəyyumunun razılığını əldə edin. Mümkün və məqsədəuyğun olduqda, bu razılıq yazılı surətdə alınmalıdır. Uşağın və qəyyumun heç bir üsulla məcbur edilmədiyinə və onların yerli və qlobal səviyyədə yayıla bilən əhvalatın tərkib hissəsi olduğunu dərk etdiklərinə təminat verən hallarda razılıq əldə edilməlidir. Əgər uşağın dilindən razılıq alınırsa və uşağın etibar etdiyi yaşlı ilə məsləhətləşmə şəraitində qərar qəbul edilərsə, adətən yalnız belə halda buna təminat verilir.
- Müsahibə aparanların və fotoqrafların sayını məhdudlaşdırın. Uşaqların münasib vəziyyətdə olduqlarını və təzyiq olmadan öz əhvalatlarını söyləyə biləcəklərini müəyyənləşdirməyə çalışın.
- Uşağın əhvalatı və ya obrazı üzrə həmişə dəqiq konteksti təqdim edin.
- Aşağıdakı kimi müəyyən olunan hər hansı uşağın həmişə adını dəyişin və əyani görünüşünü gizlədin:
  - a. seksual zorakılığın və ya istismarın qurbanı,
  - b. fiziki və ya seksual zorakılığı törədən,
  - c. uşağın, valideynin və ya qəyyumu tam məlumatlı razılıq verməyənə qədər İİV olduğu müəyyən edilən və ya QİÇS ilə yaşayan,
  - d. cinayət törətməkdə təqsirləndirilən və ya ittiham olunan.
- Digər uşaqlar və yaxud yaşlı ilə, hər ikisinə birlikdə üstünlük verilərək uşağın söyləməli olduğu məqamların doğruluğunu təsdiq edin.
- Uşağın risk altında olub-olmaması şübhə doğurduqda, əhvalatın xəbər kimi əhəmiyyət daşımasına fərq qoyulmadan fərdi uşaq ilə müqayisədə uşaqlar üzrə ümumi vəziyyət barədə məlumat verin.

## Qiymətləndirmə təlimatı

Bu bölmənin başlanğıcında bəzi Əsas Araşdırma Predmetləri sadalanır. Qoyulan sualların bəzilərinə cavab verə bilərsinizmi? Qanunlar kimi normalar və qaydalar mənəvi normaların kodeks şəklinə salınması üçün göstərilən şeylərdir. Bəzən mənəvi normalar toqquşur və etik tələblər rəqabətlə qarşılaşır. Eyni hal hüquqlar üzərində özünü göstərir. Azad fikir və ya azad mətbuat hüququnun uşaq hüquqları ilə toqquşmasına dair bir nümunə təqdim edə bilərsinizmi? Onlardan hansı birisi digərini üstələyər?

## Sonrakı şərh və resurslar

*Peşə kodeksləri*, Mayk Cempson, PressVays Fondu:
http://www.mediawise.org.uk/display_page.php?id=792

*BMT Uşaq Fondu: Uşaqlar barədə Xəbərlərin Verilməsi üzrə Etik Prinsiplər:*
http://www.presswise.org.uk/display_page.php?id=594

Peşəkar Jurnalistlər Cəmiyyəti; Etika Kodeksi:
http://www.spj.org/ethicscode.asp

*Kimlərə Nəzarət olunur?* Azad fikrə qlobal media təhlükələri barədə dəyirmi masa ətrafında müzakirə aparılması üzrə ilkin əyani vəsait, BJF, 2005.

*Media və Uşaqların Hüquqları*: BJF-nin Uşaqları Əhatə Edən Məsələlər barədə Xəbər Verilməsi üzrə Təlimatları və Prinsipləri:
http://www.ifj.org/default.asp?index=192&Language=EN

Beynəlxalq Jurnalistlər Federasiyası:
http://www.ifj.org/

*Jurnalistlər üzrə Etika*, Riçard Kibl. London: Routlec, 2001.

*Media Etikası və Uçot Sistemləri*, Jan Klod Bertrand, Əqd Naşirləri təşkilatı, 2000.

*Qlobal Jurnalistika: Aktual məsələlər və Media Sistemləri*. Arnold de Bier və Con C Merril, Allin & Bekon, 2003.

## ƏLAVƏLƏR

### BBC-NİN UŞAQLARA DAİR REDAKSİYA PRİNSİPLƏRİ

Biz on səkkiz yaşından aşağı olan insanların, xüsusən on beş yaşından aşağı olan uşaqların fiziki və emosional vəziyyəti və ləyaqəti onlar tərəfindən və ya valideyn, qəyyum və ya valideyn qismində olan digər şəxsin verdiyi hər hansı razılıqdan asılı olmayaraq, proqramların və onlayn məlumatların hazırlanması və yayımlanması zamanı qorunduğuna təminat verməliyik.

Biz uşaqların və gənclərin proqramlarda iştirakı və ya onların yayımlanmasının lazımsız narahatlığa və əziyyətə səbəb olmadığına təminat verməliyik. Onların iştirakı redaktor nöqteyi-nəzərindən aydın şəkildə əsaslandırılmalı və lazım gəldikdə onlara dəstək verilməlidir.

*Biz uşaqların və gənclərin fikir azadlığı və məlumat əldə etmək azadlığı üzrə hüquqları ilə onları qeyri-münasib informasiya yayımından qorumaq üçün öz məsuliyyəti tarazlaşdırmalıyıq.*

### UŞAQLAR VƏ RAZILIĞIN ƏLDƏ EDİLMƏSİ

Biz uşaqlar və gənclər ilə müsahibə aparılmasından və başqa bir şəkildə onların bizim informasiya buraxılışımıza cəlb olunmasından əvvəl normal surətdə valideynlərin və ya qanuni qəyyumların və yaxud on səkkiz yaşından aşağı və ya yuxarı olmaqla valideyn qismində digər şəxsin və daha gənc və zəif uşaqların razılığını almalıyıq və məsələnin mahiyyəti nə qədər çox həssas olarsa, razılığın əldə olunması o qədər böyük əhəmiyyət kəsb edir. Xüsusən uşaqların razılıq olmadan müvafiq şəkildə cavab vermək qabiliyyətindən kənarda olan məsələlər barədə fikirləri soruşulmamalıdır.

*Öz xəbər buraxılışlarında uşaqları və gəncləri səciyyələndirən informasiya təminatçıları:*

- uşağın və lazım gəldikdə, valideynin/qəyyumun və ya on səkkiz yaşından aşağı və ya yuxarı olmaqla valideyn qismində digər şəxsin proqramın mahiyyətini başa düşdüyünə və məlumatlı razılıq vermək iqtidarında olduğuna təminat verməlidirlər;

- uşağın və gəncin razılığını almalı və iştirak etməkdən imtina etməsinə hörmətlə yanaşmalıdırlar. Uşağın razılıq verib-verməməsi barədə qərar qəbul edilərkən, inkişaf dövrü və qavrayış dərəcəsi, habelə onun yaşı nəzərə alınmalıdır.

- uşağın iştirakı və ya əməkdaşlığı üçün valideynlərin/qəyyumların/valideyn qismində digər şəxsin normal qaydada razılığını əldə etməlidirlər, xırda pullar və sevimli müğənnilər kimi qeyri-mübahisəli mövzular barədə uşaqlarla birlikdə populyar səsləri yazarkən istisna halı mövcud ola bilər.

- valideynin razılıq verməkdən imtina etməsinə dair hər hansı məlumatı Müstəqil təşkilatlar üzrə aparıcı redaksiya rəsmisinə və ya öz növbəsində Redaksiya Strategiyası ilə məsləhətləşməli olan buraxıcı redaktora təqdim etməlidirlər. Valideyn razılığı olmadan hər hansı qərarın yerinə yetirilməsi aydın ictimai maraq və ya uşağın və yaxud gəncin öz fikrini ifadə etmək azadlığı əsasında yalnız redaksiya nöqteyi-nəzərindən normal surətdə əsaslandırılır; buna onların öz rəyini bildirmək hüququ daxildir.

- uşağın iştirakının müvafiq surətdə proqnozlaşdırıla bilən hər hansı nəticələrinin aydınlaşdırıldığına, məsələn, qorxutmanın mümkünlüyünün açıqlandığına təminat verməlidirlər.

- razılığa təminat vermək üçün uşağa və ya valideynə/qəyyuma pul mükafatını təklif etməməlidirlər. Xərclərin ödənişi onların müvafiqliyi və qanuniliyi qədər məqbul hesab edilir.

- məktəb binasında və ya dərs saatları zamanı uşaqların filmə çəkilməsi və ya onlarla müsahibə aparılması üçün məktəb direktorundan razılıq almalıdırlar. Qanunvericiliyə əsasən, Yerli Təhsil Rəsmiləri dərs saatları zamanı uşağın bütün tamaşa və ifaçılıq sənətinə lisenziya verirlər.

Biz onlayn rejimində uşaqlardan şəxsi məlumatları soruşduqda, valideyn razılığının hansı dərəcədə məqsədəuyğun olduğunu nəzərdən keçirməliyik.

Məsələn, əgər biz uşaqla kobud rəftar olunduğuna şübhə ediriksə, uşağın şəxsi məlumatlarının razılıq olmadan üçüncü şəxsə açıqlanması barədə hər hansı təklif Müstəqil təşkilatlar üzrə aparıcı redaksiya rəsmisinə və ya öz növbəsində Redaksiya Strategiyasının və Hüquqi Məsləhət Proqramının Nəzarətçisi ilə məsləhətləşməli olan buraxıcı redaktora istinad edilməlidir.

Biz uşaqları telefon vasitəsilə bizim qarşılıqlı əlaqədə olmağa dəvət edərkən, zəng etməzdən əvvəl valideynin və ya himayəçinin razılığını əldə etmək üçün bunu efirdə onlara söyləməliyik. Müstəsna hallarda əgər zənglər bir dəqiqədən artıq vaxtda davam edirsə, razılığın əldə edilməli olduğunu uşaqlara söyləməklə mesaj göndərilməlidir. Zəng kəsilmələri bütün uşaqlara xidmət göstərilməsi üzrə istifadə olunmalıdır və uşaqlara xidmət göstərilməsi üzrə zənglərin dəyəri normal surətdə yazılı müraciətin dəyərindən çox olmamalıdır.

## UŞAQLARIN VƏ GƏNCLƏRİN TÖHFƏLƏRİ

Biz media istehsalı prosesində və materialın yayımlanmasnda uşağı əhatə edən hər hansı materialın təsirini və mümkün nəticələri diqqətlə nəzərdən keçirməlidirlər. Valideynin razılığını alıb-almamağımıza baxmayaraq, bu tətbiq olunur.

Uşaqlar bizim xəbər buraxılışımıza töhfə verməyə tez-tez meyl edirlər, lakin əksəriyyəti onların həyatında ola bilən uzun müddətli təsiri qiymətləndirmək üçün lazımi mühakiməyə malikdir. Qeyri-qanuni narkotik istifadəsi, zorakılıq, instinktiv tələbat kimi ictimaiyyətin mənafeyinə zidd, zərərli və ya qeyri-qanuni fəaliyyət və qorxutmanı səciyyələndirərkən, müsahibələrə yanaşılmasının və əziyyətin azaldılmasının ən optimal üsulu haqqında ekspertlərlə məsləhətləşməni nəzərdən keçirməliyik.

Uşaqla birlikdə həyat əhəmiyyətli məsələlər müzakirə edildikdə, üçüncü tərəfin, o cümlədən qohum, ailəvi dost və ya müəllimin iştirakı da çox vaxt məqsədəuyğun hesab edilir. Bu, uşağın başına gələnlərlə tanış olan və öz maraqlarının qorunmasına kömək edə bilən kimsənin olduğuna təminat verir.

*Biz uşaqların və gənclərin öz fikirlərini ifadə etdiklərinə təminat verməliyik, lakin həmçinin uşaqların faktiki surətdə qeybət və ya şayiəni şişirtdiyi, habelə ondan məmnun olmağa və yaxud bu barədə məlumat verməyə səy göstərdiyi hallara qarşı hazır olmalıyıq. Cinayətkar və ya ictimaiyyətin mənafeyinə zidd əməl diqqətdən kənarda qalmamalıdır.*

## ANONİMLİK

*İctimaiyyətin mənafeyinə zidd və ya cinayətkar əmələ cəlb edilən uşaqların müəyyənləşdirilməsinin və ya anonimliyinin saxlanılmasının onların ən yaxşı davamlı marağında olub-olmamasını biz nəzərdən keçirərkən, mürəkkəb etik məsələlər ortaya çıxır. Aydın redaksiya əsaslandırılması irəli sürülməyənə qədər fəaliyyəti təsvir etmək üçün bu cür əməli səciyyələndirərkən, biz uşaqları normal tərzdə müəyyənləşdirməməliyik. Əgər bunun necə yerinə yetirilməsinə əmin deyilsinizsə, Müstəqil təşkilatlar üzrə aparıcı redaksiya rəsmisi və ya buraxıcı redaktor ilə həmişə məsləhətləşin.*

İctimaiyyətin Mənafeyinə Zidd Əmələ dair Göstəriş ilə uşağın müəyyənləşdirilməsinin mümkün olub-olmaması barədə hər hansı sorğu Hüquqi Məsləhət Proqramına şamil edilməlidir.

Valideynləri ictimaiyyətin mənafeyinə zidd və ya cinayətkar əməl ilə məşğul olan uşaqların cəlb edilməsi, səciyyələndirilməsi və ya müəyyənləşdirilməsi haqda qərar yalnız o halda verilməlidir ki, uşağın rifahına zərər dəyməsin və aydın redaksiya nöqteyi nəzərindən əsaslandırılsın. Məsələn, sərxoş valideynlə birlikdə yaşaması və ya qeyri-qanuni narkotik maddələrin daşıyıcısı kimi işləməyə məcbur edilməsi səbəbindən uşaqlar risk altında olduqda, bu, xüsusi əhəmiyyət kəsb edir.

## ONLAYN REJİMİNDƏ UŞAĞIN MÜDAFİƏ OLUNMASI

*Biz dəyişməkdə olan texnologiyalarımızdan istifadə edən uşaqların və gənclərin qarşılaşdıqları mümkün risklərin və onların necə azaldılmasının dərk olunmasına təminat verməliyik. Onlayn rejimində uşağın müdafiə olunması BBC, valideyn/qəyyum və uşaq arasında ümumi məsuliyyət hesab edilir.*

Rəqəmsal identifikasiya siqnalı ilə etibarlı metodun tətbiq olunmasınadək kənar şəxslərin müntəzəm surətdə şəxsi məlumatları ala və mübadilə edə biləcəyi şəxsi onlayn məkanı uşaqlar üçün münasib deyildir. Bunun səbəbi uşaq istifadəçilərinin qorunması üçün nəzarətin yerinə yetirilə bilməməsi ilə izah olunur.

Bunun əksinə olaraq hər hansı təklif Yeni Media və Texnologiya Bürosunun direktoruna təqdim edilməlidir.

BBC-nin vebsaytının hər hansı hissəsində uşaqlar haqqında nə qədər şəxsi məlumatı toplamağımıza, aşkar etməyimizə və saxlamağımıza nəzərən diqqətli olmalıyıq. Həddindən artıq məlumatın nəşri uşağı risk altında qoya bilər.

## UŞAQLAR, ONLAYN REJİMİNDƏ MƏLUMATLARIN VERİLMƏSİ VƏ LİNKLƏR

Biz vebsaytların müvafiq məlumat daşıyan uşaqların və gənclərin böyük nisbətinə istinad edə biləcəyinə təminat verməliyik. Xüsusən:

BBC-nin əsas səhifəsindəki hər hansı material uşaqlar daxil olmaqla, geniş oxucu kütləsi üçün münasib olmalıdır və BBC-nin əsas səhifəsinə ilkin toxunuş geniş oxucu kütləsi üçün münasib olmayan materialdan ibarət səhifəni normal tərzdə birbaşa açmamalıdır.

uşaq publikasının cəlb olunması baxımından nəzərdə tutulan radio və ya televiziya proqramını uşaqlar üçün münasib olmayan materiallardan ibarət radio və ya televiziya proqramı ilə əlaqələndirməməliyik.

əsas səhifədə seyr edilməklə vebsaytda televiziya təsvirlərinin canlı axını ailə publikası üçün normal tərzdə münasib olmalıdır.

biz üçüncü tərəfin vebsaytlarında xəbər buraxılışını yoxlamalıyıq və bunun nəyə səbəb ola biləcəyinə diqqət yetirməliyik.

biz uşaq auditoriyası üzrə tənzimlənməyən kuluarları əlaqələndirməməliyik.

uşaqlara istinad edilməsi üçün nəzərdə tutulan və istifadəçinin hazırladığı xəbər buraxılışının dərc edildiyi, habelə istifadəçiləri nəşr üçün təsvirləri email vasitəsilə göndərməyə dəvət edən sahələrin olduğu vebsaytları əvvəlcədən tənzimləməliyik.

# JURNALİSTLƏRİN STATUSU VƏ JURNALİSTİKA ETİKASI: BJF-NİN PRİNSİPLƏRİ

## 1. Ümumi prinsiplər

1.1 100-dən çox ölkədə 450000 jurnalisti təmsil edən Beynəlxalq Jurnalistlər Federasiyası hesab edir ki, azad və müstəqil həmkarlar ittifaqlarında formalaşan peşəkar jurnalistlər demokratik media mədəniyyətinin yaradılmasında və qorunub saxlanılmsında başlıca rol oynayır.

1.2 BJF hesab edir ki, demokratiya bütün dünyada fikir azadlığı və sosial ədalətin genişlənməsindən asılıdır. BJF təkid edir ki, demokratiya medianın demokratik cəmiyyətdə xüsusi və səciyyəvi rolunun dərk olunmasından asılıdır.

1.3 BJF hesab edir ki, media fikir və əqidə azadlığının əsaslandığı mətbuat azadlığının peşə və etika prinsiplərinə hörmətlə yanaşmalıdır.

BJF mətbuat azadlığını aşağıdakı kimi müəyyən edir:

«demokratik elektoratın məsul mühakimə yürüdə bilməyəcəyi faktları və mülahizələri nəşr etməklə, yayımlamaqla və dövriyyəyə daxil etməklə, ictimai marağı yüksəltmək məqsədilə jurnalistlərə, redaktorlara, naşirlərə və yayım işçilərinə imkan yaradılması üçün əhəmiyyət daşımaqla məhdudiyyətdən azad olma».

BJF yalnız aşağıdakı hallarda bu azadlığın ifadə oluna biləcəyini hesab edir:

a) rəy müxtəlifliyini əks etdirən azad, müstəqil və plüralist media;
b) coğrafi mövqeyə, etnik mənsubiyyətə, müştərək dəyərlərə və ya ümumi dilə əsaslanıb-əsaslanmamasına baxmayaraq, bütün icmalarda tam demokratik mübadiləyə imkan verən sərbəst məlumat axını;
c) vətəndaşların informasiya azadlığı hüquqlarının və məlumat almaq hüququnun qanunla müdafiə edilməsi və qorunması;
d) jurnalistlərin peşə statusu və sərbəst roluna hörmət edilməsi.

1.4 BJF güman edir ki, əmtəə kimi xəbərlərin və informasiyanın işlənib hazırlanması jurnalistlərin öz oxucularına məlumat vermək vəzifəsini üstələməməli və ya toqquşmamalıdır və media ən yüksək şəffaflıq və səmimilik normalarına uyğun olaraq idarə edilməlidir.

1.5 BJF cəmiyyətinin bütün təbəqələrinin zənginləşdirilməsinə doğru proqramın tərtibatında müstəqilliyi, plüralizmi və rəngarəngliyi qorumaq üçün dövlət və özəl yayımın birgə mövcudluğuna böyük önəm verir.

1.6 BJF təsdiq edir ki, etika kodeksi üzrə məsuliyyət və jurnalistikada ən yüksək normalara riayət olunması media peşəkarlarının üzərinə düşür.

1.7 BJF qəti surətdə hesab edir ki, qanun fəaliyyət göstərən jurnalistlərin müvafiq məsuliyyəti, məhz informasiyanın hazırlanması, seçilməsi və ötürülməsi məsələləri ilə toqquşmamalıdır.

## 2. Peşəyə yiyələnmək

2.1 Peşəyə yiyələnmək sərbəst olmalıdır. Gələcək jurnalistlərin peşə səviyyəsi mümkün qədər yüksək olmalıdır.

2.2 Stajçı jurnalistlər naşirlərin və jurnalistlər ittifaqlarının razılaşdırdığı şərtlərə əsasən müvafiq keçməlidirlər.

2.3 Təyinatlar ixtisaslı jurnalistlərlər, yəni jurnalistlər ittifaqlarının və media təşkilatlarının razılaşdırdığı minimum peşə ixtisaslarına malik olan şəxslərlə məhdudlaşır. Bu cür ixtisaslı jurnalistlər kollektiv sazişlərdə olduğu kimi tanınmalıdır. İşəgötürənlər qəbul edirlər ki, xidmət etdiyi cəmiyyəti əks etdirmək ümumilikdə medianın və ayrılıqda işəgötürənin vəzifəsidir.

## 3. VİCDAN BƏNDİ

3.1 Jurnalistikanın həyata keçirilməsində jurnalistlər öz vicdanlarına uyğun olaraq hərəkət etmək hüququna malikdirlər. İşəgötürənin siyasi, fəlsəfi və ya dini kursunda köklü dəyişiklik olduqda, jurnalist heç bir xəbərdarlıq etmədən öz əmək müqaviləsinə xitam verə və işəgötürən tərəfindən onun əmək müqaviləsinə xitam verildiyi halda jurnalistə ödəniləcək məbləğə ekvivalent olan kompensasiyanı ala bilər.

3.2 Heç bir jurnalist milli səviyyədə tərtib olunmaqla jurnalistlərin qəbul etdiyi etika kodeksi ilə müəyyən edilib-edilməməsinə baxmayaraq, onun öz peşə etikasını pozacağını və ya BJF tərəfindən qəbul olunduğu kimi beynəlxalq səviyyəli Jurnalistika Davranışı üzrə Prinsiplər Kodeksinə uyğun olmayacağını hesab etdiyi hər hansı hərəkət və ya əməl törətməsi üçün işəgötürən və ya işəgötürənin adından fəaliyyət göstərən hər hansı şəxs tərəfindən istiqamətləndirilməməlidir. Heç bir jurnalist öz vicdanına uyğun olaraq hərəkət etməsi üçün malik olduğu hüququn müdafiəsi üzrə hər hansı üsulla cəzalandırıla bilməz.

## 4. Redaksiya müstəqilliyi

4.1 Redaksiya müstəqilliyinin minimum ümumi standartları bütün mediada tətbiq edilməlidir.
4.2 Bu minimum standartlara daxil edilməlidir:

- nəşriyyat evlərinin və yayım stansiyalarının mənəvi və intellektual kapitalını təcəssüm etdirən redaksiya heyəti;

- redaksiya şurasının aşağıdakı məsələlərə toxunan qərarlar barədə məsləhətləşmək hüququ:
- baş redaktorun təyinatı və işdən azad olunması;
- qəzet/yayım stansiyasının redaksiya strategiyasının və xəbər buraxılışın müəyyən edilməsi;
- kadr siyasəti;
- redaksiya şöbəsində jurnalistlərin vəzifələrinin başqasına həvalə edilməsi/dəyişdirilməsi;
- redaksiya siyasəti ilə əlaqədar şikayət məsələlərində redaksiya şurasının öz fikirlərinin ifadə etmək hüququ;
- həmkarlar ittifaqının peşə kodeksində göstərildiyi kimi jurnalistin təyinatı onun peşə etikasını pozacağını sübut edərsə, jurnalistin təyinatdan imtina etmək hüququ;
- redaksiya heyətinin redaksiyanın xəbər buraxılışına üçüncü tərəflərin idarəetmə müdaxiləsinin qarşısını almaq hüququ;
- Avropada jurnalistlərin bərabər əmək haqqı almaq və peşə karyerasında bərabərlik hüququ.
- Şikayətlər olduqda, redaksiya şurası, baş redaktor və rəhbərlik *səmimi* danışıqlar aparır. Jurnalistlər assosiasiyalarının və ittifaqlarının nümayəndələri mövcud əmək/mətbuat qanunvericiliyinə uyğun olaraq danışıqlarda iştirak edə bilərlər.

## 5. Özünütənzimləmə və jurnalistika etikası

5.1 BJF hesab edir ki, etika kodeksi və ya davranış kodeksləri peşəkarların özləri tərəfindən tərtib olunmalıdır.
5.2 BJF-nin ilk dəfə 1954-cü ildə qəbul edilmiş Davranış Kodeksi Avropada bütün milli tipik jurnalistlər təşkilatları tərəfindən qəbul olunmuş etika kodeksini təmin edir. Bu baxımdan BJF-nin Davranış Kodeksi jurnalistlərin və naşirlərin könüllü surətdə qəbul etməsi vasitəsilə etik məsələlər barədə ümumi anlaşma üçün əsas yaradır. Bu sahədə BJF milli hökumətlərin fəal rolunu nəzərdə tutmur.

## BJF-nin Jurnalistlərin Davranışına dair Prinsiplər Bəyannaməsi

Bu beynəlxalq Bəyannamə hadisələrin təsvir olunmasında xəbərlərin və informasiyanın toplanılması, verilməsi, yayılması və şərh edilməsi ilə məşğul olan jurnalistlər üzrə peşə davranışı norması kimi elan edilmişdir.
1. Həqiqətə və ictimaiyyətin həqiqəti öyrənmək hüququna hörmət edilməsi jurnalistin birinci vəzifəsidir.
2. Bu vəzifəni yerinə yetirərkən jurnalist bütün vaxtlarda xəbərlərin vicdanla toplanılmasında və nəşr edilməsində azadlığın və ədalətli şərh və tənqid etmək hüququnun prinsiplərini müdafiə etməlidir.
3. Jurnalist yalnız mənbəyini bildiyi faktlara uyğun olaraq xəbər verməlidir. Jurnalist mühüm məlumatları gizlətməməli və ya sənədləri saxtalaşdırmamalıdır.
4. Jurnalist xəbərlərin, fotoşəkillərin və sənədlərin alınmasında yalnız ədalətli metodlardan istifadə etməlidir.
5. Zərərli surətdə qeyri-dürüst olduğu aşkar edilməklə hər hansı nəşr olunmuş məlumatın təshih edilməsi üçün əlindən gələni əsirgəməməlidir.
6. Jurnalist məxfi şəkildə əldə olunmuş informasiyanın mənbəyinə nəzərən peşə sirrini qoruyub saxlamalıdır.
7. Jurnalist medianın doğurduğu ayrı-seçkilik təhlükəsindən xəbərdar olmalı və digər meyarlar arasında irq, cins, cinsi meyllilik, dil, din, siyasi və ya digər fikirlər və milli və yaxud sosial mənşələr əsasında bu cür ayrı-seçkiliyin dəstəklənməsinə yol verilməməsi üçün bütün mümkün səylərdən istifadə etməlidir.
8. Jurnalist aşağıdakıları ağır peşə cinayətləri kimi hesab etməlidir:

- plagiatorluq
- qəsdən təhrif etmə
- iftira,böhtan, diffamasiya, əsassız ittihamlar
- faktın nəşri və ya gizlədilməsinin müqabilində hər hansı formada rüşvət alma

. Jurnalistlər adlarına layiq şəkildə yuxarıda göstərilən prinsiplərə ehtiramla riayət olunmasını öz vəzifələri kimi hesab etməlidirlər. Hər ölkənin ümumi qanunu çərçivəsində jurnalist hökumətlər və ya digərləri tərəfindən hər hansı növ müdaxilənin istisna edilməsi ilə peşə məsələlərində yalnız həmkarlarının yurisdiksiyasını qəbul etməlidirlər.

*1954-cü ildə BJF-nin Ümumdünya Konqresində qəbul edilmişdir. 1986-cı ildə Ümumdünya Konqresi tərəfindən düzəlişlər edilmişdir.*

# UŞAĞIN MÜDAFİƏSİ STRATEGİYALARI

## ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Uşağın müdafiəsi strategiyaları. Onlar nədən ibarətdir və jurnalistlər ilə birlikdə nəyə səy göstərməlidir?
- Uşağın müdafiəsi strategiyalarına nəzarətin qorunması
- Uşağın müdafiəsi strategiyalarının dəstəklənməsi
- Uşağın müdafiəsi strategiyaları və mətbuat azadlığı

Bu sahəni əhatə edən JURNALİSTLƏR uşağın müdafiəsi strategiyaları ilə tanış olmalı, onların resenziyasını irəli sürməli, tənqidi fikirlərin dinlənildiyinə təminat verməli və bu cür strategiyaların təşkilatlar və hökumət tərəfindən dəstəkləndiyini müşahidə etməlidir.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları haqqında Konvensiyasına əsasən öyrəndiyimiz kimi, uşağın qorunması ilə əlaqədar ən mühüm maddələr aşağıdakılardır:

- Maddə 19 şərtləndirir ki, uşaqlar fiziki və ya əqli zorakılığın bütün formalarından, xəsarətdən və ya təcavüzdən, laqeydlikdən və ya laqeyd davranışdan, kobud rəftardan və ya istismardan, o cümlədən onlara qayğı göstərənlərin seksual zorakılığından müdafiə olunmaq hüququna malikdirlər.
- Maddə 12 şərtləndirir ki, özünəməxsus fikirləri formalaşdırmaq qabiliyyəti olan uşaqların onlara toxunan bütün məsələlərdə yaşa və yetkinliyə uyğun olaraq lazımi diqqət yetirilən həmin fikirləri ifadə etmək hüququna təminat verilməlidir.
- Nəhayət, Maddə 3 şərtləndirir ki, təşkilatlar uşaqlara dair məsələlərə toxunan qərarları qəbul edərkən uşağın ən yaxşı maraqları başlıca olaraq nəzərdən keçirilməlidir.

## Uşaqların qorunması

UŞAĞIN müdafiəsi uşaqların *qəsdən* və *bilmədən* baş verən zərərdən qorunması mənasını kəsb edir. Bu, xüsusən uşaqlara qayğı göstərən təşkilatların - və həmin təşkilatlarla əlaqədar şəxslərin – vəzifəsinə aiddir. Təşkilatın daxilində və ya xaricində zərərin baş verib-verməməsindən asılı olmayaraq, uşaqların qorunmasına səy göstərmək onlarla ünsiyyətdə olan hər bir təşkilatın məsuliyyəti hesab edilir.

Özünün ən sadə formasında uşağın müdafiəsi hər bir uşağın zərərə məruz qalmamaq hüququna istiqamətlənir. Bu, uşaqların yaşaması, inkişaf etməsi və böyüməsi üçün tələbatlarının yerinə yetirildiyinə təminat verən digər hüquqları tamamlayır.

Uşağın müdafiəsi geniş miqyaslı mühüm və çoxşaxəli məsələləri əhatə edir. Uşaq fahişəliyi kimi əksər məsələlər iqtisadi amillərlə sıx şəkildə əlaqədardır. Evdə və ya məktəblərdə zorakılıq kimi digər hallar yoxsulluq, sosial dəyərlər, normalar və ənənələr ilə daha sıx surətdə bağlı ola bilər. Məsələn, uşaq alveri sahəsində cinayətkarlığa tez-tez rast gəlinir. Uşaq pornoqrafiyasının artmasında göründüyü kimi, hətta elmi-texniki tərəqqi müdafiə aspektlərini önə çəkir.

Birləşmiş Krallığın Uşağın Ümidi təşkilatı uşaqların məruz qaldığı zorakılıq/zorlanmanın dörd növünü müəyyən etmişdir:

***Özünə qəsd***: məsələn, qəsdən özünü kəsmə və özünə xəsarət yetirmə; cəhd edilmiş və faktiki intihar.

***Həmyaşıd tərəfindən zorlanma***: məsələn, qorxutma; fiziki və cinsi zorlanma; qrup tərəfindən zorakılıq.

***Yaşlılar tərəfindən zorlanma***: məsələn, məişət zorakılığı (fiziki, psixoloji, cinsi); məktəblərdə və təşkilatlarda döyülmə cəzası; seksual zorlanma və istismar.

***Sosial zorlanma:*** uşaqlara qarşı zorakılığı, fəal surətdə stimullaşdıran və ya avtomatik olaraq buna imkan verən sosial, siyasi, iqtisadi və mədəni mühit, məsələn, küçə uşaqlarının «təmizlənməsini» dəstəkləyən siyasi kampaniyalar; məqbul uşaq tərbiyəsi kimi uşaqların fiziki və alçaldıcı tərzdə cəzalandırılmasını stimullaşdıran dinlər və mədəniyyətlər; zorakılığın mediada geniş yayılması; bərabər hüquqlara layiq olan insan varlıqları kimi deyil, kişilərin/valideynlərin «mülkiyyəti» kimi qadınların və uşaqların düşüncələrini yüksəldən mədəni münasibətlər.

Uşaqlara qarşı zorlanma və zorakılıq həm təşkilat daxilində (məsələn, müəllimlər, sosial işçilər, valideynlər, həmyaşıdlar, sponsorlar, könüllülər tərəfindən), həm də təşkilat xaricində (məsələn, valideynlər tərəfindən icmada/cəmiyyətdə, polislər, kənar müəllimlər, mağaza sahibləri, qanqsterlər) insanlar tərəfindən törədilə bilər.

İnsan haqlarının pozulması ilə yanaşı uşağın müdafiə olunmaq hüququnun pozulması da uşağın yaşaması və inkişafına qarşı yönələn kütləvi, tanınmayan və açıqlanmayan maneələr hesab edilir. Bunun əksinə olaraq, uğurlu müdafiə uşağın fiziki və əqli cəhətdən sağlam, inamlı və özünəhörmət hissi ilə böyümək imkanlarını artırır və digərlərinin, o cümlədən onun öz uşaqlarının zorlanmasını və ya istismarını azaldır.

Uşağın müdafiəsi dünyanın hər bir ölkəsində aktual məsələdir:

- Hər hansı mövcud vaxtda 300000-dən çox aşyaşlı əsgər, səkkiz yaşınadək bəzi azyaşlılar 30 ölkədə silahlı münaqişə şəraitində istismar olunurlar. 1990-cı ildən etibarən silahlı münaqişənin birbaşa nəticəsi kimi iki milyondan çox uşağın tələf olacağı proqnozlaşdırılmışdır. (Bu məsələ sonrakı bənddə daha geniş təfsilat ilə açıqlanır.)
- Qanuna zidd olması nəticəsində bir milyondan çox uşaq həbsxana şəraitində yaşayır. Təkcə Mərkəzi və Şərqi Avropada təqribən 1,5 milyon uşaq dövlət müəssisəsində yaşayır. Ayrıca QİÇS səbəbindən 13 milyon uşağın yetim qala biləcəyi hesablanmışdır.
- 180 milyondan çox uşaq təhlükəli şəraitdə və ya vəziyyətdə işlədiyi halda, təxminən 250 milyon uşaq uşaq əməyinə cəlb olunmuşdur.
- Təqribən 1,2 milyon uşaq hər il daşınaraq satılır.
- Kommersiya məqsədilə seksual ticarətdə uşaqların sayı üzrə 1995-ci ilin hesablaması göstərmişdir ki, bir milyon uşaq (əsasən qızlar, habelə xeyli sayda oğlanlar) hər il çoxmilyardlı sahəyə cəlb olunmuşdur. Hazırda rəqəmlər daha yüksək ola bilər.
- 15 yaşından aşağı olan qırx milyon uşaq zorlanma və laqeydlikdən əziyyət çəkir, sağlam və sosial qayğıya ehtiyac duyur.

Uşaqların qorunmasında yaranan nöqsanlar milli inkişafı sarsıdır və uşaqlıq dövründən fərdin yaşlı həyatına doğru itkilərə və mənfi təsirlərə malikdir. Uşaqlar zorakılıq, zorlanma və istismardan əziyyət çəkdikcə, beynəlxalq aləm uşaqlara qarşı öz öhdəliklərini yerinə yetirə bilməyəcəkdir; bu, həmçinin Minilliyin İnkişaf Məqsədləri ilə Minilliyin Gündəliyi kimi belə sənədlərdə və Uşaq Hüquqları haqqında Konvensiyaya əsasən hökumətin öhdəliklərində müəyyən edildiyi kimi inkişaf səylərini təmin edə bilməyəcəkdir.

Uşaqlar bütün insan hüquqlarına malikdirlər və beləliklə, beynəlxalq və regional səviyyələrdə insan haqları üzrə bütün mexanizmlər onları müdafiə ilə təmin etməlidir. Bu, BMT qurumları və ya regional insan haqları təşkilatlarına (Afrikanın Bəşəri və İnsan Hüquqları Komissiyası kimi) şamil oluna bilər. Eynilə konstitusiya məhkəmələri kimi insan haqlarının qorunması  mexanizmləri həmçinin onların uşaqların müdafiə edilmək hüququnu dəstəklədiyinə təminat verməli olduqda bu, milli səviyyədə öz qüvvəsini saxlayır.

Hökumətlər əsas qaydaların qanunvericilikdə saxlanıldığına və xüsusən müvafiq peşəkar assosiasiyalar və qurumlar tərəfindən daha ətraflı və müfəssəl təlimatların qəbul edildiyinə, tətbiq olunduğuna və nəzarət edildiyinə təminat verə bilərlər.

Uşağın müdafiəsi üzrə əsas beynəlxalq mexanizm Uşaq Hüquqları Komitəsidir, onun başlıca funksiyası Konvensiyaya tərəfdar olan bütün iştirakçı dövlətlərin dövri surətdə təqdim etməli olduqları hesabatları nəzərdən keçirməkdən ibarətdir. Hesabatlara dövlətin qəbul etdiyi qanunlar və digər tədbirlər barədə məlumatların daxil edilməsi nəzərdə tutulur ki, bu da Konvensiyada tanınan hüquqlara, o cümlədən həmin hüquqların istifadəsi üzrə müdafiə və tərəqqiyə öz təsirini göstərir.

Uşaq Hüquqları haqqında Konvensiyaya uyğun olaraq, hökumətlər bütün uşaqları müdafiə etməlidirlər və bu sahədə hər hansı nöqsanlara görə məsuliyyət daşıyırlar. Lakin hüquqi norma ilə onun icrası və yaxud tətbiqi arasında böyük boşluq vardır. Bu, jurnalistlərin hüquqi norma və standartın tətbiqi və icrası barədə sualları ilə müdaxilə edə biləcəyi bir sahədir.

Uşağın müdafiəsinin başlıca məqsədi uşaqların qorunmasına cavabdeh olanların öz öhdəliyini qəbul etdiyinə və onu yerinə yetirmək iqtidarında olduğuna təminat verməkdən ibarətdir. Bir daha jurnalistlər uşaqların qorunması öhdəliyini öz üzərinə götürən şəxslər barədə suallarını irəli sürməlidirlər. Onlara adekvat şəkildə təlim keçirilmişdirmi? Onların təhlükəsizliyi və etibarlılığı yoxlanılmışdırmı?

Etik və hüquqi tələbləri nəzərə alaraq, uşağın müdafiəsi hər bir funksiya ilə cəmiyyətin istənilən təbəqəsində hər kəsin işi hesab edilir. Bu, hökumət, hakimlər, müəllimlər, həkimlər, valideynlər və media üçün öhdəliklər yaradır. Bu öhdəliklər ölkədə qüvvəyə minən hüquqi normalarda əks oluna bilər. Həmçinin onlar hökumətin seçimlərində, o cümlədən resursların ayrılmasında əks etdirilə bilər. Onlar media təşkilatlarının tənzimləyici norma və qaydalar kodekslərində və təlimatlarında getdikcə daha çox təcəssüm etdirilir.

## Təşkilatlarda uşağın müdafiəsi

Uşağın müdafiəsi hazırda gənclərlə işləyən bütün qurumları narahat edən bir məsələdir. Bu, bizim diqqətimizdə bütün uşaqların və gənclərin rifahı və təhlükəsizliyinə təminat verilməsinə yönəlir. Uşağın müdafiəsi strategiyaları «uşağın təhlükəsizliyinə təminat verən təşkilatların» yaradılmasına kömək edir, eləcə də çətin vəziyyətlərin aradan qaldırılması üzrə mexanizmin tətbiqinə imkan yaradır. Həmçinin onlar uşaq haqda daha məlumatlı mədəniyyəti elə formalaşdıra bilər ki, təşkilatlar uşaqların hüquqları perspektivindən öz fəaliyyətini nəzərdən keçirsinlər.

*«Güclü siyasət çətin vəziyyətlərin aradan qaldırılmasında sizi istiqamətləndirəcəkdir. Böhran yarandıqda, aydın tərzdə düşünmək çətin ola bilər. Əgər sizin etibarlı siyasətiniz vardırsa, hər hansı məlumatlı üsulla reaksiyanızı bildirə və istənilən iştirakçının faydası və ya itkisi ilə qərəzli ittihamlara yol verməyə bilərsiniz.» (ECPAT Avstraliya)*

Bir çox təşkilatlar bu sahədə fəaliyyəti və prosedurları müəyyən edən özünəməxsus uşaq müdafiəsi strategiyalarına malikdir. Ayrı-ayrı ölkələrdə milli uşaq idarələri təlimatlar hazırlamışlar və uşaq müdafiəsi strategiyasını tərtib etmək üçün uşaqlar və gənclər ilə ünsiyyətdə olan bütün təşkilatları dəstəkləyir.

Birləşmiş Krallığın Uşağın Ümidi təşkilatı uşaq müdafiəsi strategiyaları və prosedurları tərtib etməkdə qurumlara köməklik göstərmək üçün metodlar kompleksini işləyib hazırlamışdır. Bu, uşaq müdafiəsi strategiyalarını hazırlamaq, icra etmək və qiymətləndirmək üçün lazımi uşaq müdafiəsi prosesinin və mərhələlərinin əsas prinsiplərini təsvir edir. «Uşağın təhlükəsizliyinə təminat verən təşkilatın» yaradılması üçün altı mərhələni sadalayır:

1. uşaq müdafiəsi və uşaq zorakılığı konsepsiyalarının öyrənilməsi
2. təşkilatın hansı səbəbdən uşaq müdafiəsi strategiyalarına və prosedurlarına ehtiyacı ola biləcəyinin araşdırılması
3. uşaq müdafiəsi strategiyalarının və prosedurlarının səmərəli tərtibatına və icrasına təminat verilməsi üçün təşkilati prinsiplərin nəzərdən keçirilməsi
4. təşkilat daxilində strategiyanın və prosedurların necə tərtib olunması
5. icraya dair təlimatların daxil edilməsi
6. təşkilatlar tərəfindən qarşılaşan maneələrin və çətinliklərin necə əhatə olunması və mümkün həll vasitələrinin araşdırılması

## Mediada uşaq müdafiəsi strategiyaları

Media uşaqların qorunmasında mühüm rol oynaya bilər. İlk növbədə, media təşkilatlarının uşaq hüquqlarının təhlükə altında qoya bilməklə, öz heyətinin hər hansı davranış tərzini qorumaq üçün uşaq müdafiəsi strategiyalarını həyata keçirə bilər. Məsələn, BBC uşaqlar və gənclər ilə iş aparılmasında özünün Uşaq Müdafiəsi Strategiyasının prinsiplərinin tətbiq olunmasını işçi heyətindən tələb edir:

*«On səkkiz yaşından aşağı olan şəxsin rifahı bizim başlıca düşüncəmizdir. Bu, onun maraqlarını ifadə edir və onun təhlükəsizliyi hər hansı redaksiya tələbatının daha çox üstünlük təşkil etməlidir. Yaşından, zəifliyindən, cinsindən, irqi və ya etnik mənşəyindən, dini etiqadından və seksual meylliliyindən asılı olmadan bütün uşaqlar və gənclər zərərdən və ya zorlanmadan müdafiə olunmaq hüququna malikdirlər».*

*«Fəaliyyətimiz zamanı uşağın risk altında ola biləcəyinə şübhə ediriksə və ya gənc tərəfindən uşağın rifahı məsələsinə (BBC personalına qarşı ittiham daxil olmaqla) hazırlıq reaksiyasını nümayiş etdiririksə, vəziyyət barədə Uşaq Müdafiəsi Strategiyası üzrə məsul bölmə rəhbərinə məlumat verilməlidir.»*

Xəbər qurumunda əksər uşaq müdafiəsi strategiyaları gənclərin şəxsi həyatının toxunulmazlığına hörmət etməklə və övladlığa götürülən uşaqların adlarının istifadəsini məhdudlaşdırmaqla uşaqların şəxsiyyətinin müəyyənləşdirilməsinə dair təlimatlardan ibarət olacaqdır. Onlar uşaqların və gənclərin rifahının qorunması üçün prosedurların tətbiq olunduğuna təminat verir. Uşaqlarla iş aparan bəzi QHT-lər uşaq məsələləri sahəsində çalışan jurnalistlər üçün təlimatlar hazırlamışlar və məsələn, fotoşəkillərdəki uşaqların istifadəsi üzrə özünəməxsus strategiyaya malikdirlər.

Daha əhəmiyyətli dərəcədə media uşaqların qorunmasında iştirak etmək məqsədilə ictimai rəyin səfərbər olunmasına kömək edə və hər hansı yolla, zorakılıq və yaxud sadəcə münasib sistemlərin çatızmazlığı vasitəsilə uşaqları təhlükə altında qoyanları nümayiş etdirə bilər. Əgər hökumət uşaqların müdafiə edə bilməzsə, media onu cavabdeh hesab etməlidir.

## Qiymətləndirmə təlimatı

Uşaq müdafiəsi strategiyaları barədə məlumatlı olmaq fəaliyyət göstərən jurnalist üçün vacibdirmi? Uşağın müdafiəsinin başlıca mövzu olduğu xəbər materiallarının nümunələrini əldə edin. Jurnalist uşaq müdafiəsi strategiyaları barədə nə dərəcədə məlumatlıdır? Sual doğuran məqaləni siz necə təkmilləşdirərsiniz?

## Sonrakı şərh və resurslar

Birləşmiş Krallığın Uşağın Ümidi təşkilatının Uşaq Müdafiəsi Strategiyası üzrə Metodlar Kompleksi:
http://www.childhope.org.uk/toolkit.php

*Uşağın Müdafiəsi, Parlamentarilər üçün Təlimat Kitabçası*, BMT Uşaq Fondu Mərkəzi və Şərqi Avropa, MDB, 2004.

## 3. QANUNA ZİDD OLAN UŞAQLAR

### ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Məhkəmələr qarşısında uşaqların təmin olunması
- Məhbus uşaqlara baş çəkilməsi
- Uşaqların məhkəməsi və həbsxanada saxlanılmasını əhatə edən qanun hansıdır?
- Uşaqlar həbsxanada saxlanılarkən onların hüquqları barədə məlumatlı olmaq.

«Qanuna zidd olan uşaqlar» termini 18 yaşından aşağı olan istənilən şəxsə şamil edilir.

Qanuna zidd olan uşaqların əksəriyyəti kiçik cinayətlər və ya avaralıq,tənbəllik, dilənçilik və ya alkoqol istifadəsi kimi cüzi qanun pozuntularını törətmişdir. Bunların bəziləri «yeniyetmə cinayətləri» kimi tanınır və yaşlılar tərəfindən törədildikdə cinayət hesab edilmir. Əslində kənar maraqlar olmayana qədər bu cür cinayətlər jurnalistlər üçün az maraq doğurur; məsələn, uşaq tanınmış və ya məşhur şəxslə əlaqədardır.

Qanuna zidd olan uşaqlar çox vaxt uşaqlar kimi hesab edilmirlər. Bunun əvəzində dərk olunan qanun pozuntusu onlarla yaşlı cinayətkarlar kimi eyni üsulla rəftar edildiyini və ya daha pis şəkildə zorlanmış uşaqlar kimi onların həssaslığa malik olduğunu göstərməklə uşaqlıq dövrünün qorunmasından kənarlaşdırması kimi nəzərdən keçirilir.

Həbsxanada olan uşaqlara dair məlumatlara nadir hallarda gəlinir, lakin BMT Uşaq Fondunun hesablamaları göstərir ki, qanuna zidd olması səbəbindən bir milyondan çox uşaq həbsxanada yaşayır. Çoxsaylı ölkələrdə kriminal ədliyyə sistemində tutulan uşaqlara qarşı cinayət işi qaldırılmışdır və rəsmi şəkildə yoxlanılır, beləliklə məlumat çatışmazlığı üçün heç bir səbəb yoxdur.

Həbsxanada olan uşaqların zorakı rəftarı geniş yayılmışdır və ciddi problem hesab edilir. Özünün 37-ci sessiyasında Uşaq Hüquqları Komitəsi digər ölkələr arasında Braziliyada ədliyyə sistemində tutulan uşaqlara dair prosedurlar və onların müdafiəsi barədə bir sıra narahatlıqları, o cümlədən həbsxanada işgəncə və məhkəmədənkənar qətllər haqda hesabatları qaldırmışdır.

Uşaqlar üzləşə biləcəyi hər hansı məhkəmə prosesindən əvvəl və sonra həbsxanada saxlanıldıqca, onlar zorakılıq riski altında hesab olunurlar. Bu, sistem daxilində personal tərəfindən tez-tez imkan yaradılmaqla və hətta stimullaşdırılmaqla, yaşlı məhbuslar, gözətçilər, polis məmurları və ya digər yeniyetmə dustaqların fiziki və seksual zorakılığını ehtiva edə bilər. İslah rejimi qeyri-müəyyən həbsi, izdihamlı və qeyri-sanitariya şəraitində uzun müddətli təcridetməni və ya yaşlı məhbuslar ilə birgə yaşayışı əhatə edərək, özlüyündə hər zaman son dərəcə zorakı hesab edilir. Azsaylı ölkələrdə ölüm cəzası hələ də yeniyetmə cinayətkarlara tətbiq edilir. Beynəlxalq hüquq 18 yaşından aşağı gənclər tərəfindən törədilən cinayətlər üzrə ölüm cəzasının istifadəsinə qadağa qoyur, hələ də bəzi ölkələr uşaq cinayətkarlarının edam olunmasını və ya onların ölümə məhkum edilməsini davam etdirirlər.

BMT Baş Katibinin Uşaqlara qarşı Zorakılıq üzrə Araşdırması üçün məsləhətləşmələrin tərkib hissəsi kimi 2005-ci ilin aprel ayında beynəlxalq ekspertlər qrupunun keçirdiyi iclasa əsasən, ədliyyə sistemində uşaqlara qarşı zorakılığa səbəb olan əsas amillər aşağıdakılardır:

- uşaqlara qarşı zorakılığa cavabdehlik daşıyan hüquq-mühafizə məmurlarının, qurumlarının və işçi heyətinin cəzasızlığı və məsuliyyətin olmaması
- qeyri-cinayətkarlar daxil olmaqla həbsdən, xüsusən məhkəməqabağı həbs prosedurundan sui-istifadə edilməsi
- qayğı və müdafiə sistemləri daxil olmaqla formal ədliyyə sistemi müqabilində icma-əsaslı alternativlərin və həbs müqabilində alternativlərin olmaması
- müvafiq yuvenal ədliyyə sistemlərinin, o cümlədən müvafiq penitensiar müəssisələrin çatışmazlığı və yaşlılardan ayrılma
- cəzaçəkmə müəssisələri üzərində kənar nəzarət vasitələrinin, o cümlədən sərbəst effektiv şikayət və istintaq prosedurlarının, qeyri-hökumət təşkilatları tərəfindən müstəqil monitorinq və məlumat əldə etmək imkanlarının olmaması
- bütün səviyyələrdə: ailədə, məktəbdə və icmada zorakılığa qarşı tolerantlığa gətirib çıxarmaqla, zorakılığın cəmiyyətdə «məqbulluğu»
- hüquq-mühafizə və yuvenal ədliyyə orqanlarının əməkdaşları üzrə təlim prosedurlarının keçirilməməsi
- «Cinayət üzrə sərt» strategiyalar, mənfiyönümlü media və küçə uşaqlarının və sosial-iqtisadi cəhətdən digər aztəminatlı uşaqların ayrı-seçkilik zəminində təsvirləri.

## Fərdi tədqiqat: Özbaşına Həbs üzrə İşçi Qrupu

Özbaşına Həbs üzrə İşçi Qrupu BMT-nin insan huquqları sahəsində çalışan müstəqil ekspertlərdən ibarət mandatlı qurumudur ki, bu da beynəlxalq insan haqları qanununu poza bilən özbaşına həbs hallarını təhqiq edir. Qurum 1991-ci ildə keçmiş İnsan Haqları Komissiyası tərəfindən yaradılmışdır və hazırda BMT-nin İnsan Haqları Şurasının nəzarəti altındadır.

Müxtəlif mənbələrdən, o cümlədən qeyri-hökumət təşkilatlarından, hökumətlərarası qurumlardan və «zorakılıq qurbanlarının» ailələrindən alınan məlumatların yoxlanılmasından sonra İşçi Qrupu həbs olunduğu təxmin edilən şəxslərin yerləşmə yerinin və şəraitinin müəyyənləşdirilməsi üçün hökumətlərə təcili müraciətlər göndərir. İşçi Qrupu həmçinin onu dəvət edən ölkələrə fakt-araşdırıcı səfərlər edə bilər. İşçi Qrupu hüquqi məsələlərdə peşə biliklərinə, səriştəliliyinə və təcrübəsinə görə, eləcə də sərbəstliyə görə seçilməklə insan huquqları sahəsində çalışan ekspertlərdən təşkil olunur.

Qrup hesab edir ki, bir çox uşaqlar tənha olmaları səbəbindən tutulub saxlanılır: «Bəzən uşaqlar törətdikləri cinayətə görə deyil, onları axtaran hər hansı ailənin olmamasına görə həbs olunurlar. Onlar həbsxanaya oxşar 'təminatlı dustaqxanaya' salınmış yetimlərdir».

UHK-ya əsasən, Kanada, Türkiyə və Norveç optimal praktika nümayiş etdirən ölkələr hesab edilir. Kanadada fəaliyyət göstərən tədqiqatçı heç bir uşağın həbsdə saxlanıldığını aşkar etməmişdir. Türkiyədə tam icra edilməməsinə baxmayaraq yeni bir proqram tətbiq olunmuşdur ki, bu da uşaqlarla iş aparılması üçün xüsusi təlim keçmiş polislər və müstəntiqlər üçün nəzərdə tutulur. Həmçinin orada uşaqlar üzrə ayrıca cəzaçəkmə müəssisələri mövcuddur və uşaqlar heç vaxt yaşlılar ilə birlikdə saxlanılmamışdır.

Hökumətlər həbsxanada olan uşaqların zorlanma və xəsarətdən müdafiə edilməsi üzrə aydın öhdəliyə malikdirlər. Lakin uşağın ümumiyyətlə qəti surətdə həbsxanada olubolmaması barədə ictimaiyyət və jurnalistlər tərəfindən sual irəli sürülməlidir. Həbs son instansiya olmalıdır, lakin bir çox hallarda uşaqların və yeniyetmələrin ictimaiyyətin mənafeyinə zidd və məhkəmə iclası qaydasını pozan davranışlarının onların düşüncəsindən və təsəvvüründən kənarlaşdırılmasının sanki özlüyündə bir məqsəd olduğu çevik reaksiya kimi bu, həddindən artıq asanlıqla qəbul edilir.

Human Rights Watch təşkilatı 1995-ci ildən etibarən yuvenal ədliyyəyə dair 17 hesabat hazırlamışdır və xeyli hüquq müdafiə tədbirlərini həyata keçirmişdir. Uşaqların hüquqi təmsilçiliyinə zəmanət vermək üçün ümumi nöqsanları sənədləşdirmişdir və digər şəkildə Braziliyada, Bolqarıstanda, Qvatemalada, Hindistanda, Yamaykada, Kenya, Pakistanda, Rusiyada və Amerika Birləşmiş Ştatlarında məhkəmədə onların işinə qərəzsiz şəkildə baxılmasını təmin edir. Son instansiya tədbiri kimi ən qısa münasib vaxt müddətində azadlıqdan məhrum edilməsinə dair beynəlxalq prinsipi pozan və ya işgəncəni və yaxud qəddar, qeyri-insani və alçaldıcı rəftarı formalaşdıran hökmlər xüsusi narahatlıq doğurur.

Uşaq Hüquqları haqqında Konvensiyanın qəbul olunmasından və ümumbəşəri şəkildə ratifikasiya edilməsindən etibarən artan sayda ölkələr Konvensiyada və digər beynəlxalq mexanizmlərdə ifadə olunan uşaqların hüquqlarına təminat verilməsi üçün özlərinin yuvenal ədliyyə qanunlarına dəyişiklik etmişlər. Digər ölkələrdə islahatlar nəzərdən keçirilir, lakin hələlik qanunda öz əksini tapmamışdır. Geniş sayda ölkələr öz qanunvericilik sistemlərini Konvensiyaya uyğunlaşdırmaq üçün hələ də tədbirlər görməlidirlər.

Onlar göründükcə, qanunvericilik islahatları uşaqların insan hüquqlarının geniş miqyasda tanınmasına doğru ilkin müsbət addımlar hesab edilir. Buna baxmayaraq, qanun ilə praktika arasında xeyli sayda boşluqlara rast gəlinir. Bir çox uşaqlar lazımi hüquqi prosedurdan məhrum edilir, qorxulu şəraitdə həbs olunur və gözətçilərin və polis məmurlarının ixtiyarında zorakılığa məruz qalırlar və hətta bəziləri qətlə yetirilirlər.

## EVİN YAXINLIĞINDA

***Yaşlı Həbsxanalarında Yeniyetmələr***

*(Human Rights Watch təşkilatının öz vebsaytında yenidən dərc olunmuş qəzet məqaləsi, 11 noyabr, 1999)*

Human Rights Watch təşkilatının Uşaqların Hüqüqları Bölməsinin vəkili Maykl Boçenek tərəfindən *Vaşinqton Post* qəzetində nəşr edilmişdir.

Yaşlılar kimi uşaqların sorğu-sual edilməsini asanlaşdıran dövlət tədbirlərinin nəticəsi kimi, hər hansı mövcud gündə Merilend ştatının yaşlı həbsxanalarında 200-300 gənc saxlanılır. 1992-ci ildən etibarən yuvenal cinayətkarlığın artdığı və yaşlılar kimi uşaqların mühakimə edilməsinin cinayətkarlığı azaldacağı haqda qeyri-dəqiq fərziyyələr əsasında istiqamətləndirilməklə, 40 dövlət bu cür qanunvericiliyi qəbul etmişdir.

Heç bir şərt düzgün deyildir. Yuvenal cinayətkarlıq 1993-cü ildən etibarən müntəzəm surətdə azalmışdır və ayrı-ayrı tədqiqatlar belə bir qənaətə gəlmişdir ki, yaşlılar kimi mühakimə olunan yeniyetmələrin yuvenal məhkəmələrdə müttəhim qismində iştirak edən gənclərə nisbətən gələcəkdə cinayət törədəcəyi daha çox ehtimal edilir.

Uşaqların yaşlılar kimi mühakimə edilməsi cinayətkarlığı azaltmadıqca və ya uşaqları islah etmədikcə, bu, tez-tez zorlanmaya gətirib çıxarır. Yaşlı həbsxanalarda gənclərin idarə edilməsi üçün infrastruktur, kadr və proqram çatışmazlığı hökm sürür. Bu uşaqların yaşlı həbsxanalarına yerləşdirilməsi onların əsas insan hüquqlarının pozulması deməkdir.

12 aylıq müddət ərzində Human Rights Watch təşkilatı Merilenddə yerləşən beş həbsxanaya baş çəkmiş və 60-dan çox yeniyetmə məhbus ilə müsahibə aparmışdır. Yeniyetmələrin idarə edilməsi üçün işçi heyətinə təlim keçirilmədiyinin, uşaqların lazımi maarifləndirmə və istirahət ilə təmin olunmadığının və həbsxanalarda münasib tibbi və psixi sağlamlıq qayğısının göstərilmədiyinin şahidi olduq. Söhbət etdiyimiz uşaqlar onlara kifayət qədər qida verilmədiyindən şikayətləndilər.

Yaşlı həbsxanalarında saxlanılan uşaqların intihar etməsi yuvenal cəzaçəkmə müəssisələrində saxlanılan uşaqlara nisbətən səkkiz dəfə çoxdur. Hələlik Baltimor həbsxanası qrup və ya fərdi şəkildə yeniyetmə məhbuslara heç bir məsləhət vermir. Dözülməz vəziyyətdə olan dustaqlar intihara məruz qala bilərlər, lakin bədənlərini örtmək üçün kağızdan başqa bir şey olmadığından sonradan onlar lüt şəkildə saxlanılırlar.

Cəmiyyətə yenidən qoşulmaq üçün ən mükəmməl hazırlıq ilə maarifləndirmənin əldə oluna biləcəyinə baxmayaraq, baş çəkdiyimiz Merilend həbsxanalarının bəziləri gəncləri maarifləndirmir; digər təlim keçmiş həbsxanalar ştatın qanunvericiliyi ilə tələb olunan saatların sayı azlıq təşkil edir. Göründüyü kimi, ştat öz uşaqlarını itirir. Bəzi uşaqlar, xüsusən zorakılıq cinayətlərini törətməkdə ittiham olunanlar məhkəmə proseduruna qədər yuvenal cəzaçəkmə müəssisələrində saxlanılmasına zərurət yarandıqca, onlar yaşlı dustaqlar ilə birlikdə həbsxanada saxlanılmırlar. Bu cür rəftar beynəlxalq hüququ və Konstitusiyanı pozur. Merilend ştatı bunu daha təkmil surətdə yerinə yetirə bilər və yerinə yetirməlidir.

Beynəlxalq hüquqa əsasən, uşaqların işgəncəyə verilməmək, amansız surətdə rəftar edilməmək, özbaşına və ya qeyri-qanuni şəkildə həsb olunmamaq və məhkəmə qarşısında ədalətli tərzdə dindirilmək hüququ vardır. Əgər onlar həbs olunsalar, bu, son instansiya tədbiri kimi və mümkün qədər ən qısa müddət üzrə nəzərdə tutulmalıdır. Onlar yaşlılardan ayrı yerlərdə saxlanılmaq, öz ailələrini görmək və hüquqi yardım almaq hüququna malikdirlər. Lakin minlərlə uşaq üçün bu fakt səciyyəvi deyildir. Bəzi ölkələrdə küçə uşaqları kimi zəif qruplar cinayət əməlinə cəlb olunur və qayğı göstərməkdən daha çox həbsxanaya salınırlar.

2006-cı ildə Böyük Britaniyada Birləşmiş Krallığın Uşaqların Xilası təşkilatı Dövlət Büdcəsi Komitəsinin hesabatında narahatlığını ifadə etmişdir ki, bu da immiqrasiya nəzarəti məqsədləri baxımından həbsin getdikcə artan dərəcədə istifadəsini tövsiyə etmişdir. Uşaqların Xilası təşkilatının direktoru Kolet Marşal demişdir: «Bizim tədqiqatımız müəyyən etmişdir ki, uşaqların həbs olunması onlara xələl gətirir – onlar tez-tez depressiyaya düçar olur, narahat tərzdə yatır, xəstəlikdən əziyyət çəkir və kifayət qədər qidalanmırlar. Hər il təxminən 2000 uşaq öz ailəsi ilə birlikdə həbs olunur. Onlar əvvəlcədən heç bir xəbərdarlıq edilmədən çox vaxt sübh tezdən öz evlərindən çıxarılırlar. [Daxili İşlər Naziri] Çarlz Klark uşaqların rifahını nəzərə almaqla həbs edilməyin müqabilində sübut olunmuş alternativlərə diqqət yetirməlidir.»

Təcrid olunmuş uşaqların heç vaxt həbs edilmədiyi barədə hökumət bəyanatlarının əksinə olaraq, nəticə etibarilə 18 yaşından aşağı yaş qrupu kimi müəyyən edilməsinə baxmayaraq yaşlı olduğu fərz edilənlər getdikcə artan sayda tutulub saxlanılırlar. Uşaqların əksəriyyəti bir aydan çox müddətdə həbsdə saxlanılırlar və bəzi hallarda doqquz aya yaxın müddətdə həbsxana şəraitində qalırlar. Hüquq müdafiəçiliyindən və ya valideynləri ilə ünsiyyət saxlamaqdan tez-tez məhrum edilmiş uşaqlar yaşlı cinayətkarlar ilə birlikdə lazımi qida və sanitariya qovşaqlarının olmadığı həbsxana kameralarına salınırlar və bəzən birnəfərlik kamerada saxlanılırlar. Arabir onlar görünmürlər ki, bu da onların təhlükəsizliyinə cavabdeh olan şəxslər polis məmurları və həbsxana gözətçiləri tərəfindən asanlıqla aldadılmasına gətirib çıxarır. Bir çox yerlərdə zorakılıq, seksual zorlanma və hətta yeniyetmələrə işgəncə verilməsi ümumi xarakter daşıyır. [*BBC-nin Ümumdünya Gündəliyi,* «Ədalətə Müraciət Et» http://www.bbc.co.uk/worldservice/specials/1156_wag_gen _next/page4.shtml] Pakistanda qanuna zidd olan uşaqlar üçün işlərin təkmilləşdirilməsinə səy göstərmək məqsədilə son bir neçə il ərzində qanunvericilik tətbiq edilmişdir. Lakin praktikada əksər uşaqlar üçün çox şey dəyişməmişdir.

Pakistanda yeddi yaşında olan uşaqlar cinayət törətməkdə ittiham oluna bilər. «Nə qədər zəif olsan, ədliyyə sistemindən o qədər az istifadə edirsən. Uşaqlar öz fikirlərini ifadə etmirlər, beləliklə heç kim onlara diqqət yetirmir»

Kenyada yoxsul və əmək qabiliyyəti olmayan ailələri təmsil edən çoxsaylı uşaqların şəhərə axışmasına, narahat şəkildə yatmasına, alkoqoldan istifadə etməsinə və yaşamaq üçün oğurluq etməsinə son qoyulur. Bu küçə uşaqları polis məmurları və şəhər rəsmiləri tərəfindən tutularaq saxlanılır və sonradan ədliyyə sisteminə təhvil verilirlər. ABŞ-da BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasını ratifikasiya etməyən məhz iki ölkədən birində yuvenal ədliyyə sistemi son bir neçə onilliklər ərzində keçmişə doğru mühüm addımlar atılmışdır. 1980 və 1990-cı illərdə yeniyetmə zorakılığına qarşı kütləvi etiraz aksiyaları ölkənin hər yerində cinayətkarlıqla sərt mübarizə aparılması üçün siyasətçilərə təzyiq göstərmişdir. Qırx ştat yeniyetmələrin yaşlılar kimi mühakimə olunmasına imkan verən və hətta daha sərt rejimlərin tətbiqini stimullaşdıran qanunvericiliyi qəbul etmişdir.

Uşağın islah edilməsindən daha çox onun cəzalandırılması normal hala çevrilmişdir və yeniyetmələr azadlığa çıxmadan ömürlük həbs cəzasına getdikcə daha çox məhkum edilirlər.

## QƏZET MATERİALI

BBC XƏBƏRLƏRİ: Birləşmiş Krallıq «əksər digər inkişaf etmiş ölkələrə» nisbətən daha çox uşağı həbsxana həyatına məhkum edir.http://news.bbc.co.uk/1/hi/uk/4051079.stm-yə bax.

Kriminal ədliyyə sistemində tələf olan əksər uşaqlar xüsusən məhrumiyyətlə üzləşən icmalar və ailələri, çox vaxt ayrı-seçkiliyə məruz qalan azlıqları təmsil edirlər.

Alternativlərin axtarılması əvəzinə uşaqların həbsxanaya salınması onları qanun pozucusu kimi biabır edir, onları iş və təqaüd imkanlarından məhrum edir və onları daha ağır cinayətlər törətmiş digər şəxslərə göstərirlər. Bu, həmçinin uşaqların qanunu yenidən pozmaq ehtimalını artırır.

Həbs olunmanın müqabilində alternativlər mövcuddurmu? BMT Uşaq Fondu bir sıra tədbirləri, o cümlədən aşağıdakıları tövsiyə etməklə bunu təsdiqləyir:

- sadəcə yaşamağa çalışan uşaqları həbs etməyin
- kiçik cinayətlər törətmiş uşaqları kriminal ədliyyə sistemindən kənarlaşdırın
- həbsdən yalnız son instansiya tədbiri kimi istifadə edin
- uşaqlar həbsxanaya salındıqda onlar yaşlı məhbuslardan ayrı saxlanılmalıdır
- hökumətlər nə qədər uşağın həbsxanada olduğu və onların orada nə vaxtdan etibarən saxlanıldığı barədə minimum məlumatlara malik olmaqla, vəziyyətə yaxından nəharət etməlidirlər.

## HUMAN RIGHTS WATCH TƏŞKİLATININ TÖVSİYƏLƏRİ

Human Rights Watch təşkilatı tövsiyə edir ki, bütün ölkələr qanuna zidd olan uşaqların insan hüquqlarını qorumaq aşağıdakı minimum tədbirləri yerinə yetirirlər (Bu tövsiyələr müzakirə üzrə maraqlı süjet xətti hesab edilir).

## Jurnalistlər üçün suallar

- Məhkəmə prosedurundan əvvəl uşaqların həbs olunmasına dair strategiya nədən ibarətdir?
- Cinayətin təqsirkarı olmayan uşaqlar həbsxanada saxlanılırmı?
- Uşaq qaçqınları və sığınacaq axtaran köçkünlər həbsxanada saxlanılırmı?

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının iki maddəsi qanuna zidd olan uşaqların vəziyyətinə şamil edilir: İşgəncə və Azadlığın Məhrum Edilməsinə dair Maddə 37 və Yuvenal Ədliyyənin Tətbiqinə dair Maddə 40.

Maddə 37 ifadə edir ki, heç bir uşaq işgəncəyə, qəddar rəftara və ya cəzalanmaya, qeyri-qanuni həbsə və ya azadlıq məhrumiyyətinə məruz qalmamalıdır. Ölüm cəzası və azadlığa çıxmaq imkanı olmadan ömürlük həbsə məhkumluq 18 yaşından aşağı şəxslər tərəfindən törədilən cinayətlər üzrə qadağan olunur. Azadlıqdan məhrum edilmiş hər hansı uşağın ən yaxşı maraqlarına xidmət edəcəyi nəzərdən keçirilənə qədər o, yaşlılardan ayrı saxlanılmalıdır. Həbsxanada saxlanılan uşaq hüquqi və digər yardım vasitələrinə, habelə ailəsi ilə əlaqə yaratmaq imkanına malik olmalıdır.

Maddə 40 ifadə edir ki, qanuna zidd olan uşağın şərəf və ləyaqət hissini gücləndirən, uşağın yaşını nəzərə alan və onun cəmiyyətə yenidən inteqrasiya etməsinə yönələn davranış növündən faydalanmaq hüququ vardır. Uşaq ilkin zəmanət, həmçinin öz müdafiəsi üçün hüquqi və digər yardım vasitələrindən istifadə etmək hüququnu özündə saxlayır. Mümkün olduqca, məhkəmə prosedurlarına və institusional yerdəyişmələrə yol verilməməlidir.

Uşaq Hüquqları Komitəsi 1995-ci ilin may ayında özünün doqquzuncu sessiyasında Yuvenal Ədliyyənin Tətbiqi üzrə Ümumi Müzakirə Gününü keçirdi. Bu, tövsiyə etmişdir ki, dövlətlər «əsas hüquqların və azadlıqların mövzusu kimi uşağı tanıyan və başlıca diqqət kimi uşağın ən yaxşı maraqları ilə istiqamətləndirilməklə uşaqlara dair bütün tədbirlərin zərurətini vurğulayan uşaqyönümlü sistemi qəbul etməlidirlər».

Uşaq hüquqları sahəsində çalışan təşkilatların uşaqlara toxunan qərarlar barədə onların özünəməxsus fikirlərinin əhəmiyyətinə diqqət yetirməsinə baxmayaraq, qanuna zidd olan uşaqların ifadələri nadir hallarda dinlənilir. Bu, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 12-ci Maddəsini, yəni uşağın fikirlərinin dinlənilməsi hüququnu pozur. Uşaq Hüquqları Komitəsi Konvensiyanın 12-ci Maddəsini uşaqlar üçün şikayət prosedurlarının təminatını zəruriləşdirən müddəa kimi şərh etmişdir və azadlığı məhdudlaşdırılan uşaqların şikayət prosedurlarının xüsusi vacibliyini vurğulamışdır.

Komitənin Yuvenal Ədliyyənin Tətbiqi üzrə Ümumi Müzakirə Gününün hesabatında qeyd edilir ki, yuvenal ədliyyə sisteminə cəlb olunan uşaqların «əsas hüquqları pozulduqda, o cümlədən kobud rəftar və seksual zorlanma hallarında onlar iddia qaldırmaq hüququndan çox vaxt məhrum edilirlər...»

## YUVENAL ƏDLİYYƏ

Yuvenal ədliyyənin tətbiqi BMT-nin insan hüquqları sahəsində fəaliyyət göstərən təşkilatları üçün narahatlıq doğurur. Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi yuvenal ədliyyəyə dair alt qrup yaratmışdır. Resurslar və mexanizmlər bu mənbədən əldə oluna bilər: http://www.crin.org/resources/infodetail.asp?id=9711

## Cinayət məsuliyyətinə görə yaş həddi

Uşaq Hüquqları haqqında Konvensiya dövlətləri «uşaqların cinayət hüququnu pozmaq qabiliyyətinə malik olmadığı fərz edilən» minimum yaş qrupunu müəyyənləşdirməyə sövq edir. Lakin Konvensiya spesifik yaş qrupunu müəyyən etmir və bu, geniş şəkildə dəyişir.

Beynəlxalq standartlar, o cümlədən Pekin Yuvenal Ədliyyə Qaydaları tövsiyə edir ki, cinayət məsuliyyətinə görə yaş həddi emosional, əqli və intellektual yetkinliyə əsaslanmalı və həddindən aşağı yaş qrupuna aid edilməməlidir.

Ölkələr tərəfindən Konvensiyanın icrasına nəzarət edən Uşaq Hüquqları Komitəsi yaş qrupunun uşağın ən yaxşı maraqları ilə istiqamətləndirilməsini tövsiyə etmişdir.

ABŞ-da cinayət məsuliyyətinə görə yaş həddi ştat qanunu ilə təyin olunur. Yalnız 13 ştat 6-12 yaş arasında dəyişən minimum yaş qruplarını müəyyən etmişdir.

Əksər ştatlar uşaqların məsuliyyət daşımasını fərz edə bilməyən, lakin məsuliyyətli ola bilən 7-14 yaş qrupunu əhatə edən ümumi huquqa əsaslanır.

Yaponiyada 20 yaşından aşağı cinayətkarlar cinayət məhkəmə sistemindən daha çox ailə məhkəməsində mühakimə edilirlər. Bütün Skandinaviya ölkələrində cinayət məsuliyyətinə görə yaş həddi 15-dir və 18 yaşından aşağı yeniyetmələr son instansiya tədbiri kimi həbsxanaya salınmaqla, əsasən sosial xidmətlərə doğru yönələn ədliyyə sisteminə aid edilirlər. 1997-ci ilin aprel ayından etibarən İsveçdə yalnız 15 yeniyetmə cəzasını çəkib qurtarmışdır.

Çində 14-18 yaş arasında uşaqlar yuvenal ədliyyə sistemi əsasında cinayət məsuliyyətinə cəlb olunurlar və xüsusilə ağır cinayətlər üzrə ömürlük həbs cəzasına məhkum edilə bilərlər.

Latın Amerikasının əksər ölkələrində yuvenal ədliyyə qanunvericiliyi sahəsində islahatlar işlənib hazırlanır. Nəticə etibarilə, Braziliyada, Kolumbiyada və Peruda böyüklərin cinayət məsuliyyətinə görə yaş həddi 18-ə qədər artırılmışdır. 12-18 yaş arasında uşaqlar yuvenal ədliyyə sistemi çərçivəsində məsuliyyətə cəlb olunurlar.

Avropanın əksər ölkələrində böyüklərin cinayət məsuliyyətinə görə yaş həddi 13-16 arasında dəyişir. İrlandiyada isə bu hədd 12-dir.

## QƏZET MATERİALI

Gündəlik Poçt (London), 22 sentyabr, 2006

Bulqerin anası cinayət məsuliyyətinə görə yaş həddinin 14-ə qədər artırılması tələbinə hiddətlənmişdir. Yenicə yeriməyə başlamış və qətlə yetirilmiş Ceymz Bulqerin ANASI ötən gecə cinayət məsuliyyətinə görə yaş həddinin 10-dan 14-ə qədər artırılması təkliflərini təhqir etmişdir. Gənclərin cinayətkarlığının qarşısının alınması sahəsində çalışan aparıcı hökumət rəsmisi minlərlə yeniyetmə cinayətkarın həbsxanasız keçinməli olduğunu iddia etmiş və bunun əvəzində onlara nəsihət verilməsini təklif etmişdir.

Lakin iki yaşlı oğlu oğurlanmış və 10 yaşlı 2 nəfər tərəfindən qətlə yetirilmiş Ceymz Bulqerin anası Denis Ferqus bu planı «fəlakət» adlandırmışdır.

Hazırda Cinayət və Ədliyyə Araşdırmaları Mərkəzi tərəfindən nəşr olunan tədqiqatda yeniyetmə cinayətkarlığına qarşı həssas yanaşma metodu müəyyən edilmişdir. Bu, dörd Daxili İşlər Nazirinə ekspert məsləhəti vermiş Gənclərin Ədliyyə Şurasının üzvü Rob Allen tərəfindən tərtib olunmuşdur.

Cənab Allen iddia edir ki, Böyük Britaniyada əksər digər Qərb ölkələrinə nisbətən cinayət məsuliyyətinə görə yaş həddi daha aşağıdır və cnayət törətməkdə təqsirləndirilən 10-14 yaşlı uşaqlar magistrat və andlılar məhkəmələrinin əvəzinə ailə məhkəmələri tərəfindən mühakimə edilməlidirlər.

Sxem Britaniyanın açıq məhkəmə prosessindən və uzun-müddətli azadlıqdan məhrumetmə hökmlərindən yayınan ən qatı cinayətkarlarının bəzilərini nəzərdə tutur. Con Venabls və Robert Tompson 1993-cü ildə Mersisaydda Ceymzi öldürdüyünə görə 8 illik həbs cəzasını başa vurmuşlar. Hazırda cinayət əməlinə görə ittiham edilməsi üçün Almaniya, Yaponiya və Rusiyadakı 14 yaş həddi və İtaliyadakı 15 yaş həddi ilə müqayisədə İngiltərədə və Uelsdə uşaqlar 10 yaş həddində və ya Şotlandiyada 8 yaş həddində olmalıdırlar.

Cənab Allenin «Cəzalandırmadan Problemin Həllinə Doğru» adlı hesabatı ictimaiyyəti cinayətin arxasında dayanan sağlamlıq, təhsil və ailə problemlərinin həlli istiqamətində «polislər, məhkəmələr və islah-əmək düşərgələrindən» ibarət mühitdən uzaqlaşmağa çağırır.

Hər halda xanım Ferqus demişdir: «Jeymzi öldürən şeytan cütlüyü nə etdiklərini dəqiq bilirdilər və buna görə onlar cəzalandırılmaya layiqdirlər. Cinayət məsuliyyətinə görə yaş həddinin artırılması daha çox bədniyyətli uşaqların cinayət hüququ qaydalarını kobud surətdə pozması üçün nəzərdə tutula bilər.» Ötən gecə Daxili İşlər Nazirliyi bildirmişdir ki, həbsxanaya salınma gənc cinayətkarlar üçün həmişə «son instansiya tədbiri» kimi hesab edilməli olsa da, hazırda cinayət məsuliyyətinə görə yaş həddinin nəzərdən keçirilməsi üzrə heç bir plan mövcud deyildir.

## UŞAQLARIN ŞƏXSİYYƏTİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ ÜZRƏ BBC-NİN REDAKSİYA TƏLİMATLARI

İctimaiyyətin mənafeyinə zidd və ya cinayətkar əmələ cəlb edilən uşaqların müəyyənləşdirilməsinin və ya anonimliyinin saxlanılmasının onların ən yaxşı davamlı marağında olub-olmamasını biz nəzərdən keçirərkən, mürəkkəb etik məsələlər ortaya çıxır.

Aydın redaksiya əsaslandırılması irəli sürülməyənə qədər fəaliyyəti təsvir etmək üçün bu cür əməli səciyyələndirərkən, biz uşaqları normal tərzdə müəyyənləşdirməməliyik.

Valideynləri ictimaiyyətin mənafeyinə zidd və ya cinayətkar əməl ilə məşğul olan uşaqların cəlb edilməsi, səciyyələndirilməsi və ya müəyyənləşdirilməsi haqda qərar yalnız o halda verilməlidir ki, uşağın rifahına zərər dəyməsin və aydın redaksiya nöqteyi nəzərindən əsaslandırılsın. Məsələn, sərxoş valideynlə birlikdə yaşaması və ya qeyri-qanuni narkotik maddələrin daşıyıcısı kimi işləməyə məcbur edilməsi səbəbindən uşaqlar risk altında olduqda, bu, xüsusi əhəmiyyət kəsb edir.

Cinayət məsuliyyətinə görə yaş həddində genişmiqyaslı dəyişmələr beynəlxalq konsensusun olmamasını əks etdirir. Aşağı yaş həddinə şamil olunan ölkələrin sayı onu göstərir ki, əksər yuvenal ədliyyə sistemləri uşağın ən yaxşı maraqlarını adekvat surətdə nəzərə almır.

Cinayət məsuliyyətinə görə yaş həddi yeniyetmələrin ədliyyə sistemlərində necə islah edildiyinə təsir göstərən məhz bir aspektli dəyişmə hesab olunur. Digər dəyişmələr uşaq hüquqları əsasında ayrıca yuvenal qanunun tətbiq edilib-edilməməsini; gənclərin cəza tədbirlərinə və ya sosial-maarifləndirmə tədbirlərinə məruz qalıb-qalmamasını və ölkənin gənclər üçün ayrıca məhkəmə sistemlərinə və həbsxanalara malik olub-olmamasını ehtiva edir. Yuvenal ədliyyə sistemi islahetmə üzrə hüquqi müdafiə vasitələrini və obyektiv meyarı təmin etməlidir.

Mövcud olmadıqda, gənclər yaşlı üzrə kriminal ədliyyə sistemi ilə nəzarət edilə və yaxud hüquqi müdafiə vasitələrinin tətbiq olunmadığı «təminatlı» həbsxanada saxlanıla və özbaşınalıq və ya kobud rəftarlar ilə üzləşə bilərlər.

## Media və qanuna zidd olan uşaqlar: şəxsiyyətin qorunması

Böyük Britaniyada 1999-cu ilin Gənclərin Ədalət Məhkəməsi və Cinayətkar Əməli adlı sənədi vaxtilə polislərin cinayət törətməsi ehtimal edilməklə 18 yaşından aşağı istənilən şəxsin müəyyənləşdirilməsinə gətirib çıxaran hər hansı məlumatın dərc edilməsi üçün istintaqa başlaması ilə bunu cinayət kimi qələmə vermişdir. Əgər jurnalist bu məlumatlara dair xəbərlərin verilməsinin ictimaiyyətin maraqlarına uyğun olduğu barədə məhkəmə üzvlərini inandıra bilərsə, sözü gedən məhdudiyyətin aradan qaldırılması mümkündür. Müttəhim 18 yaşına çatdıqda bu məhdudiyyətlər aradan qaldırılır.

## Fərdi tədqiqat 1: Birləşmiş Krallıq: Meri Bel

1968-ci ilin dekabr ayında Meri Bel iki oğlanın, Martin Braun (dörd yaşlı) və Brayan Hounun (üç yaşlı) qətlində təqsirli hesab edildi. Meri Bellin «yalnız qətl ləzzəti və ehtirası xatirinə» oğlanları boğduğu bildirilir.

Bel qətl hadisələrini törədərkən 10 yaşında idi. O, ittiham olunmasından sonrakı vaxtadək Britaniya mətbuatının, eləcə də Almaniyanın *Stern* jurnalının xüsusi diqqət mərkəzində olmuşdur. Onun anası mətbuata dəfələrlə qızı haqqında əhvalatlar danışmış və Meriyə mənsub olduğu iddia edilən yazılı dəlilləri tez-tez müxbirlərə göstərmişdir. Bell 1979-cu ilin sentyabr ayında Mur məhkəməsinin açıq həbsxanasından tezliklə qeyri-qanuni şəkildə yayınarkən, bu hadisə qəzet sərlövhələrində göstərilmişdir.

Bell 1980-ci ildə həbsxanadan azad edildi və 1984-cü ildə doğulmuş qızı ilə birlikdə (başqa ad altında) yeni həyata başlaması üçün onun anonimliyi təmin edildi. Bellin yaşadığı yer müxbirlər tərəfindən aşkar edilməyənə qədər onun qızı anasının keçmişi barədə heç nə bilmirdi və o, anası ilə bərabər yataq mələfəsini başlarının üzərində tutaraq evlərini tərk etməli oldular. Qızının anonimliyi onun 18 yaşına çatmasınadək əvvəlcədən qorunub saxlanıldı. Lakin 21 may 2003-cü il tarixində Bel özünün və qızının anonimliyinin müddətinin ömürlük şəkildə uzadılması üçün Ali Məhkəmə prosesində qələbə qazandı.

## Fərdi tədqiqat 2: Birləşmiş Krallıq: Ceymz Bulqerin qatilləri

Ceymz «Ceymi» Bulqer İngiltərənin Mersisayd ərazisində iki 10 yaşlı oğlan, Con Venabls və Robert Tompson tərəfindən oğurlanmış və qətlə yetirilmiş iki yaşlı körpə idi. İki uşaq tərəfindən körpənin qətli xüsusən Liverpulda ictimaiyyət arasında hədsiz dərəcədə sarsıntı, əsəb pozuntusu və kədər hisslərinin yayılmasına səbəb olmuşdur. Məhkəmə hakimi hökm çıxartdı ki, iki oğlan *«qarşıdan gələn çoxlu illər üzrə»* həbs olunmalıdır.

Məhkəmədən sonra qısa bir vaxtda Lord-Baş Hakim Lord Qosforz Teylor belə bir qətnamə qəbul etmişdir ki, sözü gedən iki oğlanın 2003-cü ildə azadlığa çıxmasına hüquq verməklə onlar dəmir barmaqlıqlar arxasında minimum 10 il cəza müddətini çəkməlidir. Lakin populyar mətbuat orqanları və ictimaiyyətin bəzi təbəqələri hesab edirdilər ki, hökm olduqca yumşaq xarakterlidir və *The Sun* qəzetinin redaktorları həbsxanada olan hər iki oğlanın cəza müddətinin artırılması iddiası əsasında 300000 imza ilə o vaxtkı Daxili İşlər Naziri Maykl Hovorda şikayət ərizəsini təqdim etdilər. 1995-ci ildə iki oğlanın minimum cəzaçəkmə müddəti 15 ilədək artırıldı, qəbul edilən qətnaməyə əsasən, onların işi 26 yaşı tamam olana qədər, 2008-ci ilədək azad edilməsi üzrə nəzərdən keçirilə bilməzdi.

1999-cu ildə Venablsı və Tompsonu müdafiə edən vəkillər oğlanların yaşlı məhkəməsi qarşısında mühakimə edilə və məhkəmə icraatı işlərini dərk edə bilmək üçün həddindən artıq gənc olmalarına görə oğlanların məhkəmə prosesinin ədalətli tərzdə keçirilmədiyini əsas gətirərək Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmişlər. Onlar həmçinin iddia edirdilər ki, Hovordun müdaxiləsi ədalətli məhkəməni qeyri-mümkün edərək *təqsirkar mühitə* gətirib çıxarmışdır. Məhkəmə işi oğlanların xeyrinə təmin etdi.

*Mançester Axşam Xəbərləri* 2001-ci ilin əvvəllərində bərqərar olan mətbuatın açıqlamasına qarşı məhkəmə qadağasının mümkün şəkildə pozularaq cütlüyün saxlanıldığı qapalı tipli müəssisələrin adının hallandırılması ilə mübahisə və ziddiyyətə səbəb olmuşdur. Həmin ilin dekabr ayında qəzet məhkəməyə hörmətsizlik etməkdə təqsirli bilinmişdir, 30000 funt sterlinqlə cərimələnmişdir və 120000 funt sterlinq məbləğində xərclərin ödənilməsi tələb edilmişdir.

Oğlanların yaşayış yerləri barədə mətbuatın xəbər verməsinə qarşı məhkəmə qadağası yalnız İngiltərədə və Uelsdə tətbiq olunur və Şotlandiyada və ya digər ölkələrdə qəzetlər bu cür məlumatları qanuni surətdə nəşr edə bilər. İnternetə görə beynəlxalq kommunikasiyaların asanlaşdırılması ilə əksəriyyəti tez vaxtda öz şəxsiyyətlərinin və yaşayış yerlərinin ictimaiyyət arasında yayılmasını gözləmişdir.

2007-ci ilin aprel ayında verilmiş məlumata əsasən, Daxili İşlər Nazirliyi qeyri-BK jurnalı tərəfindən Ceymz Bulqerin qatillərinin yeni şəxsiyyətlərinin aşkar edilməsinin qarşısını alan qadağa üzrə 13000 funt sterlinq vəsait sərf etmişdir.

Belə fərz edilmişdir ki, qatillərin yeni şəxsiyyətlərinin yaradılması və onların hər hansı əyani təhlükədən qorunması və beynəlxalq media rəylərinin nəzərdən keçirilməsi təxminən 1,5 milyon funt sterlinq məbləğində xərc təşkil edir.

## Sonrakı resurslar

**Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi:**

Yuvenal Ədliyyə üzrə Beynəlxalq Normalar və Standartlara Bələd olun. 10/08/2006

(Onuncu sessiyaya dair hesabat, oktyabr/noyabr 1995, Uşaq Hüquqları haqqında Konvensiya / Maddə/46, paraqraf 220):

http://www.crin.org/resources/infodetail.asp?id=9711

Birləşmiş Krallığın Uşaqların Xilası təşkilatı, «Yuvenal Ədliyyə»: «Qanuna Zidd olan Uşaqlar ilə İş aparılmasının Müasir Konsepsiyaları»:

http://www.crin.org/resources/infodetail.asp?id=11042

Birləşmiş Millətlər Təşkilatı: *Qanuna zidd olan uşaqların açıqlanmamış əhvalatları:*

http://www.un.org/events/tenstories_2006/story.asp?storyID=2800

Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi - Mövzu: Qanuna Zidd olan Uşaqlar:

http://www.crin.org/themes/ViewTheme.asp?id=16

BBC-nin Bütün Dünyadakı Uşaqlar üzrə Ədliyyə Sistemi: Sinifdə istifadə oluna bilən Radio Seqmentlər və Blok Yayımları:

http://news.bbc.co.uk/1/hi/programmes/documentary_archive/6090608.stm

BBC Xəbərləri – Ceymi Bulqerin Qatilləri üzrə Məhkəmə Hüquqları:

http://news.bbc.co.uk/1/hi/uk/295752.stm

http://news.bbc.co.uk/1/hi/uk/567578.stm

«Körpələr və Cinayətkarlıq: Yaponiyada və Amerika Birləşmiş Ştatlarında Gənclərin İşıqlandırılmasının Müqayisəli Tədqiqatı», Tom Brislin və Yaşuhiro İnou. *Kütləvi Media Etikası Jurnalı,* 2007 22(1), səhifələr 3-17

Media üzrə qanunlar toplularının əksəriyyəti xəbərlərin verilməsi, uşaqlar və qanunvericilikdən bəhs edən fəsildən ibarət olacaqdır.

# 4. ƏHVALATLARIN VƏ MƏNBƏLƏRİN ÖYRƏNİLMƏSİ

## UHK Kontekstində Əhvalatların Haşiyələndirilməsi

### ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Mənbələr nədən ibarətdir?
- Uşaqlar mənbə xarakterli ola bilərlərmi?
- Jurnalistlər üçün mənbələrin əhəmiyyəti
- Anonim mənbələr
- Versiyalar nədən irəli gəlir?

## Jurnalistin rolu

Jurnalist BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası üçün o qədər də hüquq müdafiəçisi hesab edilmir. Əksər şəxslər uşaqların qorunmasına və onlar üçün lazımi səylərin göstərilməsinə üstünlük versələr də, jurnalistin vəzifəsi ictimaiyyətin maraqlarına xidmət edir və özünün peşə etikasını dəstəkləyir. Jurnalist lazım gəldikdə, resenziya vermək hüququnu özündə saxlayır və bütün fikirlərin dinlənildiyinə təminat verir.

1920-ci illərdə müasir jurnalistika yenicə formalaşdıqca, yazıçı Valter Lipman və Amerika filosofu Con Dyui demokratiyada jurnalistikanın rolu barədə müzakirə aparırdılar. Onların fərqli təfəkkürləri jurnalistikanın cəmiyyətdə və milli dövlətdə rolu barədə müzakirəni hələ də səciyyələndirir.

Lipman hesab edirdi ki, həmin vaxtda jurnalistikanın rolu ictimaiyyət ilə siyasi kursu müəyyənləşdirən elita arasında bir vasitəçi və ya tərcüməçi kimi fəaliyyət göstərməkdən ibarətdir. Jurnalist orta xəttin tərəfdarına çevrilirdi. Hakim dairələrin təmsilçiləri danışarkən, jurnalistlər qulaq asır, məlumatları yazır, onları işləyib hazırlayır və ictimaiyyətin ixtiyarına verirdi. Onun mülahizəsinə görə, ictimaiyyət müasir cəmiyyətdə formalaşan informasiyanın artan və kompleks axınını müəyyən etməyə qadir deyildir və beləliklə, kütlələr üçün xəbərlərin ayırd edilməsi baxımından jurnalistə ehtiyac duyulurdu.

Dyui isə digər tərəfdən hesab edirdi ki, ictimaiyyət nəinki hakim elita tərəfindən hazırlanan və reaksiya göstərilən məsələləri dərk etmək, eləcə də müzakirə və debatdan sonra qərarların qəbul edilməli olduğu ictimai forumda iştirak etmək iqtidarındadır.

Məsələlər tamamilə araşdırılarkən, ən optimal ideyalar üzə çıxardı. Dyui güman edirdi ki, jurnalistlər yalnız ictimaiyyəti məlumatlandırmalı deyil, habelə məlumatların sadəcə çatdırılması ilə bərabər digər məsələlər haqda xəbərlər verməlidirlər. Dyui hesab edirdi ki, jurnalistlər məlumatları toplamalı, daha sonra hakim elita tərəfindən qəbul edilmiş strategiyaların nəticələrini ictimaiyyət qarşısında müqayisə etməlidir.

Lipmanın jurnalistika fəlsəfəsi hökumət başçıları üçün daha məqbul hesab edilirdisə, Dyuinin yanaşma metodu nə qədər jurnalistin özünün cəmiyyətdəki rolunu qiymətləndirdiyini və öz növbəsində nə qədər insanın jurnalistlərin fəaliyyət göstərəcəyinə ümid bəslədiyini təsvir edirdi. Məsələn, Amerikalılar jurnalistlər tərəfindən yol verilən xətaların və nöqsanların bəzilərini tənqid edə bilərlər, lakin onlar jurnalistlərin cari məsələlər barədə ictimaiyyəti məlumatlandırmaqla hökumət dairələri, iş adamları və digər vasitəçilər üzərində nəzarətçi kimi xidmət göstərəcəyinə ümid edirlər.

Artıq müzakirə etdiyimiz kimi, media ictimaiyyətin marağına uyğun şəkildə hərəkət etməlidir. Geniş yayılmış tendensiyaya görə, jurnalistikanın rolu fəaliyyəti və funksiyaları sosial və siyasi həyat tərzinə toxunan dövlət məmurlarında və qurumlarında məsuliyyət hissini aşılamaqdan ibarətdir. Bu, əhvalatlar üzrə əksər materialların mənbəyi hesab olunur. Uşaqların hüquqları və Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları haqqında Konvensiyası kontekstində bu, xəbərlərin verilməsi haqda qarşımızda yeni perspektivlər yarada bilər.

Məsələn, uşaq zorakılığı haqqında əhvalatda süjet xətti yalnız zorakılığın özünü deyil, habelə uşaqlar və onların hüquqları üzrə hökumətin məsuliyyətini və uşaqların BMT Konvensiyası əsasında təmin edilməli olduqları müdafiə vasitələrini əks etdirəcəkdir. Təxminən bütün dünya ölkələri Konvensiyanı ratifikasiya etmişdir və sənədə imza atmaqla öz üzərinə götürdüyü öhdəlik baxımından bu hökumətləri məsuliyyət daşımağa sövq etmək məhz jurnalistin peşəsidir.

## JURNALİSTLƏR ÜÇÜN SUALLAR

- Sizin hökumət Uşaq Hüquqları haqqında Konvensiyanı necə yerinə yetirir?
- O, Konvensiyanın prinsiplərinin və müddəalarının ictimaiyyətə açıqlanması tələbini yerinə yetirmişdir?
- Uşaq Hüqüqları Komitəsinə öz hesabatlarının təqdim edilməsində yubanma mövcuddur? Hər hansı məsləhətləşmə keçirilmişdirmi?

Uşaqları xəbər gündəliyinə salmaq redaktorların və aparıcı jurnalistlərin öhdəliyidirmi? Jurnalistlər və aparıcı redaktorlar «senzor» kimi hesab edilərdi – onlar hansı xəbər başlıqlarının dərc və ya yayım üçün seçiləcəyini və aidiyyəti vaxtda xəbər gündəliyində hansı məlumatın yerləşdirildiyini müəyyən edərdilər. Lakin onlayn rejimli jurnalistikanın meydana gəlməsi və çoxlarının birtipli jurnalistli jurnalistlər kimi hesab edilə biləcəyi fakt ilə jurnalistikanın ənənəvi rolu mübahisə doğurmuşdur. *Jurnalistikanın Elementləri* əsərinin müəllifi Bil Kovaç demişdir: «Bizim senzor kimi köhnə jurnalist anlayışımız istifadədən çıxmışdır. İnternet şəbəkəsi bütün səddləri aşmışdır.» Hazırda redaktor getdikcə artan dərəcədə qeyri-dəqiq məlumatların aradan qaldırılmasına və kontekst və perspektiv nöqteyinəzərindən xəbərlərin verilməsinə daha çox diqqət yetirəcəkdir.

Lakin oxucunun internet vasitəsilə birbaşa əldə etdiyi məlumatların faktiki və ya saxta olub-olmadığı barədə heç bir təsəvvürü yoxdur. Əgər jurnalistika xəbərlərin və məlumatların açıqlanmasının və nəyin açıqlanıb-açıqlanmamasının qanuni keşiyində durursa, buna görə belə mövqeyin qorunub saxlanılmasında öhdəliyə və hüquqa malikdir. Bu öhdəlik uşaqların hüquqlarının xəbər gündəliyində saxlanılmasını ehtiva edir.

## Uşaqların hüquqları barədə xəbərlərin verilməsi üçün lazım olan bacarıqlar

İnsan hüquqları həmişə jurnalistikanın mühüm komponentindən ibarət olacaqdır, lakin əksər media stajçıları insan hüquqlarını əhatə edən məsələlər barədə məlumatsız və ya hətta xəbərsizdirlər. İnsan haqları və uşaq hüquqları haqda maarifləndirmə jurnalistlərə bu hüquqlara dair məlumat verməkdə kömək edən ilk addım hesab olunur.

Uşaq hüquqları məsələləri ilə tanış olan jurnalistlər «nəzarətçi» rolunu oynamaq üçün metod və vasitələrə malikdirlər. Onlar ictimaiyyətin rəyini formalaşdıra və xüsusən insanların ictimai həyatda məqsədyönlü və vicdanla çalışdığına təminat verilməsinə kömək edə bilərlər.

Həmçinin dilin qüdrəti və onun yanlış istifadəsi insan hüquqlarının pozulması haqda xəbərlərin verilməsinə öz təsirini göstərə bilər. Cinayətkarlıq, məişət zorakılığı, qrup zorakılığı və siyasi zorakılığın digər formaları barədə xəbər verərkən, media tərəfindən istifadə olunan dil insan hüquqlarının pozulması hallarını həmişəlik qoruyub saxlamışdır. Mənbələrin sözlərini (*terrorçu* kimi) sadəcə təkrar işlətməklə, media bəlkə də bilmədən davamlı surətdə müəyyən insanlarda və icmalarında iblis hisslərini aşılamışdır.

Uşaqlar *qeyri-qanuni insan alverinə* və ya *qaçaqmalçılığına* məruz qalmışdırmı?

İnsanlar *mübahisə* və ya *qalmaqal* edirlərmi?

Uşaqlar «balacalar», «körpələr», «balalar» kimi təsvir olunurmu? Bu, onların ləyaqətini alçaltmır ki?

Jurnalistlərin dillə bağlı malik ola bildikləri problemlərin bəzi nümunələri mövcuddur. Uşaqlara aid əhvalatlar barədə xəbərlərin verilməsi özünəməxsus jurnalist bacarıqlarını da tələb edir: məsələn, qeyri-qanuni uşaq alveri haqda əhvalat mükəmməl təhqiqat bacarıqlarının tətbiqini zəruriləşdirir. Müxbir təhqiqatına dair materiallar müəyyən bir dövrü əhatə edən müfəssəl dəqiq araşdırmadan ibarətdir. Bu növ yazı üslubunun mahiyyəti cəlb olunan insanlarla ətraflı və sistematik müsahibə aparılmasına diqqət yetirərkən özünü elə büruzə verir ki, əldə olunan ümumi nəticələr əsasında iş materialları formalaşır. Bu, çox vaxt ictimai marağın böyük əhəmiyyət daşıdığı məlumatların axtarılması ilə qanunvericilik sahədə aparılan tədqiqatı əhatə edir.

Mənbələr kimi nəinki birbaşa olaraq uşaqlar ilə iş aparılmasına, eləcə də məsələlərə necə yanaşmağımız əsasında məsələnin mahiyyətinə bizim necə münasibət göstərməyimiz başlıca əhəmiyyət kəsb edir. BMT Uşaq Fondu uşaqlar haqqında yazı dərc edərkən nəzərdən keçirilməli olan faydalı məsələləri təmin etməklə uşaqlar barədə xəbərlərin verilməsinə dair təlimatlar və müzakirə predmetlərini hazırlamışdır.

Həmişə olduğu kimi, jurnalistlər bütün əhvalatlarda, o cümlədən uşaq hüquqlarına dair məsələlərdə **təsir, aktuallıq, oxşarlıq, münaqişə, yayılma davamlılığı, yenilik və nisbilik** kimi ilkin dəyərləri önə çəkirlər. Bu dəyərlər olmadan əhvalatın jurnalistə və ya uşaq hüquqları müdafiəçilərinə xoş təsir bağışlaya biləcəyinə baxmayaraq, bu, auditoriyanı cəlb etməyəcəkdir.

## BMT Uşaq Fondunun Uşaqlar barədə Xəbərlərin Verilməsi üzrə Təlimatları

1. Gələcəkdə hər hansı uşağı biabır etməyin; uşağı mənfi təsirlərə – o cümlədən əlavə fiziki və ya psixoloji zərərə – yaxud onu öz yerli icması tərəfindən ömürlük kobud rəftara, ayrı-seçkiliyə və ya təcrid etməyə məruz qoyan təsnifata və ya təsvirə yol verməyin.

2. Uşağın əhvalatı və ya obrazı üzrə həmişə dəqiq konteksti təqdim edin.

3. Aşağıdakı kimi müəyyən olunan hər hansı uşağın həmişə adını dəyişin və əyani görünüşünü gizlədin:

a. seksual zorakılığın və ya istismarın qurbanı,
b. fiziki və ya seksual zorakılığı törədən,
c. uşağın, valideynin və ya qəyyumu tam məlumatlı razılıq verməyənə qədər İİV olduğu müəyyən edilən və ya QİÇS ilə yaşayan,
d. cinayət törətməkdə təqsirləndirilən və ya ittiham olunan.

4. Risk və ya potensial zərər və yaxud qisas riskinə aid müəyyən vəziyyətlərdə şəxsiyyəti aşağıdakı kimi müəyyən olunan hər hansı uşağın adını dəyişin və əyani görünüşünü gizlədin:

a. uşağın hazırkı və ya əvvəlki müdafiəçisi,
b. sığınacaq axtaran, qaçqın və ya məcburi köçkün.

5. Müəyyən hallarda uşağın eyniyyətindən – onun adı və/ya tanına bilən təsvirinən istifadə edilməsi uşağın ən yaxşı maraqlarına uyğun gəlir. Lakin uşağın eyniyyətindən istifadə olunduqda, o, zərərdən qorunmalı və hər hansı rüsvayçılıq və ya cəza tədbirlərinə qarşı dəstəklənməlidir. Bu səciyyəvi halların bəzi nümunələri aşağıdakı kimidir:

a. uşaq fikir azadlığı olan hüququnu və öz fikrinin dinlənilməsi hüququnu həyata keçirmək üçün müxbirlə əlaqə yaratmağa təşəbbüs göstərdikdə;
b. uşaq davamlı fəallıq və sosial səfərbərlik proqramının tərkib hissəsi olduqda və bununla şəxsiyyətinin müəyyən edilməsini istədikdə;
c. uşaq psixo-sosial proqrama cəlb olunduqda və öz adının və eyniyyətinin onun sağlam inkişafının tərkib hissəsi olduğunu iddia etdikdə.

6. Digər uşaqlar və yaxud yaşlı ilə, hər ikisinə birlikdə üstünlük verilərək uşağın söyləməli olduğu məqamların doğruluğunu təsdiq edin.

7. Uşağın risk altında olub-olmaması şübhə doğurduqda, əhvalatın xəbər kimi əhəmiyyət daşımasına fərq qoyulmadan fərdi uşaq ilə müqayisədə uşaqlar üzrə ümumi vəziyyət barədə məlumat verin.

## BMT Konvensiyasının öyrənilməsinə çalışmaq

Jurnalistlər öz beynəlxalq öhdəliklərinin yerinə yetirilməsi baxımından dövlət tərəfindən tədbir görülməsini tələb etmək üçün ideal surətdə cəlb olunurlar. İctimaiyyət ilə siyasətçilər arasında Konvensiya haqqında məlumatlılığın artırılması üçün sizin təşəbbüs göstərə bildiyiniz kampaniyalar vardırmı? Sizin əhvalatlarınız uşaqların hüquqları barədə ictimai anlaşmanı və həmin hüquqların dəstəklənməsində və qorunmasında hökumətinizin strategiyalarının rolunu artırırmı?

Əhəmiyyətlisi odur ki, jurnalistlər BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına sərbəst şəkildə resenziya verirlər və onu öyrənməyə çalışırlar. Bəzi jurnalistlər UHK baxımından uşaqlıq dövrünün 18 yaşında başa çatmasına nəzərən problemlə üzləşə bilərlər, o halda ki, Konvensiya ictimaiyyətin diqqətində olan 16 və ya 17 yaşlı bəzi insanların müsahibə verə və mühakiməli şəkildə sorğu-sual edilə bilməyəcəyini nəzərdə tutsun. Bu, müzakirə predmeti ola bilən bir sahədir.

Sizin ölkənizdə uşaqların qarşılaşdıqları problemlər barədə öz tərəfinizdən məlumat verməyiniz üçün ekspertlər, uşaq hüquqları sahəsində çalışan fəallar və uşaqların özləri ilə söhbət edin. Uşaqlara xidmətlərin göstərilməsində mövcud olan nöqsanlar və onların hüquqlarının müdafiəsi haqqında yerli və mərkəzi hökumət qurumlarından izahatlar tələb etmisinizmi?

Uşaqların fikirlərinin hökumət və vətəndaş cəmiyyəti tərəfindən dinlənilməsi üçün xəbərlərdə yer ayırmısınız? Siz qeyri-hökumət təşkilatlarının tələblərini nəzərdən keçirmisiniz və onların uğurlarına və hər hansı nöqsanlara diqqət yetirmisiniz?

Konvensiya nizamnamə, yoxsa mənəvi prinsip kimi səciyyələnir? Konvensiyanın qanun xarakteri daşımadığına, lakin ölkələrin könüllü surətdə ratifikasiya edilməsinə razılıq verdikləri hansısa bir sənəd olduğuna görə bu, ölkənin tənqid edilməsinə nəzərən mənəvi meyardırmı?

## Əhvalatların mənbələri

İnformasiya mənbələri jurnalistin şəcərəsi hsab olunur. Onlar xəbər qeydləri, radio materialları və televiziya paketləri kimi sonradan işlənib hazırlanması üzrə mühüm baza məlumatlarını təmin edir. Onlar iki mənbəyə - ilkin və ikinci dərəcəyə kateqoriyalaşdırıla bilər:

- *İlkin mənbələr*
- Əlaqələr
- Ştatdankənar jurnalistlər
- Gündəlik zənglər
- Təzyiq qrupları
- Məhkəmələr/tribunallar

- Yerli hökumət
- İcma işləri
- Mətbuat konfransları

*İkinci dərəcəli mənbələr*

- Redaktora məktublar
- Təsnifatlar
- Press-relizlər
- Digər kütləvi informasiya vasitələri
- Mətbuat qurumları
- Xəbər təşkilatları (Röyters, Müstəqil Televiziya
- Xəbərləri Agentliyi)
- Yerli hökumət
- Mərkəzi hökumət

Jurnalistlər tez-tez müsahibə vasitəsilə ilkin mənbələrdən informasiya əldə edirlər. Əgər uşaqlar ilkin mənbədən ibarətdirsə, jurnalist uşaqlarla müsahibə aparılması məsələləri və nəzərə alınması üçün fikirlər barədə məlumatlı olmalıdır. Digər fəsildə bunlardan bəhs ediləcəkdir, lakin ümumən qəbul olunur ki, yaşlılar ilə müqayisədə gənclərin şəxsi həyatının toxunulmazlığına daha böyük təminat verilməlidir.

Mənbələr jurnalistikada başlıca məsələdir. Bəzi elmi araşdırmalar göstərir ki, jurnalistlər tərəfindən istifadə olunan bir sıra mənbələr kiçikdir və təşkilatçılığa üstünlük verilməsinə meyl edir. Həmçinin anonim mənbələr məsələsi mövcuddur; jurnalistlərin ənənəvi dünyabaxışı odur ki, onlar anonimlik təminatı verilmiş mənbənin adını açıqlaya bilməzlər. Bu, elə əhəmiyyət kəsb edir ki, hətta məhkəmə tərəfindən informasiya tələb olunduqda bəzi ölkələr jurnalistlərə bu cür anonimliyi qoruyub saxlamağa imkan verən qanunları qəbul etmişlər. Mənbənin adının açıqlanması sorğusuna jurnalistlərin ənənəvi reaksiyası ondan ibarətdir ki, səbəbin göstərilməsinə baxmayaraq adın açıqlanması jurnalistikanın özünü sarsıdar və heç kəsin nə vaxtsa jurnalistlərə yenidən inana biləcəyini kəsb etməz.

Bu qayda uşaq zorakılığını etiraf edən kimsəyə tətbiq oluna bilərmi? Çoxsaylı jurnalistlər bu haqda mütləq dünyagörünüşə malikdirlər və deyə bilərlər ki, heç bir şəraitdə anonim mənbəni heç vaxt açıqlamaq olmaz. Az bir qism fərz edir ki, bu məsələ barədə gələcək müzakirənin aparılmasına ehtiyac vardır. (Maykl Foley «Mütləqiyyət və Məxfilik», *Etik Məkan,* Cild 1 №2, 2004-cü il tarixli sənədə bax.

Uşaqlar və onların hüquqları haqda spesifik məlumatları harada axtara bilərik? Aşağıda bəzi fərziyyələr göstərilmişdir:

## Milli mənbələr

- Yerli səhiyyə
- Səlahiyyətli rəsmilər
- Sosial xidmətlər
- Məktəblər
- Ailə hüququ məhkəmələri
- Müəllim təşkilatları
- Valideyn təşkilatları

## Uşaq hüquqları sahəsində çalışan təşkilatlar

- Uşaqlar üzrə ombudsman aparatları
- Milli uşaq hüquqları koalisiyaları: http://www.crin.org/NGOGroupforCRC/ViewOrgsByC.asp?typeID=7
- Uşaqların Öyrənilməsi üzrə Mərkəz, Gənclər və Media: www.childrenyouthandmediacentre.co.uk
- Uşağın Ümidi: http://www.childhope.org.uk
- Uşaqların Fikri: www.childrens-express.org/
- ChildWatch International təşkilatı: www.childwatch.uio.no/

Tələbələr öz ölkələri üzrə milli və uşaq hüquqlarından ibarət mənbələrin siyahısını hazırlamalıdırlar.

## Beynəlxalq təşkilatlar

- BMT Uşaq Fondu www.unicef.org
- BMT Uşaq Fondunun Uşaqların Hüquqları üzrə Xoşməramlı Tədqiqat Mərkəzi: www.unicef-icdc.org
- Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları üzrə Ali Komissarlığı: http://www.ohchr.org
- Uşaqların Hüquqları üzrə İnformasiya Şəbəkəsi: www.crin.org
- Uşaqların Xilası Alyansı: http://www.savethechildren.net
- Beynəlxalq Plan təşkilatı: www.plan-international.org
- Human Rights Watch təşkilatı: http://www.hrw.org/
- Beynəlxalq Amnistiya: http://www.amnesty.org/
- Uşaqların Beynəlxalq Müdafiəsi təşkilatı: http://childhouse.uio.no/childrens_rights/dci_what.html
- Media Fəaliyyəti və Uşaqlar tərəfindən, ilə və üçün Optimal İdeyalar (MAGIC) http://www.unicef.org/magic/index.html

## Uşaq Hüquqları Komitəsi

- Uşaq Hüquqları Komitəsi: http://www.ohchr.org/english/bodies/crc/index.htm
- BMT-nin UHK-ı ilə sessiyalarda hər ölkənin təqdim etdiyi ölkə hesabatları: http://www.ohchr.info/english/bodies/crc/sessions.htm or http://www.unhchr.ch/tbs/doc.nsf
- Alternativ Hesabatlar – Ölkə, sessiya və təşkilat hesabatlarının uyğunlaşdırılması ilə QHT-nin alternativ hesabatları nəzərdən keçirilə bilər: http://www.crin.org/NGOGroupforCRC/search.asp

**Əlaqə kitabçası**: jurnalistlər öz karyeralarının başlanğıcında əlaqə kitabçasını tətbiq etməlidirlər (jurnalistikanın öyrənərkən). Adlar, ünvanlar, telefon nömrələri və elektron ünvanları təhlükəsiz şəkildə saxlanılmalıdır. Uşaqların cari məsələləri və ya təhsil və yaxud səhiyyə kimi əlaqədar sahədə ixtisaslaşan müxbir aidiyyəti sahə daxilində nəyin baş verdiyini müşahidə etmək üçün optimal əlaqə nömrələrinə zəng etməlidir.

Xəbər mənbələri digər informasiya buraxılışlarını ehtiva edə bilər. Uşaqlara aid xəbər başlığı uşaqların hüquqlarına toxunmaya və ya bu haqda məlumatlı olmaya bilər, bununla xəbər başlıqları ardıcıl surətdə izlənilməlidir. Kiçik tirajlı jurnallarda elmi məqalələr öz növbəsində əhvalatların zəngin mənbəyi ola bilən müasir tədqiqatı irəli sürür.

Suallarınızı verin: Yeni məktəbin açılması nə üçündür? Məktəbin bağlanması nə üçündür? Yeni yaşayış komplekslərində məktəbəqədərki tədris müəssisəsi, idman meydançaları, məktəblər kimi müvafiq obyektlər mövcuddurmu? Yerli xəstəxanalarda uşaqlar üçün hansı qurğular vardır? Gənclərlə iş aparılması üzrə hər hansı yerli polis məmuruna xüsusi təlim keçirilmişdirmi? Həmin təlimin mahiyyəti nədən ibarətdir?

## Sonrakı şərh və resurslar

MediaVays Fondu və BMT Uşaq Fondu: *Uşaqların Hüquqları və Media*, 1999.

Bir sıra ümumi jurnalistika vəsaitləri, o cümlədən ümumi mənalı mənbələr kimi məsələlərdən bəhs etməklə David Randalın *Universal Jurnalist kitabı* və ya Riçard Keblsın *Qəzet Təlimatı.*

Maykl Foley «Mütləqiyyət və Məxfilik», *Etik Məkan,* Cild 1 №2, 2004-cü il:

www.ethicalspace.org.

Jurnalistika jarqonlarının əksəriyyəti filmlər və novellalar vasitəsilə dilə keçmişdir. Lakin sözlərin dəqiq mənasına nəzərən həmişə uzlaşma olmur, buna görə mənbə ilə danışdıqda və ya müsahibə apardıqda nəzərdə tutduğunuzu izah etməyiniz vacibdir. Həmçinin bilin ki, bəzi insanlar media haqqında daha çox məlumatlıdırlar. Digər belə hallar kimi sağlam düşüncə çox vaxt ən yaxşı istiqamət hesab olunur. Xatırlayın ki, uşaq hüquqları haqqında yazılar ən həssas sahə olaraq qalmağa meyd edir.

### MƏTBUATA AÇIQLANAN VƏ AÇIQLANMAYAN

Uşaq hüquqları sahəsində çalışan insanlar pis əməllər və ya zorakılıq haqqında məlumat verməyi istəyə bilərlər. Sahənin həssaslığını nəzərə alaraq, jurnalistlərin qeyri-rəsmi surətdə hər kəslə necə söhbət etməyi və nəyin söyləniləcəyini dərk etmələri son dərəcə zəruridir. Anonim mənbə ilə söhbət edərkən, qeyri-rəsmi surətdə nəyi söyləmək istədiyinizi və bunun nəyin nəzərdə tutulduğunu həmişə izah edin.

### MƏXSUSİ SİTATLAR

Bu, əksər jurnalistlərin şəxsin dedikləri barədə dəqiq məlumat vermələri üçün istədikləri və ehtiyac duyduqları bir məqamdır. Bu, mətbuat materialının mötəbərliyini və doğruluğunu önə çəkir. Sitat ideal olaraq adı çəkilən şəxsə mənsub olmalıdır.

### MƏTBUATA AÇIQLANAN

Jurnalist rəsmi surətdə mənbə ilə söhbət edərkən, qeyd olunan mülahizələr və iradlar qeyri-ixtiyari olaraq açıqlanır, belə ki, onlar sitat kimi göstərilə və şəxsin adı açıqlana bilər.

## MƏNBƏLƏRİN NƏZƏRDƏN KEÇİRİLMƏSİNDƏ ƏSAS TERMİNLƏR

### MƏTBUATA AÇIQLANMAYAN

Qeyri-rəsmi surətdə söylənilənlər sitat kimi göstərilməməlidir və yalnız ilkin informasiya olaraq nəzərdə tutulur. Əhəmiyyətlisi odur ki, sizin söhbət etdiyiniz şəxs hər hansı faktın söylənilməsindən əvvəl qeyri-rəsmi surətdə hər hansı razılığın əldə olunduğunu dərk edir. Həddindən artıq tez-tez qeyri-rəsmi açıqlama verməyə razılaşmayın; sizin versiya əsassız və ədəbsiz görünəcəkdir ki, bu da məlumatın bəzi hissələrinin uydurulduğu barədə şübhə doğura bilər. Verilən informasiya «güman edilir ki,...» kimi görünə bilər. Bəzi hallarda qeyri-rəsmi surətdə verilən məlumatları özünüz üçün toplayaraq başqa birisini sorğu-sual edə və onu rəsmi surətdə əldə edə bilərsiniz.

### MƏNSUBİYYƏTİN GÖSTƏRİLMƏMƏSİ

Kimsə hər hansı fakt haqqında məlumatın verilməsini, lakin adının bununla əlaqədar hallandırılmamasını istəyə bilər (buna zəmin olaraq: «işgüzar mənbələr», «yaxın mənbələr...», «yüksək mənbələr» və sair). Hər hansı şəxs işgüzar sahə haqqında şərh verməyə razı ola bilər, lakin rəqibləri barədə şərh vermiş şəxs kimi görünməsini istəməz. Bəzi ölkələrdə hökumətin mətbuat rəsmisi mənsubiyyətin açıqlanmaması prinsipi əsasında həmişə fəaliyyət göstərir. Bu, daha optimal versiyanı formalaşdırdığına və daha çox mötəbərliyə malik olduğuna görə adının məlumatlarla əlaqədar hallandırılmasına icazə verməsi üçün insanları inandırmağa çalışın.

### ŞƏRHƏ EHTİYAC YOXDUR

«Şərhə ehtiyac yoxdur» fikrini söyləyən insanları inandırmağa çalışın ki, bu, ictimayyətin özünəməxsus qərar verməsinə və nəticə çıxarmasına səbəb ola bilər.

## 5. UŞAQLARLA MÜSAHİBƏ APARILMASI

### Uşaqlar mənbələr kimi və razılığın alınması

#### ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Uşaqlarla necə müsahibə aparılmalıdır?
- Uşaqlar yalnız cavabdeh yaşlının iştirakı ilə müsahibə verməlidirlər?
- Valideynin və ya qəyyumun iştirakı olmadan uşaqla nə vaxt müsahibə aparıla bilər?
- Uşaqlarla müsahibə aparılması yaşlılardan müsahibə götürən şəxslərin müxtəlif bacarıqlara malik olmasını tələb edirmi?

### Uşaqlar mənbələr kimi və razılığın alınması

UŞAQLAR valehedici və ya qorxunc hadisələrə məruz qalmayana qədər onlar nadir hallarda xəbər gündəliyinin tərkib hissəsi olurlar. Xəbərlər əsasən yaşlılar üçün və onlar haqqında bir məlumat kimi hesab edilir.

Məşhur valideynlər üçün uşağın doğulması, uşaqların seksual zorakılığı və ya qaçqın çadırlarında tələf olan uşaqlar barədə açıqlamalar xəbər sərlövhələrində yer tuta bilər, lakin uşağın nöqteyi nəzərinə nisbətən yaşlının reaksiyasına daha çox diqqət yetiriləcəyi ehtimal edilir.

Əgər uşaqların və gənclərin bir şikayəti vardırsa, bu o deməkdir ki, onlara heç kəs qulaq asmır. Onların yaşlılara təklif edəcəyi tipik fərasəti hələ də özünü göstərir. Onlar yaşlıların fiziki və sosial mühitini paylaşır, eləcə də özünəməxsus tərzdə cinayətin təsirinə və ya iqtisadi və qanunvericilik dəyişikliyinə məruz qalırlar.

Uşaqlar mediada təmsil olunarkən, onlar stereotiplənməyə və himayə olunmağa meyl edirlər. Mühüm faktlarla dolu hadisələr barədə versiyaların və uşaqların rəylərinin toplanılmasında ixtisaslaşmaq üçün jurnalistlərin təyin edilməsi media qurumlarının tarazlığı tənzimləməyə başlaya biləcəyi bir üsuldur. Dünyada sağlam düşüncə tərzini formalaşdıra bilən gənc müxbirlərin şəbəkələrinin inkişaf etdirilməsi də bunu fərqləndirə bilər.

Gənclərin onları əhatə edən dünyanı necə gördüklərini dərk etmək və bu dünyagörünüşü ictimaiyyətə çatdırmaq jurnalistlərin üzləşdiyi ən çətin tapşırıqlardan biridir, bununla yanaşı onlara uşaqlarla iş aparılmasında nadir hallarda təlim keçirilir. Jurnalistlər məlumatların toplanılmasında və dərc olunmasında uşaqlara heç bir zərər vurmadan onların ədalətli şəkildə təcəssüm etdirilməsi üçün məsuliyyət daşıyırlar.

Uşaqların qorunması zərurəti ilə birlikdə həqiqətin söylənilməsinə dair jurnalistika öhdəliyinin tarazlaşdırılması çətinliklər və etik məsələlər ilə doludur. Müxbirlər təhlükə altında olan uşaqların həyat tərzinə müdaxilə etməlidirlər? Jurnalistlər uşaqların travma hadisəsinə məruz qalmasından sonra onlarla müsahibə aparmalıdırlar? Hansı hallarda uşaqların şəxsiyyətini tam müəyyənləşdirmək və ya onun görünüşünü gizlətmək məqsədəuyğun hesab edilir?

Ümumən qəbul edilir ki, yaşlılara nisbətən gənclərin şəxsi həyatının toxunulmazlığına daha böyük təminat verilməlidir. Lakin bir çox ölkələrdə ictimai məkanda müsahibə aparılmasına razılıq verən uşaqların adlarının, ifadələrinin və ya təsvirlərinin istifadəsini qadağan edən qanunlar mövcud deyildir.

Qərarların necə yetirilməsinə nəzərən onlar qəbul edilərkən, uşağın ən yaxşı maraqları başlıca olaraq nəzərdən keçirilməlidir. Jurnalistlər müsahibə şəraitində və dərc olunan faktların nəticələri ilə əlaqədar uşağa dəyə bilən zərəri minimuma endirməlidirlər. Uşaqların və gənclərin rifahının qorunması mükəmməl jurnalistika praktikası ilə ziddiyyət təşkil etməməlidir. Bütün jurnalistlər bəzi ilkin sualları gərək özlərindən soruşsunlar:

- Azyaşlı uşaqlar böyüklərin razılığı ilə müsahibə verirlər? Uşaqların müsahibələrinin aparıla biləcəyi hüquqi kontekst mövcuddurmu?
- Müsahibə uşaq üçün münasib tərzdə, o cümlədən lazımi vaxt və əlverişli şəraitdə aparılmışdır?

- Uşağın iradlarının qısa müddətli və uzun müddətli potensial nəticələri nəzərdən keçirilmiş və müsahibə verən şəxsə izah edilmişdir?
- Materialların nəşr olunmasından sonra uşaqların müdafiə edildiyinə və digər uşaqların naşir ilə əlaqə yaratması üçün təminat sistemlərinin hazır vəziyyətdə olduğuna təminat verilməsi üçün tədbirlər yerinə yetirilmişdir?
- Uşaqlar onların söylədikləri ilə əlaqədar hansı tədbirlərin yerinə yetiriləcəyi barədə məlumatlandırılır və onların hazır xəbər buraxılışını seyr etməsinə icazə verilir?

«Operativ» xəbərlər buraxılışının meydana gəlməsi ilə gənclərlə iş aparılması üzrə sadə qaydalar qısa vaxt müddətində çalışan heyət üçün böyük əhəmiyyət kəsb edir. CNN sensasiyalı xəbərlərin verilməsi üzrə uşaqlarla müsahibə aparılıb-aparılmaması barədə qərar qəbul edilərkən beş amilin siyahısını işləyib hazırlamışdır. Bunlara daxildir:

- yaş və yetkinlik
- baş verən zorakılığın dərəcəsi
- uşağın hər hansı zorakılıq qurbanları ilə əlaqəsi
- valideyn icazəsinin mövcudluğu
- videoyazının lentə köçürülməsi və ya canlı olması

Həmçinin BBC uşaqlarla iş aparılması üzrə sərt təlimatlara malikdir. **BBC-nin uşaqlara dair redaksiya prinsiplərinə** bax.

Uşaqlar yaşlılara və səlahiyyətli şəxslərə öz istəklərinə uyğun hesab etdikləri fikirləri çatdırmağa meyl edirlər ki, bu da real olaraq onların demək istədikləri kimi həmişə eyni olmur. Tədqiqat onu göstərir ki, uşaqlara birbaşa sual verilməsinə nisbətən öz əhvalatlarını söyləmək üçün sərbəst surətdə vaxt verildikdə, onlar daha dəqiq məlumatları çatdırırlar. Dolayı suallar uşaq üçün etibarlılığı təmin edə bilər.

Uşaqların tanıdığı yaşlıların onların müsahibəsi zamanı yanlarında olduğuna təminat verilməsinin məqsədəuyğun hesab edilə biləcəyinə baxmayaraq, uşaqlar öz həmyaşıdları ilə birlikdə olduqda  ən səhih məlumatlar əldə ediləcəkdir. Hər halda mümkün olduqca münasib yaşlının (valideynin və ya himayəçinin) razılığının alınması ümumilikdə əhəmiyyət kəsb edir.

Münasib yaşlının icazəsinin alınması və müsahibənin mahiyyətinin məyusluq yaratmayacağına təminat verilməsi üçün ümumi qayda tətbiq edilməli olsa da, uşaqların fikirlərinin problemli olmadığı mövzular mövcuddur. Məsələn, qidalanma və uşağın nə ilə qidalanmasına dair versiya xeyli sayda uşaqların nə yeməyi xoşladıqları və ya onlara nə qədər cibxərcliyinin verildiyi barədə fikirləri ilə tamamlana bilər.

## Təsvirlər ilə uşaqlardan istifadə edilməsi

Media tərəfindən təqdim olunan faciə, münaqişə, təbii hadisələr və ümid ilə bağlı ən effektiv təsvirlərin bəziləri uşaqları xarakterizə etmişdir. Məsələn, napalm bombalarının dağıdıcı qüvvəsi Vyetnamda yol boyunca qaçan doqquz yaşlı Fan Ti Kim Fuk ilə daim əlaqədar olacaqdır. Nik Ut şəklə görə 1972-c ildə Ümumdünya Mətbuat Fotoşəkli mükafatına layiq görülmüşdür. Bu kadr nəşr olunarsa və əgər nəşr olunmazsa, bunun səbəbini müzakirə etməyə dəyər. Bu kadrın nəşri öz diqqət mərkəzinə uşağın marağını cəlb etmişdirmi və yaxud bu nəşrə səbəb olan Vyetnam müharibəsinə daha çox diqqət yetirilmişdir?

Şəklə bu vebsaytda baxıla bilər:
http://www.worldpressphoto.org/index.php?option=com_photogallery&task=view&id=177&Itemid=115&bandwidth=high

Bu fotokadrlar kimi təsvirlərin cəlbedici aspekti uşaqların müəyyən olunmasından ibarətdir; onlar adları və keçmiş tarixçələri olan adi auditoriya hesab edilirlər. Bununla yanaşı uşaqların adları açıqlanmadan onların şəxsiyyətlərinin müəyyən edilməsi ölümlə nəticələnə bilər. Qərb qəzetində azyaşlı əsgərin şəxsiyyətinin müəyyən edilməsi minlərlə mil uzaqlıqda müharibənin tüğyan etdiyi Afrika ölkəsində həmin uşağın qətli ilə nəticələnmişdir. Uşaqları zorlayan şəxslər onların qəddar əməllərinə kiminsə şahid olmasını istəmirlər. Kosova böhranı zamanı Balkan ölkələrinin redaktorları ölkədən qovulmuş uşaqların rəsmlərindən istifadə etməyi azaltmışlar, çünki onlar hərbi cinayətlər üzrə məhkəmə proseslərində potensial şahidlərin müəyyənləşdirilməsinin risklərini əvvəlcədən bilirdilər. Digər Qərb mediasında bu cür sükut olmamışdır, bununla görünürdü ki, belə təsvirlərin effektivliyi Birləşmiş Millətlər Təşkilatı və NATO qüvvələri tərəfindən müdaxilə edilməsini stimullaşdıra bilər.

Müharibədə əsir götürülən uşaqların, cinayətlərin və təbii fəlakətlərin təsvirlərindən istifadə olunması güclü mühakimə tələb edir. Fotojurnalistlər öz şəkillərinin qeyri-müvafiq və kontekstdən kənarda istifadə olunduğu barədə şikayət etmişlər. Sanitariya işçiləri xarici jurnalistlərlə qəfil toqquşmanın nəticəsində uşaqların əyani şəkildə qorxa və zədə ala biləcəyindən xəbərdar olmadan qaçqın düşərgələrində məhrumiyyətlərə məruz qalmış uşaqların şəkillərinin çəkən operator-çəkiliş qruplarının barəsində şikayət etmişlər. Uşaqların hüquq-

larının media tərəfindən pozulması haqqında şikayət etməyə tələsən QHT-lər büdcə ayırmalarının həcminin artırılması üçün özləri uşaqların təsvirlərindən istifadə edə bilərlər. Uşaqların şəkillərinə nisbətən onların fəaliyyətinin yerinə yetirilməsinin daha çox səmərəsi nədən ibarətdir?

## UŞAQLARIN TƏSVİRLƏRİ

Uşaqlar emosional cəlbediciliyə malik olduqlarına görə, müharibələr və ya təbii fəlakətlər ilə bağlı fotoşəkillərdə onlardan tez-tez istifadə edilir. Aşağıdakı vebsaytda http://www.worldpressphoto.org/ Ümumdünya Mətbuat Fotoşəkli müsabiqəsinin qaliblərinin şəkillərini nəzərdən keçirin və uşaqların təsvirlərinin istifadəsi haqda öz düşüncənizi formalaşdırın.

Əgər baş verərsə, hansı şəraitdə «xəbər dəyərləri» uşağın ən yaxşı maraqlarını üstələyir? Uşağın şəxsiyyətinin müəyyənliyinin xüsusi risklərə məruz qala biləcəyi süjetləri ayrıca işıqlandırmaq üçün uşaqların təsvirlərini yaradarkən, hansı metodikalar və texnoloji təlimatlar məqsədəuyğun sayılır?

BMT Uşaq Fondu uşaqlarla müsahibə aparılması üçün aşağıdakı təlimatları işləyib hazırlamışdır:

## BMT Uşaq Fondunun Uşaqlarla Müsahibə Aparılmasına dair Təlimatları

1. Hər hansı uşağa heç bir zərər vurmayın; uşağı təhlükədə qoymaqla və ya uşağın alçaldılmasını göstərməklə və yaxud travmatik hallar nəticəsində uşağın ağrısını və dərdini təzələməklə mədəni dəyərlərə subyektiv, qeyri-həssas olan suallara, münasibətlərə və ya şərhlərə yol verməyin.

2. Müsahibə aparılması üçün uşaqların seçilməsində cinsinə, irqinə, yaşına, dininə, statusuna, təhsil səviyyəsinə və ya fiziki bacarıqlarına görə ayrı-seçkilik etməyin.

3. Uydurmaya yol verilməməsi: uşaqların keçmişinin tərkib hissəsi olmayan əhvalatı danışmasını və ya hərəkətə yol verməsini onlardan xahiş etməyin.

4. Uşağın və ya qəyyumun müxbirlə danışdığı haqda məlumatlı olmasına təminat verin. Müsahibənin və onun planlaşdırılan istifadəsinin məqsədini izah edin.

5. Bütün müsahibələr, videoyazılar və mümkün olduqda sənədli fotoşəkillər üçün uşağın və onun qəyyumunun razılığını əldə edin. Mümkün və məqsədəuyğun olduqda, bu razılıq yazılı surətdə alınmalıdır. Uşağın və qəyyumun heç bir üsulla məcbur edilmədiyinə və onların yerli və qlobal səviyyədə yayıla bilən əhvalatın tərkib hissəsi olduğunu dərk etdiklərinə təminat verən hallarda razılıq əldə edilməlidir. Əgər uşağın dilindən razılıq alınırsa və uşağın etibar etdiyi yaşlı ilə məsləhətləşmə şəraitində qərar qəbul edilərsə, adətən yalnız belə halda buna təminat verilir.

6. Uşaqla harada və necə müsahibə aparıldığına diqqət yetirin. Müsahibə aparanların və fotoqrafların sayını məhdudlaşdırın. Uşaqların münasib vəziyyətdə olduqlarını və müsahibə götürən daxil olmaqla kənar təzyiq olmadan öz əhvalatlarını söyləyə biləcəklərini müəyyənləşdirməyə çalışın. Filmdə, video və radio müsahibələrində vizual və ya audio məlumatların seçiminin uşaq, habelə onun həyatı və əhvalatı barədə dolayısı ilə nəyi ifadə edə biləcəyini nəzərdən keçirin. Uşağın evinin, icmasının və ya ümumi yaşayış yerinin göstərilməsi ilə onun təhlükə altında olmayacağına və ya mənfi təsirə məruz qalmayacağına təminat verin.

## Müsahibədən sonra…

- Adlarını açıqladığına və sizinlə söhbət etdiyinə görə onlara təşəkkürünüzü bildirin.
- Sizə veriləcək suallarının olub-olmadığını onlardan soruşun.
- Uşaqların sizinlə sərf etdiyi vaxta görə onların əvəzinin ödənilməsi barədə fikirləşin (xüsusən, məsələn işləyən və ya küçə uşaqları), lakin yadda saxlayın ki, bu, ödənişdən daha çox vaxta görə bir kompensasiya hesab edilir. Əgər daha sensasiyalı məlumatlar daha çox gəlir gətirirsə, insanlar jurnalistin istəyinə uyğun hesab etdikləri informasiya növünü tez-tez təmin etdikcə əhvalatlara görə ödənişlər faktların təhrif olunmasına gətirib çıxara bilər.
- Hansı məqalənin istifadə olunacağını uşaqlara yenidən izah edin və həmin məqaləni onlara göndərilməsini təşkil edin.
- Uşaqların materialdan hər hansı faktı çıxarmaq istədiklərini soruşun və yaxud onların adlarını və ya hər hansı digər təfərrüatları dəyişin.

## Uşaqların Xilası - Uşaqlarla Müsahibə Aparılması üzrə Təlimatlar

***Hazırlıq***

Uşaqlara qarşı münasibətlərinizi dərk edin. Onlara təkəbbürlə baxmayın və ya özünüzü onların bildiklərindən daha çox bildiyiniz kimi göstərməyin. Özünüzü onların yerinə qoyun və onlara hörmətlə yanaşın.

Nə etdiyinizi və uşaqlarla nə üçün danışmaq istədiyinizi təfsilatı ilə izah edin. Digər uşaqların müsahibələrini əks etdirən nəşrlərin nümunələrini göstərin. Materialı nə üçün istifadə edəcəyinizi izah edin və onun istifadə olunması üçün uşaqlardan icazə alın. Nə etdiyiniz barədə səmimi olun və ümidlərinizi şişirtməyin (məsələn, pul, iş, tibbi yardım şəklində).

Əgər tərcüməçiyə ehtiyacınız vardırsa, uşaqlara qarşı optimal münasibət göstərən, onları qorxutmayacaq və müsahibənin məqsədini anlayan birisini seçin.

Hər bir faktı tərcümə etməsini, uşağın sözlərini ifadə etməsini və sadəcə uşaqların dediklərinə dair xülasə verməməsini tərcüməçiyə söyləyin.

Maqnitofondan istifadə edin (sizin stenoqrafiya qabiliyyətiniz mükəmməl olmayana qədər). Əks təqdirdə, uşağın dilinin və ifadəsinin orijinallığı itə bilər.

Sakit olan və uşağın özünü rahat və sərbəst hiss edəcəyi münasib bir yeri (içəridə və ya kənarda) müəyyənləşdirin. Uşağın bunu seçməsinə imkan verin.

Tərcüməçi və bəlkə də uşağın tanıdığı və inandığı layihə işçisi, müəllim və ya digər yaşlı istisna olmaqla, yaşlıların kənarda olduğuna təminat verin.

İki-beş nəfər uşaqdan ibarət kiçik qrupun bir-birini dəstək və ideya verməsi onlarla müsahibə aparılmasına kömək edə bilər. Lakin kimin nə dediyinin necə müəyyənləşdirilməsi barədə fikirləşin.

Sakit və rahat şəraiti yaratmağa çalışın. Söhbət edin, oyun oynayın, onların özlərinin maqnitofona qulaq asmasına imkan verin. Öz səviyyənizi onların səviyyəsinə endirin – məsələn, onlarla birlikdə döşəmə üzərində oturmaqla.

Uşaqları sərbəstləndirə və ya müzakirəyə başlamasını həvəsləndirə bilən şəxsi əşyaları, o cümlədən fotoşəkilləri gətirin.

***Müsahibə***

Uşaqların liderliyi ələ almasına və öz əhvalatlarını vaxtında danışmasına imkan yaradın.

İstifadə oluna bilməyən və ya bu kimi başlıqların (məsələn, «seks işçisi» ilə müqayisədə «fahişə») istifadəsində ehtiyatlı olun.

İlk öncə, asan suallar verin – məsələn, onların adı, yaşı, yaşadıqları yer barədə. Onlara müraciət edəndə adların istifadəsini davam etdirin.

Açıq suallar verin. Bəli və ya xeyr cavabının verilməsini nəzərdə tutan «siz ?» kimi həddindən artıq müəmmalı suallar verməyin.

Sizə lazım olan məlumatı əldə etməzdən əvvəl ayrı-ayrı müxtəlif üsullarla suallarınızı verə bilərsiniz. Mövzu ətrafında nəzakətlə təkid etməyə, danışmağa və hətta uşaqları soruşduğunuz suallar barədə düşündürməyə dəyər.

Uşağın özünü narahat hiss etməsindən xəbərdar olun və onları həssas məsələlərə sövq etməyin. Əgər uşaqlar məyus olsalar, müsahibəni başa çatdırmağa və ya az kəskin olan mövzu ilə söhbəti davam etdirməyə hazır olun.

## Sonrakı şərh və resurslar

Kanada Media Məlumatlılığı Şəbəkəsi gənclərlə mətbuat qurumları tərəfindən nə vaxt müsahibə aparılmasını tövsiyə etməklə, «Öz Hüquqlarınızı Bilərək» başlığı altında gənclərə dair fəsil ilə birlikdə Medianın Gənclər Üçün Metodlar Kompleksi adlı sənədi işləyib hazırlamışdır:

http://www.media-awareness.ca/english/index.cfm

Amerika Birləşmiş Ştatlarındakı Pointer İnstitutu gənclərlə məsuliyyətli tərzdə necə iş aparılması haqqında maraqlanan bütün şəxslərə pulsuz xidmət kimi öz vebsaytında təlimatlar yerləşdirmişdir:

www.poyner.com

Birləşmiş Krallığın Uşaqların Xilası təşkilatı uşaqlardan necə müsahibə götürülməsi barədə mühüm təlimatları irəli sürən *Uşaqlarla Müsahibə Aparılması. Jurnalistlər və Digərləri üçün Təlimat* adlı buklet nəşr etdirmişdir. Dünyanın hər yerindən təmsil olunan uşaqlar ilə birlikdə tədqiq edilməklə, qəzet və yayım jurnalistləri, xəbərlər redaksiyaları və digər media buraxılışları üçün faydalıdır: www.savethechildren.org.uk

# 6. UŞAQLAR SİLAHLI MÜNAQİŞƏDƏ

## ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Azyaşlı əsgərlər bir versiya kimi
- Kontekst, müharibə, mülki pozğunluq, vətəndaş cəmiyyətinin süqutu
- Azyaşlı əsgərlər barədə məsələnin sensasiyalaşdırılması
- Bacarıqların digər süjetlərə şamil edilməsi

Azyaşlı əsgərlərə dair məsələ mediada əsas süjetə çevrilmişdir. Əsgərlər qismində uşaqları əhatə edən süjetlər nəinki uşaqların hüquqları perspektivindən, eləcə də müharibə və vətəndaş qarşıdurması şəraitində xəbərlərin verilməsi üçün başlıca etik məsələlər baxımından əsas və kompleks məsələləri qarşıya qoyur.

Məsələlər sensasiyalılığın üzərində mərkəzləşir. Qeyri-münaqişə ərazisində göstərilməməklə, münaqişə zonasında olan uşaqların təsvirlərini nümayiş etdirmək düzgündürmü? Hərbi mundir geyinən və təxminən özü boyda Kalaşnikov tipli avtomatı daşıyan 11 yaşlı oğlanın təsviri ciddi məsələləri qarşıya qoyur, yoxsa məhz başlıca xoşməramlı obraz yaradır? Azyaşlı əsgərləri nümayiş etdirərkən bu uşaqların cəmiyyətə yenidən inteqrasiya edilməsinə doğru göstərilən səylərin işıqlandırılması da jurnalistlərin xidməti vəzifəsidirmi?

Azyaşlı əsgər davamlı bir süjetdir. Digər uzun müddətli süjetlər kimi media yorğunluğu süjetin yaddaşlardan silinməsinə gətirib çıxara bilər. Lakin jurnalist müxtəlif aspektləri, o cümlədən bu uşaqların necə yenidən inteqrasiya olunduğunu nəzərdən keçirməli və ictimaiyyətin qarşısında bu məsələnin qoyulması üçün yollar axtarmalıdır.

2000-ci ildə Birləşmiş Millətlər Təşkilatı Uşaq Hüquqları haqqında Konvensiyaya nəzərən silahlı münaqişədə olan uşaqların cəlb edilməsi üzrə Qeyri-İcbari Protokolu qəbul etmişdir. Adı çəkilən Protokol 18 yaşından aşağı uşaqların icbari surətdə səfərbər edilməsini və onların hərbi əməliyyatlarında istifadəsini qadağan edir. Hazırda bu, 110-dan çox ölkə tərəfindən ratifikasiya edilmişdir.

Dünyanın silahlı münaqişələrdə olan təxminən 300,000 oğlan və qızın toplanılması və istifadəsi sərt beynəlxalq reaksiyanı tələb etməklə uşaqların hüquqlarının pozulması kimi hazırda geniş şəkildə qəbul edilir.

Silahlı münaqişə bir sıra üsullarla uşaqları öz uşaqlıq dövrünün itirməsinə səbəb olur. Əsgərlər kimi səfərbər olunan uşaqlar təhsil və müdafiədən məhrum edilirlər və çox vaxt mühüm səhiyyə xidmətlərindən yararlana bilmirlər. Öz ailəsindən kənarda qalan və ya ayrılan uşaqlar oxşar məhrumiyyətlərlə qarşılaşırlar. Münaqişə uşaqların zorlanmaya, zorakılığa və istismara məruz qalmaq riskini artırır. Seksual zorakılıq müharibə silahı kimi tez-tez istifadə olunur.

Hətta öz evlərində öz ailələri ilə birlikdə qala bilən uşaqlar maddi-texniki infrastrukturun dağılmasına görə məktəbdən, tibb müəssisələrindən və müdafiədən təcrid olunma riski ilə üzləşə bilər, münaqişə və ya özünün qalıqları – o cümlədən yerüstü minalar və partlamamış hərbi sursatların səbəb olduğu səhiyyə və təhsil sistemlərinin çatışmazlığı və fərdi müdafiəsizlikdən əziyyət çəkirlər.

Dünyanın iyirmidən çox ölkəsində uşaqlar müharibənin bilavasitə iştirakçıları hesab edilirlər. Dəhşətli zorakılığa tez-tez məruz qalmaqla, təxminən 200,000-300,000 uşaq hazırkı silahlı münaqişələrdə qiyam qrupları və hökumət qüvvələri üzrə əsgərlər kimi qulluq edirlər. Bu gənc döyüşçülər hazırda bölgələrdə gedən müharibənin bütün cəbhələrində iştirak edirlər. Onlar AK-47 və M-16 tipli avtomat silahlarını əllərində tutaraq döyüşün ön xəttində olur, insan mina axtarıcısı kimi xidmət edir, ümidsiz missiyalarda iştirak edir, azuqə və sursat daşıyır və casus və ya müşahidəçi kimi rol oynayırlar.

Məsələn, minlərlə uşaq Nepalda gedən 10 illik vətəndaş müharibəsi zamanı Nepal Kommunist Partiyası (Maoçular) tərəfindən səfərbər edilmişdir. Uşaqlar ön cəbhələrdə xidmət etmişlər, silahlara dair təlimlər keçmişlər və Maoçular üçün hərbi və maddi-texniki təminat öhdəliklərini yerinə yetirmişlər. Hətta 2006-cı ilin noyabr ayında hökumətlə hərtərəfli sülh sazişinin imzalanmasından sonra, Maoçular uşaqların səfərbər olunmasını davam etdirirlər və onların öz qüvvələrindən tərxis olunmasından imtina edirdilər.

Burundidə 13 illik vətəndaş müharibəsi zamanı uşaqlar səfərbər olunmuş və münaqişədə bütün tərəflərin döyüşçüləri və ümumi dəstəyi kimi istifadə edilmişdir. 3000-dən çox uşaq tərxis olunsa da, bir qiyam qrupu, Milli Azadlıq Qüvvələri (Forces Nationales pour la Libération, FNL) uşaqların döyüşçülər kimi və müxtəlif logistika tapşırıqları üzrə istifadə olunmasını davam etdirirlər. Bununla yanaşı, Milli Azadlıq Qüvvələrində xidmət etmiş və ya xidmət etməkdə təqsirləndirilən onlarla uşaq heç bir yardım olmadan hökumət həbsxanasında saxlanılır.

Uşaqların fiziki cəhətdən zəif olmasına və asanlıqla qorxudulmasına görə onlar tipik itaətkar əsgər rolunu oynayırlar. Bir çoxları oğurlanır və ya zorla səfərbər olunur və ölüm təhlükəsi hədələnərək əmrlər yetirməyə tez-tez məcbur edilirlər. Digərləri ümidsizlikdən silahlı dəstələrə qoşulurlar. Cəmiyyət münaqişə zamanı tənəzzül etdikcə – uşaqları məktəbdən kənarlaşdırdığına, onları evlərindən uzaqlaşdırdığına və ya ailə üzvlərindən təcrid etdiyinə görə – çoxsaylı uşaqlar silahlı dəstələri yaşamaq üçün ən optimal şans kimi qavrayırlar. Başqaları yoxsulluqdan yaxa qurtarmağa və yaxud qətlə yetirilmiş ailə üzvlərinin intiqamını almaq üçün hərbi qüvvələrə qoşulmağa cəhd edirlər.

Beynəlxalq qanunvericiliyin möhkəmləndirilməsi və BMT Təhlükəsizlik Şurası tərəfindən uşaqların hərbi səfərbərliyi probleminin tanınması mühüm nailiyyətlər hesab edilir. Lakin belə təşəbbüslər uşaqlara, onların ailələrinə və icmalara mühüm səfərbərlik alternativlərini irəli sürən praktiki tədbirlərlə tamamlanmalıdır ki, bu da uşaqların azad olunmasına və tərxis edilməsinə başlıca önəm verir və onların cəmiyyətə yenidən inteqrasiya edilməsini dəstəkləyir.

## AZYAŞLI ƏSGƏRLƏR BARƏDƏ FAKTLAR

Dəqiq rəqəmlərin olmamasına baxmayaraq, 18 yaşından aşağı yüz minlərlə uşaqlar hökumət qüvvələrində və ya silahlı qiyam dəstələrində xidmət edirlər. Bəziləri səkkiz yaşına kimi kiçik olurlar.

2001-ci ildən etibarən, dünyanın təxminən hər bir regionunda 21 davamlı və son silahlı münaqişələrdə azyaşlı əsgərlərin iştirakı haqda məlumat verilmişdir.

Uşaqlar özlərinin emosional və fiziki yetkin olmaması səbəbindən hərbi səfərbərliyə qarşı özünəməxsus tərzdə həssas olurlar. Onlar asanlıqla təsirə məruz qalırlar və müqavimət göstərməsi və ya dərk etməsi üçün həddindən artıq azyaşlı olduqlarına görə zorakılığa sövq edilə bilərlər.

Silahlandırılmada olan texnoloji irəliləyişlər və atıcı silahların yayılması azyaşlı əsgərlərin mütəmadi şəkildə istifadəsinə təkan vermişdir. Yüngül çəkili avtomat silahlar idarə edilməsi üçün sadədir, çox vaxt əlverişlidir və yaşlılar tərəfindən asanlıqla olduğu kimi uşaqlar tərəfindən istifadə edilə bilər.

Uşaqlar zəifdirlərsə, öz ailələrindən təcrid olunurlarsa, öz evlərindən kənarda qalırlarsa, döyüş zonasında yaşayırlarsa və ya onun təhsili məhdudlaşdırılarsa, onların azyaşlı əsgərlərə çevrilmək ehtimalı daha çoxdur.

Uşaqların əksəriyyəti iqtisadi və ya sosial təzyiqə görə və ya onların qrupun ərzaq və təhlükəsizliyini təmin edəcəyinə inanması səbəbindən silahlı qruplara qoşulur. Digərləri silahlı dəstələr tərəfindən məcburən səfərbər olunur, zorla toplanılır və ya oğurlanırlar.

Qızlar və oğlanlar azyaşlı əsgərlər kimi istifadə edilirlər. Nepal, Şir-Lanka və Uqanda kimi bəzi ölkələrdə hər üç və ya daha çox azyaşlı əsgərdən birinin qız olduğu haqda məlumat verilmişdir. Bəzi münaqişə ocaqlarında qızlar zorlana və ya «arvadları» kimi hərbi komandirlərə verilə bilərlər.

Bəzən uşaqlar öz ailəsinə və ya qonşularına qarşı vəhşilikləri törətməyə məcbur edilirlər. Bu cür praktikalar uşağın «damğalanmasına» və öz evinə və ya icmasına qayıda bilməməsinə zəmin yaradır.

Bəzi ölkələrdə keçmiş azyaşlı uşaqlar öz ailələrinin yerinin müəyyən edilməsinə, onların məktəbə qayıtmasına, peşə təhsili almasına kömək edən bərpa proqramlarında iştirak edir və mülki həyata yenidən qədəm qoyurlar. Onların özlərini dəstəkləməsi heç bir çarəsi qalmır və təkrar səfərbər olunma riski ilə qarşılaşmırlar.

Başlıca üstünlük 18 yaşından aşağı hər kəsin silahlı qüvvələrdən tərxis olunmasından ibarətdir. Uşaqların iştirakı bütün sülh sazişlərində elə qəbul olunmalıdır ki, səmərəli planlaşdırma təkrar inteqrasiya proqramları üzrə hazırlana bilər.

Təkrar inteqrasiya prosesi uşaqlara həyatda yeni əsasların yaradılmasına kömək edir. Ailə və icma ilə əlaqənin yenidən qurulması öz ailələrindən kənarda böyüyən və fiziki, emosional və zehni inkişaf üzrə əksər normal imkanlardan məhrum olan keçmiş azyaşlı əsgərlər üçün əhəmiyyət daşıyır. Keçmiş azyaşlı döyüşçülər üzrə təhsil və peşə imkanlarının təmin olunması onların hərbi birləşmələrə yenidən qoşulmasının qarşısını almağa kömək edir və eyni zamanda öz ailələrinin iqtisadi təminatını gücləndirir.

Keçmiş azyaşlı əsgər üçün təhsil məşğulluqdan daha çox əhəmiyyət kəsb edir. Bu, həmçinin həyat tərzinin normallaşdırılmasına və əsgərin özündən ayrıca bir şəxsiyyətin inkişaf etdirilməsinə kömək edə bilər. Keçmiş döyüşçülərin öz tədris kursundan xeyli geridə qala biləcəyi və həddindən artıq azyaşlı uşaqlarla eyni sinifdə ola biləcəyi ehtimalı qarşıya çıxan çətinlik hesab edilir. Sonradan müntəzəm məktəb kurslarına yenidən daxil ola bilən keçmiş azyaşlı əsgərlər üçün xüsusi siniflərin yaradılması kimi spesifik tədbirlərin tətbiqi tələb oluna bilər.

Ayrı-ayrı tədbirlər müəyyən edilmişdir ki, bu da əsgərlər kimi uşaqların istifadə olunmasını azaltmaq və ya qarşısını almaq üçün yerli potensialı möhkəmləndirə bilər. Məsələn, yerli icmalar səfərbərliyə görə yaş həddini tənzimləyən milli və beynəlxalq qanunlar haqqında daha çox məlumatlı olmalıdırlar. Ümumilikdə QHT-lər, dini qruplar və vətəndaş cəmiyyəti uşaqların silahlı münaqişələrdə iştirakının qeyri-məqbulluğunu artıran etik baza mexanizmlərinin yaradılmasında mühüm rol oynaya bilərlər. Peruda məcburi səfərbərlik tendensiyaları prixod kilsələrinin bu fəaliyyət növünü ifşa etdiyi yerlərdə azalmışdır. Salvadorda, Qvatemalada və Paraqvayda etnik qruplar və azyaşlı əsgərlərin anaları qeyri-yetkinlik yaşında olan əsgərlərin ordudan azad edilməsi baxımından hökumət qurumlarına təsir göstərmək üçün öz təşkilatlarını təsis etmişlər.

Digər mühüm qabaqlayıcı tədbir qaçqın və ya məcburi köçkün çadırlarında baxımsız uşaqların fəal və vaxtında sənədləşdirilməsi və axtarılmasından ibarətdir. Münaqişə zonalarından xeyli kənarda qaçqın düşərgələrinin yerləşmə mövqeyinin müəyyənləşdirilməsi də uşaqların aldadılması və ya quldur dəstələrinə səfərbər olunma şansını azalda bilər.

Münaqişəyə sürüklənən əsgərlərin yaş həddinə nəzərən BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına zidd olmaqla Birləşmiş Krallığın fərdi tədqiqatları:

http://news.bbc.co.uk/1/hi/uk_politics/478077.stm

http://news.bbc.co.uk/1/hi/uk/6328771.stm

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası ayrı-ayrı maddələri əhatə edir ki, onlar bu məsələyə, xüsusən maddə 38 silahlı münaqişəyə və maddə 39 silahlı münaqişələrin uşaq qurbanlarına bərpaedici qayğının göstərilməsinə aiddir. Əlavə olaraq, 12 fevral 2002-ci il tarixində Silahlı Münaqişəyə Uşaqların Cəlb Olunmasına dair Qeyri-İcbari Protokol qüvvəyə minmişdir. Protokol tələb edir ki, sənədi ratifikasiya edən hökumətlər 18 yaşından aşağı uşaqların yaşadığı ölkədə silahlı qüvvələrə icbari surətdə cəlb olunmadığına təminat versinlər. Bu, həmçinin həmin hökumətləri silahlı qüvvələrin 18 yaşından aşağı üzvlərinin hərbi əməliyyatlarda iştirak etmədiyinə təminat vermək üçün bütün mümkün tədbirləri yerinə yetirməyə sövq edir.

**Şri-Lankada azyaşlı əsgərlər:**

http://news.bbc.co.uk/1/hi/world/south_asia/4712318.stm

Qeyri-İcbari Protokol orijinal saziş baxımından həmişə bütövlükdə təfsir edilməlidir; bu halda qeyri-diskriminasiya prinsipləri, uşağın ən yaxşı maraqları və uşağın iştirakı nöqteyi-nəzərindən şərh olunur.

Son onillikdə iki milyon uşaq silahlı münaqişə zəminində qətlə yetirilmişdir. Saysız-hesabsız hallarda silahlı münaqişənin uşaqların həyat tərzinə təsiri özünü büruzə vermir.

Uşaqların özləri fahişəliyin qurbanları kimi yaşayaraq institutlarda, küçələrdə ictimaiyyətdən kənarlaşdırıla bilərlər. Valideynlərini itirmiş şəxslərin özünəhörmət hissi pozulduqca sükutla əziyyət çəkərək tez-tez alçaldılmaya, təcridetməyə və ayrı-seçkiliyə məruz qalırlar.

## Media və silahlı münaqişədə olan uşaqlar

Bütün dünyadakı münaqişə ocaqlarında azyaşlı əsgərlərin mövcudluğu nəinki humanitar böhrana, eləcə də media sensasiyasına çevrilmişdir. Televiziya verilişləri və jurnallar siqaret çəkən, silahlı 11 yaşında uşaqların obrazlarını göstərsə də, Birləşmiş Millətlər Təşkilatının rəsmi hesabatları və yerli insan hüquqları təşkilatları «artan funomen» kimi adətən nəyin təsvir olunduğu barədə həyəcanlı təfərrüatları nümayiş etdirir. Hazırda azyaşlı əsgərlər Qanlı Brilyant kimi filmlərdə və Deyv Eqqersin romanında səciyyələndirilir, halbuki Bred Pit öz vəziyyətinə dair sənədli film çəkmişdir. 2007-ci ildə keçmiş oğlan

qatili tərəfindən ilk oğlanın hesabına kitab klubunu açdı. Lakin bu süjetlər faydalıdırmı?

Məsələn, şimali Uqandada Lordların Müqavimət Ordusu tərəfindən azyaşlı əsgərləri istifadəsi beynəlxalq medianın diqqətini özünə cəlb etsə də, öz təsirini cüzi göstərmişdir. Uqandada Kanada Müharibə Uşağı təşkilatında işləyən bir hüquqşünas-tələbə aşkar etmişdir ki: «Bir çox yerli təşkilatlar beynəlxalq medianın şimali Uqandada baş verənləri təcəssüm etdirdiyi üsul və vasitə ilə razılaşmırlar. Bəlkə də geniş yer alan problemlər, o cümlədən məcburi köçkün düşərgələrində təhlükəsizliyin olmaması və məcburi köçkünlərin özlərinin əksər ilkin tələbatlarını təmin edə bilməməsi səbəbindən süjetlər azyaşlı əsgərlər və gecə sərnişinlərinin - Lordların Müqavimət Ordusunun təhlükəsindən yaxa qurtarmaq üçün hər gecə neçə min metr qət edən uşaqların etiraf olunan faciəsi üzərində cəmləşir.»

[Müharibə Şimali Uqanda sakinlərinin həyatında daimi amil olaraq qalır.Riddell (2005).
www.law.utoronto.ca/documents/ihrp/report05_Riddell.doc]

Kütləvi informasiya vasitələrinin əhatə dairəsi beynəlxalq yardımların axınına öz təsirini göstərir və hətta sözü gedən proses ən alicənab niyyətlər ilə stimullaşdırılqda, bu, yanlış təşəbbüsləri formalaşdıra və yoxsul cəmiyyətə mənfi təsir edə bilər.

Qismən Ümumdünya Bankı tərəfindən maliyyələşdirilməklə oğurlanmış əsgərlər üçün hüquqi əfv prosedurlarını təmin edən Uqanda Əfv Komissiyası qayıtmış və ya ordudan tərxis olunmuş əsgərlərin yenidən məskunlaşdırılması üçün tədbirlərin icrasına başlamışdır. Bununla yanaşı təkrar inteqrasiya mövzusuna dair son konfransda beynəlxalq vasitəçilər öz narahatlıqlarını ifadə edərək bildirmişlər ki, pul vəsaitləri insanların heç nəyə malik olmadığı çadır düşərgələrində narazılıq doğura bilər və qiyamçı əsgəri sadəcə «günahsız» məcburi köçkün kimi deyil, daha arzuolunan iqtisadi alternativ kimi faktiki olaraq formalaşdırır.

**FƏRDİ TƏDQİQAT: Müşahidəçi qəzeti: «Nə üçün biz Afrikanın itkin düşmüş oğlanlarının təsiri altına düşmüşük»:**

http://observer.guardian.co.uk/review/story/0,,2067762,00.html

Fövqəladə halların ictimaiyyət tərəfindən dərk olunmasına kömək edən medianın rolu effektiv reaksiyaların birləşdirilməsində və uşaqların həyat tərzinin qorunması üçün başlıca əhəmiyyət daşıyır. Lakin Röyters aparıcı xəbər agentliyi aşkar etmişdir ki, uşaqlar dünyanın ən pis «unudulmuş fəlakətlərinin» ağırlığına dözürlər və onların mövcud vəziyyəti beynəlxalq xəbər radiolokasiyalarında çox çətinliklə əks-səda doğurur.

Röyters Xəbərdarlıq Şəbəkəsi humanitar sahədə çalışan ekspertlər və jurnalistlər arasında rəy sorğusu keçirmişdir ki, bu da uşaqlar üçün planetin ən təhlükəli yerlərini müəyyən edir. Bu, respondentlər tərəfindən seçilməklə uşaqların əhatə olunduğu 10 əsas gərgin müharibə ocaqlarının ingilis dilində qlobal media şəbəkəsində işıqlandırılmasını təhlil etmiş və yol verilən və nisbi sütun düymlərinin miqyası arasında kiçik bir uzlaşmanı aşkar etmişdir. Lakin bunun müqabilində medianın diqqətini İraq, Fələstin ərazilərinə və Əfqanıstanın şirəbənzər ərazi hissəsinə cəlb edə bilən Qərb dövlətləri üçün geosiyasi əhəmiyyət qəbul edilmişdir. Jurnalist digər münaqişə ərazilərində olan uşaqlara görə məsuliyyət daşıyırmı?

Jurnalist kimi siz haqqında xəbər verdiyiniz uşaqlara nəzərən məsuliyyət daşıyırsınız. Sizin hazırladığınız məlumatlar uşaqların davam gətirdiyi qorxunc hadisələrə məruz qala bilməyən insanlar tərəfindən qavranılacaqdır. Sizin mövzunuz əcnəbilərin kədər, rəğbət və ya hətta nəciblik obyektinə çevrilə bilər. Lakin jurnalistin məşğul olduğu uşaqlar nə ilə qarşılaşırlar?

Məsələn, əgər uşaqlar yaxınlarının əhatəsindən xüsusən kənardadırlarsa, onları nəzərə almadan qaçqın düşərgələri yaşlılar üçün çaşdırıcı və qorxunc yerlər kimi hesab edilə bilər. Sanitariya işçiləri şikayət edirlər ki, xarici medianın gəlişi uşaqların məruz qaldığı sarsıntıya əlavə oluna bilər. Bu, həmçinin medianın rolu barədə bəzi düşüncələrə malik olan şəxslər arasında süni ümidləri artıra bilər.

Buna qarşı əks təsir göstərmək baxımından jurnalistika etikası sahəsində xeyriyyəçi təşkilat, MediaVays Fondu «süjeti məşhurlaşdırmaq» başlıca məqsəd olduqda, qeyri-ixtiyari şəkildə zərər yetirilməsinə yol verməmək üçün müharibə və fəlakət zamanı uşaqlarla müsahibə aparan müxbirlər üzrə təlimatlar işləyib hazırlamışdır.

## MEDİAVAYS FONDU: MÜHARİBƏ VƏ FƏLAKƏT ZAMANI UŞAQLARLA MÜSAHİBƏ APARAN MÜXBİRLƏR ÜZRƏ TƏLİMATLAR

**1. Uşağın ən yaxşı maraqlarına üstünlük verin.** Sizin xəbərləriniz gözlənilməyən nəticələrə gətirib çıxara bilər, beləliklə öz stimulunuz, süjetin təqdim olunacağı üsul və vasitə, eləcə də onun uşağa hansı fayda verə biləcəyi haqqında *düşünün*. Bir əsas məsələ onların şəxsiyyətinin müəyyən edilməsidir. Məsələn, media ilə söhbət edən (keçmiş) «azyaşlı əsgərin» nəzarətçisi onun yaşlıları təqsirləndirə bilən məlumatları ictimaiyyətə çatdırdığını dərk etdikdə, «azyaşlı əsgər» ölüm riskinə məruz qala bilər. Eynilə, vəhşiliklərin şahidi olmuş uşaqlar hətta qaçqın düşərgələrində intiqam ilə üzləşə bilərlər.

**2. Mümkün olduqca icazələrin alınmasına səy göstərin.** Əgər uşaqlar məsul yaşlıların himayəsindədirlərsə, onlarla söhbət etməzdən əvvəl onların yaşayış tərzi haqqında daha çox məlumat öyrənin. Kəskin şəkildə sarsıntı keçirmiş uşaqlarla və daha çox sıxıntıya məruz qalmış uşaqla müsahibə aparılması tamamilə qeyri-münasib hesab olunur və onlardan tanış yaşlının iştirakı ilə müsahibə götürülməsi daha vacibdir. Onların şəxsiyyətinin tam şəkildə müəyyənləşdirilməsinin məqsəduyğun olub-olmadığını həmişə yoxlayın (ad və ya fotoşəkil vasitəsilə).

**3. Şəxsiyyətin tam müəyyənləşdirilməsinin müsbət və mənfi cəhətlərini nəzərdən keçirin.** Uşağın şəxsiyyətinin tanınması hörmət göstərilməsinin və etimad qazanılmasının mühüm bir elementidir, lakin onun ictimaiyyətə tam şəkildə açıqlanması məqsədəuyğun olmaya bilər. Uşaq öz etirazını bildirməyə bilər, lakin məsul yaşlı kimi nəticələri nəzərdən keçirməlisiniz. Hətta öz ailəsi ilə əlaqəni itirmiş uşaqlarla müsahibə apararkən, onların tam şəkildə açıqlanması barədə ehtiyatlı olun. Doğma qohumunun xəbərdar edilməsi üçün lazımi təfərrüatları çatdırın, lakin onları əlavə risk altında qoyduğunuz halda şəxsiyyətin tam müəyyənləşdirilməsindən çəkinin. Bütün media hazırda qlobal xarakter daşıyır - bununla sizin əhvalat uşaqlarla ünsiyyət motivlərinin şübhə doğurduğu yerdə insanlar tərəfindən görünə bilər. Əgər şübhə doğurduqda, uşağın tanıdığı yaşlılardan məsləhət alın. Bu mənzərə real surətdə əhəmiyyətlidirmi?

**4. Həmişə izah edin.** Nə etdiyiniz barədə uşağın bildiyinə təminat verməyə çalışın. Onların sizə dostcasına və ya rəqibcəsinə münasibət göstərməsinə baxmayaraq siz əmin ola bilməzsiniz, beləliklə kim olduğunuzu, onlarla nə üçün danışmaq istədiyinizi və aldığınız məlumatları nə üçün istifadə edəcəyinizi və sizin auditoriyanızın kimlərdən ibarət olacağını izah etməklə söhbətə başlayın. Öz eyniləşdirmənizi onlara nümayiş etdirin və sizin avadanlığın necə işləməsini göstərin.

**5. Onlara vaxt verin.** Tələsik vaxt müddəti sizin gündəliyinizə nəzarət edə bilər, lakin bu, sarsıntı keçirmiş uşaqlar üçün heç bir əhəmiyyət kəsb etmir. Mümkün olduqca, onların sizi tanımasına imkan yaradın, hətta bu, yalnız bir neçə gün davam etsə belə. Siz onlara vaxt verməli olacaqsınız; əgər bunu edə bilməsəniz, onlarla necə məşğul olmaq barədə ikiqat düşünün. Onlar sizin üçün orada mövcud deyildirlər; onların özləri üçün olduğu kimi yaşlı qismində sizi görürlər. Onların güzəranı və yaşayış tərzi söylədikləri «əhvalatdan» daha əhəmiyyətlidir və sizin iştirakınız haqda daha çox məlumat əldə etdikcə onların səmimi etirafları daha çox etiraf edilir. Başlıca surətdə «sitat oluna bilən sitatların» sadəcə istifadə edilməsindən daha çox onların nə dediklərini həqiqətən dinləyin. Hətta ən yaxşı vaxtlarında fərdi uşaqlar qrup və ya «tip» təmsilçisi təsvir olunmağı xoşlamırlar. Ayrı-ayrı uşaqlarla söhbət etdikdən sonra müsahibəni ümumiləşdirməyə qadir ola bilərsiniz, lakin böhranlı vəziyyətdə olan uşaqların «ikonalı» təsvirlərinin və onlar haqqında əhvalatların əldə olunmasına nisbətən onların unikal təcrübəsini qəbul etməyə çalışın.

**6. Mümkün olan yerlərdə təkrar yoxlayın.** Uşaqlar heyranedici və cazibədar şahid ola bilərlər, lakin onların təcrübəsinin və söz ehtiyatının olmaması çaşqınlığa gətirib çıxara bilər. Uşaqların müsahibədən məmnun qalması və bildiklərindən daha çox nə eşitmək istədiyinizi söyləməsi həyəcan doğura bilər. Sarsıntı keçirmiş uşaqlar tərəfindən söylənilən əhvalatlar onların aktuallıqdan və reallıqdan çox olmayan duyğularını və qorxularını təsvir edə bilər. Faktları digər şahidlərlə və ya uşağın keçmişi haqda daha çox məlumatlı olan şəxslərlə yoxlaya bilməyənə qədər uşaqlara «əsaslı sübut» kimi arxayın olmayın.

**7. Süni ümidləri artırmayın.** Kənar şəxs xüsusi maraq nümayiş etdirdikdə sarsıntı keçirmiş uşaq süni ümidlərini və ya qorxu hisslərini gizlədə bilər. Onlara heç vaxt rüşvət təklif etməyin və ya yaltaqlanmayın və rəğbət və anlaşma nümayiş etdirmək istəyinizə baxmayaraq, yalan vədlər verməyin. Medianın marağı itdikdən xeyli sonra uşaqlar böhranlı vəziyyətdə qalırlar və yerinə yetirilməyən vədlər onlprn yaşlılara inanmaq qabiliyyətinə sonradan xələl gətirir. Siz gedəndən sonra xüsusi rejim üzrə fərdi uşaqların və ailələrin seçilməsi problemlərə səbəb ola bilər. Əgər siz kömək etmək istəsəniz, bəlkə də etibarlı yerli qurum vasitəsilə geniş qrup ilə öz resurslarınızın bölüşdürülməsinin bəzi üsulları barədə həmkarlarınız ilə razılaşın.

**8. Əlaqə qurun.** Əgər siz uşağın əhvalatını söyləyirsinizsə, mümkün olduqca məsələn, yardım qurumunda adlı şəxs vasitəsilə uşaqla təkrar ünsiyyət yaradılması üzrə bəzi üsulların olduğuna təminat verməyə çalışın. Bu, məhz müşahidə üzrə deyil, eləcə də uşaq üçün əhəmiyyət kəsb etməklə sizin süjetinizlə formalaşdırılan reaksiyalar üçün əhəmiyyət daşıyır (məsələn, ölkə xaricindəki qohumlardan).

**9. Müsbət cəhətə diqqət yönəldin.** Uşağın dözüb davam gətirdiyi zəlzələ/döyüş/səyahət barədə açıq şəkildə danışmaqdan qorxmayın, lakin şəxsi məsələləri həddindən artıq araşdırmağa çalışmayın. Əgər siz məsələdən boyun qaçırmağa cəhd etsəniz, onlar bunu biləcəklər. Çarəsizliyə nisbətən ümidi stimullaşdıran şəxsi dözüm və qəhrəmanlıq hekayətləri kimi əhvalatları axtarın. Hətta ən pis hallarda bizim ümumi insaniyyətimizin vurğulanmasına kömək etməklə sevinc və gülüş anları ola bilər. Uşaqlar müstəsna möhkəmlik qabiliyyətinə malikdirlər və müsbət yönlü əhvalatları sadəcə danışmaqla bütün digər əhvalatlar qorxunc xarakter daşıdıqda özlərini rahat edə bilərlər.

**10. İcra ilə müqayisədə söhbət etmək üçün məkan verin.** Uşaqlar öz həmyaşıdları arasında daha yaxşı hərəkət edirlər, belə ki, onlarla məşğul olmağın ən optimal üsullarından biri qrupla iş aparılmasından ibarətdir. Sizin onların oyunlarını müşahidə edə və ya onlara qoşula biləcəyinizi soruşun. Söhbətin nədən getdiyinin sizə deməsi üçün onlara imkan yaradın və maraq nümayiş etdirən kimi onlar bir-birlərinin haqqında sizinlə söhbət etmək üçün hay-küy qaldıra bilərlər. Onlardan uzaqda durmağa və ya kənarda qalmağa nisbətən eynilə onların səviyyəsində vəziyyəti idarə etməyə həmişə çalışın. Əgər uşaqlar yerdə otururlarsa, onlara qoşulun. Əgər uşaqlar sizin səsyazma qurğunuza maraq göstərirlərsə, onların həmin qurğunu yoxlamasına-ona toxunmağa, hətta ondan istifadə etməsinə imkan verin. Onların ən əhəmiyyətlisi odur ki, sizin məsuliyyətiniz onları təkrar sarsıntı riskinə məruz qoymamaqdan ibarətdir. Uşaqlar öz əhvalatlarını söyləyərkən, əgər onlar həvəs göstərmirlərsə, təfərrüatları öyrənməyə cəhd etməyin. Lakin mövcud təsəvvürə süni forma verməklə, emosional zorlanmaya risk etməkdən daha çox fayda gətirməsinə imkan yaradın. Uşaq müsahibədə iştirak etməkdən boyun qaçırdıqda, əzab çəkdikdə və ya həddindən artıq həyəcanlandıqda onunla vidalaşın və baş verənlər barədə məsul yaşlının məlumatlılığını təmin edin.

## SONRAKI ŞƏRH VƏ RESURSLAR

Human Rights Watch təşkilatı: www.hrw.org
Müharibə Uşağı: www.warchild.org.uk
Watchlist təşkilatı: http://www.watchlist.org/
Azyaşlı Əsgərlərin İstifadəsinə Son Qoyulması üzrə Koalisiya: http://www.child-soldiers.org/
BMT Uşaq Fondu – Uşaqlar Silahlı Münaqişədə:
http://www.unicef.org/emerg/index_childsoldiers.html
Baş Katibin Uşaqlar və Silahlı Münaqişə üzrə Xüsusi Nümayəndəsinin Ofisi:
http://www.un.org/children/conflict/english/home6.html
TJ Riddel, «Müharibə Şimali Uqanda sakinlərinin həyatında daimi amil olaraq qalır»:
www.law.utoronto.ca/documents/ihrp/report05_Riddell.doc
Xəbərdarlıq Şəbəkəsi: Vəziyyət barədə məlumat –
«Böhranlı Vəziyyətdəki Uşaqlara dair Xəbəri Necə verməli»
http://www.alertnet.org/thefacts/reliefresources/115254539757.htm
Xəbərdarlıq Şəbəkəsi: «Uşaqlar media işığından kənarda əziyyət çəkirlər» – tədqiqat
http://www.alertnet.org/thefacts/reliefresources/115254878772.htm

# 7. UŞAQLARIN ÖZ FİKİRLƏRİNİ İFADƏ ETMƏLƏRİ VƏ UŞAQLARA YÖNƏLƏN MEDİA

## ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Uşaqların mediadan istifadə etməsinə imkan yaradılması
- Uşağın mediada öz fikrini ifadə etmək hüququna necə təminat verilməlidir?
- Uşaqların mediası

Mükəmməl texnologiyalar və yeniliklər VASİTƏSİLƏ insanları informasiya və hərtərəfli bilik əldə etmək imkanları ilə təmin etməklə medianın rolu son onillikdə əhəmiyyətli dərəcədə artmışdır. Belə irəliləyişlər mediada və bununla öz həmyaşıdlarına məlumat verilməsi, dəstək göstərilməsi və təsir edilməsi baxımından ümumilikdə cəmiyyətdə uşağın və gəncin, eləcə də yaşlıların geniş şəkildə iştirakına imkan yaradır. Bu imkanların gücləndiriləcəyinə baxmayaraq, medianın tərkib hissələri uşaqları istismar etməkdə, habelə uşaqların və onların vəziyyətinin stereotipləşmiş təsvirlərini işıqlandırmaqda davam edir.

Uşaqları cəlb etməklə, media yeni perspektiv verə bilər. Uşağın mediada iştirakının artırılması üzrə əsaslı dəlillər mövcuddur.

Uşaqlar ilə medianın arasındakı əlaqənin əhəmiyyəti aşağıdakı kimi tanınır:

- BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 12-ci Maddəsi uşaqlara toxunan bütün məsələlərdə onların öz fikirlərini sərbəst şəkildə ifadə etməsi və həmin fikirlərin dinlənilməsi hüququna təminat verilməsində iştirakçı dövlətlərin rolunu təsbit edir;
- Maddə 13 uşaqların seçdiyi media qurumları vasitəsilə fikir azadlığı hüququnu müəyyənləşdirir;
- Maddə 17 ifadə edir ki, uşaqların müxtəlif milli və beynəlxalq mənbələrdən məlumat əldə etdiyinə təminat vermək işirakçı dövlətlərin öhdəliyidir. Kütləvi informasiya vasitələri üçün bu, uşağa sosial və mədəni fayda gətirən məlumatların təmin edilməsi mənasını kəsb edir.

Media uşaqların müvafiq məlumat almaq və fikir azadlığı hüquqlarını yerinə yetirməklə; Konvensiya və onun tərkibi haqqında məlumatlılığı yaratmaqla və onun icrasına nəzarət olunmasında əsaslı rol oynamaqla Uşaq Hüquqları haqqında Konvensiyanın prinsiplərinin və normalarının reallığa çevrilməsi üçün geniş potensiala malikdir.

Bununla yanaşı, dünya əhalisinin üçdə bir hissəsinin 18 yaşından aşağı olan uşaqlardan və gənclərdən ibarət olmasına baxmayaraq uşaqların rəyləri və vəziyyəti nadir hallarda mediada dəqiq şəkildə əks etdirilir. Tədqiqat (Media Monitorinq Layihəsi, 2004-cü il) onu göstərir ki, uşaqlar ciddi surətdə mediada natamam şəkildə təmsil olunmağa meyl edirlər. Uşaqlardan biri media-monitorinq təlimində öz iradını bildirmişdir:

**«Xəbərlər təcrid edilmiş olduğumu mənə hiss etdirdi. Sanki uşaqlar mövcud deyildirlər.»**

Uşaqların əhvalatları xəbər başlıqlarında yer alarkən, bu adətən onların yaşayış tərzinə uyğun olan məsələlər haqqında deyil, gərgin və ağır şərait haqqında öz əksini tapır. Həqiqətən uşaqların mediada işıqlandırılmasına dair xəbər materialların böyük hissəsi mənfi xarakter daşıyır.

Uşaqlar mediada iştirak etmək imkanını qazanarkən onlar nə haqqında düşünürlər? Beynəlxalq Plan adlı uşaq hüquqlarına əsaslanan qeyri-hökumət təşkilatı bir qrup azyaşlı jurnalistdən onların mediada iştirakının nə üçün əhəmiyyət kəsb etdiyini soruşmuşdur. Onlar aşağıdakı şəkildə sorğunu cavablandırmışlar:

- bu, uşaqları öz hüquqları və öhdəlikləri haqqında məlumat almaq imkanı ilə təmin edir və onların xəbər materiallarında düzgün şəkildə təmsil olunduğuna təminat verir;
- bu, uşaqlara sərbəst surətdə mediada iştirak etmək və öz fikirlərini ifadə etmək hüququnu yerinə yetirməyə imkan yaradır və onların prioritetlərinin və narahatlıqlarının lazımi şəkildə əks etdirildiyinə təminat verir;
- bu, uşaqlara maariflənmək və öz hüquqlarını valideynlərindən, icmalarından və hökumətdən tələb etmək fikrini bildirməyə imkan yaradır;

- bu, uşaqları birləşdirir və bir-birlərinə yaxınlaşdırır, eləcə də onların öz həyat tərzində baş verənlər haqqında həmyaşıdlarına məlumat çatdıra bildiyi bir vasitə olaraq hesab edilir;
- bu, uşaqlara qorxmadan və cəzalandırılmadan həssas məsələləri nəzərdən keçirməyə, yardım istəməyə və riskli vəziyyətdən yayınmaya aid davranış metodikalarını (məsələn, uşaq alveri kimi hüquqlarının pozulması hallarına qarşı özlərinin necə müdafiə edilməsi) öyrənməyə kömək edir.

Uşaqların mediada iştirakının asanlaşdırılması praktikası onu göstərmişdir ki, uşaqlar media qurumlarını formalaşdırmağa, uşaq hüquqlarına dair məsələləri araşdırmağa, problemlərinin həlli üsullarını müəyyən etməyə və öz hüquqlarının qorunması üzrə hüquq müdafiəçisi qismində iştirak etməyə qadirdirlər. Tədricən yaşlılar uşaqların mediada iştirakı barədə öz mövqelərini dəyişməyə və icmalarda dəyişiklik «vasitəçiləri» kimi uşaqları qiymətləndirməyə başlayırlar. Bütün dünyadakı uğurlu uşaq mediası layihələrinin nümunələri uşaqların iştirakının əhəmiyyətli tərzdə necə həyata keçirilə biləcəyini təsvir edir.

## Uşaqların cəlb olunması

Uşaqların və gənclərin media istehsalında iştirakının başlıca çətinliyi onların potensial dərəcədə riskli iş yerinə cəlb olunması ilə izah edilir. Əgər bu, xeyli sayda insanlar, ictimai fəaliyyət və avadanlıqlar ilə birlikdə işgüzar yerdirsə, onlar konkret təhlükəyə məruz qalacaqlar. Təbii maraq və orta yaşlı boyundan aşağı olan şəxslər üçün nəzərdə tutulmayan bu cür yerlər onları risk altında qoya bilər.

Yüksək gərginlikli media qurumları daxilində işləmək mədəniyyəti uşaqlar üçün əlverişli deyildir: həvəsləndirmə təcrübəsi ilə əhatə edilənlər mükəmməl hazırlığı olmayan bütün maraqlı tərəflər üçün çaşdırıcı və riskli ola bilər. Qorxu çox vaxt ondan ibarət olur ki, uşaqlar ətrafdakı digər vasitələrə nisbətən bahalı və ya ən dəqiq avadanlıqlara zərər vura bilərlər.

Tələb olunan texniki təhlükəsizlik tədbirlərinin bəziləri xərc hesabına başa gəlir, lakin uşaqlara qarşı əksər təhlükələrin yaşlılara da təsir edəcəyi ehtimal edilir. Uşaqlar üçün təhlükəsiz iş yerinin təmin edilməsi həmçinin yaşlılar üzrə təhlükəsiz şəraiti önə çəkən əlavə zəmanətdən ibarət olmalıdır.

Qarşıda duran planlaşdırma hər hansı iş yerində uşaqların təhlükəsiz iştirakı üçün başlıca amildir. Çoxsaylı media təşəbbüslərində təşkilatdaxili təlimatlar tərtib olunur, lakin adətən bu cür məsələlər *xüsusi şəkildə* nəzərdən keçirilir. Ən optimal praktika nümunələrindən birgə istifadə olunarsa, işçi standartlar yaradıla, gücləndirilə və nəzarət edilə bilər. Bəzi tövsiyələr aşağıdakı kimidir:

- Sahədən kənarda uşaqların hazırlaşdırılması üçün vaxt sərf edin.
- Uşaqlar sahədə olarkən, onların risklər və yardım üçün hara gedə biləcəkləri barədə məlumatlı olduqlarına təminat verin. Onların təmiz sanitar qovşaqlarına malik olduqlarına, istirahət edə bilmək üçün müvafiq ölçülü otaqdan istifadə etdiklərinə və yüngül qəlyanaltı etmək imkanlarından faydalandığına əmin olun.
- Bunlardan ən vacibi kimi, onların tanıdıqları və yardım və ya məsləhət üçün müraciət etdikləri bir münasib yaşlının bütün mümkün vaxtlarda onların yanında olmasına təminat verin.
- Uşaqların iştirakının idarə olunmasına məsuliyyət daşıyan şəxslər uşaqlara tətbiq olunan sağlamlıq və texniki təhlükəsizlik qaydalarını yoxlamalıdırlar. Onlar iş yerində uşaqlara və onların himayəçilərinə əməyin mühafizəsi və texniki təhlükəsizlik tədbirlərinin sadə və aydın şəkildə izah olunduğuna təminat verməli və uşaqların onları dərk etdiklərini yoxlamaq üçün sadə metod və vasitələri işləyib hazırlamalıdırlar – məsələn, fövqəladə hallar zamanı evakuasiya eksperimentində iştirak etməklə.
- Fəaliyyət yerində çalışan şəxslər uşaqların müəyyən yerlərdə və müəyyən vaxtlarda iştirak edə biləcəkləri, habelə onlar və uşaqlar üçün bunun nəticələrini müzakirə etmək imkanına malik olduqları barədə məlumatlandırılmalıdırlar.
- Uşaqlarla birbaşa işləyən şəxslər müfəssəl şəkildə və diqqətlə müzakirə olunmuş və razılaşdırılmış təlimatlara uyğun olaraq vəziyyəti idarə etməlidirlər.

Uşaqlara aid olan məsələlərin onlar tərəfindən nəzərdən keçirilməsinə və ya bununla əlaqədar iradlarını bildirməsinə imkan yaradılması prosesin başlanğıcı kimi ola bilər; məsələn, onlar yaşlılar üçün nəzərdə tutulan qəzetlərdə və digər kütləvi informasiya vasitələrində uşaqlara aid filmləri və ya kitabları nəzərdən keçirə bilərlər.

## Uşaqlar ilə və onlar üçün hazırlanmış media proqramlarının faydaları

Media layihələrinin qiymətləndirilməsi uşaqların mediada iştirakından əldə olunan çoxsaylı faydaları göstərir:

**Təkmilləşdirilmiş media məhsulu**: Uşaq mediasına kütləvi informasiya vasitələrində çalışan peşəkarların cəlb olunması uşaqlar üçün nəinki daha çox media verilişlərinə gətirib çıxarır, eləcə də uşaqlar ilə və onlar üçün daha mükəmməl media proqramlarının hazırlanması ilə nəticələnə bilər:

Qərbi Afrikada həyata keçirilən «Mən uşağam, lakin mənim hüquqlarım da var !» layihəsinə (Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları haqqında Konvensiyasına hörmətlə yanaşılması üzrə valideynlərə, uşaqlara və hökumət rəsmilərinə öz funksiyaları və öhdəlikləri barədə məlumat verir) cəlb olunmuş 100 radio stansiya çox vaxt dinləyicilərin davamlı tələbatına görə uşaqlar üçün tərtib olunan proqramların sayını artırmışdır. Aparılan hesablamalar daha mükəmməl proqramların tərtibatı və uşaqların prosesə cəlb olunması potensialının gücləndirildiyini nümayiş etdirir. Həmçinin uşaqların öz hüquqları və onların ölkəsindəki uşaqların vəziyyəti barədə məlumatlılıq və bilik səviyyəsində artım müşahidə olunur.

**Dəyişikliyin formalaşdırılması:** Mediada uşaqların iştirakı hökumət səviyyəsində ali vəzifəli şəxslərə təsir göstərə bilər:

Hindistanda «Uşaqların deməyə sözü vardır» layihəsində gənclər onların həyat tərzinə toxunan bir sıra məsələlər barədə filmlər və animasiyalar yarada bilər. Qutkaya (tütün, böcək qozu və cökənin qarışığı) qurşanma haqqında bir film tələbələri elə ruhlandırmışdır ki, onlar öz məktəblərinin yaxınlığında yerləşən mağazalarda onun satışının dayandırılması üçün şikayət etmişlər. Onlar əyalətdəki bütün məktəblərdə qutkanın istifadəsini qadağan edən və tələbələrlə əməkdaşlıq şəraitində kütləvi məlumatlılığın artırılması kampaniyasına başlayan əyalət hökumətinə iddia ərizəsini təqdim etmişlər.

**Uşağın inkişafı:** Mediada uşaqların iştirakı onların bütöv inkişafına öz töhfəsini verir. Texniki və peşə bacarıqlarını (o cümlədən, avadanlığı necə işlətməyi, əlyazmaları necə tələffüz və şərh etməyi) öyrəndikcə, uşaqlar problem həlletmə, ünsiyyət, öz fikrini ifadəetmə və dialoq bacarıqları vasitəsilə onlar rəylərini formalaşdırmağa və ifadə etməyə imkan verən mühüm həyat qabiliyyətlərinə yiyələnirlər.

Mediada iştirak uşaqlara media və məlumat, istehsal funksiyası ilə tanış olmağa kömək edir və onları məlumatlı şəkildə qərar qəbul etməyə imkan verən aktual məlumatların geniş miqyasda istifadəsi ilə təmin edir. Media proqramlarının monitorinqinə və qiymətləndirilməsinə daxil edilməklə, onlar media savadlılığı üzrə öz dəyərli bacarıqlarını inkişaf etdirirlər və özünün bütün formalarında zəruri media istifadəçilərinə çevrilə bilərlər.

Uşaqların cəlb olunmasında mediaya qarşı bəzi kommersiya maraqları mövcuddur, bununla gələcəyin media istifadəçilərinə təminat verilə bilər. Xüsusən, çoxsaylı qəzetlər gənclərə yönələn layihələri həyata keçirmişdir, lakin bir qism qəzetlər ucqar yerlərdə yaşayan uşaqları daha çox cəlb etmişdir.

Uşaq mediası sahəsində çalışan fəallar vasitəsilə uşaqlar bir-birləri ilə qarşılıqlı əlaqədə ola və digər oğlan və qızlardan bilik əldə edə, yeni dostlar qazana və öz həmyaşıdlarının dərdinə şərik ola bilərlər ki, bu da siyasi şüuru və sosial məlumatlılığı inkişaf etdirmək üçün mühüm bacarıq hesab olunur.

Bununla yanaşı, media vasitəsilə ifadə edilən fikir ümid qığılcımını yaratmaqla sarsıntı keçirmiş uşaqların psixo-sosial müalicəsində və səhhətinin normal vəziyyətə gətirilməsində faydalı ola bilər.

Şri-Lankada Gənc Asiya Televiziyası bir qrup uşaqların sənədli filmdə iştirakını asanlaşdırmışdır ki, bu da onların Hind Okeanında 2004-cü ildə tüğyan edən sunami haqqında öz hisslərini ifadə etməsinə imkan vermişdir. Bütövlükdə uşaqlar tərəfindən hazırlanmış film faciənin təsirlərini və təbii fəlakətin onların həyat tərzini necə dəyişdirdiyini canlandırır. Nişak (16 yaşlı oğlan) demişdir ki, onlar bu filmdə uşaqların cəsarətlə öz həyat tərzinə necə davam gətirdiklərini nümayiş etdirmək istəmişlər.

**Uşaqlara etibar edilməsi və fəal vətəndaşlıq**: Media layihələrinin bütün mərhələlərinə gənclərin cəlb olunması fəal vətəndaşlar və hüquq müdafiəçiləri kimi öz potensialını sonradan inkişaf etdirə bilər. Uşaqlar onların hüquqlarının pozulmasının öz həyat tərzinə necə təsir göstərdiyi barədə münasib müjdəçi rolunu oynaya bilərlər və mediada iştirak öz fikirlərinin ifadə edilməsi ilə onların dəyişikliyi tələb etməsinə imkan yarada bilər. Təcrübə həmçinin uşaqların digər forumlarda öz fikirlərini ifadə etməsinə təkan verir.

Uşaqların mediada iştirakının nəticəsi olaraq, onlar özlərini qiymətləndirilmiş kimi hiss edirlər və özünəinam hissinə yiyələnə bilərlər. Bu, onların özünəməxsus istedadının aşkar edilməsinin və yaşlıların və öz həmyaşıdlarının hörmətinin qazanılmasının nəticəsidir. İcmaya fayda vermək duyğusu uşaqların digər sahələrdə də fəal olmasına gətirib çıxara bilər və onlara yeni funksiyaların və öhdəliklərin həvalə edilməsində etimad göstərilə bilər.

## Qlobal kontekst

Uşaqlara dair çoxsaylı qlobal görüşlər və media uşaqların bu sahədə iştirakının vacibliyini qəbul etmişdir. Bunlara daxildir:

- Uşaq Hüquqları Komitəsi tərəfindən «Uşaq və Media» mövzusunda Ümumi Müzakirə Günü (İsveçrə, 1995-ci il): «Uşaqlara öz fikirlərini ifadə etmək imkanının verilməsi üçün media əhəmiyyət daşıyır. Konvensiyanın prinsiplərindən biri odur ki, uşaqların fikirləri dinlənilməli və onlara hörmətlə yanaşılmalıdır ... uşaqlar nəinki xəbər materialını istifadə etməyə, eləcə də mediada iştirak etməyə qadir olmalıdırlar.»
- Oslo Çağırışına dair Seminar (Norveç, 1999-cu il) «Uşaqlara və gənclərə olan çağırış mediada və medianın inkişafında onların fəal iştirakının gücləndirilməsi yollarının axtarılmasına yönəlmişdir; valideynlərə, müəllimlərə və tədqiqatçılara olan çağırış uşaqların özlərinin tərəqqisi üçün mediadan istifadə etmək, media qurumunda iştirak etmək və ondan bir vasitə kimi yararlanmaq hüquqlarının qəbul edilməsinə və dəstəklənməsinə yönəlmişdir.»

- Uşaqlar və Yeniyetmələr üzrə Mediaya dair 4-cü Ümumdünya Sammitində (Braziliya, 2004-cü il) yaşlılar təklif etdilər ki, «uşaqların və yeniyetmələrin iştirakı ilə media istehsalı gücləndirilməlidir» və uşaqlar təklif etdilər ki, «uşaqlar və yeniyetmələr media məhsullarının istehsalında və çatdırılmasında zəmanətli məkana malikdirlər».
- Gənclərin Media İnkişafı Forumu (Mali, 2006-cı il): Plan ölkələri (Albaniya, Benin, Burkina Faso, Kamerun, Ekvador, Salvador, Efiopiya, Qana, Qvineya, Qvineya-Bissau, Haiti) daxil olmaqla dünyanın 60 ölkəsindən 400 nəfər nümayəndə iştirak etmişdir.
- Uşaqlar üzrə Mediaya dair 5-ci Ümumdünya Sammiti (İohannesburq, 2007-ci il): Təxminən 90 ölkədən 1000 nəfər, o cümlədən ən azı 300 yerli və beynəlxalq miqyaslı uşaq konfransda iştirak etmişdir; uşaqların mediada öz fikrini ifadə etməsinə imkan yaradılması üçün üsul və vasitələrin öyrənilməsi baxımından interaktiv seminarlar, debatlar və müzakirələr keçirilmişdir. Konfrans uşaqların mediada təmsil olunması məsələsinə və ümumilikdə medianın uşaqların nümayiş etdirilmə metoduna necə töhfə verdiyinə toxunmuşdur. Həmçinin sammit uşaqların özünəməxsus obrazlarının yaradılmasında uşaqların iştirakının yüksəldilməsi üçün üsul və vasitələri nəzərdən keçirmişdir. Debatın əsas qayəsi uşaqların özləri üçün obrazların yaradılması və proqramların tərtibatı prosesinə onların necə cəlb edilə bilməsindən ibarət olmuşdur.

## Uşaqların mediada mühüm iştirakına qarşı çətinliklər və maneələr

Uşaq Hüquqları Komitəsi bir dəfə bəyan etmişdir: «Uşaqlıq dövrü həyatın gözləmə otağı deyildir».

Dünya əhalisinin üçdə bir hissəsinin 18 yaşından aşağı olan uşaqlardan və gənclərdən ibarət olmasına baxmayaraq, media nadir hallarda bu təbəqənin rəylərini və reallıqlarını əks etdirir. Ümumilikdə həm şimal, həm cənub yarımkürələrində media qurumları uşaqların mediada iştirak etmək hüququnun və onlara toxunan məsələlərdə öz fikirlərini ifadə etmək hüququnun yerinə yetirilməsi baxımından uşaqlar üçün məhdud imkanlar yaradır.

Media monitorinqi daxil olmaqla, medianın hər bir səviyyəsində uşaqların mühüm iştirakı zərurətinə lazımi diqqət yetirilməmişdir. Onların media qurumlarında iştirakına hələ də layiqli başlıca diqqət göstərilməmişdir. Lakin uşaqların iştirakının təmin edilməsinə qarşı bir sıra ümumi çətinliklər mövcud olaraq qalmaqdadır.

## Uşağın iştirakına qarşı sosial mövqelər və müqavimət

Media qurumlarına çox vaxt yaşlılar tərəfindən nəzarət olunur ki, onlar da xəbər gündəliyinin müəyyən olunması üçün öz səlahiyyətlərində uşaqlara güzəştə getməyi və imkan yaratmağı həmişə istəmirlər. Digər tərəfdən, valideynlərin özləri də uşaqların verə biləcəyi töhfənin dəyərini qavramırlar; onlar çox vaxt hesab edirlər ki, media layihələri həddindən artıq vaxt tələb edir və məktəbdə uşaqların rolunu əsaslandırmayacaqdır. Lakin fakt göstərir ki, uşaqların bu cür layihələrdə iştirakının nəticəsi kimi, onların məktəbdəki davranışı tez-tez təkmilləşir.

Uşaq hüquqları haqda məlumat öyrənmək üçün öz uşaqlarına imkan yaradılması ilə əlaqədar valideynlər arasında həvəssizlik mövcud ola bilər. Çoxsaylı ölkələrdə uşaqların hüquqlarının adətən ənənəyə zidd olması kimi qəbul edilir ki, bununla aidiyyəti işin icrası uşaqlara deyilməyənə qədər onlar yaşlılara sual vermir və ya hətta müraciət etmirlər. Əhəmiyyətlisi odur ki, media sektorunun və valideynlərin məlumatı və həssaslığı vasitəsilə bu cür münasibətlərə toxunulur.

## Etika və müdafiə məsələləri

Mediada uşağın iştirakının artırılmasına dair bizim kampaniyamızda həmçinin uşaqların medianın təsirindən qorunmasına təminat verməliyik. Məsələn, zorakılıqdan əziyyət çəkmiş uşaqların media tərəfindən nümayiş etdirilməsi zamanı əgər uşağın şəxsiyyəti açıqlanarsa, yalan və hiylənin mümkünlüyü səbəbindən əlavə zorakılıq halının baş verməsi tez-tez müşahidə olunur. Yaşlı jurnalistlər kimi, uşaq yaşında olan jurnalistlər bəzən onlarla birlikdə çalışan digər uşaqları qoruya bilmirlər.

Kommersiyalaşdırma, zorakılıq, seksual təzyiq, gender stereotipləri və digər zərərli təsirlər uşaqların mediada iştirak etmək imkanını məhdudlaşdıra bilər. Dünyanın əksər bölgələrində geniş sayda şou verilişləri və proqramlar (məsələn, televiziyada) uşaqların və gənclərin real həyat tərzini əks etdirmir. Uşaqları zərərli təsirlərdən və mənfi təsəvvürlərdən qorumaq üçün onlar uşaqların həyat tərzindən bəhs edən və uşaq hüquqlarını pozmayan xoşməramlı məlumatları və əyləncəli proqramları təmin etməklə media istehsalı prosesində tam şəkildə rol oynamalıdırlar.

## İnvestisiyaların azlığı və resursların çatışmazlığı

Həlledici məqam odur ki, media proqramını hazırlayarkən onun istifadəsinə və keyfiyyətinə

təminat vermək üçün uşaqlar adekvat resurslarla təmin edilməlidirlər. Uşaqların təmsil olunduğu media dünyanın digər media məhsulları ilə «rəqabət aparır»; buna ciddi şəkildə yanaşıldıqda və mümkün qədər daha geniş oxucu kütləsi cəlb edildikdə, eyni yüksək keyfiyyət təqdim olunmalıdır. Uşaqlar ayrılıqda media peşəkarlarınınköməkliyi olmadan yüksək keyfiyyəti əldə edə bilməzlər.

## Bacarıqları inkişaf etdirmək zərurəti

Uşaqlar, habelə əksər yaşlılar özlərinin azad fikir hüququ barədə həmişə məlumatlı olmurlar. Onlardan aidiyyəti tərzdə istifadə olunmadıqda, öz fikirlərinin ifadə edilməsində tez-tez utanır və çətinliklərlə üzləşirlər. Uşaqlar yanlış məlumat verdikdə və ya necə düşündüyünü və hiss etdiyini ifadə edə bilmədikdə, media təlimi olmadan onlar danışmaq üçün qorxa bilərlər. Savadsız uşaqlar, əlil uşaqlar və cəmiyyətdə formalaşmayan digər təbəqələr onların iştirakına imkan yaradılması üçün bəzən mütəxəssis köməyinə ehtiyac duyurlar.

Media qurumları ən zəif insanların öz fikirlərini ifadə etmələri üçün bir vasitədir. Media proqramları Uşaq Hüqüqlarına dair Konvensiyanın normalarına və prinsiplərinə hörmətlə yanaşdıqda, onlar münasib təqlid modellərini göstərməklə yaşlıların uşaqlara nəzərən qavrayışını dəyişdirə bilərlər; adətən müzakirə edilməsi çətinlik doğuran zorakılıq kimi məsələləri ictimaiyyət qarşısında qoya bilərlər və yaşlıların davranış tərzini tənqid edə bilərlər.

Uşaqların mediada iştirakı danışmaq imkanından, eləcə də müvafiq dinləyici auditoriyasından asılıdır. Texnologiyanın uşaqlara təşəbbüsü ələ almağa imkan verdiyi ölkələrdə məsələn, öz vebsaytlarını yaratmaqla, qarşıda duran tapşırıq və ya vəzifə uşaqların fikirlərinin və maraqlarının informasiya zənginliyində qərq olunmasından müdafiə etməyə yönəlmişdir. Cəmiyyət uşaqların fikirlərini nəzərə almalıdır və mediada uşaqlar üçün məkan ayırmalıdır.

## Sonrakı şərh və resurslar

Beynəlxalq Plan təşkilatı: http://www.plan-international.org/

«Danışmaq, İştirak Etmək və Qərar Vermək – Uşağın Öz Fikrinin Dinlənilməsi Hüququ», Beynəlxalq Plan təşkilatı, 2006.

«Dünyadakı Uşaqlar, Gənclər və Media: Tendensiyaların və Məsələlərin İcmalı», İntermedia (2004)

«Uşaqlar Mediada», İsveç Planı təşkilatı (2006).

BMT-nin Uşaq Hüquqları Komitəsi (1996), «Uşaq və Media».

# 8. UŞAQLARA DAİR JURNALİSTİKADA QABAQCIL PRAKTİKA

## ƏSAS ARAŞDIRMA PREDMETLƏRİ

- Uşaqlar barədə xəbərlərin verilməsində optimal praktika
- Uşaqların təmsil olunduğu medianın monitorinqi və qiymətləndirilməsi: mətbuat, radio, televiziya

«Mən hələ də inanıram ki, əgər sizin məqsədiniz dünyanı dəyişməkdən ibarətdirsə, jurnalistika daha çevik ani vasitə hesab olunur. » *Tom Stopperd*

Oslo Çağırışı BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 10-cu ildönümünə həsr edilməklə, media sahiblərini və praktikantları, müəllimləri, siyasətçiləri və uşaqların özlərini

bütün dünyadakı uşaqların həyat tərzində kütləvi informasiya vasitələrinin müsbət təsirə çevrilməsinin yeni metodlarını axtarmağa sövq etmişdir.

Media sahibləri daxil olmaqla, özəl sektorun qarşısında duran vəzifə aşağıdakılardan ibarət olmuşdur:

- yeni media məhsullarının və texnologiyalarının inkişafında uşaqların mediadan istifadə etmək, mediada iştirak etmək, media tərəfindən maarifləndirilməsi və zərərli xəbər buraxılışından müdafiə olunmaq hüququnun nəzərə alınması;
- bütün insanların qorunduğu, hörmət edildiyi və sərbəst olduğu qlobal cəmiyyətdə hazırkı uşaqların yaşlılara çevrilməsi üçün kommersiya və maliyyə uğurları istiqamətində uşağın ən yaxşı maraqlarının başlıca surətdə nəzərdən keçirilməsi

Artıq müzakirə etdiyimiz kimi, geniş şəkildə tanınmış jurnalistlərin əksəriyyəti uşaqların tələbatlarına (və hüquqlarına) həddindən artıq diqqət yetirilməsinin əhəmiyyətinə şübhə ilə yanaşırlar. Məsələn, Birləşmiş Krallıqda hər həftə *Mətbuat Orqanı* adlı müxtəlif sahələri əhatə edən jurnal 18 yaşından aşağı şəxslərin cəlb olunduğu məhkəmə işlərinə xəbərlərin verilməsinə qoyulan məhdudiyyətə qarşı hüquqi iddialar barədə qəzet materiallarını özündə cəmləşdirir.

Gənc cinayətkarların ictimaiyyətin sərt baxışlarından kənarda öyüd-nəsihət almaq hüququnu tanımaqla, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının nəzərə alınması üçün qanunvericiliyə yenicə dəyişikliklərin edilməsinə baxmayaraq, media qurumları islahedilməz cinayətkarların adını açıqlaya bilmədikdə, bu, bəziləri tərəfindən mətbuat azadlığının məhdudlaşdırılması kimi nəzərdən keçirilir.

Lakin bir çox jurnalistlər öz fəaliyyətinin özəyini uşaqların maraqlarının üzərində cəmləşdirməyə səy göstərirlər və biz dünyanın yerində birgə işləyərək onların nümunələrini görə bilərik. 2003-cü ildə Makedoniyada yaradılmış Uşaqların və Qadınların Hüquqları haqqında Jurnalistlər təşkilatı media təqdimatları, bülletenlər və filmlər vasitəsilə uşaqların hüquqları üzrə kampaniya keçirir. Uşaqların Hüquqları üzrə Beynəlxalq Jurnalistlər Klubu Qana Respublikasında Metyu Mak-Kvame adına Qana Jurnalistika və Franki Asare Donkoh FM Seçimi İnstitutu tərəfindən təsis edilmişdir.

ANDİ adlı Braziliya uşaqları üzrə xəbər agentliyi jurnalistləri uşaqların məsələləri barədə araşdırma aparmağa və yazı dərc etdirməyə həvəsləndirmək üçün Uşaqların Jurnalist Dostları adlı mükafatını təqdim edir. Onlar aşkar etmişlər ki, təltif onların həbsxanalarda olan uşaqlara geniş şəkildə baş çəkməsinə imkan vermişdir.

Həmçinin Beynəlxalq Gənclər Prizi fondu xalqlar/dövlətlər arasında anlaşmanın dərinləşdirilməsi və kommunikasiyanın gücləndirilməsi ilə gənclər üzrə ümumdünya televiziyasının keyfiyyətini artırmağa səy göstərir. Beynəlxalq Gənclər Prizi fondu belə bir ideyanı dəstəkləyir ki, televiziya hədəf auditoriyasına qarşı cəlbedici olmalı və digər mədəniyyətlər haqqında məlumatlılığı və onların qiymətləndirilməsini artırdıqca, uşaqlara öz fikirlərini və mədəniyyətini nəzərdən keçirməyə, dinləməyə və onu ifadə etməyə imkan verməlidir. Beynəlxalq Gənclər Prizi fondunun mükafatı bütün dünyada uşaqların yayımlanmasında ən nüfuzlu televiziya mükafatı kimi geniş miqyasda nəzərdən keçirilir.

2003-cü ildə Beynəlxalq Jurnalistlər Federasiyası və Cənubi Afrika Jurnalistləri Assosiasiyası mediada uşaqların hüquqlarının dəstəklənməsi üzrə Keyptaunda iki günlük praktiki seminar keçirdi. Uşaqlara aid məsələlərin işıqlandırılmasında jurnalistlərin sosial məsuliyyəti və xüsusi qayğının göstərilməsi barədə müzakirələr aparılmışdır. İştirakçılar vurğulamışlar ki, uşaqlar yaşlılar kimi deyildirlər və onların xüsusi yardıma və müdafiəyə ehtiyacı vardır. Lakin əksər hallarda uşaqlara media qurumları tərəfindən laqeyd münasibət göstərilir. Görüş Uşaqların Doğru Yola

İstiqamətləndirilməsi - Jurnalistlər və Media Peşəkarları üzrə Beynəlxalq Təlimatlar adlı sənədin nəşr olunması ilə nəticələnmişdir.

Uşaqlara yönələn jurnalistika üzrə digər təşkilatlar da mükafatlar təsis edirlər. 2002-ci ildə Haiti Plan və Vaşinqtonun Panos İnstitutu uşaq hüquqları məsələləri barədə optimal xəbərlərin verilməsi üzrə milli jurnalistika prizini təsis etdi. Təşəbbüs nəinki uşaqlar və onların hüquqları barədə yüksək keyfiyyətli xəbərlərin istehsalının artması ilə nəticələnmiş, eləcə də media sahiblərini və jurnalistləri uşaqlara daha çox qulaq asmağa stimullaşdırmışdır.

Uşaqlar və onların hüquqları barədə yüksək keyfiyyətli xəbərlərin verilməsi üzrə media institutları və jurnalistlər üçün Dzitri mükafatını təsis edərək, Toqo Planı təşkilatı FAO Afrika adlı QHT tərəfdaşı ilə 2006-cı ilin iyun ayında oxşar layihəni həyata keçirdi. İllik mükafatın təqdimatı üzrə münsiflər heyətinin üzvləri Toqo Planı təşkilatının uşaqlar və media barədə proqramında iştirak edən azyaşlı jurnalistlərdən ibarətdir.

## Qabaqcıl praktikanın nümunələri

## QƏZETLƏR

### Təhsildə Qəzetlər

Ümumdünya Qəzetlər Assosiasiyası (ÜQA) 18000 qəzeti, 100 ölkədə 71 milli qəzet assosiasiyasını, qəzet rəsmilərini, 13 xəbər agentliyini, 9 regional və beynəlxalq mətbuat qruplarını öz ətrafında birləşdirən qlobal təşkilatdır. O, dünyanın hər yerində aparılan eksperimentlər əsasında yeni gənc oxucuların cəlb edilməsi üçün 30 ideyadan ibarət paket hazırlamışdır. ÜQA dünyanın ikinci böyük qəzet istehsalçısı və üçüncü böyük jurnal istehsalçısı olan Norske Skoq nəhəng Norveç şirkətinin 1,74 milyon ABŞ dolları məbləğində vəsaiti hesabına maliyyələşdirilməklə, Təhsildə Qəzetlər (TQ) layihələrindən ibarət beş-illik proqram haqqında elan dərc etdirmişdir.

TQ proqramları bütün dünyada çap olunmuş nəşrlərin məktəb gününün tərkib hissəsinə çevrilməsi üçün nəzərdə tutulur. Yeni proqram yerli dillərdə müəllimlər üçün təlim komplekslərinin işlənib hazırlanması ilə Balkan ölkələrində və Asiyada təmərküzləşəcəkdir. Proqramın ideyası savadlılığın, ümumi biliyin, təhlil bacarıqlarının artırılması üsulu və fikir azadlığının, tolerantlığın və demokratik dəyərlərin əhəmiyyətinin qiymətləndirilməsi kimi nəşr istifadə olunmasından ibarətdir.

Avropa-Ərəb Qonşuluğu: Ərəb dövlətlərində və Avropada tələbə jurnalları

UNESKO Avropa-Ərəb Qonşuluğu layihəsinin icrasına başlamışdır: Tələbələr İslam Dünyası ilə Dialoq proqramının əhatə dairəsi daxilində Körpülər adlı layihəni işləyib hazırlayırlar. Almaniyada keçirilən praktiki seminar zamanı Danimarka, Misir, Almaniya, İordaniya, Livan, Liviya, Fələstin, Qətər, Sudan, Suriya, Tunis və Ukraynanın təhsil nazirliklərindən, ictimai təşkilatlardan, nəşriyyat evlərindən və məktəblərdən təmsil olunan ekspertlər güclü və davamlı məktəb jurnalları şəbəkəsinin əsasını müəyyən etmişlər.

Layihənin məqsədi məktəb jurnalları sahəsində əməkdaşlıq vasitəsilə gənclər arasında Avropa-Ərəb dialoquna dəstək verilməsindən ibarətdir. Avropa və Ərəb vətəndaşları arasındakı dialoq çoxmədəniyyətli və çoxdinli icmalarda dinc birgə yaşayış üçün ilkin şərt hesab olunur. Mümkün qədər tez olaraq qərəzli fikirlərin azaldılması və mükəmməl anlaşmanın yüksəldilməsi, Avropa və Ərəb dövlətlərinin gəncləri arasında təcrübə mübadiləsi ən böyük əhəmiyyət kəsb edir. Bütün növ məktəblərin və jurnalistika əməkdaşlığı ilə maraqlanan hər hansı yaşda gənclərin bu layihədə iştirakı təqdirəlayiqdir.

## Kuleana Uşaqlarının Hüquqları Mərkəzi

Tanzaniyanın Mvanza əyalətində yerləşən Kuleana Uşaqlarının Hüquqları Mərkəzi media qurumlarını və jurnalistləri mühüm müttəfiqlər kimi hesab edir. Böyük sayda küçə uşaqları daxil olmaqla, gənclər Mvanzanın 800 minlik əhalisinin yarısını təşkil edir. 1992-ci ildə mərkəzin açılmasından sonra küçə uşaqları şəhərin hər yerində divarlara yapışdırılan qəzetlərdə öz fikirlərini yerləşdirməyə başladılar. Hazırda Mambo Leo adlı afişa jurnalı hər bir məktəbdə təşkil edilir.

Kuleana Mərkəzi regional qəzetlərin redaktorlarına belə bir çağırışla müraciət etmişdir: «Bunlar sizin uşaqlarınızdır. Siz vəziyyət barədə nə etməyi planlaşdırırsınız?» Əvvəlcə, küçə uşaqlarının mediada işıqlandırılması sensasiya doğurdu. Media qurumları daha inamla fəaliyyət göstərdikcə, onlar ilkin səbəbləri nəzərdən keçirməyə və ilk növbədə kənd uşaqlarının küçələrə axışmasına gətirib çıxaran şəraiti araşdırmağa başladılar. Yerli radio stansiyaları müsabiqə qalibləri üzrə prizlərlə birlikdə küçə uşaqları üçün 15 dəqiqəlik vaxt ayırdılar. İngilis və suaxili dillərində çıxan milli qəzetlərdə müntəzəm məqalələr dərc olunmağa başladı. Mərkəz uşaqlara qarşı zorakılığın mediada işıqlandırılmasının artırılması məqsədilə Tanzaniya Media Qadınları Assosiasiyası ilə əməkdaşlıq etmişdir.

Kuleana Mərkəzinin həmtəsisçisi və sabiq icraçı direktoru Rakeş Racani deyir ki, media qurumları «düşüncəli vətəndaşlar» kimi ictimaiyyətin - o cümlədən uşaqların - uşaq hüquqları ilə məşğul olması üçün imkanlar yarada bilər. O, həmçinin bildirir ki, jurnalistlər uşaqların hüquqları məsələsinin iqtisadi xəbərlərə daxil edə bilməlidirlər. «İqtisadi strukturda qeyri-münasib kiçik bir dəyişiklik yerinə yetirilən ictimai tədbir vasitəsilə onilliklər ərzində əldə olunan sosial tərəqqini alt-üst edə bilər. Milli büdcədə bir dəyişiklik 100000 əlavə uşağın içməli su təminatı olmadan yaşamasını nəzərdə tuta bilər.»

## RADİO

Nisbətən ucuz, asanlıqla istifadə edilən və mobil olmaqla, radio hətta ən acı sosial şəraitdə ən davamlı və effektiv vasitə kimi özünü sübut etmişdir. Afrikada ən mühüm kommunikasiya sistemi kimi böyük və kiçik olmaqla minlərlə radio stansiya mövcuddur. Gənclər çox vaxt öz zövqlərinə xidmət edildiyinə əmin olmaq üçün şəxsi məqsədlərinə doğru radio texnologiyasından faydalanmağın, «pirat radio» vasitəsilə radio-kanallardan istifadə edilməsinin tərəfdarı olduğunu sübut etmişlər. Onların yaradıcı səyləri geniş miqyasda fəaliyyət göstərən tele-radio yayım şirkətlərinə güclü təsir edə bilər.

## BMT Uşaq Fondunun Somali layihəsi

Somalidə BMT Uşaq Fondu radio layihəsini işləyib hazırlamaq üçün gənclər təşkilatları ilə birlikdə çalışmışdır ki, bu da gənclərə radio kanallarından sərbəst istifadə etməsinə şərait yaratmışdır. Layihənin tərkib hissəsi kimi, BMT Uşaq Fondu intellektual və populyar şou-verilişlərin yayımlanması üçün radio istehsalı sahəsində gənclərə təlim keçirir. Layihə yalnız gənclərin əylənməsi və səsvermə hüququnun təmin edilməsi üçün deyil, həmçinin sosial və səhiyyə məsələlərin nəzərdən keçirilməsində lazımi dəyişikliklərin aparılması üçün istifadə olunur.

Somalidə gündəlik həyat tərzi hər gün saat 5:30-da fəaliyyətin dayandırıldığı və BBC-nin Somali Xidməti Bürosunun verilişlərinə qulaq asmaq üçün izdihamlı kütlələrin radio stansiyanın ətrafına toplaşdığı yerlərdə planlaşdırılır. Somali sakinləri özlərinin şifahi mədəniyyətini dəstəkləmək üçün texnologiyadan istifadə etmiş və müharibənin tüğyan etdiyi ölkəni əhatə edən yayım icmasını yaratmışlar və Somalinin hüdudlarında yaşayan soydaşlar internet vasitəsilə ondan istifadə edirlər.

Somalidəki gənclər sülh, inkişaf və uşaqların hüquqları məsələləri barədə çoxlu və qəti rəylərini ifadə etmişlər. Hazırda Somali gənclərinin fikirləri əvvəlki dövrə nisbətən daha böyük inamla və ümidlə dinlənilir. Yayım şirkətləri və istehsalçı qurumlar gənclərin iştirakı barədə öz təəssüratlarını bildirmiş və onların radio kanallarından sərbəst istifadəsinə şərait yaratmışdır.

Poeziya, dram, mahnılar və digər ənənəvi ifadə formaları xəbərləri və əyləncəli proqramları təmin edir və müzakirəyə imkan yaradır.

Bu layihənin gücü Somalidəki radionun əhəmiyyətində və gənclər üzrə yayım şirkətlərinin öhdəliyində özünü büruzə verir. Layihə təsbit etmişdir ki:

- gənclərin media istehsalına cəlb edilməsi gənclər üçün maraqlı və məqsədyönlü olan proqramların layihələndirilməsi, yaradılması və yayımlanması üzrə köklü əhəmiyyət kəsb edir;
- gənc istehsalçılar öz məhsullarını gəlir mənbəyi kimi deyil, öz fikirlərinin dinlənilməsi üsulu kimi hesab edirlər;
- mütəşəkkil gənclər qrupu vasitəsilə gənclərin istehsal potensialının yaradılması onların artıq fəal şəkildə çalışdığı icma xidmətinin genişlənməsi kimi izah edilir, deməli onlar nə istehsal etmək istədiklərini hiss edirlər;
- gənclərə təlim keçərkən, onlar öz davamiyyətini öhdəlik kimi deyil, faydalanmaq imkanı kimi nəzərdən keçirirlər;
- xəbər buraxılışının gənclərə həvalə edilməsi ona təminat verir ki, yerli səviyyədə vacib olan mövzular haqqında mühüm proqramlar hazırlanır və bu proqramlar Somali gənclərinə istinad olunan xüsusiyyətlərə malikdir;
- gənclərin istehsalı yerli icmanın və yayım şirkətinin öz proqramının yerli şəraitdə qəbul edilən və dəstəklənən məhsul kimi hesab etdiyinə təminat verir;
- gənclər mediada mübahisəli məsələləri nəzərdən keçirərkən, onlar çox vaxt həssas siyasi məsələlər barədə ziddiyyətli tərzdə təkəbbürlü olmurlar (Burundidə gənclər qiyamçı liderlər ilə müsahibə aparmış və böyük uğurlarla siyasi debatda iştirak etmişlər);
- gənclər yeni texnologiyanın öyrənilməsi üzrə ruh yüksəkliyinə malikdirlər və media onlarda həyəcan doğurur, deməli yaşlılar ilə müqayisədə onların təlim keçməsi çox vaxt asan olur.

## Zəbt Radiosu

1997-ci ildə Şənbə günlərinin birində Birləşmiş Krallıqda Lesterdə yerləşən FM Vadisi radio stansiyasında «Filip Solo ilə Söhbət» adlı gecə efiri məkanını üç nəfər gənc zəbt edərkən, *Zəbt Radiosu* fəaliyyətə başladı. İki saat ərzində Elli (15 yaş), Sem (12 yaş) və Rayne Menzis (10 yaş) studiyaya soxularaq, Filipi kəndirlə bağlayaraq və orada «girov vəziyyətini» yaradaraq, Filipin verilişini zəbt etmişlər. «Radio Polisi» məntəqəsinin müfəttişi Louton onların cənab Solonu «azad etməsindən» və ona öz verilişinin sonuncu yarım saatlıq hissəsini başa çatdırmağa imkan verməsindən əvvəl pissa və şokolad vəd etməli olmuşdur.

Sonrakı ildə Viqstonda yerləşən FM İNDİ adlı oxşar radio stansiyanı üç nəfər uşaq zəb etdi. Bu dəfə onlar radio stansiyanı dörd həftə ərzində ələ keçirdilər və dörd dəfə bir-saatlıq proqramı yayımladılar.

2000-ci ilin avqust ayınadək proqramlar elə geniş vüsət alırdı ki, uşaqların özünün radio stansiyasının yaradılmasına ehtiyac duyulurdu. 2000-ci ilin sentyabr ayında kollektiv Zəbt Radiosu Uşaqlarının Media Fondunun əsasını qoydu ki, bununla da daha çox uşaq proqramların necə təqdim edilməsini və satış təcrübələrindən necə istifadə olunmasını öyrənə bildi. Hazırda altı ildən çox bir müddətdə müstəsna şəkildə yayımlanması üçün uşaqlara lizensiya verilməsi ilə əlaqədar Birləşmiş Krallıqda ilk radio stansiya hesab oluur.

Xeyriyyə cəmiyyəti gənclərə kollektiv kimi birgə fəaliyyət göstərməyi, işləri son müddətdən əvvəl başa çatdırmağı və öz bacarıqları daxilində işi yerinə yetirməyi öyrədir. Bu, onların inamını, planlaşdırma və təşkilati bacarıqlarını formalaşdırır və onların ünsiyyət qabiliyyətini artırır (bəzi hallarda belə bacarıqları olmayan uşaqlar fiziki və ya sözlə zorakılığa məruz qalmadan öz fikirlərinin necə ifadə edilməsini öyrənmişlər). Radioda çalışan peşəkar yaşlılar, media və mətbuat sahəsinin təmsilçiləri radio istehsalında, jurnalistikada, vebsaytın dizayn və tərtibatının hazırlanmasında və video istehsalında onlara mühüm peşə bacarıqlarını və qabiliyyətini öyrədir.

## «Mən Uşağam, lakin Mənim Hüquqlarım da Var !»

«Mən Uşağam, lakin Mənim Hüquqlarım da Var !» layihəsi uşaqlar tərəfindən hazırlanan və Qərbi Afrika boyunca yayımlanan radio proqramıdır. Bu, uşaqların hüquqlarına hörmətlə yanaşılması üzrə öz öhdəlikləri barədə valideynlərə, uşaqlara və səlahiyyətli qurumlara məlumat verərək 1998-ci ildə ilk dəfə olaraq efirə çıxdı. Adı çəkilən layihə radio kanalları vasitəsilə BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının dəstəklənməsinə yönəlmişdir.

Radio layihə Burkina Fasoda, Qvineyada, Toqoda, Malidə, Seneqalda, Qvineya Bissauda və Benində yayımlanır. Hər ölkədə 10-a yaxın radio stansiya (o cümlədən, dövlət, özəl, kənd və icma radio stansiyaları) bu proqramı konkret ölkənin mədəniyyətinə uyğunlaşdıraraq efirdə aparır.

Söylənilən əhvalatlar uşaqların məktəbə getmək, içməli sudan istifadə etmək, sağlam böyümək və zorakı istismara qarşı müdafiə olunmaq hüququnu dəstəkləyir. Bu əhvalatlar yüzlərlə peşəkar komik aktyorları və uşaqları (altı yaşından on səkkiz yaşına qədər təxminən 600 uşaq və gənc) əhatə edir. Uşaqların iştirakı layihənin böyük hissəsini təşkil edir. Onlar nəinki istehsalatda birbaşa iştirak edirlər, eləcə də müsahibələr və debatlar, radio müsabiqələri vasitəsilə, habelə şerlərin, məktubların və cizgilərin təqdim edilməsinə cəlb olunurlar.

«Mən Uşağam, lakin Mənim Hüquqlarım da Var !» layihəsi radio kampaniyasına nisbətən daha geniş vüsət almışdır. Teatr fəaliyyəti və məktəb tamaşaları sözü gedən layihənin ayrılmaz tərkib hissələri hesab olunur. Kampaniya layihəsi özünün planlaşdırılmış məhsuldarlığından və əhatə dairəsindən kənara çıxmışdır. Yüzlərlə uşaq şou verilişlərinin istehsalına və yayımlanmasına cəlb edilmişdir və minlərlə uşaq layihə daxilindəki müsabiqələrdə və ictimai söhbətlərin lentə yazılmasında iştirak etmişdir.

Əhvalatların söylənilməsi və maarifləndirici dram əsərləri uşaqların hüquqlarına dair məlumatlılığın yüksəldilməsi üçün səmərəli və populyar metodlar kimi özünü təsbit etmişdir. Uşaqlar əhvalatları bilavasitə öz həyat tərzləri ilə əlaqələndirə bilərlər. Mesajların yazılması uşaqları yaşlıların dəstəyini qazanmağa və öz problemlərinin həlli yollarını axtarmağa doğru cürətləndirir. Onlar öz ailələrindən və dostlarından eşitdiklərini müzakirə etməklə əldə etdiyi bilikləri başqalarına çatdırırlar. Radioda digər gənclərinin söhbətini dinləmək uşaqların özlərini iştirak etməyə və ya öz fikirlərinin çatdırılması üçün başqa metodlardan istifadə etməyə cürətləndirir və stimullaşdırır.

## Səmimi Söhbət - Uqanda

*Səmimi Söhbət* qəzeti 1993-cü ildə təsis olundu. 1997-ci ilədək bu mətbu orqanı inkişaf etdirilərək çoxsaylı layihələr ilə Səmimi Söhbət Fondu adlı qeydiyyatdan keçmiş QHT-yə çevrildi. Hazırda təşkilatın məqsədi «Yeniyetmələrin Müdafiəsinə Təminat Verilməsi» və «Yeniyetmənin Daha Optimal Sağlamlığı üzrə Ünsiyyət» adlı bəyanatlarda öz əksini tapır. «Müdafiə» dedikdə, burada yeniyetmələrin məhsuldar yaşlı kimi inkişaf etməsi üçün həyati bacarıqları, təhsili və dəyərləri ilə birlikdə onların yoluxucu xəstəliklərdən və arzuolunmayan hamiləlikdən qorunması kimi başa güşülür.

Radio verilişi 1999-cu ilin may ayında efirə çıxdı. 30 dəqiqəlik həftəlik proqram təhlükəsiz seks, cinsi pəhriz, prezervativlərdən istifadə və həyati bacarıqlar barədə Səmimi Söhbət mesajlarını təsdiq edərək əsasən məktəbdənkənar və məktəbdəki yeniyetmələrə yönəlmişdir.

## Ümumdünya Radio Forumu

Ümumdünya Radio Forumu (ÜRF) uşaqlar tərəfindən və onlar üçün keyfiyyətli yayımın gücləndirilməsinə həsr olunur. 2001-ci mart ayında Yunanıstanın Fessalonika şəhərində Uşaqların Mediasına dair Üçüncü Ümumdünya Sammitində yaradılan ÜRF radio vasitəsilə öz icmaları daxilində uşaqların hüquqları və uşaqların və gənclərin statusu sahəsində mübarizə aparmağa səy göstərir. Bu, hər bir materikdən, xüsusən Afrika materikindən olan layihələri və özəl şirkətləri özündə birləşdirir.

## TELEVİZİYA

Aparılan hesablamalara görə, bütün dünyada 15 yaşından aşağı 1,8 milyard nəfər televiziya tamaşaçısı mövcuddur. Onlardan 190 milyonu varlı regionlarda, 1,6 milyard nəfər isə inkişaf etməkdə olan ölkələrdə yaşayır. Təxminən 142 peyk və kabel televiziya kanalı beş materikdəki 15 yaşından aşağı şəxslərə yönəlmişdir ki, onlardan 88-i Avropada yerləşir.

Dünyanın hər yerində dövlətə mənsub yayım şirkətləri uşaqlara dair proqram verilişlərinin hazırlanmasını ilə əlaqədar belə bir öhdəlik daşıyırlar ki, proqram tərtibatının keyfiyyətinin və kəmiyyətinin son dərəcə dəyişkən olmasına baxmayaraq uşaqları məlumatlandıracaq, əyləndirəcək və maarifləndirəcəkdir.

## Gənclər üzrə Britaniya proqramları

Birləşmiş Krallıqda BBC Televiziyasının uşaqlar üzrə ən məşhur proqramlarından biri, *Blu Piter* adlı veriliş 2008-ci ilin oktyabr ayında özünün 50 illiyini qeyd edəcəkdir. Bu, jurnal formatındadır və uşaqlar məktəbdən qayıdan kimi yayımlanır. İllər keçdikcə, uşaqların özünəməxsus ideyaları verilişin gündəliyinə artan dərəcədə öz təsirini göstərmişdir. Bu, müstəqil sənətkarlıq işlərini ekranda göstərir, müxtəlif sahələrdə uşaqların uğurlarını qeyd edir, qeyri-istismarçı müsabiqələri həyata keçirir, eləcə də Birləşmiş Krallıqda və xaricdə yoxsul uşaqlara köməklik göstərilməsi haqda milli çağırış müraciətlərini təşkil edir.

Onun cavan aparıcıları valehedici asudə məşğuliyyət növlərinə (oksigen balonu ilə sualtı üzmə, paraşütlə hoppanma, ayaq xizəyi idmanı və s.) dair fraqmentlərin hazırlanması ilə məşğul olurlar ki, bu da uşaqlarda böyüdükcə onların iştirak etmək istəyəcəyi fəaliyyət növləri barədə təsəvvür yaradır. Hər il kollektiv digər uşaqların necə yaşadığını və onlara aid məsələləri uşaqlara başa salmaq üçün dünyanın müxtəlif bölgələrinə səfərlər edir.

BBC həmçinin *Uşaqların İnformasiya-Analitik Proqramı* adlı müntəzəm verilişi həyata keçirir ki, bu da sadəcə və birbaşa olaraq günün əsas informasiya materiallarından, o cümlədən uşaq zorakılığı, aclıq və təbii fəlakətlər kimi ağır mövzulardan, yaşlıların xəbər bülletenlərində göstərilməməklə, uşaqlar üçün ayrıca maraq doğuran xüsusi vasitələrdən bəhs edir. Əsas xəbər yayımları yaşlılara yönəldiyindən onlar uşaqlar arasında məşhur deyildir. Uşaqların özünəməxsus tərtibatlı verilişlərinin olması onların tez-tez yaşlı verilişlərini müşayiət edən kədərli və iztirablı kino çəkilişlərindən müdafiə etməklə bərabər, cari məsələləri yaşlılarla müzakirə etməsinə imkan yaradır.

Birləşmiş Krallığın kommersiyayönlü yayım şirkətlərindən biri, Kanal 4 gəncləri xəbər gündəliyini təyin etməyə ruhlandırmaqla yeniyetmələr üzrə özünün *Xəbərdar Ol* adlı proqram verilişinə görə mükafatlara layiq görülmüşdür. Proqramın ideyaları və qonaq aparıcıları tamaşaçılar və məktəb səfərləri vasitəsilə seçilir. Qonaq müxbirlər çox vaxt özlərinin yaşayış tərzlərində yaranan problemi araşdıraraq proqrama qismən töhfə verirlər. Onlar əsasən gənc istehsalat qrupundan peşəkar məsləhət və dəstək alırlar. Proqram dinamik, əldə tutulan kamera çəkilişləri ilə xarakterik, gənclik üslubuna malikdir, lakin bu, rəsmi qanunverici orqanlar tərəfindən müəyyən edilmiş formal təlimatlar daxilində diqqətlə redaktə edilir və istehsal olunur.

## Mukto Xobor (Müstəqil Xəbərlər)

Banqladeşdə yayımlanan Mukto Xobor adlı veriliş uşaqlara və uşaq hüquqları məsələlərinə diqqət yönəltməklə yeniyetmələrə dair xəbərləri və cari məsələləri işıqlandıran 25 dəqiqəlik həftəlik proqramdır.

## Proqramın məqsədləri aşağıdakılardır:

1. Mediada uşaqlar üzrə efir məkanını; gənclərin sosial təbəqə boyunca uşaqlar və yaşlılar tərəfindən fikirlərinin dinləniləcəyi yerdə məsələlər və hadisələr barədə öz fikirlərini ifadə etmələri üçün forumu yaratmaq.
2. Gənc jurnalistlərə peşə ixtisasları üzrə təlim keçməklə imkanlar yaratmaq; imkan verildikdə onların mediada səmərəli çalışa bilməsinin yaxşı nümunəsi kimi proqramdan ilham alan geniş sayda gənc tamaşaçılara etibar etmək və onları ruhlandırmaq. Yeniyetmələrə özünəinam və özünəhörmət hissini formalaşdırmağa kömək etmək.
3. Uşaqların rəylərini və problemlərin həlli yollarını irəli sürə biləcəyinin müəyyənləşdirilməsində onların fikirlərini dəyərləndirmək; uşaqların yalnız dinləməli və o qədər də çox danışmamalı olduğu barədə ənənəvi düşüncə tərzini dəyişmək.
4. Uşağın mediada iştirakı üzrə bu proqramı bərabər imkanlar modelinə çevirmək. Son məhsul uşaqların hüquqlarına yönəlməklə geniş şəkildə nəzərdən keçirilən bir proqramdır.

Proqramda iştirak üzrə uşağın münasib seçmə prosesi cəmiyyətin bütün təbəqələrinin nəzərdən keçirildiyinə təminat verir. Namizədlərin təqdim edilməsi üçün nəinki məktəblər, eləcə də təhsil almayan uşaqlarla birgə işləyə bilən təşkilatlarla əlaqə qurulur. İstehsalat qrupu imtiyazlı uşaqların, işləyən uşaqların və hətta ilkin savadlılıq bacarıqları olmayan bəzilərinin birgə fəaliyyətindən ibarətdir.

Proqram öz auditoriyası arasında xeyli şəkildə formalaşmışdır. Dövri şəkildə birgə çalışan müxtəlif hazırlıqlı uşaqlar arasında gərginlik və narahatlıq mövcud olmuşdur, lakin onlar buna üstün gəlmişlər

və mükəmməl əmək münasibətlərini yaratmışlar. Proqram Banqladeş cəmiyyətinin dəqiq əksi hesab olunur və onu qiymətləndirmə əmsalı göstəricilərinə görə uğura çevirməklə özü-özlüyündə çoxsaylı auditoriyaya istinad edir.

## Uşaqların Media Mərkəzi (UMM), Qırğızıstan

UMM audio-vizual və çap mediası ilə işləyir və onun fəaliyyəti müstəsna şəkildə uşaqlar və gənclər tərəfindən həyata keçirilir. Layihə uşağın öz fikrini ifadə etməsi üçün şəraitin yaradılmasına yönəlir. UMM üzvləri Qırğızıstanda uşaqların və gənclərin qarşılaşdıqları problemləri tədqiq edirlər və onların nöqteyi-nəzərindən öz müşahidələrini qiymətləndirirlər. Onlar həmçinin BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına uyğun olaraq uşaq hüquqları haqqında məlumatları yayırlar.

UMM üzvləri uşağın müdafiəsi, gender məsələləri və İİV/QİÇS daxil olmaqla, gənclərin problemlərini efirdə canlandıran bir çox mövzular üzərində işləyirlər. UMM kimsəsiz uşaqlar, İİV-ə yoluxmuş insanlar və qadınların hüquqlarının pozulması barədə videosüjetlər və çap media məqalələrini hazırlamışdır. Layihənin əsas gücü o faktla izah olunur ki, UMM-nin media məhsullarında ifadə olunan rəylər gənclərin həqiqi fikirləridir.

## Andi

Braziliyada ANDİ adlı Uşaqların Hüquqları üzrə Xəbər Agentliyi küçə uşaqlarının vəziyyəti barədə jurnalistlər tərəfindən işə başladı. İlk öncə onlar təhsil müəssisələrinin yaradılmasına diqqət yetirdilər, çünki onlar təhsili xüsusən diktatorluq rejimində yoxsulluqdan çıxış yolu kimi hesab edirdilər.

Sonra onlar medianı monitorinq etməyə başladılar və uşaqlar haqqında reportajların böyük əksəriyyətinin mənfi xarakterli olduğunu müşahidə etdilər. Onlar naşirlərin ən bədnam cinayətkarlardan ibarət olduğunu nümayiş etdirmək üçün «liqa cədvəllərini» dərc etdirdilər və daha müsbət yanaşma metodunu stimullaşdırdılar. Tədricən liqada daha yaxşı yer tutmaq üçün rəqabət edən naşirlərlə reportaj forması dəyişilmişdir.

Uşaqların və yeniyetmələrin ilkin sosial hüquqlarından istifadəsinin demokratikləşməsi sosial bərabərlik üzrə ilkin şərt olduğuna görə ANDİ-nin missiyası onların hüquqlarının dəstəklənməsinə və qorunmasına doğru media qurumu daxilində məlumatlılığın artırılmasına töhfə verməkdən ibarətdir.

ANDİ uşaqları və gəncləri əhatə edən məsələlərdə mükəmməl jurnalistika fəaliyyəti üzrə milli etalonu müəyyən etmişdir. Bunu həyata keçirmək üçün ANDİ:

- xüsusi mövzuları müəyyən edir və təklif edirlər və onlara dair məlumatları jurnalistlərə çatdırırlar;
- ölkədə uşaqlar və gənclər haqqında nəşr olunan əsas xəbərləri yayır;
- Braziliya mediasında uşaqlar və gənclər üzrə jurnalistika fəaliyyətinin kəmiyyət və keyfiyyət təhlillərini aparır;
- çətinliklər və uğurlu təcrübələr haqqında məlumatları yayır;
- fəaliyyəti sosial cəhətdən məsul jurnalistika nümunəsi olan peşəkarları qəbul edir;
- gənc informasiya peşəkarlarına və tələbələrə təlim keçir.

2000-ci ilin mart ayında ANDİ Şəbəkəsi yaradıldı, hazırda Braziliyanın dörd ştatından təmsil olunan altı rabitə qurumundan ibarətdir.

## Bir Dəqiqəlik Köməkçi

«Bir Dəqiqəlik Köməkçi» uşaqların və gənclərin bir dəqiqəlik videosüjetlərini hazırlaması və media janrı vasitəsilə öz fikirlərini ifadə etməsi üçün bir müsabiqədir.

«Bir Dəqiqəlik Köməkçi» Amsterdamda Sandberq İnstitutu tərəfindən hər ilin noyabr ayında keçirilən Bir Dəqiqəlik Kino Festivalında yeni kateqoriya hesab olunur. Çətir festivalı kimi «Bir Dəqiqəlik Köməkçi» peşəkar film istehsalını təqdim etmək üçün nəzərdə tutulmur. Müsabiqə daha yaxşı şəkildə gəncləri bu janrdan irəli gələn imkanları təcrübədən keçirməyə və faydalanmağa, eləcə də öz yaradıcılıqlarını və narahatlıqlarını tanıtdırmağa stimullaşdırır. Avropa və Mərkəzi Asiyadan olan 12-20 yaş arasındakı gənclər ərizə verməyə dəvət olunurlar. Hər il layihəyə cəlb olunan tərəfdaşlar gənclərlə sıx məsləhətləşmə şəraitində müsabiqənin aparılması üzrə predmetləri və ya mövzuları seçirlər.

Ən yaradıcı filmlərin seçilməsi festival zamanı nümayiş etdirilir və ən görkəmli təqdimatlara mükafatlar verilir. Sponsor təşkilatlarının (Avropa Mədəniyyət Fondu, Sandberq İnstitutu və BMT Uşaq Fondu) üç nümayəndəsindən ibarət münsiflər heyəti və üç nəfər gənc seçim edir. Müsabiqəyə daxil olan şəxslərə iştirak barədə sertifikat verilir. Qaliblər kiçik maliyyə prizi ilə birlikdə Sandberq İnstitutunun tələbələri tərəfindən təyin edilmiş mükafatlarla təltif olunurlar.

Müsabiqənin əsas qayəsi qaliblərin müəyyən edilməsinə deyil, gənclərin yaradıcı və həvəsli icmasının yaradılmasına yönəlir. Hər il festivalda oyun elementi keçirilir ki, bu da auditoriyada çoxsaylı müzakirələrə səbəb olur.

Yeni rəqəmsal medianın gənclər tərəfindən bilavasitə və müstəsna istifadəsi onların xeyli töhfə verəcəyini sübut edir. Bu, qəbul edilməli və stimullaşdırılmalıdır və onların eksperimentinin nəticələri üzrə geniş platforma nəzərdə tutulmalıdır.

## Sonrakı şərh və resurslar

Ümumdünya Qəzetlər Assosiasiyası (ÜQA):
http://www.wan-press.info/
Ümumdünya Radio Forumu:
http://www.worldradioforum.org
Ümumdünya İcma Yayım Stansiyaları Assosiasiyası:
http://www.amarc.org/

Beynəlxalq MediaVays və Media Fəaliyyəti təşkilatının müəyyən etdiyi çoxsaylı digər valehedici *Uşaqlar tərəfindən, ilə və üçün Media Fəaliyyəti Növləri və Xoşməramlı İdeyalar* həmçinin uşaqlarla birgə və onlar barədə yazının dərc olunması üzrə davranış kodekslərini ehtiva edən xüsusi vebsaytda göstərilir. Buna həmçinin bir çox faydalı linklər və uşaqların ən yaxşı maraqlarının media istehsalında başlıca əhəmiyyət kəsb etməli olduğunu təkid edən yayım şirkətləri və digər media qurumları tərəfindən buraxılan çoxsaylı formal bəyannamələr haqqında məlumatlar daxildir:
www.unicef.org/magic

## Andi:

http://www.andi.org.br
Mətbuat Orqanı:
http://www.pressgazette.co.uk
Beynəlxalq Gənclər Prizi fondu:
www.prixjeunesse.de
*Uşaqlar və media - qlobal narahatlıq,* Mayk Cempson, MediaVays Fondu